CAHANGİR QƏHRƏMANOV

*PRAKTİKİ TRANSFONELİTERASİYA İŞLƏRİ*

BAKI – 2007

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
MƏHƏMMƏD FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

---

*Anadan olmasının 80 illiyinə*

CAHANGİR QƏHRƏMANOV

# PRAKTİKİ TRANSFONELİTERASİYA İŞLƏRİ

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**BAKI – NURLAN – 2007**

Azərbaycan MEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu elmi şurasının 17 yanvar 2007-ci tarixli 1 №-li iclasının qərarı ilə nəşr edilir.

Redaktoru: Məmməd ADİLOV, filologiya elmləri doktoru

Kompüter icraçıları: Samir VƏZİROV, İlhamə MƏMMƏDZADƏ

Korrektoru: Suad ƏHMƏDOV

**Cahangir Qəhrəmanov. Praktiki transfoneliterasiya işləri. Bakı: Nurlan, 2007, 285 s.**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## *CAHANGİR QƏHRƏMANOV TÜRKOLOQ ALİM KİMİ*

*Respublikanın Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Cahangir Qəhrəmanov (1927-1995) Azərbaycan mətnşünaslıq elminin inkişafında özünəməxsus xidmətləri olmuş görkəmli simadır.*

*Xalqımızın tarixinə, elm və mədəniyyət sərvətinə, əlyazmalar irsinə böyük maraq göstərən alim ömrünün 45 ilini türkdilli abidələrin tədqiqi və nəşrinə həsr etmiş, elmi təşkilatçılıq və quruculuq işlərində ad-san qazanmışdır. Onun böyük Azərbaycan şairi və mütəfəkkiri Seyid İmadəddin Nəsimi irsinin tədqiqinə həsr etdiyi əsəri ölkəmizdə linqvistik mənbəşünaslıq elminin əsasını qoymuş, türkdilli yazılı abidələrin nəşrə hazırlanması ilə bağlı nəzəriyyənin inkişafında mühüm rol oynamışdır.*

*Sağlığında 28 kitab və 200-dək məqalə nəşr etdirən Cahangir Qəhrəmanov, böyük Nəsimi ilə yanaşı, Yusif Məddah, Mustafa Zərir, Kişvəri, Əttar Təbrizi, Hüseyn əfəndi Qayıbov, Yusif Vəzir Çəmənzəminli kimi müəlliflərin anadilli yaradıcılığının müasir nəsillərə təqdim edilməsi sahəsində müvəffəqiyyətlərə nail olmuş, Əhməd Yəsəvi, Hinduşah Naxçıvani, Əhməd ibn Veys, Bavəzici, Rəhməti Təbrizi, Valeh Dağıstani, Mirzə Yusif Qarabağі, M.F.Axundov, Cəfər Cabbarlı və b. türkdilli ədiblərin həyat və yaradıcılığı haqqında müxtəlif səbkli*



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

*məlumatların müasir nəsillərə çatdırılmasında mühüm xidmətlər sahibi olmuşdur.*

*Azərbaycan MEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun yenidən qurulmasında müstəsna rol oynamış Cahangir Qəhrəmanov müəssisəyə rəhbərlik etdiyi 1972-1995-ci illər ərzində institutun elmi-tədqiqat fəaliyyətinin aktual məsələlər üzərinə yönəldilməsinə nail olmuş, kollektiv üzvlərinin daha çox azərbaycanlı müəlliflərin yazılı irsinə xüsusi diqqət yetirməsinə, hər şeydən qabaq isə, türkdilli abidələrin tədqiqi və nəşri işinə üstünlük verilməsinə çalışmışdır. Onun sovet hakimiyyətinin «asıb-kəsdiyi» illərdə nəşrinə nail olduğu «Əlyazmalar xəzinəsində» məqalələr toplusu və «Keçmişimizdən gələn səslər» bülleteni respublikada millət haqqında, milli elm və mədəniyyətimizin zəngin kökləri haqqında təsəvvürlərin genişlənməsində, milli azadlıq ideyasının yayılmasında özünəməxsus rol oynamışdır.*

* * *

*Cahangir Qəhrəmanovun Azərbaycan tarixinin, Azərbaycan dili və milli tərcümə mədəniyyəti tarixinin öyrənilməsi üçün əhəmiyyət kəsb edən elmi işlərinin bir hissəsi bugünədək nəşr edilməmiş, alimin Əlyazmalar İnstitutunda saxlanılan fondunda qalmışdır. Onun praktiki mətnşünaslıq fəaliyyətinin bəhrəsi olan bu transfoneliterasiya işləri nəşr olunub yayılmağa layiqdir. Bunu nəzərə alaraq, alimin qeyri-mətbu əsərlərini müasir mütəxəssislərin və oxucu kütləsinin diqqətinə çatdırmaq münasib bilinmişdir.*

*Oxucuların sərəncamına verilən bu kitab Nizami Gəncəvi poemalarının orta əsr nəsr tərcümə variantlarını, eləcə də «Oğlan Şeyx həzrətləri» adı ilə təqdim olunan müəllifin qəsidəsini,*



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

*naməlum müəllifin Azərbaycan tarixinə aid yazdığı «Səfəviyyə padşahları» risaləsini əhatə edir.*

*Nizaminin «Xosrov və Şirin», «İsgəndərnamə», «Məxzənül-əsrar» poemalarının əsasında nəsrlə yazılmış mətnlər əlyazmanın özündə tərcümə adlandırılsa da, əslində təqdim olunan variantları həmin poemaların süjeti əsasında işlənmiş nəsr abidəsi hesab etmək daha doğru olardı.*

*Tərcümə kimi təqdim olunmuş bu prozaik mətnlərin dil və üslub xüsusiyyətləri Azərbaycan dili tarixinin XIII-XV əsrlərinə aid edilə bilər. Naməlum tərcüməçi tərəfindən Azərbaycan dilində hazırlanmış həmin əsərlər müvafiq dövrün linqvistik mənzərəsini öyrənmək üçün çox zəngin material verir və həmin dövrə aid dil abidələri silsiləsini tamamlayır.*

*Göstərilən nəsr variantları mərhum alimimiz tərəfindən hələ sovet illərində alınan və Azərbaycan MEA Əlyazmalar İnstitutunda saxlanılan FS – 731 şifrəli fotosurət əsasında transfoneliterasiya edilmişdir. Hər şeydən qabaq surətin həddən artıq defektli olduğunu göstərmək lazımdır. Bu ya əlyazmanın orijinalının da qüsurlu olduğu, ya da fotosurəti çəkib göndərən tərəfin onu qəsdən şikəst hala saldığı ilə izah oluna bilər. Əlyazmalar özü İrəvanda saxlanılır…*

*Cahangir Qəhrəmanov mətni hazırlayarkən rast gəldiyi yazı qüsurlarını göstərmək üçün üç nöqtədən istifadə etmişdir. Bəzən mətnin əvvəlində, bəzən ortasında, bəzən də sonunda, yəni mətnin qırıldığı yerlərdə qoyulmuş həmin işarə fotosurətdəki vəziyyəti əks etdirir.*

*Kitaba Əlyazmalar İnstitutunda B – 593 şifrəsi altında saxlanılan Türkiyədə köçürülmüş məcmuədə Aşıq Paşa və Oğlan İbrahim kimi şairlərin şeirlərinin arasındakı 16$^{a}$ – 18$^{a}$ vərəqlərində yazılmış bir əsər də salınmışdır. Olduqca incə və səliqəli xətlə köçürülmüş əlyazmanın katibi qəsidənin müəllifini dəqiqləşdirməkdə çətinlik çəkmiş və buna*



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

*görə də onu «Oğlan Şeyx həzrətlərinə nisbət olunan qəsidəsi» adlandırmışdır.*

*Böyük Nəsimi ruhu duyulan və Nəsimi üslubunda nəzmə çəkilən bu əsər üsyankar bir şairin zəmanəyə hayqırtısı təsiri bağışlayır. Qəsidənin ayrı-ayrı hissələri özünün yüksək poetik səviyyəsi və zəngin məzmunu ilə diqqəti cəlb edir. Bəlkə də, bu səbəbdəndir ki, məqtədən əvvəlki 13-cü misrada gələn «Adım Nəsimi eylədim, həm Fəzlü Yəzdan olmuşam» sözləri diqqəti cəlb etmək üçün katib tərəfindən qırmızı mürəkkəblə yazılmışdır. Buna baxmayaraq, həm mətnin ayrı-ayrı yerlərindəki yorucu tavtologiya, həm də ayrı-ayrı misralarda nəzəri cəlb edən zəif məqamlar qəsidəni böyük Nəsiminin adına çıxmağa imkan vermir. Elə bu səbəbdən əsərin adı da şərti olaraq «nisbət olunan» (yəni aid edilən) qoyulmuş, nəsimişünas Cahangir Qəhrəmanov da qəsidənin müəllifi haqqında bir söz yazmamışdır. Digər tərəfdən, şeirin müəllifi təkcə «adım Nəsimi eylədim» deyil, həm də «Adəmü Həvva bənəm», «Xızr ilə Musa bənəm», «Mehdiyi-dövran olmuşam», «İbrahimü Ədhəm bənəm» deyir… Ümumiyyətlə isə bu əsər də XIII-XV əsr Azərbaycan dilini öyrənmək üçün qiymətli mənbədir.*

*Göstərilən əsərlər ilk dəfə nəşr olunur.*

*Nəhayət, anonim müəllifin kitaba daxil edilmiş «Səfəviyyə padşahları» risaləsi Əlyazmalar İnstitutunda saxlanılan A – 422 şifrəli nüsxə əsasında hazırlanmışdır. 1733-cü miladi ilində Mirzə Süleyman Dilmaç adlı katib tərəfindən köçürülmüş 42 vərəqlik bu əsər ilk dəfə H.Məmmədov (Qaramanlı) və P.Kərimovun redaktəsi ilə «Hikmət» jurnalının 2004-cü il 3-cü sayında nəşr olunmuşdur. Kitaba həmin jurnal variantı daxil edilmişdir.*

*Professor Cahangir Qəhrəmanov anadilli mənbələrimizin nəşrə hazırlanması, tədqiqi və əlyazmaşünaslığın nəzəri məsələləri ilə ciddi məşğul olmuş, bu sahədə zəngin irs qoyub getmişdir. Hazırda onun bir*



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

*neçə qeyri-mətbu məqaləsi, bir lüğəti, paleoqrafiya terminləri əsasında hazırladığı lüğətin vokabulu və bir neçə redaktə işi arxivdə qalmaqdadır.*

***Məmməd ADİLOV,***
***filologiya elmləri doktoru***

## TƏRCÜMEİ – «XOSROV VƏ ŞİRİN»

Raviyani-əxbar və naqilani-asar bu yüzdən rəvayət və bu gunə hekayət edirdilər ki, Əcəm diyarı padşahlarından Nuşirəvan derlər bir şəhriyari-namdar var idi. Neçə ruzigar padşah olduqdan sonra əmri-axır olub cahandan köçdükdə oğlu Hörmüz tacidar padşah olub, babası kibi ədlü dadı kəndusinə kar və peşə edüb, zalımlardan məzlumların dadını alı-verməklə cahan xəlqini kənduyə cümlə qövl eyləmişdir.

Bu üslub üzərinə gah ümumi-dövlətə məşğul, gah eyşü işrət edüb, zövqü səfasında olurdu. Lakin ol zamana gələcəyədək övladı olmadığundan xatiri pərişan olub daima həq-taala həzrətlərinin yoluna qurbanlar edüb, füqəraya ənam və ehsanlar edüb, bir oğul istərdi. Axır, həq-taala həzrətlərinin kəmali-kərəmindən xatunu hamilə olub, ayı və güni tamam olduqda bir mübarək vəqtdə cahana bir oğul gəlüb, padşaha müjdə eylədilər. Şad olub, şahzadənin adını Xosrov Pərviz qodu və bu nemətin şükrü üçün möhtaclara ənam və ehsanlar eyləyüb, cümlə xəlq neçə günlər şənliklər və şadlıqlar eylədilər.

Andan sonra dayələr şahzadəyi nazü niyaz ilə tərbiyəyə başladılar. Gündən-günə gözəllənüb günəş kibi ziyalandı. Tamam yeddi yaşına girdikdə hər nəsnəyi bilüb anlamağa başladı.

Pəs, ustad xacələrdir, gəlüb şahzadəyə elm və mərifət təliminə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

məşğul oldular. Az zamanın içində oxuyub-yazmağı tamam eylədi. On yaşına girdikdə ata binmək, oq atmaq, gürz salmaq və sair dilavərlərə lazım nə qədər hünərlər var isə, cümləsini birər-birər ögrənüb xəncəri-biaman, oqu afəti-can olub, mizrağı qatı daşa ignə kibi keçüb, qılıc ilə çalduğun iki biçərdi.

Pəs, şahzadə bu hal üzərə on beş yaşına girdikdə cəmi hünərləri icra etməkdə tamam kamil olub, daima binüb-enüb ətrafı seyrü tamaşa edüb, seydü şikar eyləməgə başladı.

Babası Hörmüz oğlunun gəzməgə başladığını gördükdə: Olmaya ki, oğlum tazəlik havasiylə gəzdügi yerlərdə bir kimsəyə zülm edüb, bir naməqul iş edə. Müqəddəmən bunun əlacı görülmək gərəkdir, - deyüb əmr eylədi kim, şəhərdə dəllallar nida edüb: Vay ol kimsənin halına ki, bir kimsənin bağ və bağçasına girə, yaxud əkininə tavar salı-yerə və ya xanəsinə girüb naməhrəm xatununu görə, tutulduqda, hər kim olursa-olsun, möhkəm həqqindən gəlinür. Padşahımızın fərmanıdır, - deyü yer-yerindən ayıtdurub möhkəm yasaq eylədilər.

Pəs, xalq əvvəldən dəxi ziyadə zülm və təddidən qorxub, kimsə kimsəyə güc eyləməzdi. Bu fərmanı eşitdiklərində xod dəxi ziyadə saqınur oldular və bunun məsəli qəbahətli dutulan möhkəm üqubətlər olunurdu və həqlərindən gəlinürdi. Bu təriqlə şahzadə də gəzdigi yerlərdə babasının əmri üzərə xəlqə zülm etməgdən saqınur idi.

### Bu məhəl Hörmüz oğlu Xosrov siyasət eyləmək istədigidir

Rəvayət olunur ki, günlərdən bir gün yenə Xosrov şikar qəsdiylə binüb ətrafı seyrü tamaşa edərək bir köyə gəldi. Gördi kim, bağ-bağçalı bir gözəl yerdir. Pəs, şikardan fərağət edüb, çəngilərlə dəmlər sürib, axşam olduqda, şəhərə getməgə əsla könli olmayub, əmr eylədi kim, köylidən birinin evinə qonub ol gecəyi də anda sabaha çıxara. Pəs,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

xizmətkarlardır, fərman üzərə bir ev bulub, şahzadə məclisini qurub, hazır və mühəyya eylədilər. Xosrov da yaranları ilə gəlüb ol xanədə sabahadək eyşü işrətlər edüb, sövqü səfalar sürdi. Amma hikmət qəzayilə ol gecə Xosrovun atı boşanub bir əkinə girüb bir miqdar yedi, bir az paymal eylədi və xizmətkarlarından birisi bir bağa girüb bir-iki salxım qoruq qopardı. Sabah olduqda, Xosrovdur, yerindən qalxub yenə bir tərəfə seyrü şikara getdi. Qəmmazlardır, boyunlarına borc qomayub həman dəm Hörmüzün önünə varub: Şəhriyarım, şahzadə əsla sizin əmrinizə itaət eyləməyüb yasağınızı tutmaz, daima kəndü həvasına tabe olub hər gün bir dürli fəsad eyləməkdədir. Dün gecə filan köydə qalub, atı bir fəqirin əkinini payimal eyləyüb, xizmətkarlar da bir fəqirin bağında olan qoruqlarını fənaya verdilər və kimsənin övrəti, oğlanı üstinə bir süri xizmətkar ilə qonub, bir alay naməhrəmlər bir dərdiməndin evinə girüb, sabahadək hay-huyi ortalığa vəlvələ buraxdı. Əgər bunun kibi qəbahəti qeyri kimsə eyləsəydi, dərdiməndin başını kəsüb, xanimani xarab edərdiniz. Lakin kəndi oğlunuz olmağla təqəyyüd buyurmazsınız. Zira, kəndi yürəginiz parasıdır. Heç cərrah kəndi damarından qan ala bilürmi? Siz də zahir cigərguşəniz olduğiçün ehmal edərsiz, – dedilər. Hörmüzdür, bu sözləri eşitdikdə cahan başına siyah olub qəzəbə gəldi və əmr eylədi kim, bir neçə adamlar varub şahzadəyi cümlə təvabeyi ilə hüzurinə gətürdülər.

Pəs, fərman üzrə şəhzadədir, gəldikdə köy xəlqini də önünə gətürüb gecə ilə olan macərayi təftiş eylədikdə xəbər verdikləri yerində oldığı zahir olduqda əmr eylədi Xosrovun atını sərgiyələr və çəngiyi meydana götürüb tırnaqlarını çıxardılar və bağdan qoruq qoparan oğlanı bağ sahibinə verdilər. Xosrovdur: Bu haldan şimdi növbət bana gəlür, - deyüb padşah yanında olanlara: Bəni şəhriyardan dilək eylin, - deyi niyaz edüb, kəndusi boynına bir məqrəmə taxub, əlinə bir qılınc aldı və mücrimlər kibi təxtin öninə varub, yüzini yerlərə sürdi...



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

...Soyundular və məclis arastə edüb, ahəstə saqilər əlindən şərablar nuş olmağa başlanub, kəllələr gərm və sinələr nərm olub, çəngilərdir, meydani-məhəbbətə girüb zövqü səfaya başlandıqda nəgəh Şirinin gözi ol surətə duş oldu. Qızlara: Mədəd canım, işdə eyni ilə dünki surətdir, gətirün görəyin, - deyü əmr edüldikdə qızların içində bir əyyar nabəkar və fitneyi-ruzigar olub, surəti alurkən zərafətlə saxlayub gəlüb: Şəhriyarım, surəti əlimə alduğum kibi yenə pərilər əlimdən qanub qaib oldu, - dedi. Sair qızlar da: Xanım bizə iki gündən bəri tışradan pərilər şərkil olub, yer vardığımız yerə ardımızca gəlüb dürli-dürli rənglər verməyə başladılar. Bu yerdə sayı çıxmağın rahətimiz avçıdı. Həman qalqub bir qeyri yerə gəldik, - deyüb günlük və üzərlik yaxub əfsunlar oxudular və ol məhəldən qalxub bir qeyri yerə varub axşam olunca atub-tutub, zövqü səfalar eylədilər.

Pəs, ol gün də keçüb sabah olduqda yenə Şavir gedəcəkləri yerdən xəbər alub, dəxi anlar gəlməzdən əvvəl varub bir surət dəxi asub, kəndi bir guşəyə çəkildi. Bir zamandan sonra Şirin də cariyələrilə çıxa gəldi.

Məclislər qurulub yenə şərab keyfi ilə biri məst bülbüllərə dönüb vəlvələyə verdiklərində, nagah Şirinin məstanə gözi ağacdan Xosrovun surətinə toxunduqda kimsəyə etimad eyləməyüb, həman dəm kəndi yerindən atılub və eşq atəşiylə büryan olub, nalanü giryan, ahü ah eyləməgə başladı.

Qızlardır, gördilər kim, şimdən sonra buna çarə qalmayub, yenə: Pərilərin işidir, - deyərlərsə, Şirinin qəzəbinə uğrayub çarpılmaları müqərrər olmağın, əski eylədiklərinə peşiman oldular və hər biri surətə sənalar edüb: Xanım, nə gözəl surət olur, əcəb kimin surəti ola, bir xəbər ala bilsəm və bu məhəllə qonduğunun hikmətini sual etsən, - deyü Şirinin önünə yollanub dillər tökməgə başladılar.

Şirin də bunların kəndi həvəsinə meyl eylədiklərini gördikdə: Bu surət bənim əqlimi zülfim kibi pərişan eyləməgin dəli-divanə oldum. Bu



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

sirri saxlayub kimsəyə açmın. Ola ki, bir yerdən bunun əslini xəbər ala biləydik və bu hümanın yuvasından xəbər alub bir kərrə sahibini görəydik, - deyüb eyşü işrət eyləməgə başladılar.

Şirin isə hər toluyi ol surəti-rənanın eşqinə nuş edərdi. Bir zamandan sonra məclisdə olan qızların birinə əmr eylədim kim, varub ətrafı çəstu cu edüb araşdıra: Ola ki, bir yerdən bu surətin sirrinə vaqif olaydıq, dedikdə qız da fərman üzrə ətrafı dolaşub araya girdi, çapma olub bir xəbər almadı. Axırkar, gəlüb banuyi-cahanə: Şəhriyarım, olmadı, bir xəbər almadım, - dedikdə Şirinin qəmlü qüssəsi ziyadələnüb ələmə düşdi.

Pəs, bu qəmlə oturub eyşü nuşə ağaz edərkən, bir zamandan sonra qarşudan bir keşiş göründi. Məgər Şavir ustad üç dəfə Xosrovun surətini Şirinə ərz eylədikdən sonra kəndusinə çəküb-çevirüb, bir surət oğrusi keşiş qiyafətinə qoyub, bir qızların məclislərinə yaxın yerdən köçüb bunlara göründi. Taki bir təriq ilə Şirindən bir xəbər ala.

Çünki nigari-nazənin bu qiyafətlə Şaviri qordi, könlünə gəldi kim, bu surətdən xəbər alınmaq olursa, şu gələn sahibdən alunur, - deyüb yanında olan cariyələrə əmr eylədi kim, varub keşişə surətin sahibini soralar. Pəs cariyələrdir, nigarın fərmanı üzrə Şavirin yanına varub surətin əslindən bir xəbər sorduqlarında, Şavir: Bu bir gizli razdır, dəgmə kimsəyə söylənilməz, - deyüb bunlara otasını açmadı. Cariyələrdir, Şirinə keşişin söylədügi sözi bəyan eylədiklərində, nigari-nazəninin səbrü qərarı qalmayub və surətin əlinə aldı və gəlüb Şavirə dilnəvazlıqlar göstərdi. Şavir də nigara dualar edüb, ol məhəllə oturdular. Andan sonra nigar Şavirə sorub: Ey hakimi-zülfunun, nə yerlisən və qandan gəlüb, qanda gedirsən? Lütf edüb bizə əhvalını bəyan eylə. Zira, səndə aşna nişanları gördük, - dedikdə Şavirdir, cavab verüb: Bən qulunuz bir səyyahi-cahanam ki, məğribdən məşriqə varınca cümlə aləmi dövr eyləyüb neçə qəraiblər görüb əcaiblər eşitdim. Əsla bir şey



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

şalmamışdır ki, bən anın əslinə irməmiş olam, - dedikdə: Ey aşinayi-fərruxqədəm, əcəb, bu surətin sahibini bilürmisən kim, bizə bir xəbər verüb, sahibini bəyan eyləsəniz, qayət lütf idi, - deyü niyaz eylədikdə dedi ki, ey nigari-nazənin şirinrəftar, həq-taala yaramaz gözi səndən dur eyləsün. Bu surətin necə uzun hekayəsi vardır. Rəğbət edərsən, hüzurunuza ərz eyləyim. Lakin ortalıq xali olub, kimsə olmasun, - dedikdə nigar cariyələrə işarət eylədi. Cümləsi pəri kibi gözdən nihan olub, yalnız Şirin ilə Şavir qaldıqda dedi kim, məlumu-humayununuz olsun ki, bu surət sahibi hala şəhriyari-məmləkəti-Əcəm olan Hörmüz tacidarın oğlu şahzadə Xosrovdur, - deyü bəyan eylədi.

Nigar təkrarbətəkrar Xosrovun əhvalını soruşdurmağa başladı. Lakin kəndinin ol surəti aşiq olduğunu açmayub, anı Şavirdən saxladı.

Pəs, Şavirdir, hər sorduğuna cavab verüb axır dedi ki, ey nigari-nazənin, bu surətin sahibini bu qədər sormaqdan muradınız nədir, bizə bəyan buyurun, taki biz də ana görə cavab və dəva tədarük bəyan eyləmək gərəkdir, taki ol da ana görə cavab və dava tədarük edüb carəsini görə, - deyü nigarın aşiq olduğunu söyləmək istədikdə nigar da gördi kim, əgər razını saxlarsa dərdinə dərman bulunmayıb, yenə əvvəlki kibi məhzun qalmaq görinür. Həman bu kimsəyə sözün gercəgini söyləyəyim. Bəlkə, çarə bula, deyüb dedi kim, ey həkimi-zufünün, səni yaradan tanrı eşqinə olsun, bənim razımı kimsəyə açmayub canın kibi qəlbində nihan eylə. Sözün doğrusu budur ki, bən bir neçə gündən bəri bu surətin hüsnünə məftun olub məcnun və divanə oldum. Hala bu dərdin çarəsini araşdırmaqdayım. Əgər əlacını bilürsən, bəyan eylə, qayət lütfdür, - deyü niyaz eylədikdə Şavir gördi kim, Xosrovun eşqi Şirinin könlinə kar edüb, möhkəm təsir eyləmiş. Artıq kəndusini aşikara eyləməkdən qeyri dərman qalmaduğını gördükdə dedi kim, ey nigari-nazənin, məlumun olsun ki, bu surəti bən qulun təsvir edüb bu məhəllə qodum və mümkün olduğu mərtəbə ol



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

dilbəri-rənayə bənzətməgə çalışdım. Lakin hüsninin bində birini təsvir edəməyüb aciz qaldım. Bir dilbəri-şirinkardır ki, cahan müşəvvirləri nəqşində heyran, ol sərvi-rəvanı təsvir eyləməkdə hər nə qədər tədbir edərlərsə də, şivə və rəftarına gəldikdə çarə bulmayub dər-mandə qalurlar. Siz ki, təsvirini görməklə bu qədər məftun oldunuz, bir də kəndusini görsəniz, bir an yanından dur olmağa qadir olmazdınız, - deyü Xosrovu neçə yüzdən vəsf eylədikdən sonra dedi ki, bu hüsnlə hala ol pəri bu gecə duşunda sən pənçeyi-afitabın xəyalını gördükdə əqli başından gedüb zülfiniz əsir olmağla, ol zamandan bəri nə kimsə ilə oturub eyşü işrət eylər və nə dərdi-eşqlə bir dəmdə rahat olur. Axır, kar naçar olub, bəni hüzuruna dəvəti-cənabınıza göndərdi. Ta ki, gəlüb sizə əhvali bəyan eyləyəm. Pəs, bir də fərmanları üzrə gəlüb surətini təsvir eyləməklə ərz-hal eylədim və bu təriq ilə hüzurunuza gəlüb vəqeyi bəyan eylədim, - deyü qadir olduğu qədər bunun kibi sözlərlə Şirini məcnun eyləməkdə idi. Şirin isə Şavirdən bu sözləri eşitdikdə əqli başından gedüb çaki-giriban edə yazdı. Hələ yenə kəndusin zəbt edüb dedi ki, ey aşiqlərin çarəsazı, şimdi bunun əlacı nədir və ol humayla buluşmaq necə mümkündür? Nə tədbir eyləmək gərək, bizə bəyan buyurun, - deyü çarəsini Şavirdən sorduqda, Şavir dualar edüb dedi ki, ey nigari-nazəninim, bu xüsusda aləm çəkməyüb, kəndi səfanızda olun, çarəsi qayət asandır. Əvvəla, bu razımı kimsəyə açmayub qəlbinizdə nihan buyurasız. Andan sonra bir gün şikar qəsdi ilə Şəbdizə süvar olub səhraya çıxarsız və at qoparub pərk kibi gözdən nihan olursuz. Məlumunuzdur ki, Şəbdizə heç bir at yetişməyüb, ardınızca kimsə gedəməz. Bir miqdar yer getdikdən sonra, əgər bir yerdə bu qullarınıza müntəzir olursanız, gəlüb belə gedəlim. Əgər əcələ buyursanız və bu xatəmi alın, Xosrovundur, - deyüb qoynundan bir möhür çıxardı və Şirinə verdi: Yolda Xosrova rast gəlirsəniz, yüzigi göstərin, artıq nişana hacət yox, muradınız hasil olur və əgər rast gələməzsiniz, Mədain



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

şəhərinə varub, Xosrovun köşkini sorub, bulduğunuzda varan anda olanlara yüzigi göstərin. Xosrovun cariyələri vardı, sizə izzət edərlər və əgər əmr edərlər, Xosrovdur, hər qanda isə gəlüb bulaşarsız, - dedi. Pəs, bunun üzərinə qovri qərar eylərlər. Şavir dönüb məsrur ilə qərəgahına getdi.

Şirin də axşamadək nə hal isə qızlarla ol məhəldə qərar edüb, axşam olduqda qalxub Məhinbanunun yanına getdi. Müsahibətə başlandıqda Şirin dedi kim, neçə zamandır ki, şikara getmədim. Əmriniz olursa, yarın binüb, ətrafı dolanub, seydü şikar edəlüm və fərmanınızla Şəbdizi əgərləsünlər könlüm ana binmək istər, - dedi.

Məhinbanu cavab verüb: Sən bilursən, həman könlün hər nə tərəfə getmək istərsən varub aləmində olasan. Lakin Şəbdizdən qeyri atlar çox, hər qanğısını istərsən, al. Zira Şəbdizin başı pək bir sərkeş atdır. Bəlkə, zəbt eyləməyəsən də, bir xəta ola. Əgər yox, əlbəttə, anı istərəm dersən, ağzına münasib bir ağır kəm ursunlar, çoxluq incitməyüb, bəsirət üzrə binüb kəndi aləmində ol, - dedi.

Pəs, Şirin şad olub, banunun önündə yer öpüb, ol gecə rahətlə yatdı.

## Bu dastan Şirinin Şəbdizə binüb şikara çıxdıqda at qoparub Xosrova getdigüdür

Çünki sabah oldu, Şirinin şikara getdigi gün adəti ərkək qiyafətinə girmək idi. Pəs, ol gün də yerindən qalxub mərdanə libaslarını geyüb bir dilbəri-rəna surətinə girdi. Cariyələr də cümlə xidmətkarlar əsbabını geyüb, bir süri dilbəri-şirinkarlar atlarına süvar olub səhraya getdilər.

Şikargahə varılub hər biri bir tərəfə at salub şikara məşğul olduqları



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

kibi, həman Şirin Şəbdizi qoparub canibə əsər yel kibi çıxub getdi. Yanında olanlar ardı sirə qoşub yetişmək murad eylədiklərində, tozuna belə yetişməyüb bir anda gözlərindən nabədid oldu. Cümləsi sandılar kim, Şəbdizi zəbt edəmədigindən at bir tərəfə alub getmiş ola.

Pəs, axşamadək ətrafı tutub araşdıra, gördilər çarə olub namü nişanını bulmadılar. Axır, axşam olduqda nigardan naümid olub, dönüb Məhinbanunun yanına gəldilər və saçlarını yolub fəryad edərək vaqeyi-halı bəyan eylədilər.

Məhinbanudur, qızlarından bu münasibət xəbərini eşitdikdə qarındaşının matəmini tazələyüb fəryadü fəğanlar eyləməgə başladı və gözlərindən qanlı yaşlar töküb der ki, ruzigar əcəb ol tazə qonçəyinə şəkil xarü zarə buraxdı. Ol abi-həyat irmağı bizdən kəsilüb qansı canibə axdı? Fələk o sərvi-sərkəşi kimin havasına uydurdu və ol nəxli-tazə qanğı bağın ziynəti oldu? - deyüb bunun kibi fəğanlarla gecəni sabaha çıxardı.

Sabah olduqda Məhinbanunun cümlə əyani-dövləti qapusına gəlüb məqami-xidmətdə durdular. Lakin banuyi-dövranın fərmanı olursa, cahanı dövr edüb ol hümayi araşdırmaqda olunca qüdrətimiz sərf edəlim, bəlkə, bir yerdə xəbərini alub bulavuz, - dedilər. Lakin Məhinbanu əsla Şirini araşdurmayub dedi ki, bundan əvvəl bən bu matəmin vaqiəsini görmiş idim. Qolumda bir şahin var imiş. Nagah uçub bir tərəfə getdikdə fəryad və fəğanlar eylədim və heyf ki, şahbazı qolumdan uçurdum deyü matəmlərə düşdüm. Axırkar, bir zamandan sonra yenə gəlüb qoluma qondu, Ümiddir ki, Şirin bir qaç gündən sonra gəlüb bizə vasil olur. Ha bir qaç gün aləmin cövrinü çəküb səbr eylədim və eyşü işrət buraxub qəsavətdə olalım. Yenə ol gözləri ahu gəldikdə yeni başdan zövqü səfamızda olub altun tutalum, - dedi.

Pəs, əyan cümlə banunun cavabını eşitdikdə: Əmr şəhriyarımızın, - deyüb Şirini armağa müqəyyəd olmadılar və çəkilüb yerli-yerlərinə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

getdilər.

Bu canibdən, çünki Şirin səhrada Şəbdizi qoparub cariyələrin gözlərindən nihan oldu, əsla bir yerdə aram eyləməyüb yola girdi və dağlar aşub, səhralar keçüb, möhkəm gedər idi. Yol-iz bilməz bir nazənin olmağla qalub, sabah olduqda gözi gördigi yerə gedüb, nə hal isə bir köyə gəldi. Ol gecə anda Mədain şəhəri yolun sorub yenə çıxub getdi. Əsla yola çıxmış və ruzigarın isıcığın və sovuğunu görməmiş bir güləndam olmaqla bir qaç günün içində yasəmən yaprağından nazik olan təni yol zəhmətindən aləmzədə oldu. Dərdi-eşqiylə biqərar olmağın ölüb-dirildiginə baxmayub yoldan qalmadı və daima tənha yollardan gedüb: Olmaya ki, bir olmaz yerdə yaxayı ələ verəm, - deyü möhkəm etiraz eylər idi.

Yenə günlərdə bir gün bu hal üzrə çəkilüb gedərkən bir yerə gəldi. Gördi kim, bir lətif gözəl yer olub ətrafı çiçəklərlə çiyn olmuş dört cibini sıx ağaclıq tutub, ortalıq yerində abi-həyat kibi bir su çağlayub axar. Nigari-nazənindir, suyu gördigi kibi, neçə gündən bəru gövdəsi yol tozu ilə kirlənməgin vücudu aləmzədə olmuşdu.

Pəs, ol məhəldə suya girmək istəyüb sağa-sola baxdı. Gördi kim, əsla gəlür-gedər yox. Həman dəm bir tənha yerə gəlüb, atından enüb, bir ağaca baqladı və tacü libasını da çıxarub bir ağac dalına asağudi. Andan sonra qıldan incə belinə bir əbrişim pəştmal dutub suya girdi və gümüşə bənzər tənini yuyub yol tozundan gövdəsini ayinə kibi pak eyləməgə başladı.

### Bu məhəl Xosrov babasından qaçub gedərkən yolda Şirinə rast gəldikdə bilmədigüdür

Rəvayət olunur ki, Xosrov çünki Şaviri Şirini ələ gətirmək içün göndərdi, kəndusi daima babası Hörmüzün xidmətində olub, bir an



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

yanından ayrılmaz idi. Padşah da canı kibi oğluna məhəbbət edüb, kimsə bir araya gəlüb şahzadəyi bir təriq ilə yanında əziz və möhtərəm dutar idi.

Günlərdə bir gün Xosrovun düşmənlərindən bir qaç babasına keçüb öldürmək içün bunu mülahizə eylədlər ki, bir miqdar aqçayı Xosrovun adı ilə sikkələyüb ətraf və əknafə göndərələr. Şahdır, bu işdən xəbərdar olduqda, əlbəttə, qəzəbə gəlüb şahzadəyi həlak eyləməyi müqərrirdir, - deyüb bir miqdar aqçayı Xosrovun namiylə sikkələyüb məmləkətə yaydılar.

Hörmüzdür, bu hala vaqif olub, oğlunun adı ilə sikkələnmiş aqçayı gördükdə qəsd eylədi kim, Xosrovu dutub həlak eyləyə. Pəs, padşah münasibətlərindən şahzadənin tərəfdarı olanlardan bir qaç kimsənə bu qissədən xəbərdar olduqlarında əl altından Xosrova xəbər göndərüb: Şəhriyarım, sana düşmənlərin bunculayın hiylə edüb, hala padşahı qəzəbə gətürmişlərdir. Münasib olan bir qaç gün bu şəhərdə əglənməyüb bir tərəfə çıxub gedərsiz, - dedilər.

Xosrovdur, bundan xəbərdar olduqda, həman dəm sarayına gəlüb sipariş eylədi ki, bən bir-iki həftəyədək yabana gedirəm, gəlməm. Əgər bəndən sonra saraya bir nazənin gəlürsə, izzət və ikramlar edüb xatirincə olasız. Əgər sarayda olmağa istəməzsə, könli qanğı yer bəgənürsə, ol məhəldə olsun. Bir köşk yapub rəvayətində qüsur eyləmiyəsuz, - deyü möhkəm tənbehlər eyləyüb və yanına bir qaç xizmətkar alub, çıxub Ərmən şəhəri canibinə doğru çəkilüb getdi. Qəzaylə yolu Şirinin suya girdügi yerə üğrayub gördi kim, bir gözəl yerdür. Xidmətkarlarına əmr eylədi kim, enüb bir miqdar tavarları ota salı verələr. Xidmətkarlar da fərman üzrə atlarından enməgə başladıqda Xosrov ətrafı yalınızca dolanurkən gördü kim, bir ağaca bar siyah at bağlamışlar. Əcəb, bunun sahibi nərədə ola? - deyüb ətrafı dolanurkən dəxi ilərü varub baxdıqda gördi kim, bir nigari-nazənin topuqlarını dögər



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

həriyə saçlarını salu verüb suya girmiş və durmadan gümüş tənini yuyub yol tozundan pak eyləməkdə.

Xosrovdur, nigarı gördükdə hüsninə heyran olub, uzaqdan tamaşaya durdu və təəccüb edüb: Bunun kibi yerdə buncılayın nigari-nazənin nə işi var ola? - deyüb baxub durarkən, nagah Şirinin gözi Xosrova rast gəldi. Gördi kim, bir dilbəri-rəna durmadan kəndusinə baxub durur. Can başına sıçrayub, əcələ ilə sudan çıxub əsbabını geyinməgə başladı...

Axır, Şirin dedi ki, ey şəhriyari-kamkarım, nə var, lütfinizdən bir qaç gün bu cariyələrinə müsafir olmağa iənzil buyurub bizi kakdan rəf buyurasınız olmazmı idi? - deyü niyaz eylədikdə Xosrov da cavab verüb: Əgər bizi müsafirlikdə qəbul buyururlarsa, bir qaç degil, ayrıca qalmaq canıma minnətdir, - dedikdə həman dəm Şirin Məhinbanuya adam göndərüb Xosrovun gəlüb müsafir olacağından agah eylədikdə, Məhinbanu da padşah içün sarayını hazır və mühəyya edüb kəndüsi bir qeyri yerə köçüb, hesabsız peşkəşlər tədarük eyləyüb, Xosrova qarşu çıxub istiqbal eylədi. Önündə yer öpüb izzət və ikramla padşahı gətirüb sarayına qondurdu.

Çünki Məhinbanu müqəddimən Xosrov ilə Şirin bir-birinə aşiqi-biqərar olduğunu bilüb anlamışdı, bu dəfə Xosrov dərgahında olmaya ki, Şirin şah ilə söhbət və eyşü işrət edərək atəşi-eşqlə bir-birinə yaxın olalar da, sonra cahan xalqı arasında kən namımız qala, - deyü Şirini yanına çağırub dedi ki, ey gözüm nuri, sən nəxəli-novrəsi bunca zamandan bəri hezar izzü naz ilə tərbiyə edüb yaşa gətirdüm. Hala xəzinə ki, yad əl toxunmayub, möhürlü durarkən gərəkdir ki, əvvəlkidən ziyadə saqınub kəndüni kimsəyə vermüyəsən və həvayi-eşqlə kəndini dəryayi-ülfətə salmayasan ki, girdabi-nədamətə düşməklə əbədi cəhan xəlqi arasında rüsvaylığla bədnam olmayasan. Hala şəhriyarın sana eşqü məhəbbəti olduğu gündən zahir olub, bir vəchlə inkarə macal yoxdur. Pəs, əgər sana məhəbbəti gerçəkdən isə, səni kəndüsi banuyi-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

həmdəm və munisi-məhrəm edinüb xatunlığa almağla əzim səadətə irişüb cahanda dövlət və izzət bularsan. Lakin şimdiki halda kənduni möhkəm saqınub pərhiz eyləmək gərəksin. Olmaya ki, xatun olmazdan ol sənin çeşmeyi-zülalından bir-iki kərrə... qənaət edə və bu təriqlə atəşi-eşqi sönməklə soğunub dönüb gedə. Həq-təala həzrətlərinə çox şükürlər olsun, bizim dövlətimiz də andan geri qalmaz. Əgər ol mahtaban isə, biz də aftabız və əgər ol Keyxosrov isə, biz də Əfrasiyabız. Xatunlara lazımdır ki, ərlərin həvasına uyub ardlarına düşməyə. Ta ki, bədnamlıq arısı başına uşmaya. Zira, cahanda adam neçə şeyləri parə-parə olub yoluna canlar verərkən əlinə girdiedə bir-iki günün içində dəfi-arzu eyləməklə əvvəlki şövqi gedüb, məhəbbəti kəsilür. Netə kim, gülzarə varıldıqda neçə tərü tazə gülləri yüz dürli rəğbətlə qoparub ələ alurlar və bir miqdar qoxuduqdan sonra usanub yerə atarlar və şərabi-ərğəvaniyi billur camlara qoyub sim-tən mehparə saqilər əlindən can parəsi və parə-parə yürəklərin çarəsi, deyü hezar şövqlə alurlar, bir miqdarını içdikdən sonra içində qalan cürəsini toprağa tökərlər. Sən xod bilürsən ki, nikahla ər və övrət bir yerə gəlmək aşiq və məşuqliqdən bin kərrə yegdir, - deyüb bunun kibi neçə nəsihətlər eylədi.

Şirin də Məhinbanunun söylədigi sözə gül kibi qulağ urub, cümləsini qəbul edüb, hər birini cəvahir küpələrinə asqı edüb, cavab verdi kim, ey banuyi-dövranım, ol Allah-taala həqqiçün ki, yeddi qat yerləri və gögləri yaradub, Sizi və Xosrovi yer yüzinə padşah eyləməklə müğərrəz eyləmişdir, əgər dərdi-eşqlə cigərim parə-parə olub, gözlərimdən yaş yerinə qan rəvan olursa da, Xosrov ilə bir yerə gəlməklə razı olmam. Məgər bəni nikahla alub kəndusinə xatun eyləyə, - deyü əzim yəminlər eylədi.

Məhinbanudur, Şirinin bu andlarından gördikdə könli əmin olub, daima Xosrovun məclisinə varub-gəlməklə icazət verdi. Lakin ol şərtlə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

ki, əsla ikisi biryerdə tənha qalmayub, daima cariyələr yanından ayrılmayalar.

Pəs, ol gün keçüb ertəsi olduqda Şirin gəlməgünə süvar olub yetmiş danə cariyəsi ilə Xosrovun hüzuruna gəldi. Bir miqdar söhbət olunduqdan sonra qalxub səhraya getdilər. Xosrov gördi kim, nigari-aləmin cümlə cariyələri dilavər olub, hər biri meydanda çövkan ilə top çalub hünər göstərməgə başladılar. Pəs, tamaşalarına qalxub, bir miqdar çövkanla top oynandıqdan sonra seydü şikara başlayub, hər canibə at saldılar.

Ol gün axşamadək bu üslub üzrə seyrü şikar edüb, axşam olduqda dönüb yerli-yerinə getdilər. Sabah olduqda yenə nigari-nazənin Xosrovun hüzuruna gəlüb, ol gün də şəhriyar ilə banuyi-dövran axşamadək ətrafı gəştü güzar eylədilər.

Əlqissə, hər gün Şirin Xosrov ilə axşamlaradək gah seydü şikar içün binüb ətrafı seyrü tamaşa edərlər idi və gah sarayda məclis qurub simtən saqilər əlində şərabi-ləl-kün içüb, saz və sözə ağaz edüb, eyşü işrət edüb, bəmlər sürərlər idi. Lakin Xosrov daima fürsət araşdırub: Ola ki, yarı əğyardan xali edüb, gülzarinə girə idim, - deyüb fürsət çəkmədə idi.

Yenə günlərdə bir gün Xosrov ilə Şirin Şəbdiz ilə Gülgunə süvar olub seyri-gülzarə tamam bahar mövsiminin gözəlligi vəqt olmağla səhralar, başından-başa yaşıl çəmən olub, içində lalələr və sair çiçəklər açılmaqla ortalıq zeyn olmuş idi.

Bir tərəfdən irmaqlar çaqlayub axar və bir yənadən bülbüllərin fəryadü fəğanı adamın yürəgini yaxar idi.

Pəs, Xosrov ilə Şirin ətrafı seyrü tamaşa eylərək, gəlüb bir məsirə yerdə qərar eylədilər. Məclisdir, qurulub, sim-tən saqilər əlində altun-gümüş piyalələr dövr eyləməklə başlayub, sazəndə və cəngilər də bəzm əhlinə tazə-tazə şövqlər verməgə başladılar. Getdigə kəllələr



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

gərm və xatirlər nərm olub, şərabın keyfi aşiq ilə məşuqun eşqini ülüviləndirməgə başlayub, biri-birinə nazü niyazə ağaz eyləməgə, meydana neçə piyalələr sürdilər.

Əlqissə, bu üslub üzrə axşamadək eyşü işrət edüb, çünki axşam oldu, yerlərindən qalxub, ol gecəyi gülzarda sabaha çıxarmağa qərar verdilər və yeni başdan məclisi tazələyüb, sazlara düzən verüb, zövqü şövqə sərağaz eylədilər.

Mehparə nazənin cariyələr saçların pərişan edüb, çalparələrlə meydana girüb rəqsə başladılar. Gedərək Xosrovun artıq səbrü qərarı qalmayub, həman Şirinə sarılub zülfi sünbüli qoxub gül rüxlarından şəftalular almağa başladı. Nigar da bu mərtəbəyə təslim olub açmaz qodi. Gərçi Xosrov bu miqdar ilə qənaət eləməyüb, dəxi otasına talib idi. Lakin nigarın cümlə cariyələri məclisdə olmağın, naçar olub qucmağa qənaət edüb, vəsl arzusu xatirinə gəldikcə canına cəbr edüb səbr edərdi.

Pəs, sabahadək bu üslub üzrə gah eyşü işrət edüb, gah da busü kənar ilə ələmlər edüb, dəmlər sürdilər. Sabah olduqda, yenə seydü şikar içün süvar olub bir tərəfə gəştü güzarə getdilər.

## Bu məhəl bir gecə Xosrov sarayında məclis qurub Şirin ilə işrət edərkən vüslət sevdasında olduğudur

Rəvayət olunur ki, bir gecə Xosrov sarayında məclis qurub: Ola ki, aralıqda ortalıq əğyardan xali olub, fürsət düşməklə nigari-ələmin möhürli xəzinəsinə vasil olub, dövlət vəsli ilə kamran oldum, - deyü Şirini ol məclisə dəvət eyləmişdi.

Pəs, nigar da yenə cümlə cariyələri ilə gəlüb məclisdə qərar eylədikdə kafuri bədən nazənin saqilər əlindən şərabi-ləlgun yürüyüb məclis əhlinin səbri ocağına sular salındıqda hər biri cuşü xüruşa



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

gəldilər. Sazəndələr fəzlə sərağəz edüb, çəngilər də pərvanələr kibi pərvaza başladılar.

Xosrov isə bir yənadən keyfiyyəti-şərabla məstü layəql və bir tərəfdən eşqi-nigar ilə qanzil olub, artıq səbrü qərara macalı qalmayub, gözinə Şirindən qeyri kimsə görünməz olduqda həman qollarını nigarın belinə gümüş kəmər edüb dedi ki, ey nigari-nazənin, neçəyədək bən qulunu atəşi-eşqinlə büryan edüb, gecə və gündüz həsrətinlə nalan edərsən və bizdən çönüb çəkilmək ilə könlümüzdə olan qəm dügimini dəxi möhkəm edərsən. Nə var bu təşneyi-məhəbbətinə zülali-vəslindən bir kərrə içirsən və şərabi-vüsalınla məst edüb cahandan keçirsən, nə olurdu və bu fəqiri hüsnünüz sədəqəsiylə kamiran edüb vüslətiniz gülzarında şadü xəndan eyləsəniz nə giz əksik olurdu! - deyü niyaza başladıqda Şirin də cavab verüb: Ey şəhriyari-kamkarım, bən sizin kəndi cariyəniz olmağla canımı diriğ eyləməm. Lakin fəsli-bahar və mövsimi-gülzar olmadıqca bağın gülləri açılub bülbülləri fəryadü fəğanə gəlmədigi kibi, hər şeyin bir mövsimi və hər işin bir vəqti vardır. Madam ki, zamanı gəlməyə ol işdə surət bulub hüsula gəlməz. Sizinlə bir qaç gün tazə-tazə eşqbazlıqlar edüb bazari-məhəbbəti gərmagərm eyləmiş-kən bir dəmdə pərişan eyləmiyəlim və kəndumizi nəfsü həvayə məğlub eyləməklə rüsvayi-cahan olmayalım. Hala kiras dodaqlarımdan abdar şəftalular qənaət buyurub, qayısı sevdasında olman ki, dəxi zamanı degildir. Vəqti gəldikdə şəkəri halvalar kibi andan da səfalanub muradınıza vasil olursuz, - dedi.

Əlqissə, ol gecə sabahadək Xosrov vüsala talib olub Şirindən murad istədikcə, nigari-nazənin uğratmayub dəf eylədikcə murad hasil olmadı və hər sualına kərki kibi cavab verüb bir nədəndə aciz qalmadı.

Axır kar məstü bihuşluqlar nəhayətə irişməgin Şirin qalxub, yer öpüb sarayına getdi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## Bu məhəl Xosrov Şirinə küsüb, varub qeysəri-Rumun qızını aldığıdır

Çünki Şirin Xosrova ram olmayub qalxub getdi, bundan şəhriyar ziyadə bihüzur olub könlündə dedi ki, biz bunlara bir qaç gün yüz verməklə gözlərinə görünməz olub yanlarında qədrimiz qalmadı və hala bənim təxtimə Bəhram Çubin kibi hərif malik olub atub-dutarkən bən bunların yanlarında qalub ikidə-bir yox yerə nazlarını çəkmək nə bəladır. Münasib olan oldur ki, həman çin sabah bu məhəldən qalxub Bəhramın əlindən alub kəndi aləmimdə olayım. Anlar da görsünlər adama naz eyləmək necə olurmuş, - deyüb, yatub rahət oldu.

Çünki sabah oldu, gecə eylədigi əzimət üzrə yerindən qalxub, Məhinbanu ilə Şirin xəbərləri yoxkən Şəbdizi süvar olub kəndi xidmətkarları ilə şikara gedər kibi şəhərdən tışra çıxub qeysərə rəvanə oldu.

Bəhram Çubin cümlə yollara adamlar qoyub Xosrovu ələ gətürməgə iqdam üzrə olduğundan aşkara yoldan gedəməyüb dağlardan və sapa yollardan hezar zəhmətlə Ruma vardı.

Çünki Qeysər Xosrovun ol tərəfə gəldügindən xəbərdar oldu, ziyada şad olub qarşu çıxdı və izzət və ikramla gətürib kəndi sarayına qondurdu. Neçə peşkeşlər çəküb, ziyafətlər eyləyüb, hər vəchlə ikram eylədikdən sonra, bir nazənin qızı var idi ki, adına Məryəm deyərlər idi, Xosrova verüb neçə günlər dügünlər olduqdan sonra Xosrovu içəri qoyub kəndusinə damaz eylədi.

Xosrov da bir az zaman zövqü səfada olduqdan sonra Bəhram Çubin üzərinə varub tacü təxtini xilas eyləmək içün əsgər cəm edüb tədarükə başladıqda qeysər damənin dərmiyan edüb, xəzinələr açub az zamanın içində Xosrovun yanına yer götürməz əsgər cəm olduqda bir mübarək vəqtdə bunca əsgər ilə Rumdan çıxub yola girdi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Mədayində Bəhram Çubin Xosrovun Ruma varub əzim əsgər cəm edüb şəhərdən tışra çıxdı və Xosrovun önini alub səddi-İsgəndər kibi durdu.

Günlərdə bir gün Xosrovdur, gəlüb Bəhrama müqabil oldu. Ol gecə keçüb sabah olduqda, iki əsgərdir, atarqasına gəlüb əzmi-meydan eylədilər. Xosrovun təxitini bir bəyaz filin üstinə qurdular. Çıxub təxtində qərar eyləyüb, yanında…..

…Bu haldan ibrət alub, əlbəttə, yaramazlığın axırı şum olub, əfəndisinə qarşu qoyub xəyanət edən kimsə bərxordar olmayub, cəzasını bulsa gərəkdir. Ol da bizi tacü təxtimizdən dur edüb, başımıza bu qədər fəlakətlər gətürmişdi. Axır kar, eylədigi yaramazlığın cəzasını bulub, murad üzrə cahandan atub-tutmadan ömri tamam olub qürbətdə can verdi, - dedi.

Çünki Bəhramın öldügi müqərrər oldu, artıq Xosrovun könli əmin olub səfayi-xatirə gecə-gündüz zövqü səfaya başladı. Barbəd dedikləri sazəndəyi məclisinə nədim eylədi. Ol da hər gün bir yeni fəsl peyda eyləyüb, yilin üç yüz altmış gününün hər birinə bir dürli sövt və nəğmə bağlamaqla bir gün çalduğını çaq bir yil tamam olunca bir dəxi çalmazdı.

Pəs, Xosrovdur, Barbək sazını dinlədikcə dəxi ziyadə cuşü xüruşa gəlüb, Şirinə olan eşqü şövqi gündən-güna ziyadələnməkdə idi və hərəmə girdikcə qeysərin qızı Məryəmə biixtiyar Şirin ilə olan macəraları söyləməklə gündən-günə Məryəmin içinə atəşlər buraxub, xatirini pərişan eyləməkdə idi.

Yenə bir gün Xosrovun məclisi arəstə olub saz və söz ilə eyşü nuş edüb dəmlər sürürkən Şirin xatirinə gəldikdə eşqi dəryasi cuşü xüruşa gəlməklə qalxub içəri getdi və Məryəmin yanına varub: Ey nazəninim, gərçi sənin gözəl xatirin içün bunca zamandan bəri Şirinə sahib çıxmayub, əsla yanımıza götürmək və yenə də bir dəxi anı hüzurumuza



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

gətürməziz. Lakin layiq degildir ki, bizim eşqimiz sevdasiylə tacü təxtini buraxub bu şəhərə gəlmişkən əsla iltifat olunmayub düşmənləri arasında xarü zəlil ola. Sizdən şunu rica edirəm ki, özünüzlə saraya götürüb, yanımıza alalım və yenə də əsla bizə görünməyüb-qarışmasın. Ancaq sarayımızda olmaqla dost-düşmən arasında izzət və hörmətinə nöqsan gəlməsin, - dedi.

Çünki Məryəm Xosrovdan bu sözi eşitdi, atəşi-qeyrətlə yürəgi kabab olub dedi ki, ey şəhriyari-cahanım, həmişə dövlətlə cahan mülkində kamran olub, bütün aləm hökminiz altında olmaqla düşmənləriniz pərişan olsun. Lütfinizdən mərcudur ki, əgər Şirinin adı şəkəri cilvə isə də, mübarək ağzınıza almaqla bu cariyənizi atəşdə yaxmağı layiq görmək və cahanda bədən qeyri nazəninə iltifat buyurmaqla xatirimi pərişan eyləmək necə mümkündür ki, Şirin dedikləri hoqqabaz cadu ilə sarayda olub daima yüzünü görməklə bağım xun və gecə-gündüz ol səhhərənin əfsunundan halım digərgun ola. Bən bilürəm ki, şimdi ol məkarəni saraya gətürməgə razı olsam, gəldikdə neçə məkrü əfsun ilə göz-gözə girüb sizinlə yar ola və bəni mübarək cəmalınızdan dur edüb kəndusi yerimə banuyi-kamran olur. Bən anın məkrü hiyləsini çoxdan eşidüb anladım və bir dəxi hüzurunuza gətürtməməklə himmətlər edüb möhkəm bel bağladım. Əgər gözüm qarşusunda gögə dəxi uçarsa da belə, yenə ana etimad eyləməm. Hala bən anın bu şəhərdə olduğuna razı degil ikən, saraya gətürməgə izn vermək necə mümkündür? Həman anın kibi bayquşun yeri yenə şəhərdən tışra olan viranələr olmağla kəndi yerində əpsəb durub saraya gəlməsün. Ta ki, nəxəsti sizə və bizə təsir eyləmyüb şərindən əmin olalım və cahan bağında murad üzrə sizinlə dəmlər sürüb səfamızda olalım, - deyüb Şirinin gəlməsinə əsla riza vermədi.

Xosrovdur, bu halı gördikdə naçar sözini döndərüb: Ey banuyi-nazənin, neçə zəmandır ki, bir dəxi Şirinə meylü məhəbbət idim. ancaq,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

muradım, görəyim sizi nə buyurursuz, deyü imtahan idi. Yoxsa anı saraya kim gətürür, - deyüb açmaz qodı.

Bu canibən Şirin isə Xosrovun bunca zamandan bəri bir kərrə kəndusi görməgə gəlmədügindən pərişan olub: Şəhriyari-cahan bənim bu qədər eşqim dəvasında ikən  bunca zamandan bəri nə əcəb bir kərrə bu cariyələrini yad eyləmədilər, - deyü aləm üzrə olub gah-gah Şavir nəqqaş ilə əl altında biri-birinə xəbərləri varub gəlmədə idi.

### Bu məhəl Xosrov Şaviri Şirini gətürməgə göndərməgə, nigarın naz edüb gəlmədigidir

Günlərdə bir gün artıq Şirinin həsrəti Xosrovun canına taq deyüb Şaviri tənhasına dəvət edüb dedi ki, neçəyədək nigari-nazənin hicri ilə biqərar olayım! Var ol pəriyi kimsə görmədən hüzurulsa gətür. Bu gecə gizlincə bir aləm edüb dəmləri sürəlim. Bunca zamanadək dəvət eyləmədigimə səbəb müqtəzayi-dövlət üzrə Məryəmin xatiri içün idi. Əgər aşkara gətürsən, xəbərdar olduqda kəndusini həlak eyləməklə qeysər ilə ortamıza ədavət düşüb neçə fitnəyə səbəb olur və şikara getdigimizə uğramaqda olmaz. Axır bunu fikir eylədim ki, bu gecə ol pəriyi yanuma tətürüb tənhaca bir miqdar söhbət edəlim, - deyü fərman eylədikdə Şavir: Əmr şəhriyarımın, - deyüb çıxub getdi.

Şirinin yanına varub, şəhriyar ilə olan məcaranı nigara hekayət edüb: Hala şəhriyarın atəşi-məhəbbəti ülüvilənüb, bu gün bəndənizi hüzurunuza dəvət içün göndərdi. Qeysər ilə ədavət  səbəb olur deyü, Məryəmdən xof üzrə olub kəndusi buraya gəlməyüb sizi tənhaca bu gecə saraya dəvət eylədi, buyurun gedəlim, varub tənhaca bir söhbət edəlim. Siz də şəhriyarı neçə zamandır ki, bulaşub görüşmədiniz. Bir miqdar həsrətlərinizə sular saçılub atəşi-iştiyaqınız sakin olsun, - dedi.

Çünki Şirin Şavirdən bu sözi eşitdi və puratəş olub dedi kim, yetər,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

bunun kibi pərişan sözlərlə başımı ağrıtma və hər dildə gələni söyləyüb cibindən birinə bin qatma. Həq-taala səni insafa gətirüb bulay ki, bir dəxi bənim kibi kimsənin xanimanını pərişan etmiyəydin və bir dəxi olur-olmaz sevdayla böylə əgri yola getməyə idin. Bəhi allahdan qorxmaz, tanrı zalımı bunca zamandan bəri bana neçə dürlü əfsunlar eyləməklə tacü təxtimdən dur edüb qürbətlərə düşürdük. Bu yetməzmiş ki, şimdi gəlüb bəni tatlı canımdan da ayırmaq istərsən. Eşək səmərçi dükanını görüb qaçmaq istədikdə arpa göstərməklə aldatdıqları kibi sözlərlə bir dəxi damə düşürmək istərsən. Bəs cahanda bir gəlüb dəgmə yerdə bulunmaz bir cəvahir ikən, layiqmidir ki, kəndimi olur-olmaz yerə atmağla qədrimi yerlərə çalam və dəvətsiz yerlərə getməklə ayaqlar altında qalam. Gör şu bənim qutsuz taleimi ki, gül ümidim ilə gülzarə gəlmiş ikən xarda qaldım və sahili-vüslət arzusiylə hicran dəryalarına daldım. Bana bir, ikidə bir də Xosrovdan salam gətürməglə dağ ürrə dağ urma və bunun kibi baş ağrısı verər sözləri söyləməyüb, qarşımda durma. Bənü kəndi halıma qo ki, bəxti-naşadıma ağlayayım və qanlı yaşlar dökməklə dərdli yürəgimi dağlayayım. Gərək allahı sevirsən, bana ikidə bir də yarü vəfadarın və aşiqi-didarın dedigi hər cayi-bivəfayi ki, dərdi-eşqlə yoluna canlar verüb bunca dövlət və izzətimi buraxub ayağına gəlmiş ikən bir yaşıl yarpağla xatirimi sormağa qadir olmadı və bu qədər zamandan bəri bir kərrə gəlüb görməgə aralıq bulmadı. Şimdiki dəvətin də əgər əsli var isə, allah bilür, kimin ibramına uğramışdır. Yoxsa kəndisinə qalsa, yillərlə görməsə, şad və nazəninlər söhbəti ilə qəmdən azad olub, nə Şirin xatirinə gəlür və nə görmək hacətidir. Bən bunda anın hicri ilə ah-vah eyləməkdəyəm, ol isə nigari-nazənin ilə zövqi səfalarda. Buncılayın faidəsiz ömrdən nə hasil olur? Noleydi, anam bəni doğuracağına daş doğura idi! Həman heyflər bənim bunca zamandan bəri yarü vəfadarım deyü yoluna parə-parə olduğum cümlə həp həvayə getdi. Gəl səninə əgri oturub doğru söyləşəlim.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bilməzmisən ki, bu yolda bənim başıma nə fəlakətlər gəlüb. Ar və namusumu buraxub bunca dövlətdən ayruldum və sənin yalan sözlərini gerçək sanub neçə dəmlərdir ki, dayu diyarımdan dur olub qürbətdə qaldım. Pəs, bu zamana gəlincə yəvuk dəxi əsəri-məhəbbətdən bir şey görülmədikdən sonra nə zaman dövləti-vəslə şadikam olsam gərəkdir. Həman bəni kəndi halıma qoyub söylətmə kim, dərunim ol bivəfanın dərdi-hicri ilə malamal olmağın ağzımdan həp bunun kibi acı cavablar çıxar. Əgər sənin yerinə qeysərin qızı Məryəm belə dəvətə gəlürsə, qəsdim oldur ki, başını on yerdə yarub qapudan tərs göndərəm. Şimdən sonra divanə könlüm olur-olmaz sevdalarla ram olmaz və dəgmə tədbir ilə yerindən ayrılmaz. Bunca zamandan bəri sizin insaniyyətinizi birər-birər təcrübə edüb anladıq və bir dəxi sizin havanıza uymamağa bel bağladıq. Bundan sonra Xosrov gəlürsə belə, qaçarız. Əgər Şəbdizə binərsə, Gülgün ilə keçərüz. İbtida ardınıza düşdügümüz bir cünun idi. Gördük keçdük və xətayla sizə xidmətlər edüb camla içirdük. Biz ciləyin dərdiməndlərin Xosrov kibi şəhriyar ilə nə munasibəti vardır?! Anlara ya qeysər qızı gərək, ya xaqan. İştə Məryəm banuyi ki, nuri-dediyi-qeysər və cahana bir gəlmiş pəri-peykərdir, kəndulərinə yarü həmdəm və munisü məhrəm edənmişlər. Pək gözəl! Həman səfadan olsunlar. Biz də bunda oturalım, görəlim ruzigar nə göstərər. Əgərçi malımızdan dur olub, dövlətimizdən ayrıldıqsa, sizə qul olmadıq ki, istədiginiz kibi bizim üstümüzə hökumət edəsiz.

Əlqissə, Şirin bunun kibi əfsanələrlə atub dilinə gələni söylədikdən sonra bir miqdar atəşi dəf olub yavaşladı və mülayimətlə Şavirə dedi kim, ey yari-qədimim, varub şəhriyarə bənim ağzımdan deyəsən ki, ey əski əhdini fəramuş edici bivəfa, qanı, sənin ol eylədigin əhdi-peymanlar necə oldu?! Cümləsi həp həvamiydi?! Və üstünə durub sana kim əhd eylə dedi. Hələ səndə də bir miqdar insan olsun və eylədigin yəminlərin yerini bulsuna. Bən sanurdum ki, bəndən qeyri kimsəyə yar



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

olmayub ancaq bana havadar olasan və kimsənin vəsli-dövləti ilə kamkar olmayub, yalnız bana yar və vəfadar olasan. Cümlə sandığım hala həp xəta çıxub, varub düşmənlərimlə yar olub. Əsla bəni xatirinə gətürmədin və əski yarım necə oldu deyüb bir kərrə gəlüb görmədin və bəni yerlərə çalub qədrimi pamal eylədin. Sizdən umulan bulsu idi. Bərəkallah, əla, yarsız qaldığınız da bizimlə yar olursuz və bir qaç gün içində bizdən usanub qeyrisini bulursuz. Bülbül kibi daldan-dala qonarsız və ruzgar əsdügi tərəfə dönərsiz. Bundan sizin eşq və məhəbbətiniz nə mərtəbə idüki anlanub bilindi. Həman lütf edüb bən məzlumi bir dəxi cəfakar qılıcı ilə məcruh eyləməgi layiq görmək və Rum gülzarına qonmuş ikən Ərmən bağına bir dəxi girmək! Bir könülə iki məhəbbət sığmaz və iki nazəninin xatirini gözətmək olmaz. Həman, hala əlinizdə olan nigar ilə səfada olub, bizi kəndi halımıza qoyun və cana nə giz, nə versə sözünə uyun. Biz də başımızın çarəsini görəlim və dərdimizə bir dərman bulalım, - deyüb neçə bunun kibi nazü niyazı Xosrova Şavirlə göndərdi. Kəndisi varmadı.

## Bu dastan Fərhadın Şirinə aşiq olduğudur

Raviyani-əxbar və naqilani-asar bu yüzdən rəvayət və bu gunə hekayət edərlər kim, Şirinin ol zamanda daima yeyəcəgi süd olmağını önünə yüz dürlü mişkü ənbər qoxulunu yemək də gətürsələr, əsla birinə də rəğbət eyləməyüb daima kəndi qoyunlarından hasil olan süd ilə qidalanub qeyri yemək yeməzdi. Lakin olduğu yerdən qoyun sürilərinin otlayub qərar eylədikləri yer xeyli uzaq olub, yolu dikənli və sərp olmağla ikidə-birdə süd lazım olduqca varub gətürmək zəhmətli idi. Xidmətkarlar gahi südi gec gətürməklə nigari-nazənin itab eylədikdə sürilər uzaq olub, yol isə cümlə dikənli, keçilmək mümkün olmamağla gedənlərə əglənmək lazım gəlür, deyü cavab verdiklərindən, Şirin



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

daima südün tez gəlməsinə bir çarə arayub, əcəb nə tədbir eyləsəm, deyü fikirdə idi.

Günlərdə bir gün Şavir nəqqaş nigarın hüzuruna gəlüb hər tərəfdən münasibətə başladıqda Şirin bu qissəyi Şivirə söyləyüb: Olmadı, südün tez gəlməsinə bir çarə bulamadım, - dedikdə Şavir dualar edüb: Ey nigari-kamkarım, bu xüsusdan ötri əsla ələm üzrə olman ki, çarəsi qayətlər asandır. Bunda bir ustad cavan vardır, adına Fərhad derlər. Həndəsə elmindən xəbərdar olub, külüng ilə dağları devirüb sular götürməkdə qayətdə mahirdir. Dünyada bunun kibi nə qədər güc işlər var isə, anın əlindən asanlıqla gəlür. Bənimlə Çin vilayətində bir məhəllə uşağı olub, ikimiz də bir ustadın şagirdi idik. Bənim əlim qələm tutmağa münasib olmağla bana nəqqaşlıq ögrədüb, ana daş yonmaq ögrətmişdi. Əgər əmriniz olursa, ol dilavəri gətürəlim, qoyunlar durduğu yerdən saraya gəlincə dağ içindən bir yol yapub, iki başına iki hovuz yapsın  ki, daima çobanlar anda qoyunları sağdıqca südi ol hovuza tökməklə zəhmətsiz dağdan gəlüb bunda olan hovuza tökülsün, - dedi.

Çünki Şirin dəxi Şavirdən bu hekayəyi eşitdi, şad olub: Ol ustadı bulub bizə gətür, qayətdə lütfdir, işini tamam eylədikdə istədigündən ziyadə mallar verüb xatirini şad edəriz, - dedi. Şavir də: Baş üzərinə, - deyüb Fərhadı araşdırmağa gəldi. Axır, bulub sabah olduqda nigarın hüzuruna getməgə qövlü qərar eylədilər.

Çünki ol gecə keçüb  sabah oldu, Şavir Fərhadı yanına alub nigarın sarayına gətürdi. Cariyələr gördülər kim, filə bənzər bir təvana şahbaz dilavər olub külingini belinə soxmuş, izzət və ikramlar edüb altına iskəmi qodular. Keçüb oturdı və ortalıq yerə pərdə çəküb bir zamandan sonra Şirin də gəlüb pərdənin ardına qərar eylədi.

Rəvayət olunur ki, Şirin sözə gəldikdə avavzını eşidən hər kim olursa, biixtiyar mail olub, səfasından yaxasını çak edüb, dəgmə hal ilə kəndusini zəbt edəməzdi. Pəs nigardır, pərdənin ardından sözə gəlüb



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

şəkər dodaqlarından ləl və cəvahir saçmağa başladıqda namurad Fərhadın qulağına ol nazik avaz toxunduğu kibi, dəli-divanə olub biixtiyar ahi-suznak çəkdi kim, dütüni fələklərə çıxdı.

Şirindir, Fərhadın ahını eşitdikdə avazının hərifə təsir eylədigini bilüb, lakin şimdi gördügi baş ağrısı olmamaqla müqəyyəd olmayub, həman tək məsləhət bitsün deyü dillər döküb, çənələr çalmağa başlayub: Ey ustadi-namdar, qoyunlarımız saraydan qayət uzaq olub, biz isə daima südə möhtac olmağla hər bar varub gətürməgdə zəhmət çəkilür. Hala sənin qayət ustadlığın eşitməklə hüzurumuza dəvət eylədik. Gərəkdir ki, bizə qoyunlar olduğu yerdən saraya gəlincəyədək bir yol yapasan ki, çobanlar qoyunları olduğu yerdən saraya gəlincəyədək sağdıqları südi otadan dökdiklərində doğru axub gələ, ikidə-birdə xidmətkarlara zəhmət olmayub və anların gətürməsinə möhtac olmaya. Görəyim səni bu xüsusda neçə damən-dərmiyan edüb hünər göstərəsin. Ta ki, işini başa çıxardıqda biz də sana məmulundan ziyadə ənam və ehsanlar edəlim, - dedi.

Fərhad naşad isə, Şirinin avazını eşitdikdə əqli başından gedüb kəndudən keçmiş idi. Əgərçi qulağına əqillər çakedici bir avaz gəlürdi, lakin nə dedigini anlamaqdan qalmış idi.

Axırkar məclisdən qalxub tışra çıxdı və banuyi-dövranın xidmətkarlarından fərman olan işi sordu. Cümlə əslini-fəslini anlamayub, ətəgini belinə çalub külingini əlinə aldı və qoyunların olduğu yerdən dağ və daş kəsməgə başladı. Kamil bir ayda nigarın köşkü önünə gəlincə yonma bir yol yapdı və daşları şöylə yerləşdirdi ki, güya yekparə olub, aralıq yerinə qıl sığmaz idi və bircins məcəlla eyləmiş idi ki, üstünə süd tökülsə, yalanırdı və köşkün önünə rəngarəng daşlar ilə bir hovuz yapdı kim, əqillər heyran olurdu.

Çünki yollar tamam oldu, çobanlar qoyunları sağdıqda içinə tökməgə başladılar. Süddür, gəlüb hovuza dolduqda cariyələr Şirinə gəlüb:



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Şəhriyarım, Fərhad əmriniz uzrə yolu tamam eyləyüb, hala içindən süd irmağı axmağa başladı, - dediklərindən nigari-aləm yerindən qalxub gəlüb gördü kim, istədigindən dəxi əla olub, hovuz südlə malamal olmuş. Fərhadın qüvvətinə heyran olub təəccüb eylədi və bunun kibi işin olacağına əsla etimad eyləməzdi: Bərəkallah ol ustadın mərifətinə ki, anın əlindən buncılayın hünər gələ, - deyüb Fərhadı hüzuruna çığırdı və neçə ləlü cəvahir gətürüb dedi kim, ey ustadi-zoravaz, qoluna qüvvət və hünərinə afərinlər olsun kim, əmr eylədigimiz yolları muradımızdan yüz qat əla yapub tamam eyləmişsən. Bunun müqabiləsində cahan malları versələr, ücratı degildir. Hələ şimdilik şunları alub bahasına bir zaman əglənə tur. Bundan sonra əlimizə fürsət girdikdə sana dəxi nevə ehsanlar edüb, çəkdigin əməgin yerinə yüz qat lütflər edəriz, - deyüb Fərhadın xatirini yapmaq istədi. Ol isə alətini alub dərdi-eşqilə taqəti taq olmuşdu. Nə hal isə güclə olanca əqlini başına cəm edüb: Lütfiniz daim ola, - dedi və cəvahirləri alub tışra çıxdıqda ayaq altına saçub dağlara düşdü.

### Bu məhəl Fərhad Şirinin eşqi ilə dağlara düşüb dillərdə dastan olduğudur

Çünki Fərhad Şirinin hüzurundan qalxub, verdigi cəvahirləri yerə saçdı, nigarın eşqi qəlbinə möhkəm təsir edüb, bir an bir yerdə durmağa səbrü qərarı qalmamışdı. Naçar yaxasını çak edüb, fəryad edərək dağlara düşüb, çəkilüb getdi. Halı pərişan olub, nə əlindən dərdinə bir çarə eyləmək gəlürdi və nə hicri-yarə səbr edüb təhəmmül edə bilürdi. Zira, eşq dəryası mövcə gəlüb başından aşmışdı.

Pəs, yeyüb-içüb, insan ilə söhbət eyləməkdən çəkilüb, dağlarda heyvan kibi ot-otlayub, Məcnun kibi vəhşilərlə ülfət eyləməgə başladı. Bu hal üzrə heyranü giryan dağlarda ahü vah eyləməkdə və adam



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

gördükdə vəhşilər kibi bir tərəfə qaçub gedərdi və gözdən axan qanlı yaşlardan dağları laləzarə döndərüb, ah eylədikcə tütünü göglərə çıxub bulutlara dönərdi. Atəşi-eşq ilə yanmış çinara dönüb dağlarda qalmışdı və nilüfərlər kibi boğazınadək gözi yaşı sellərinə dalmışdı. Hicri-cananla halı digərgun və dərdi-eşqlə lalə kibi bağrı xun olub tənhalarda nə gözi yaşından qeyri bir həmdəm var və nə kölgəsindən özgə bir munisü məhrəmi var idi, nə namuradın halizarından kimsənin xəbəri var və nə Şirin dedikləri nazənin bu dərdiməndin dağlara düşdügündən xəbərdar idi.

Pəs, gecə-gündüz Şirinin köşki tərəfindən əsən yel ruhani qidası olmaqla ağzını poyraza açmışdı və bir dəxi yeyüb-içmək arzusundan keçmişdi.

Axırkar, gedərək Fərhadın fəryadı cahana hər kəsin dilinə düşdi və dört yanını dağ canavarları almağın gecə-gündüz vəhşilər başına uşdu və həftədə bir kərrə köşki altına gəlüb bir miqdar uzaqdan seyr ilə qənaət edüb, yenə dağlara gedərdi və qəmü möhnəti tazələyüb, yenə başdan fəryadü fəğanlar edərdi və gahi gəlüb köşkin önündə yapduğı hovuzdan bir miqdar süd içüb səfalanurdı.

### Bu məhəl Xosrov Fərhadın Şirinə aşiq olduğundan xəbərdar olduğudur

Rəvayət olunur ki, günlərdə bir gün Xosrov müsahibləri ilə məclisdə oturub, hər varidən söz açılub müsahibətə başladıqda içərilərindən biri: Şəhriyarım, yaxınlarda bir qərib vağiə olmuş. Fərhad derlər bir kimsə Şirinin eşqinə giriftar olmaqla üryan olub dağlara düşmüş və insanla söhbətdən kəsilüb, başını vəhşilər uşmuş. Nigarın eşqi sevdasiylə dillərdə dastan olub. Hər nəyə varsan, Fərhadın hekayəsindən keçilməz və bir məclisdə ol dastanı ortaya gətürməyincə şərab içilməz. Əgərçi



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

cahanda çox aşiqi-filan görilmişdir, lakin heç bu mərtəbədə sevdayi-eşqlə halı digərgun bir kimsənə görülmüş və nə xod edilmişdir. Gecə-gündüz ol pərinin hicranı dərdi ilə gözi yaşından səhraları Ceyhun edüb, fəryadı cahanı tutmuşdur. Ancaq həftədə bir kərrə nigarın köşki altına varub, salamlayub durar və bir kərrə avazını eşitməglə qənaət edüb, o qədər iltifatə məzhər olmağla bir həftəyədək səfasından basduğı yeri bilməz və dağü səhraları dolanub, həftə başı olmadıqca bir dəxi gəlməz, - deyüb Fərhadın əhvalını Xosrova nəql eylədi.

Xosrovdur, bu dastanı eşitdikdə Şirinə olan eşqi dəxi ziyadə olub, cuşü xüruşa gəldi və meydani-məhəbbətdə kəndusinə iqdaş bulunduğuna şad oldu. Zira, bir gül üstündə iki bülbül olsa, ziyadə şövqə gəlüb dəxi gözəl nəğmələr eylərlər və bir mətaə iki kimsə müştəri olsa, bahasını dəxi ziyadəyə çıxarub hər biri bən alayım deyü, rəğbət eyləməgə başlarlar.

Pəs, Xosrov da yeni başdan ah-vah eyləməgə başlayub, əski dərdi tazələndi və gedə-gedə anın da eşqi dillərdə dastan olub avazələndi. Lakin gedərək yenə Xosrov Fərhadın kəndusinə əngəl olduğusun xətlənməyüb qeyrətə düşdi və yanında olanlara dedi kim, biz padşahlığımızla bunca zamandan bəri nigarın ardına düşüb bulayına bir təriq ilə ələ gətirüb əngəlsiz səfasını sürəlim deyərkən, şimdi bunun kibi bir daş dögən irğad bizim cananımızın vəsli sevdasiylə gecə-gündüz çaki-kiriyan eyləməsinin aləmi yoxdur. Bunun çarəsi görülüb bir təriq ilə dəf olunmaq gərəkdir. Əgər tutub həkimlərə əlac etdirərsək, eşq sevdasının həkim şərbəti ilə getməsi mümkün degildir və əgər qətl edüb həlak eylərsək, bir suçsuz dərdiməndi öldürməkdə əzim sual olmaqla, ol da olmaz deyüb, çarəsini yanında olan aqillərə sual eylədikdə, içlərindən biri sözə gəlüb: Şəhriyarım, dəmirdən zəncir urmağla buna tədbir olunmaq mümkün degildir. Amma altun zəncirə ursanız, bəlkə, əlac pəzir olub sevdasını dəf edə. Zira, altun müfərrəh olmaqla sevdası



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

gedərər, demişlər. Pəs, ibtida hərifi hüzurunuza dəvət edüb iğrazü ikramlar buyurun və hesaba gəlməz altun ehsan eyləyin. Əgər mala meyl edərsə, qəbul edərsə, sevdası dəf olub bir dəxi köşkün dairəsinə uğrayamaz və əgər altunu almazsa, bir əzim dağa salınmaq gərəkdir ki, əmri olduqca ol işi tamam edəməyüb altından xilas olmaya, - dedi.

Xosrov bu sözi eşitdikdə bəgənüb əmr eylədi kim, Fərhadı buldular və alub Xosrovun hüzuruna gətürdilər. Gözləri tasi pürxuna dönüb kükrəmiş arslan kibi içəri girdi və nigarın eşqi ilə gözünə cahan görünmədigindən əsla ədəblərini taqınmayub Xosrova təzimlə müqəyyəd olmadı.

Pəs, Xosrovdur, yanına gətürüb iltifatlar eylədi. Altına bir iskəmlə qodular, keçüb üstində qərar eylədi. Andan sonra Xosrov əmr eylədi, üstünə kisə-kisə altunlar nisar eyləməgə başladılar. Pəs, xırman kibi ətrafı altun ilə malamal oldu. Lakin Fərhad əsla altuna iltifat eyləməyüb eyninə almadıqda Xosrov gördi kim, mal ilə dəf olur bəla degil. Sözə çəküb suala başladı. Fərhad da hər birinə kərki kibi cavab verüb, əsla bir sözinin altında qalmadı.

Əvvəla, Xosrov sorub: Ey mərdi-şahbaz, hala nə işdəsən və nə karə məşğulsan? - dedikdə, cavab verüb: Can verüb qəmi-canan almaqdayam, - dedi.

Təkrar Xosrov: Can satmaq çoqluk ədəbə düşər iş degildir, - dedikdə Fərhad: Aşiq olanlar ədəb qeydində olmayub, aru namusdan keçmişlərdir, - dedi.

Yenə Xosrov: Şirin yanında nə mərtəbədir? - deyü sorduqda cavab verüb: Tatlı canımdan əzizdir, - dedi.

Təkrar Xosrov: Ya nə zaman Şirinin eşqi qəlbindən çıxararsın? - dedikdə, cavab verüb: Cahandan vücud gedüb, cümlə topraq olduqda, - dedi.

Təkrar sual edüb: Heç Şirinin eşqindən ötri kimsədən qorxarmısan? -



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

dedikdə, cavab verüb: Bəli, hicrandan qorxarım, - dedi.

Yenə Xosrov sorub: Ey Fərhad, niçün canına əsirgəməyüb bunun kibi zəhmətlərlə paymal olmazmı? - dedikdə, Fərhad da cavab verüb: Ey şəhriyari-cahandarım, qəlbim xəzinəsi cananımın xəyalı ilə toptolu olmuşkən, artıq canı neyləyəm və canan yoluna fəda eyləməyimdə nə gunah saxlayayım, - dedi.

Axır, Xosrov gördi kim, hər nə sorarsa, altında qalmayub kərki kibi cavabını verməkdə aciz degildir. Bundan ziyadə söylətməgi münasib görməyüb, könlündə dedi kim, biz buna mal verməklə başa çıxarız sanurduq, olmadı. Bu qədər altun nəzərinə çöpcə gəlməyüb, əsla iltifat eyləmədi. Andan sonra, bəlkə, sözlə ilzam edəriz, - deyü suala çəkdik. Ana da cavab verüb, heç bir sualımızdan aciz qalmadı. Haman bunu söylətməyüb bir əzim işə salmaq gərəkdir ki, bu yüzdən siqləti üstümüzdən, bəlkə, dəf ola, - deyüb dedi kim, ey Fərhad, səni hüzurumuza dəvət etməkdən məqsudumuz Idur ki, yolumuz üstündə bir əzim dağ vardır. Murad eylədik ki, ol dağın ortasından yol açub gəlüb-getməkdə qolaylığla varub gələyüz. Neçə zamandır ki, bu dərdin çarəsi içün tədbir araşdıra gördük, olmadı. Bir təriqlə ol dağdan yol açmağa kimsə baş urub boynuna almadı. Axırkar aciz qaldığımızda sənin şahbaz zülfini hüzurumuza ərz edüb dedilər kim, əgər buna bir çarə eyləmək olursa, məgər Fərhaddan ola, dediklərində biz də səni çağırub Şirinin gözəl başı içün ki, bundan böyük yəmin olmaz, bizim bu dərdimizə bir çarə eylə, - deyü niyaz eylədiklərində, Fərhad da cavab verüb: Gözəl, bu xidməti yerinə gətürmək bənim boynuma olsun. Lakin ol şərtlə ki, işimi tamam eyləyüb anı istərəm ki, Şirinin sevdasından əl çəkəsiz, yalnız bənim olsun, - dedi.

Xosrovdur, bu sözi eşitdikdə qayət qəzəbə gəlüb cahan başına təng oldu. Lakin sonradan yenə fikir eyləyüb könlündə dedi kim, bu şərtdən bizə əsla zərər olmaz. Hərifi biz topraq qazmağa göndərməzsiz ki, bir



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

qaç günədək işini tamam edüb, gəlüb nigarın vəslinə nail ola. Bəlkə, bunun kibi bir əzim daşlı dağı kəsməgə göndərsək, gərəkdir ki, yalnız buncılayın bir adamın yüz yil ömri olsa, ol işin altından çıxamaz, - deyüb cavab verdi kim, öylə olsun, sən bu işi tamam eylədikdə Şirindən əl çəkəyim. Əgər sonra əhdimə vəfa etməzsəm, namərd olayım, - deyüb bunun üstünə...



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## TƏRCÜMEİ – «İSGƏNDƏRNAMƏ»

### Bu dastani-dilsitan İsgəndərin dünyaya gəldügün bəyan edər

Raviyani-əxbar və naqilani-asar bu yüzdən rəvayət və bu gunə hekayət eylərlər ki, Rum vilayəti padşahlarından həzrət İshaq əleyhissəlam silsiləsindən bir padşahi-namdar var idi ki, ona Filiqus derlər idi. Vilayəti-Rumda nə qədər şəhər varsa, cümləsi əli altında olub, hər biri kəndi tərəfindən zəbt olunurdu və kəndusinin oturduğu şəhərin adına Məkduniyə derlər idi. Bir şəhriyari-alişan idi ki, hesabsız əsgər və xütbəyə malik olub xəlqə daima ədldad edüb, cahan xəlqi sayei-dövlətində rahətdə olub əyyami-dövlətinə dua edərlərdi. Məmləkəti ətrafında olan padşahlar olmaya ki, üstümüzə gəlüb vilayətimizi əlimizdən alub, bizi xarü həqir eyliyə deyü qorxularından Filiqusa qulluqlar ərz edüb, xəzinələr və pitiklər göndərirlər idi. Getdikcə şövkəti ziyadə olub, namı yedi iqlim, dört guşəyə yayılmış idi.

Rəvayət edirlər ki, ol zamanda əcəm vilayətində padşah olan şəhriyar ki, adına Dara derlər idi, cahanda andan böyük padşah olmayub, cahan şahları əmrinə ram idi. Filiqusun bu dövlətini gördükdə adam göndərüb, xərac istədi. Filiqusdur, bir aqil padşah olmağın fikir



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

edüb: Gərçi dövlət və əsgərimiz bizdən əvvəl Rum padşahlarından ziyadə olmağın Daraya xərac verməyüb, qarşu qomaqda olur, lakin aralıq yerdə bu qədər cəngü cədalə səbəb olub, bəlkə, bir işdə görülməyə. Çünki bizdən əvvəl gələn padşahlar Əcəm şahlarına xərac verə gəlmişlərdir, münasib olan budur ki, biz də bir miqdar xəzinə verüb, rahətdə olalım, - deyüb, istədügi qədər xərac göndərüb Daraya müdara eylədi. Pəs Dara da xəzinə gəldikdən sonra Filiqus ilə xüsumət eyləməyüb barışdı və ta İsgəndər padşah oluncayadək hər yil Filiqus Daraya xəzinə göndərir idi.

Çünki İsgəndər padşah oldu, məsləhət qeyri yüzdən olub, Daraya xəzinə göndərməyüb, üzərinə əsgər çəküb əcəm təxtini əlindən alub həlak eylədi. Netə kim, məhəlli gəldikdə bəyan oluna gərəkdir.

Tarix sahibləri İsgəndərin əslü nəslindən ixtilaf edüb, hər biri bir gunə bəyan edüb. Kimi demişdir ki, Rum vilayətində bir salihə və dindar xatun var idi. Bir kimsəyə vardıqda hasilə olub, sonra qocasının vədəsi tamam olub axirətə getdi. Xatundur, yalnız qalub kimsəsi olmamağla məsləhətini kəndusi görürdi.

Bir gün bir xüsus içün şəhərdən tışra getmişdi. Müddəti tamam olmağın kəndusində toğurmaq əlaməti zahir olub, necə olur deyü gəzinib tururkən bir viranəyə bir oğlan dünyaya gəlmiş. Bağrına basub: Ey vah, nə olmaz yerdə toğurdum, böylə viranə yerdə ki, adəm və adəmizad yoxdur Necə olur halım, -der ikən məgər xatunun vədəsi tamam nəzər edüb: Bən öldükdən sonra heyvanlar gəlüb məsumi yerlər, - deyü, ah edərək canını təslim eylədi. Andan xəbəri yoğidi ki, həq təala həzrətləri kəmali-kərəmindən ol məsumi öldürməyüb, nazü niyaz ilə tərbiyət edüb, başdan-başa cahanı kənduyə müsəxxər edüb, Qafdan-Qafa aləmə sultan edə.

Əlqissə, çünki xatun ölüb məsum yalnız qaldı, hikməti-allahın, ol gün Filiqus şikara binüb ətrafı gəzərkən ol gördi kim, ol firanədə bir ölmüş



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

xatun, yanında hənuz dünyaya gəlmiş bir oğlancıq var. Durmadan gah ağlayub və gah barmağını ağzına alub əmər. Pəs, Filiqusdur, əmr edüb məsumi saraya gətürdilər və dayələrə verüb tərbiyətlər eylədilər.

Məsumdur, gündən-günə gözəllənüb Filiqusun əlindən düşməz oldu və kəndusi övladı olmamağla oğul edinüb ömri tamam olduqda yerinə padşah oldu və bəziləri, İsgəndər əcəm vilayətində padşah olan Daranın qarındaşı idi, - deyüb əslini bu gunə bəyan eylədilər ki, müqəddimən Daranın babası Filiqusun qızını alub yanına varduqda bəgənməyüb, ertəsi gün yenə babası yanına göndərmiş idi. Məgər qız ol gecə padşahdan hamilə olmuş imiş. Müddəti tamam olub, vəqti gəldikdə bir erkək övlad toğurub, adını İsgəndər qodular və Filiqus bu sirri qaqlayub: Кəndi oğlumdur, - demişdi. Pəs kəndusindən sonra yerinə padşah oldu, - dedilər. Amma səhihi budur ki, İsgəndər Filiqusun kəndusindən hasil olma öz övladıdır. Netə kim, rəvayət edirlər ki, Filiqusun hərəmindən bir nazənin cariyə var idi ki, yanağı gül, saçı sünbül, qaşları qurulmuş yay, çöhrəsi bədr olmuş ay, sərv boylu, incə bellü bir yenicə aftab idi ki, dünyaya bir gələnlərdən idi. Padşahdır, bu mehparəyə ziyadə mail olub, daima bununla belə olub, qeyri cariyələrə iltifat eyləməzdi və padşahın heç övladı olmamağla dünyada övlada həsrət idi.

Günlərdə bir gün, cariyədir hamilə olub, ayı, günü tamam olduqda bir mübarək vəqtdə ayparə kibi bir oğul toğurduqda Filiqusun gözü aydın olub, cənab həqqə çox şükürlər eylədi. Adını İsgəndər qoyub, hükəmasını yanına dəvət edüb, əmr eylədi ki, şahzadənin taleini görələr. Hükəmadır, İsgəndərin taleini yoxlayub padşaha gündə eylədilər kim, şahzadənin talei qayət qutlu olub, təmam cahana hökm edüb, Qafdan-Qafa cahanı seyr edə və cahan şahları əlində zəbun olub, namı dünyayı tuta, dedilər. Pəs Filiqus şad olub bu nemətin şükriçün füqərayə ənam və ehsan edələr və İsgəndəri tərbiyət edüb nazü niyazla



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

bəslədilər.

Şahzadə dəxi gündən-günə böyüyüb ata binməgə və ox atmağa və qılıc çalmağa və sair dilavərlərdə olan hünərləri birər-birər ögrənüb padşahlara lazım olan qanun və sair ümuri anladı və gah şikara binüb dilavərliklər göstərdikdə görənlər təhsin və afərinlər edüb, dualar edərlər. Bu məhəl İsgəndərin Loqumas həkimdən elmi-hikmət və sair mərifəti-qəribə ögrəndügüni bəyan edər.

Çunki Filiqus İsgəndərin dilavər olub cümlə hünərləri ögrənüb, tamam mərtəbei-tacü təxtə layiq bir şahzadei-namdar olduğunu gördü, həmdü şükürlər eylədi. Andan sonra hükəmanın başı ki, adına Loqumas derlərdi, hüzuruna dəvət edüb: Oğlum İsgəndərə elmi-hikmət və sair mərifəti təlim eylə, - dedikdə əmri üzrə təlimə başladı və bu həkimin bir oğlu var idi, adına Ərəstu derlərdi İsgəndər ilə bir yaşda olub belə oxurdu.

Pəs həkim neçə zaman təlim edüb cümlə ülumi oxutmuş idi. Pəs həkim təlimdən fərağət edüb Ərəstuyi şəhzadəyə əmanət eylədi. Zira İsgəndərin cahana malik olacağını taleindən bilmiş idi.

Vəsiyyət edüb dedi ki, ey şahzadeyi-namdar, cənabi-həqqə həmd olsun ki, bu qədər ülumi-qəribəyi təhsil eylədin; şimdən sonra ömrüm axır olub, dünyadan gedəcək zamanım gəldi. Oğlum bu neçə zaman səninlə biryerdə oxumuş idi. Rica edirəm ki, bu həqqi-hüququ unutmayub padşah olduqda yanuna alub, vəzir edəsin, -deyü niyaz eylədi. İsgəndər də: Baş üstünə, həq-təala ol vəqtə İrişdirdikdə kəndumə məhrəm edüb, jümlə ümurimi ana sipariş edəyim, - deyü əhd eylədi. Çünki Loqumas İsgəndərin padşah olub neçə şəhriyarla cəngü cidal eylədügini bilürdi, pəs qalib və məğlub bilinmək üçün bir şəkil yazub İsgəndərə verdi ki, bir xəsm ilə cəng etməli olduqda kəndi qalib bulunursa əlanüsrət və zəfər İsgəndərin olub bi pərva üstünə varub cəng eyləyə və əgər zəfər xəsm tərəfindən görünirsə, bir qeyri yüzdən



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

tədarük görüb cəng eyləyə. Pəs İsgəndər ol şəkli canı kibi saxlıyub daima bir xəsmin üzərinə varmaq murad eyləsə ol şəkil ilə əməl edüb kəndözin qalib və məğlub olmasını hiss edərdi.

Əliqissə, bu üslub üzrə neçə dürlü hünərlər ögrənüb daima üqəla mə hükamə ilə söhbət edüb gündən-günə elmi ziyadə olmaqda idi. Xüsusən Ərəstuyi bir an yanından və hükamə ilə söhbət edüb gündən-günə elmi ziyadə olmaqda idi. Xüsusən Ərəstuyi bir an yanından ayırmayub, ümurini daima anunla müşavirə edirdi. Bu hal üzrə neçə zaman keçüb Filiqusun ömri axır olub, təcütəxtini İsgəndərə təslim edüb, axirətə getdi.

## Bu məhəl İsgəndərin padşah olduğudur

Çünki İsgəndər babası Filiqusun yerinə padşah oldu, ədl və dadə başlayub, babasından gördügü qanunlardan məzacına xoş gələnlərə əməl edüb, bəgənmədügünü tərk edirdi və həman padşah olduğu kibi Daraya xəzinə göndərüb, babası zamanında olan sülh və səlahı təcdid eylədi və ətraf məmləkətdə olan bəgləri yerindən ayırmayub mənsəblərinə müqərrər edüb, hər birinə neçə tərəqqilər eylədi. Düşmənlərinə əsgər göndərüb miqdarını bildürüb, dostlarına hədiyyələr göndərüb, ikramlar etməgin cahangirlik rəsmini yerinə götürüb, əski cahana tazə rövnəq verdi və gah eyşü işrət və gah tədbiri-ümuri-dövlət içün divani-ədalət edüb məmləkətin ənvalını görür idi və əhaliyi-vilayətə hörmət və rəayəyə rəayət etməginaləmi kəndusinə qul edüb, ədil və dad ilə məhşur olmuşdı və Ərəstuyi vəzir edüb, cəmi ümurində anın rəyi ilə hərəkət edərdi.

Pəs bu hal üzrə gündən dövlət və səltənəti ziyadə olub, qüvvət və şövkəti əcəm şahına qalib olmuş idi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## Bu dastan Misir xəlqi zənginlərindən şikayət eylədikdə İsgəndərin vardığıdır

Günlərin bir günü İsgəndər ol zamanın adəti üzrə sarayında məclisi-şəhanə qurub, mürəssə pəri-peykər nazənin xidmətkarlar səf-səf əl bağlayub, məqami-xidmətdə durmuşlar idi. Padşah da gah meyi-ərğəvani içüb, gah müsahiblərlə lətifələr eylərkən saray qapusından fəryadçılar avazu gəlüb, padşah: Nədir bu fəryad,-deyü sual eylədükdə qanunçılar gəlüb: – Şəhriyarım, Misir xəlqinün üzərinə zəngi əsgərü gəlüb, şəhərlərinin ətrafını qarətvə əhalini həlak eyləmələrilə taqətli taq olmuş və bir amansız qövm imiş ki, hər birinin boyu minarə qədər olub öldikləri adamların qanların içürlər imiş. Bir vəchlə qarşularına varmağa qüdrətləri olmadığından padşahın qəyusuna gəlüb hala fəryad edən anlardır. Baqiyi-fərman şəhriyarımındır, - dedüklərində İsgəndər fikrə varub: Böylə qaniçici, divə bənzər zənci əsgəriylə cəng eyləmək xeyli müşküldür, əcəb, nə tədbir eyləsək, - deyüb Ərəstuyi dəvət eylədi. Gəldikdə İsgəndər der: Zəngi əsgərlərinün əhvalını bəyan edüb nə dersin, - dedi. Ərəstu cavab verüb dedi ki, bəxtiniz açıq bir şəhriyari-alişansız, münasib olan təxir olunmayub. Haman bir saət əvvəl üzərlərinə varmaqdır; ümiddir ki, həq-taala həzrətinin əvni ilə mənsur və müzəffər olub Misir kibi vilayətə malik olasız və bunun kibi qəvi düşmən əlinizdə zəbun olmağla namınız cahanda məhşur olub, şan və şövkət bulasız – dedikdə İsgəndər də məqul görüb buyurdu kim, səfər tədarükü görələr və cəmi bəglərinə yazıla ki, əsgərlərin cəm edüb gələlər.

Pəs ətrafa hökmlər göndərilüb və xəzinələr və cəbbəxanələr açılub, az zaman ərzində gög dəmirə qərq olmuş bir əsgər cəm oldu ki, nə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

gözlər görmüş və nə qulaqlar eşitmiş idi və bir mübarək vəqtə İsgəndər diyəri-təxtgahı olan Məkduniyədən qalxub şikayətə gələn adamları qulağüz edüb, qandasın Misir deyü, yola girdi. Misirə yaqlaşdıqlarında şəhər xəlqi İsgəndərin böylə əzim əsgərlə imdadına gəldüklərindən şad olub, tazə həyat buldular və cümləsi pursilah olub, çıxub İsgəndəri istiqbal edüb, əyyami-dövlətinə dualar eylədilər və böyləcə zəngilər üzərinə rəvanə oldular, hər biri kükrəmiş filə dönüb yedi başlı əjdər kibi yerlərindən qalxub İsgəndərə qarşu gəldilər.

Pəs iki əsgərin hayuhuyundan qiyamətlər qopub, atların kişnəməsi və dilavərlərin nərəsi fələklərə çıxub, atların ayağı altındın qalxan toz bulut kibi göglərə peyvəstə olmuş idi. Bu tərz üzrə iki tərəfdən bölük-bölük əsgərdir gəlüb, bir-birinə qarşu qonub qərar eylədilər və hər biri hazır və amədə olub durdular. Çünki axşam oldu, iki tərəfdən qaravul çıxub, əsgəri hifz edüb, sabahadək bəklədilər. Səbah olub aftabi-aləmtab ilə cahan rövşən olduqda İsgəndər şahlar adəti üzrə divan edüb, andan sonra üməra və vükəla ilə müşavirə edüb, bəʼdə elçi göndərüb, itaət içün dəvət edüb, əgər qəbul eyləməsə, çünki mübaşirət etmək üzrə qərar verdilər.

Pəs Rumi dilavərlərindən bir kimsənə var idi ki, yetmiş iki dil bilüb, qayət bir söz əhli göstərişli adam olub, adına Tutyanuş derlərdi. Mühasibət edüb sözə başladuqda adamı heyran edüb, bin can ilə sözünə mail edər idi. İsgəndər kəndusinə münasib edüb, yanından irməzdi. Ol vəqtdə əmr eylədi kim, bir qaç adamla zəngilərin bəglərinə varub deyə ki, əgər eylədükləri zülm və təəddidən fərağət edüb, padşahə itaət edərsə, nə gözəl, ağaz və ikram olunur və illa, inad və müxalifət eylərlərsə, vəqtinə hazır olsunlar ki, bu qədər əsgərlə üzərlərinə gəlirsik dedikdə Tutyanuş yerindən durub İsgəndərin fərmanı üzrə zəngilərin ordusuna varub, elçi olduğunu bildirdikdə, bəglərin yanına gətürdilər. Tityanuş da İsgəndərin sözüni və nə şəkil padşah



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

olduğunu bəyan edüb dedi ki, padşahımız bir hümayunbəxt şəhriyar olub hala bu qədər əsgərlə üzərinizə gəldi. İmdi sizə layiq olan budur ki, şöylə padşaha qarşu qomayub, qulluğını qəbul edəsiz və etdügünüz küstaqluqdan etiraz edüb, sülh və səlah yoluna gedəsiz və illa, kəndunizə zərər edərsiz,-deyü neçə sözlər söylədi. Zəngilərin bəgi bu sözi eşitdigi kibi qəzəbə gəlüb, əjdər kibi ağzından atəşlər saçub, əmr eylədi kim, Tutyanuşun başını kəsələr. Həman dəm ifritəliqa iki zəngi gəlüb dərdməndi yerə çalub və başını kəsüb qanını bir altun ləgənə ağıdub bəglərinə sundılar. Ol dəxi şərabi-ərğəvani kibi bir nəfəsdə çəküb təmam eylədi və Tutyanuşun yoldaşlarını həqarətlə yanından sürüb. Varın, padşahınıza gördüklərinizi söyləyin, bildüklərindən qalmasun,-deyü cavab verdi. Anlar da İsgəndərə gəlüb vaqei-halı eyniylə bəyan və əyan eylədiklərində Tutyanuşa ziyadə acıyub, zəngilərdən qanını alub, cahanı başlarına təng eyləmək üzrə bel bağladı.

Rum əsgəri, çünki zəngilərin adam qanı içdiklərini eşitdilər, qorxuya düşüb: Bunlar kibi divlərlə insan necə cəng edər? – deyü cənabi-həqqə təzərrə və niyazlar eylədilər. Ol gecə yenə böyləcə qərar edüb, sabah olub aftabi-aləmtab toğı məşriq meydanına dikəldikdə, İsgəndərdir, əmr eylədi ki, koslar və təbii və surnalar çalunub, əsgər cəngə hazır olalar.

Pəs koslar sədası qübbeyi-fələkə peyvəstə olduqda Rum əsgəri silahlanub bölük-bölük meydana gəlüb, səf bağladılar. Zəngilərdir, Rum əsgərinin səflərini gördüklərində, anlar dəxi qarşularına səfləndilər. Pəs iki tərəfdən bir neçə dilavər meydana girüb bir miqdar əlləşdilər. Lakin Rum əsgərinin gözi zəngilərdən qorxub, Tutyanuşun qanını içdiklərindən, qanları quruyub, əlləri cəngə varmazdı. Nə hal isə, canlarını dişlərinə alub bir miqdar cəng eylədilər. Getdikcə zəngi əsgəri qalib olub, Rum dilavərlərindən meydana gəlür adam qalmadı. İsgəndər bu halı gördükdə təbli-asayiş çaldurub, iki əsgər meydandan dönüb,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

ordularına gəldilər. İsgəndər Rum əsgərinin qorxuya düşdüklərindən pərişan olub, Ərəstuyi hüzuruna dəvət edüb, dedi ki, əsgərimiz zəngilərdən yüz çevirdilər. Bunun kibi iş isə əsgərlə gəlürkən dilavərlərin hər biri qorxuyu aşkar edüb, meydana girmədilər və zəngilər bu halı gördükcə qüvvətləri ziyadə oldu. Əgər bir-iki kərrə dəxi böylə cəng olunursa, əsgərimiz yüzlərin döndərüb, qərarı fərarə təbdil etməklə bir əzim rüsvaylıq olur. Buna çarə görülmək gərəkdir, - dedikdə, Ərəstudur, padşaha dualar edüb: Bu zəngi əsgərin hər biri bir divə bənzər zorlu məlunlardır. Rumi əsgərinin qorxduqları qədər vardır, lakin nə çarə? İş bu yüzdən oldu, əcz göstərüb, buraxub gedərkən, dəxi ziyadə rüsvaylıq olub, ardımıza düşüb, əsgərimizi həlak etməklə bədnam oluruz. Əgər tərəfimizdən birər dilavərlik görmiş olsalar, bə’də adam göndərüb, sülhə talib olmaqda yox idi. Lakin bu halda müdara bir vəchlə mümkün degildir, bir qeyri yüzdən tədbir edüb, adımızı adam yeyiciliğə çıxarmaq gərəkdir. Ta ki, anlar qan içmək ilə əsgərimizə neçə qorqu verdilər isə, biz də adam əti yeməklə anlara qorqu verəlim. Ümiddür ki, bu tərz üzrə anlar da xofa düşüb, bir qaç əsgərimiz qarşılamağa qadir ola. Bir qaç dilavər qondərəlim, bir qaç zəngi tutub gətürsünlər. Dövlətlü padşahım qəzəblə birinin başını kəsmək fərmanın edüb, bə’də başını mətbəxə göndərüb pişürməgə tənbih sürsünlər. Biz aşçıbaşıya söyləyəlim ki, yerinə bir siyah qoyun başını pişürüb, vəqti-təamda bir tabağa qoyub, süfrəyə qosunlar. Nə qədər zəhmət isə də, səadətli padşahım, ol qoyun başından zəngilərin gözi önündə yeyüb, təmam mərtəbə rəğbət göstərələr və: Bən zəngilərin əti böylə ləziz və lətif olduğunu bilməzdim. Rum əsirləri yerdim, bundan sonra hər vəqdə bizə zəngi ətindən kabab eyləsünlər, - deyü fərman buyurun. Qalan zəngiləri zarafatla qaçıralım, adam əti yemək qanı içməkdən qorurnc olmağın, ümiddir ki, bu işdən zəngi əsgəri xofa düşələr. Böylə sözanlamaz heyvanlara kəndi xoyları ilə görünmək gərəkdir, - dedikdə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

İsgəndər bu tədbiri bəgənüb, təhsinlər eylədi və bir qaç dilavərə əmr eylədi kim, varub zəngilər ordusu ətrafından bir qaç zəngi tutub gətürələr.

Pəs fərmanı üzrə varub beş-on zəngi tutub, kəşan-kəşan İsgəndərin hüzuruna gətürdilər. İsgəndərdir, kükrəmiş arslan kibi qəzəblə təxtində oturub, fərman eylədi kim, birisinin başını kəsüb mətbəxə verələr, ta ki, pişürələr və vəqti-təamda hüzuri-humayuna gətürələr. Həman dəm birisinin başını kəsüb mətbəxə göndərdilər. Aşçıbaşı dəxi Ərəstun tənbihi üzrə bir siyah qoyun başını pişürüb, təamla İsgəndərin süfrəsinə göndərdi. İsgəndərdir, kəmali-rəğbət ilə yeməgə başlayub və başını salub: Zəngi əti nə tatlu imiş,-deyü dadi-həzz göstərdi və tənbih eylədi ki, şimdən sonra zəngi ətini süfrədən əskik eyləməsinlər. Zəngilər bu hala heyran olub, təəccübdə qaldılar. Andan sonra fəqirləri mətbəx çadırına təslim eylədilər. Gecə olduqda bağlarını pək bağlayub, buraqdılar. Pəs fürsət bulub, qaçub bəglərinə vardılar və İsgəndərin əhvalını gördükləri kibi bəyan eylədilər. Zəngi əsgəri bir əhməq qövm olmaqla gerçək sanub əzim xofa düşdülər.

Çünki sabah olub aləm yüzindən gecənin zülməti getdi, təbii və koslar sədası fələklərə qülğülə verüb, iki tərəfdən əsgər bölük-bölük meydana gəlüb, iki addam dəryası mövc urub, cuşü xüruşa gəldilər və atların ayağından qalqan toz cahanı tutub, sanki yerin bir qatı havaya çıqmışdı və bu tərəfdən İsgəndər sağ və sol alaylarını tərtib edüb, kənduyə məxsus olan dilavərlərlə ələmi-dində qərar eylədi; zəngi əsgəri dəxi səflərini tərtib, bəgləri ortalarında turdı. Əcəba, bu gün meydana kim girir və nə şəkil dilavər pəhləvanlıq göstərir ola?- deyü iki tərəfdən əsgər meydana baqub tururkən, həman dəm zəngi əsgərindən Zərahə nam pəhləvan meydana girədir. Sanki bir qara tağ hərəkətə gəlüb, Rum əsgəri üzərinə bəlayi-siyah nazil oldu. Qolları çinar dalına bənzər, ağzı mağara qədər, gözləri sanki qan çanağı idi. Əlqissə, bu heybət və səla-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

təblə əzmi-meydan edüb, bir miqdar ərzi-hünər eylədikləri sonra iki tərəfdə çalınan təbii və surnayı dögdürdülər. Bədə Zərahə buləndi-avaz kəndünün kim olduğunu bəyan edüb dedi ki, ey Rum əsgəri, bilin və agah olun ki, bənim adım Zərahə derlər. Zərbazu ilə neçə tağ kibi pəhləvanları zəbun, bir həmləmə taqət gətürməmişlərdir. İştə bu gün meydana girdim. Hər qanqınız qanına susamış isə, qarşuma gəlsün, cahanda mərdanəlik necə olurmuş görsün, - dedikdə Rum dilavərlərindən birisi biixtiyar olub, at qaldurub, meydana girdi və Zərahəyə bərabər olub, dedi ki, ey nabəkar zəngi, nədir sabahdan bəri eylədügün lafu kəzaf? Ərənlər meydanını boşmu sanırsan?! Ol fikirdəmisən ki, sana qarşu çıqar kimsə bulunmayub, istədigün kibi atub-tutasan?! Haman turma, həmlə eylə də, növbət bana gəldikdə, sən də gör ki, Rum dilavərləri necə imiş!-dedikdə Zərahə qəzəbə gəlüb, bir qılıc həmlə edüb, başını tənindən cida eylədi. Bu keyfiyyəti gördükdə Rum dilavərlərindən biri dəxi meydana girüb, ol dəxi həlak oldu. Əlqissə, Rum dilavərlərindən yetmiş nəfər dilavər meydana girüb hər biri Zirahə əlində həlak oldu.

Çünki Rum əsgəri bu halı gördü, Zərahənin həmləsindən cümləsinə qorqu düşüb, meydana girər kimsə qalmadı. İsgəndərdir, bu halı gördükdə cuşu silahla kənduyi arastə edüb, əjdərgir bir ata binüb, əzmi: - meydan eylədi və zəngi üstünə nərə urub dedi ki, ey nabəkar, sən xəsmini hənuz bildün. Ləgər (lakin) qarşumda turub qaçmaz isən, aləmi başına təng edüb, sana cahan qaç bucaq olduğunu göstərəyim və zorü qüvvət necə olurmuş sana bir həmlədə bildirəyim. Nədir, sabahdan bərü asub savurduğun? Boğazından keçirsə, bəni ye. İmdi bil və agah ol ki, bən Rum əsgərinin padşahı İsgəndərəm. Həman gözüni bir xoşca açub, əqlini başına düşür,-dedikdə, zəngidir, bu sözləri eşidincə bir atəş olub, gözünə cahan görünməz oldu və dedi ki, nabəkar, şimdi səni bu qılıc ilə iki parə edüb, yoldaşların yanına göndərəyim,-deyü həmlə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

eylədikdə İsgəndər qalqanını qarşu verüb, həmləsini rədd eylədi. Zərahə bunu gördükdə təəccüb edüb: Nabəkar rumi həmləmi nə əcəb savuşdurdu?!-deyüb turarkən İsgəndər atəş kibi gəlüb, əlində olan arslan başlı kürzi zəngi üzərinə həvalə eylədi. Sanki Elburs dağına zəlzələ düşdü…

…Ud və ənbər və diba və gövhər və hesabsız simü zər və tola-tola kəlan atlar və mürəssə rəxtlər və davudi zirehlər və hinduyi qılıclar hazır və mühəyya olub, namə ilə müqərriblərdən birinə təslim və Daraya irsal olundu.

Çünki Daraya vasil oldu, İsgəndərin bu mərtəbə şövkət və dövlət və bu qədər xəzinə və nemət və buncılayın zəfər və nüsrətə nail olduğundan həsəd edüb, gələn adama çoqluq iltifat eyləmədi və həsədini izhar edüb, birər biməni sözlər söyləyüb, elçiyə münkəsir eylədi. Ol da gəlüb, bir-bir bəyan eylədikdə İsgəndər Daranın böylə hərəkətindən rəncidə olub, kin bağladı. Sair ətrafda olan padşahlar isə əzim hədiyyələr ilə: Qəzanız mübarək olsun! – deyü təbriknamələr göndərüb, ərzi-xülus eyləmişlər. Sonra bu namü nişan yedi iqlim, dört guşəyə yayılub, cahan xəlqi rumilərin bu dilavərliklərinə təhsin və afərinlər edər oldular.

## Bu məhəl İsgəndərin Dara ilə cəng murad eylədikdə kəndusinin qalib olmasına fal eylədügidir

Rəvayət olunur ki, İsgəndər zəngi cəngindən sonra təxtində qərar eyləyüb, səfayi-xatirlə eyşü işrət içün hər gün bir bağçaya təşrif edirdi və daima Ərəstu və sair hükamə və üqəla ilə söhbət eyləyüb, hər nərəyə gedirdisə, böylə götürüb, əsla yanından ayırmazdı.

Çünki Daraya xatiri qalub, könlündə kin bağlamış idi, izhar edüb, bu neçə zamandan bəri hər yil verilə gələn xəzinənin, vəqti gəldikdə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

göndərməyüb müqəyyəd olmadı. Tamam dövlətin qüvvəti və qəti olmağın zorbaz ilə məmləkət alub, bütün cahan şahlarına qələbə eyləmək sevdasına düşməklə Daraya müdara eyləməyüb, ibtida anınla pənələşmək murad eylədi.

Günlərdə bir gün ava binüb səhrada seyr və şikar edərkən gördi kim, bir qaya üzərində iki danə kəklik turmadan biri-biriylə cəng edüb, gah bu anın başını yolub, gah ol da bunun qanadını qırub, pəhləvanlar kibi cəngə girmişlər. İsgəndərdir, bunları bir zaman tamaşa edüb turdı. Ətraflarını bu qədər adam aldı, əsla cəngi pozmadılar. İsgəndərdir, bu hala heyran olub: Əya, bu quşların biri-biriylə çaq bu qədər xüsumuna səbəb nə ola? – deyü təəccüb vardı və Bundan iyü qal olmaz, - deyüb, birinə kəndü adını və birinə də Daranın adını qoyub, görəyim qanqısı qalib olur ki, ana görə əməl edəyim,- deyü tamaşaya turdu.

Quşlardır, bir zaman cəng və cahanı biri-birinin başına təng eylədilər. Axırkar İsgəndərin kəkligi qalib olub, Daranın kəkligini həlak eylədi. İsgəndər bu halı gördükdə, falı rast gəldügindən: Haq-taala həzrətinin əvniylə, zəfər və nüsrət bizim tərəfimizdən olur, - deyü şad və məsrur oldu. Andan sonra kəklikdir, salına-salına gedüb, bir qayanın üstünə çıqdıqda dərhal bir şahin çıqa gəlüb, kəkligin başını qopardı. İsgəndər bu haldan ibrət alub: Gərçi quş xəsmini həlak eylədi, lakin ol da dərüqəb cəzasını buldu, - dedi. – Dara ilə bizim əhvalımız dəxi böylə olacağında şək yoqdur,-deyü cəzm eylədi.

Rəvayət olunur ki, ol məhəldə fələgin bir qatına çıqmış qübbə var idi ki, hər kimin bir hacəti olsa, ol qubbənin altına varub muradını söylərdi. Əgər qübbədən sözün eyni gəlürsə, fal xeyir olub, ol işə başlardı. Əgər qeyri-dürlü səda gəlürsə, ol işdən həzər eylərlərdi.

Pəs İsgəndər yanında olanlardan birinə əmr eylədi kim, Dara ilə bizim əhvalımızı söylə, gör kim, qübbədən bir səda gəlür, - dedikdə, ol kimsə də varub dedi ki, İsgəndər cahana qələbə edüb, Darayı bozub,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

təxtini əlindən alur, - deyü çağırdı. Həman bəseynə qübbədən yenə bu səda gəldi. Çünki bu fal da rast gəldi, İsgəndərə qüvvəti-qəlb hasil olur, süruri-tam ilə şikardan dönüb, sarayına gəldi. Andan sonra müşavirə içün cümlə hükəma dəvət olunub, İsgəndərdir, cümləyə xütub edüb dedi ki, cənabi-həqi-ali-şanə kəndi lütfü kərəmindən bizə buncılayın dövlət ehsan eyləmişdir. Nə lazımdır ki, ikidə-birdə Daraya bu qədər xəzinə verüb, ərzi-übudiyyət eyləmək? Dövlət və səltənətdə xod andan alçaq degiliz ki, əmrinə itaət edəvüz. Əgər anun tacü təxti varsa, bizim də qılıcımız var. Əgər əmrinə itaət etməyüb, xəzinə verməgimizdə əsgər cəm edüb, üzərimizə gəlürsə, həq-taalanın nüsrəti bizimlə olmağın anınla cəng eyləməkdən borcumuzuz. Əgərçi bizim əsgərimiz anın əsgərindən az, lakin cümləsi yekdil olub, uğurumuza can və baş dəric etməzlər, cənabi-həqdən ümid oldur ki, ana zəfər bulub, tacü təxtini əlindən alavuz. Şimdi bir bəhanə olsa ki, üzərinə varmaq vəsilə ola, - deyü hükəmadan səvval edub: Bu xüsusda sizin rəyiniz nədir? - dedikdə anlar da padşaha dualar edüb, rəyi-humayunları aqilanə olub, əsla qüsur və xətası yoqdur, pək gözəl, - buyurdular. Lakin lütfü kərəm edüb, təfəkkür və rüsxət buyurub, əmri-humayunları üzrə xatirə gələn tədbiri hüzuri-dövlətlərinə ərz edəlim deyü biröz təfəkkürdən sonra dedilər ki, şəhriyarım, siz bu xüsusda əcələ etməyüb, səbr eyləyin. Əgər ibtida ol əsgər cəm edüb, hərəkət eylərsə, ana miqdarını bildürmək asandır. Anın əlindən gələn haman zövqü səfada olub, daima məsti-layı-əql olmaqdır, amma padşahımız əsgər cəm edüb, səflər bozub, cərgələr çəkər. Netə kim, zəngi cəngində cümlə xəlqin məlumu olmuşdur. Siz həq-taalanın dininə xidmət edüb, əmrini yerinə gətürməgə səy edirsiz, ol isə din və məzhəb nədir bilməz. Dünyada nə qədər yaramazlıq varsa, cümlə kəndusində mövcuddur. Sizinlə nə münasibəti var? Həq ilə batil qatı pək aşkarədir. Ümiddir ki, qılıcınız Qafdan-Qafa hökm edüb, cahan xəlqi bikülliyyə əmrinizə müti və



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

hökmünizə ram olalar, - deyü, dua ilə xətmi-kəlam eylədilər.

### Bu məhəl İsgəndərin poladdan ayna yapduğudur

Rəvayət olunur ki, İsgəndər zamanına gəlincə ayinə dəxi peyda olmamış idi. Çünki İsgəndər hikmət ilə neçə şeylər peyda eylədi. Pəs, murad eylədi kim, bir şey dəxi peyda eyləyə ki, məxluq baqdıqda kəndi surətini görə. İbtida altunla gümüşi əritdilər və qəlibə döküb cila verdilər, murad üzrə olmadı. Bu tərz üzrə dəmirdən qeyri cümlə məadini təcrübə edüb, birində murad yüz göstərməyüb, axırkar dəmiri təcrübə etdiklərində surət görünüb, murad hasil oldu. Pəs poladdan ayinə peyda edüb, lakin gah dört güşəli və gah altı güşəli edüb, biri də gərəgi kibi surət göstərməyüb və kərmi eylədiklərində tamam surət göstərməgin, ol şəkli ixtiyar eylədilər.

### Bu dastan Dara İsgəndərə xərac içün adam göndərdikdə verməyüb, cəngə səbəb olduğudur

Günlərdə bir gün İsgəndər sarayında qərar edüb məclisi-xas tərtib eyləmiş idi ki, nə qədər hükəma və müsahibələri varsa, cümlə ol məclisdə hazır olub, dürlü-dürlü eyşü işrət olunurkən Dara tərəfindən adam gəlüb, izn olduqda İsgəndərin hüzuruna girüb, duadan sonra Daranın salamı ilə fərmanını bəyan edüb, dedi ki, şəhriyarımız buyurdu ki, bunca zamandan bəri verə gəldikləri xəzinəyi bu sənə verməməgə səbəb nədir? Bizim dövlətimizdə nə şəkil zəbunluq gördülər ki, itaətmizdən yüz döndərdilər? Həman ehmal eyləməyüb bir gün əvvəl xəzinəyi göndərsinlər, ta ki, ortalıqda olan sülh və səlah bozulmasun, yoxsa zərər çəkər, - deyü Daranın əmrini tamam eylədi. İsgəndərdir, qəzəbə gəlüb, gələn kimsəyə vafir acı söz söylədi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Rəvayət olunur ki, hər yil Rumdan Daraya hesabsız xəzinə gədüb, içində neçə töhfələr bulunurdu. Cümlədən biri yumurta qədər altun ki, mədəndən ol qiyafətdə çıqub, sonra əməlolma degil idi və bir şahanə münəqqəş düşmə ki, görən adamın gözü qamaşurdiı. Lakin bu dəfə İsgəndər kamal atəşində gələn adama dedi ki, var padşahına söylə ki, şimdi vəqt bir dürlü dəxi olub, ol altun yumurtayı yumurtlayan quş yuvasından uçub getdi və rüzgar ol düşməyi düşürdi, hər yil altun və xəzinə olmaz. Gah sülh olub, gah da cəng olur. Padşahın cahana sığamayub bizim məmləkətimizdən nə istər? Lütf eyləyüb, bizi kəndi halımıza qoyub, səfada olsunlar və illa, aralıqda qovğa olur. Bir parə fikr edüb olur olmaz. Xam sevdadə olmasun, - dedikdə gələn adam bu atəşi cavabları eşitdikdə, söyləyəcək sözləri cümlə unudub, xofundan haman yer öpüb, çıqub getdi və gəlüb Daraya İsgəndərin sözlərini bir-bir bəyan eylədikdə ələmindən gülüb dedi ki, heyf və səd heyf, nə günlərə  qaldıq ki, İsgəndər bizim üstümüzə əsgər çəküb gələ. Gərək şu yəban oğlanını ki, bizi cəngi ilə qorqudur əcəm şəhriyarının qüvvəti və qüdrətindən xəbəri yoq ki, üzərinə İsgəndər degil, Qaf tağı qalqsa gəlsə, bir həmləsinə taqət gətürəməz. Sərçə ilə şahinin nə münasibəti var, anın dəxi ruzgardan tabança yedugi yoq. Bir süri yəban xəlqinə qalib olmağla kəndusini bir əzim padşah sanur. Ana həddini bildirmək gərəkdir, - deyüb, təkrar bir adam dəxi ehzar alunub əlinə bir tob ilə bir çövkan və bir şəngsüsam verüb və bundan məqsudi və eydügini bir-bir bəyan edüb, İsgəndərə göndərdi…

…Günlərdə bir gün İsgəndərin təxtgahına varub, Dara tərəfindən gəldügini bildirüb, izn olduqda hüzuri-İsgəndərə girüb, yer öpüb, dua və səna etdikdən sonra: Məlumi-humayunuzdur ki, xidmətkarların canı padişahların əlində olub, fərman eylədikləri əmrə itaət etməyənləri qətl edirdilər. Əgər bu qullarını əfv edüb, padşahımızın göndərdügi cavabı söyləməgə rüxsəti-humayun olursa, söyləyəyim, - dedikdə, İsgəndər



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

bildi ki, Dara bir cavab göndərmiş ki, hərif xofundan izn istər.

Pəs izn verüb: Göndərilən cavabda sənin nə suçun var? Hər nə isə, həman söylə,- dedikdə, hərifdir, məhud şeyləri İsgəndərin önünə qodi və: Şəhriyarımız buyurdu ki, dəxi uşaqdır, bu çövkən və tob ilə oynayub, cahangirlik sevdasında olmasun və əgər əsgər cəm edüb, cəng eylərəm dersə, iştə bizim əsgərimiz bu susam kibi hesaba gəlməz, inadı qoyub bunca zamandan bəri verə gəldügi xəracı göndərsün, yoxsa cahanı başına təng edərəm, - dedi. İsgəndərdir, çünki Daradan gələn töhfələr gördi, fal tutub hərifə dedi ki, padşahın lütf edüb bizə çövkan göndərdi. Ömrləri çox olsun! Çövkan ilə uzaqda ola şeylər çəkilə gəlməgin, bu çövkan ilə məmləkətimi çöküb, kəndu məmləkətinə qat deməkdir və tob ki, yer yüzinə bənzər, bütün yer yüzinə malik olursın deyü, himmətdir, - dedi və əmr eylədi ki, susamı yerə saçub, sarayda olan quşlara yedürələr. Filhal quşlardır, gəlüb süsamı düşürüb yedilər. Bə'də İsgəndər hərifə dedi ki, padşahın əsgəri süsam kibi isə, bizim əsgərimiz quş kibidir və şinigini üzərlik toxmı ilə todurub, əsgərimizin miqdarı dəxi yüzərlik qədərdir. Padşahın bildügindən qalmasun, -deyü hərifi yolladı.

Pəs hərifdir, yola rəvanə olub, Daranın hüzürinə gəldi. Əhvalı bir-bir bəyan eylədikdə, Daradır, qəzəbə gəlüb, əmr eylədi ki, fərmanlar yazılub, əsgər cəm edələr. Pəs az vaqtda ətrafdan kök və murə olmuş ol qədər cəm oldı ki, səhralara sığmaz oldular. Dəftərə aldıqlarında tamam toquz kərrə yüz bin nəfər adam olduğu Dara hüzuruna ərz olundu.

### Bu məhəl Dara İsgəndərin üzərinə əsgər çəkdügidir

Rəvayət olunur ki, çünki Dara yer götürməz əsgər cəm eylədi, həman, cahana zəlzələ verərək qalqub, qandasan, Yunan, deyü



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

İsgəndər üzərinə əzm eylədi. İsgəndər isə kəndi aləmində olub, Daranın bu qədər əsgər ilə yürüdigindən xəbəri yoğ idi.

Günlərdə bir gün, fəryadçılardır, gəlüb Daranın bu qədər əsgərlə məmləkət ətrafını xərab edərək, gəldügini xəbər verdiklərində İsgəndər etimad etməyüb: Əsli yoqdur,-dedi. Axır gördi kim, qarətzədə olan əhaliyi-vilayət və füqərayi-rəiyyət biri-biri ardı seyrə dökülüb gəlmədədir. Etimad eylədi və ətraf məmalikə hökmlər göndərüb, az vaqtda Misir və Rum və Firəng və Rus və Leh vilayətlərindən vafir əsgər cəm olub, dəftər olunduqlarından üç kərrə yüz bin əsgər olduğı hüzuri-İsgəndərə ərz eylədilər. Andan sonra müşavirə içün İsgəndər üməra və hükəma və üqəlasını dəvət edüb, dedi ki, iştə Dara yer götürməz əsgərlə vilayətimizi xarab edərək, sel kibi üzərimizə aqub gəlir, şimdi nə çarə eyləyəlim? Əgər əl qaldırmayub, qarşu qomazsaq, dünyayi xarab edər. Əgər cəng edərsək, bunca zamandan bərü şəhriyari-cahandar olan padşahı payimal eyləmək də mürivvət degildir, - dedikdə cümləsi bir ağızdan dua edüb dedilər ki, bu qullarının anladıqları oldur ki, hala mövcud olan əsgərlə bu məhəldən köçüb qarşularına varıla və madam ki, anlar tərəfindən cəng və cidalə mübaşirət olunmaya, bizim tərəfimizdən dəxi əl qaldırılmaya, ta ki, ibtida zülm və təəddi ota tərəfindən zühur eyləyə. Padşahlar biri-birinin əlindən məmləkətlərin ala gəlmişlərdir. Haq-taala padşahımızın dövlətini gündən-ünə ziyadə eyləsün. İnşallah-taala, Daranın məmləkətinə degil, yaqın zamanda bütün cahana malik olub, Qafdan-Qafa hökm edəriz, - deyü sözlərin tamam eylədilər və bu söz üzərinə qərar eylədilər. İsgəndərin bu müşavirədən məqsudi ətraf məmalikdən gələn əsgər kənduyə yar olurmı deyü, təcrübə idi. Amma cümləsi kənduyi yar olub, uğrunda can fəda eyləyəcəklərin bildikdə şad olub, bir mübarək vəqtdə təbil və kosların çalaraq qalqub: Qandasın, Dara?-deyü əzmi-rah eylədi.

Daradır, İsgəndərin hərəkətindən agah olduqda yanında olan ərkani-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

dövləti və əsgərin ixtiyarını müşavirə içün hüzuruna dəvət edüb dedi ki, iştə xəsmimiz olan İsgəndər də əsgər cəm edüb hərəkət eyləmiş. Gərçi bizim əsgərimiz anın əsgərindən çoxdur, lakin cəngdə talei qüvvətli olub, keçənlərdə hər biri divə bənzər hesaba gəlməz zəngi əsgərini bozub, qalib olmuşdur. Şimdi bu ki: Nə tədbir edüb, nə yüz hərəkət olunmaq gərəkdür?-dedikdə cümləsi əpsəm olub, heç birisi cavaba qadir olmadı. Axır içlərindən cahan görmüş və neçə şəhriyarlar məclisinə girmiş bir ixtiyar kimsə var idi, sözə gəlüb, ibtida padşaha dualar edüb: Ey şəhriyari-alişanım, bu ixtiyar qulunuz neçə həkimlərlə söhbət edüb və bizdən əvvəl cahana gələn ixtiyarlardan böylə eşitdim ki, Cəmşid zamanında olan hükəma elmi-nücumla gələcək zamanın əhvalını bilüb, bu gunə bəyan eyləmişlər ki, Rum vilayətindən bir padşah zühur edə ki, qayət şahbaz ola və yer götürməz əsgərlə cahanı başdan-başa zəbun edüb, yedi iqlim, dört guşəyi əmrinə ram edə və heç cahanda qulluğuni yormadıq, bir padşah qoymayub, cümləsiylə cəng edüb, kimini həlak və kimini kənduyə qul edə və ibtida əcəm təxtini alub, bütün əcəm diyarına şah ola və cümlə atəşə tapanları həlak və kəlisaların xərab edə və qeyri din aşkarə edə, olmaya ki, İsgəndər ol hükəma dedikləri kimsə ola. Xeyli fikir və tədbir eyləmək gərəkdir. Şimdi üstünə varub cəng edərsək, qanqı tərəf qalib olacağı məlum degil, sonra güc olur. Həman şəhriyarıma münasib olan oldur ki, İsgəndərin adını anmayub açmaz qoyasız. Şimdilik anın bizim üstümizə gəlüb, məmləkətimizə əl uzatması yoğ ikən zori lə üzərimizə gətürmək məqul degildir. Ol da varub, Rum məmləkətinə qənaət edüb, kəndi aləmində olsun. Padşahım da Rumdan gələn xəzinədən fəraqət edüb, bu məhəldən dönüb, kəndi səfalərində olsunlar. Uyur yilanın quyruğunu basmaq aqil işi degildir, -deyü neçə sözlər söylədi.

Dara çünki ixtiyardan bu cavabları eşitdi, könlünə xeyli qoşqu düşüb fikrə vardı. Lakin İsgəndərə qəzəbi ziyadə olmağın təkrar yarlayub



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

ağzından atəşlər saçaraq ixtiyarə dönüb dedi ki, ey qoca mətuh bizim əsgərizdə nə yüzdən zəf və pərişanlıq gördün ki, tumardan Rum əsgərini bəyan edüb, bulduğun sözi söylərsin? İsgəndər nə oğlandır ki, cahangir olub, bütün aləmə malik ola. iştə bu günə yarın cəng olduqda gör ki, Rum əsgəri bizim bir həmləmizə taqət gətürə bilürmi. Bu nə olmaz biməni sözdür ki, biz bunca zamandan bəri tamam aləmə hökm edüb, cahan şahları cümlə bizə sərfərü edüb xəzinə göndərirkən, şimdi sənin sözünlə bu qədər cəm olmuş əsgərlə dönüb gedəlim və bir avuc dərmə-çatma zəbun əsgərli oğlandan qaçub qədrimizi yerlərə çalalımmı? Əcəm təxtgahına Cəmşiddən bəri əslü nəslimiz padşah ola gəlmişkən, olur-olmaz kimsə o təxtə şah olamaz. Sən qoyayub, əqlin pərişan olmağın, sərçə gözinə şahin görinüb. Hər gördügün kimsəyi dilavər sanub biməni xəlt eyərsin. Sən şimdən sonra dövlət ümurini bilməkdən qaldın. Həman bir guşədə əpsəm oturub, duamıza məşğul ol. Cahangirlik sənin anladuğun məsləhət degildir, - dedi.

İxtiyardır, çünki Daranın bunclayın ətşini gördi, söylədügi sözdən peşiman olub, sözini çevirüb, Daranın məzacına görə söyləməgə başlayub dedi ki, şəhriyarım, muradım padşahın əzəməti möhkəm olub cəngə qandırmaq idi. Yoxsa, həqiqətdə şəhriyarımın yanına cəm olan əsgərin qarşusuna yalnız Rum əsgəri degil, bəlkə cümlə cahan xəlqi bir həmləsinə taqət gətürməzlər. Sizin dövlətiniz Cəmşiddən bəri gündən-günə ziyadə olub, qüvvət bulmuşdur. İsgəndər hənuz zühur edüb. Dəxi dünyanı qaç bucaq olduğundan xəbəri yox, cahangirliklə nə münasibəti var?! Keçənlərdə bir qaç sərsəm zəngilər bozmağla bir əzm iş etmiş sanub, cahana sığamaduğundan şöylə küstahlığa başladı. Padşahımın əzimət humayunlarıyla miqdarını bildirmək qəti asandır həman, münasib olan bir gün əvvəl üstünə varub, payumal eyləməkdir. Ta ki, qeyrilərə mövcib ibrət olub, ədəbsizligə cürət eyləyələr, - deyü sözini tamam eylədi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Çünki Dara ixtiyarın əvvəlki sözündən qəzəbə gəlmiş idi, həman dəm katiblərə əmr eylədi kim, İsgəndərə zəhərli cavablarla bir namə yazalar. Pəs namə tamam olduqda, üstünü möhürləyüb, bir mötəmid adamla İsgəndərə göndərdi. Hərifdir, namə ilə bargahi-İsgəndərə varub, Dara tərəfindən elçi olduğunu bildirdikdə, qapuçılardır, hüzuri-İsgəndər ərz eylədikdə məzun olub, İsgəndərin önünə gətirdilər. Hərifdir, yer öpüb, dua eylədikdən sonra naməyi İsgəndərə sundi. İsgəndər də möhürini rəf edüb, katiblərə verdi.

## Daranın İsgəndərə naməsidir

Namənin ibtidasında cənab həq-taala həzrətinə həmd və sənadan sonra demiş ki, ey xam fikirli oğlan, saqın! Kəskin pəncəli arslanla pəncə tutuşmaq sevdasında olma ki, qolunu qırıb miqdarını bildirər. Sən bizimlə cəng edəcək adam deyilsən. Bizə xəsm olmağa yenə kəndumiz kibi bir şəhriyari-alişan gərəkdir. Əgər tazəlik sevdasiylə zor ki, məğrur olub qarşu qursan, sana bir iş edərəm ki, ta qiyamətədək dillərdə dastan ola. səni bozub, əsgərini qırdıqdan sonra Rum vilayətinə dəxi atəşlər burağub, bir canlı heyvan qoymayıb, həlak edərəm. Ehmal etdüklərümüzə məğrur olma. Bir-iki gündən sonra cahanı başına təng edüb, aləmi xarab etsəm gərəkdir. Sana bir qaç dəfə tənbeh eylədik, müfid olmadı. İştə bu dəfə də namə göndərüb, sana edəcəgimiz işi müqəddimcə bildirək, ta ki, üzrin qalmaya. Əgər sözümuzi tutub, bunca zamandan bərü verə gəldügün xəzinəyi göndərüb, edə gəldügün, qulluğı yerinə gətürərsən, eylədügin küstaxlığı əfv edüb gedəriz. Sən də məmləkətinə varub, rahat ol. Əgər inad və müxalifət edərsən, bildim-bilmədim deməyüb vaqtına hazır olasın; baqi cavab qılıca həvalə olunmuşdur, - deyü naməsini tamam eyləmiş.

Çünki namədir, oqunub, məfhumi İsgəndərin məlumi oldı, əmr eylədi



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

kim, hər sözinə münasib cavab yazıla. Pəs cavab yazılub, İsgəndərə sunulub, muradı üzrə olmaqla möhürləyib, gələn adamın əlinə verdi. Hərifdir, aramü qərar etməyüb, naməyi Daraya irişdirdi.

Daradır, namənin möhrün qaldırub katiblərə hökm eylədi.

## İsgəndərin Daraya naməsidir

Namənin ibtidasında həq-taala həzrətinə həmd və səna eylədikdən sonra demiş ki, cənab həq-taala sizi və bizi padşah eyləməklə sair qullarından mumtaz eyləmişdir. Pəs, bizlərə də lazım olan budur ki, bu nemətin şükrün bilüb, kimsəyə zülm və təəddi eyləmiyəvüz. Ta ki, həq-taala ehsan eylədügi dövləti bərqərar edüb, cahanda bir miqdar paydar eyləyə və əgər cövr və zülm yoluna gedüb, xəlqi rəncidə eylərsən, əcdadından Zöhhakın əhvalını tarixlərdə oquyub bilmiş səgdir ki, yaramazlığından neçə məkrə mübtəla olub, o sözlərində yalanlar zühur edüb, neçə zaman ol zəhməti çəkdikdən sonra axır Fridun gəlüb, həlak eyləmişdir.

Pəs, sən də bunca zamandan bərü ətraf məmləkətdə olanları rəncidə edüb, hala bilasəbəb bu qədər əsgər cəm edüb, bizim üstümüzə gəldin. Həq-taala həzrətin övni ilə sana qalib olub, əcəm diyarına malik olursam, həzrət İbrahim əleyhissəlamə nazil olan sühüfi-həq içün atəşxanələrinizi cümlə xarab edüb, ol abtil olan dillərinizi gedərüb, həq dini aşkarə edəyim və yaramaz adətlərinizin yerinə gözəl adətlər qoyayım.

Sən bizi kəndunə müqabil olmağa layiq görməyüb, bir miqdar biməni sözlər söyləmişsin. Bu gün-yarın cən öldükdən hər kəsin dilavərligi məlum olur. Çünki əsgərimlə bu məhəllə gəldim. Ya başımı verürəm və ya təxtü tacını aluram. Böylə sözlərlə səndən qorxub geri dönər adam degiləm. Sənin təxtü tacına malik olmaq həq-taala həzrətin yədi-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

qüdrətində olmağla gah əslü nəslinlə və gah cəm etdügin əsgərinlə qürurlanub lafü kəzaf etmə ki, bunun kibi sözlər mərdlərə layiq deyildir. Kəndimizin əsgəri sənin əsgəründən dəxi ziyadə bahadır ikən həq-taalanın övniylə əlimizdə bozulub münhəzim oldular. Bundan ibrət alub. tədarükini görəsin və ibtida biz sana əl qaldurub zülm eyləmədik. Bəlkə, sən cahan xəlqini başına cəm edüb, qanımızı döküb Rum məmləkətini xarab eyləmək üçün gəldügini eşitdikdən sonra dəfi-bəla içun zəruri bir miqdar əsgər cəm edüb, qarşuna gəldim. Bundan sonra belə əsgər sülhə talib olursan, nə gözəl, sülh edüb, dönüb yerimizə gedəriz və əgər cəng edirsən, ana da hazıruz, - deyü xətmi-kəlam eyləmiş.

Namə məfhumi Daranın məlumi olduqda qəzəbə gəlüb, ol məhəldən qalqub İsgəndər üzərinə yüridi, İsgəndər xəbərdar olduqda tədarük üzrə olub, ol gecə tərəfindən qaravullar çıqub sabahadək biri-birini bəklədilər. Sabah olub, aftabi-aləmtab qülleyi-Qafdan baş qaldurub cahanı münəvvər eylədikdə cəbə və cövşənlərin geyüb, silahların quşanub, gög dəmirə qərq oldular və tərəfindən koslar və kərənaylardır, çalınub, sədası zəminə zəlzələ və asimana vəlvələ salub, dilavərlərin hayu huyi və atların kişnəməsi ilə cahan toldu. Alaylar qurulub və səflər tərtib olunub, hər kəs bərlü bərindən qərar eylədi. Dara da alati-hərb ilə və kənduyə məxsus olan xidmətkarları ilə əsgərin ortasında qərar eylədi.

Rum əsgəri də alatı-hərbə qərq olub, bölük-bölük meydana gəldilər və sağ və sol alaylarını tərtib və səflərini arastə etdikdən sonra İsgəndər dəxi məxsus xidmətkarları ilə əsgərin ortasında turub, əmr eylədi ki, təbil və surnalar çalınub, aləmə vəlvələ verələr. İki əsgərdir, bir-birinin qanına təşnə olub, can alub-can verməgə bel bağladılar.

Pəs Dara əsgərinə işarət edincə, dilavərlərdir, bir ağuzdan Rum əsgərinin üzərinə hücum edüb, Rum əsgəri də qarşulayub, biri-birinə girdilər. Atların ayağı altından qalqan toz bulut kibi əsgəri bürüyüb,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

içində qılıclar şimşək kibi görinürdi. Getdikcə cəng atəşi alovlanub, iki əsgər bir-birini fənayə verməgə başladılar.

Dara da cəngə girüb Rum əsgərindən rast gəldügінə aman və zəman verməyüb, cəbəh və cövşən ruz bazusına təhəmmül edəməyüb kimini biçi ilə, kimi yarə və kimini mizraq ilə dəlik-dəlik edirdi. Qan ilə vücudi ləlrəng olub, həmlə eylədikdə əsgəri bölük-bölük dəmə-dəmə edirdi.

İsgəndər dəxi əsgəri-əcəmin başına qiyamətlər qoparub, səfləri bir-birinə urub, rast gəldügi pəhləvanın əvvəl əmrdə işini görir idi, aqibət önünə kimsə turamıyub, xeyli dilavəri xərcə sürmiş idi.

Daraya xəbər olunub: Nabikar Rumi aləmi fənayə verdi, -dediklərində əmr eylədi kim, əsgəri guzidəsi cümlə biryerə gəlüb birdən İsgəndərin üzərinə həmlə edələr.

Pəs dilavərlərdir, bölük-bölük gəlüb, birdən İsgəndərin üzərinə hücum eylədiklərində, İsgəndər var qüvvətini bazuya gətürüb, bunlara mərdanə və dilиранə cəngə başlayub, əmr eylədi ki, Rum dilavərlərinə xəbər edələr, ta ki, gəlüb kənduyə yardım edələr.

Pəs, Rum dilavərləridir, fövc-fövc gəlüb, ol məhəldə bir cəng eylədilər ki, cahanı bir-birinin başına təng eylədilər. Axırkar, getdikcə əcəm əsgəri çoğalub, İsgəndərin taqəti taq olmaqa başladı. Nagah Dara əsgərindən bir dilavər əksizdən İsgəndərə bir tiğ əlavə eylədi kim, zirehini keçüb birər təninə əsər eylədi. İsgəndər bu halı gördükdə çəst dəprənüb, hərifə bir qılıc çaldı ki, ta belinə varınca iki parə eylədi və murad eylədi ki, cəngdən dönüb, varub yerində qərar eyləyə. Lakin yenə fikir edüb, əgər şimdi dönərsən, İsgəndər qaçdı deyü, bəlkə, əsgərə bir pərişanlıq əl verə. Pəs, münasib olan cənab həq-taalayə sığı-nub, qeyrət etmək gərəkdir,-deyüb, ol məhəldə sabitqədəm olub, mümkün olduğu mərtəbə cəngi-cidaldan qalmayub, var qüvvətin sərf eylədi. Axırkar iki tərəfdən həlak olan əsgərin qanı sellər kibi meydanı



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

tutub, atlar qan içində yüzməgə başladılar, əsgərin də taqəti taq olub, axşam dəxi qərib olmağla Dara əmr eylədi kim, təbil-asayiş çalalar. Pəs iki əsgərdir, bir-birindən ayrılub yerlü yerinə gəlüb, rahət oldular.

### Bu məhəl Dara iki xidmətkarı əlində həlak olduğudur

Rəvayət olunur ki, Daranın iki xidmətkarı var idi. Bir qəbahət içün bunlara möhkəm siyasət eyləmiş idi. Bunlar da könüllərində Daraya kin bağlayub, fürsətin gözədirlərdi. Çünki ol gün iki əsgər bir-birinə qələbə edəməyüb, axşam olmağın bunlar bir yerə gəlüb, şu gecə qövlü qərar eylədilər ki, yarın iki əsgər cəngə girdükdə, aralıq yerdə Daranın fürsətin bulub, qanın dökələr, İsgəndərə əzim xidmət eyləmələriylə yanında izzət və hörmət bulalar.

Pəs, bu ittifaq üzərinə gecə içində İsgəndərin bargahına gəldilər və: Bir gizli sözümüz var, bizi padşaha bulaşdırın, - dediklərində qapuçılar da bunları İsgəndərə ərz edüb, izn olduqda içərüyə girüb: Şəhriyara, sizə bir böyük müjdəmiz var, əgər bu qullarına aman verərlərsə, hüzuri-izzətlərinə ərz edəlim, - dediklərində İsgəndər də bunlara aman verüb itminan verdikdə, dedilər ki, padşahım, bizlər Daranın ziyadə müqərriblərindən olub, lakin hər birimizə dünya qədər işgəncələr etməkdə, ikimiz ittifaq eylədik ki, yarın cəng olduqda qanını döküb, həlak edəvüz. Pəs, bu müjdə içün hüzuri-izzətinizə gəldik. Əsla fikirdə olmayub, səfanızda olun ki, sabah olduqda bəhri-bal Daraya fürsət bulub, həlak edəriz. Ol vəqtdə sair əsgərin də işi tamam olub muradi-humayunuz hasil olur. Lakin şəhriyarımızdan da rica ediriz ki, bu xidmətin müqabiləsində bu qullarına əzim ehsan edüb, mala müstəğrəq edəsiz, - deyüb, kimsə bilmədin yenə yerlərinə gəldilər.

İsgəndər bunların bu qəbahəti edəcəklərinə etimad etməyüb: Cahanda bir kimsə vəli nemətinə buncılayın qəsd eylərmi? Ancaq



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

əfəndilərinə bir miqdar xatirələri qalduğından atəş ilə gəlüb, bunun kibi olmaz söz söylədilər, şimdi varub yenə peşiman olurlar, - deyüb açmaz qodi.

Çünki sabah oldu, afitabi-aləmtab ilə cahan rövşən olub, iki əsgərdir, bölük-bölük meydana gəlüb, mötad üzrə cəngə şüru eylədiklərində ol iki haramzadələr bu vəchlə ittifaq eylədilər ki, biz Daranın yanından ayrılmayub, Rum əsgərindən birini göstərəlim, ol da üstünə sürdükdə öpsədən urub, işini tamam edəlim, - dedilər.

İsgəndərdir, tərtibi-süfufə müqəyyəd ikən ol iki haramzadənin sözləri xatirinə gəlüb: Aya, şu nabəkarlar bunun kibi qəbahətə cürət edərlərmi ola? - deyüb, dilavərləri yerlü yerinə göndərüb hər birini tənbeh eylədi kim, hər sabitqədəm olub, olur-olmaz şeydən ürkmiyələr və canü könüldən cəngə iqdam eyliyələr və kəndusi yeddi başlu əjdər kibi cəngə girüb əcəm əsgərinin başına qiyamətlər qoparub, rast gəldügini iki parə edirdi. Lakin əcəm əsgərinə həddü payan olmamağla qətiən yerlərindən dəprənməzlərdir. Əlqissə, bu hal üzrə getdikcə cəng atəşi ülüvilənüb, atlar qan dəryası içində yüzməgə başladılar.

Daradır, ol gün cəngə girməyüb, əsgər tərtibinə məşğul olmağla ol iki xidmətkar yanından ayrılmayub, daima fürsət gözdərlərdi. Getdikcə cümlə xidmətkarlar Darayı burağıb cəngə getdiklərin ol iki haramzadə gördükdə, fürsəti qənimət bilüb, ikisi birdən üstünə həmlə edüb, köksündə şöylə yara açdılar ki, qan çeşmə kibi boşanub atdan düşdü.

Pəs, haramzadələr bu işi eylədikləri kibi İsgəndərə gəlüb dedilər ki, padşahımızın ömrü uzun olsun ki, iqbali-hümayunlar ilə Daranın bir zəxmi işini tamam eylədik. Əgər etimad eyləməzlərsə, buyursunlar, ta ki, qanı ilə atlarını ayağına ləlgun edüb, etmad buyuralar. Əhdimizi yerinə gətürdik. Şimdən sonra şəhriyarımız da əhdlərinə vəfa buyurub, bu qullarına vədə buyurduqları xəzinəyi təmamən ehsan buyursunlar,-deyü sözlərini xətm eylədilər. İsgəndər, çünki, bunlardan bu sözi eşitdi, bildi



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

ki, ol nadanlar əfəndilərinin qanına girüb həlak eyləmişlərdir.

Pəs, eylədügi əhdə peşiman olub, bunlardan yerini sorduqda, İsgəndərin önünə düşüb, Daranın öldügü yerə gətürdilər. İsgəndər gəlüb gördi ki, ortalıq tənhalanub, yanında kimsə qalmamış və Daranın başında şahlıq tacı yerə düşüb, kəndü məcruh olub, qanla toprağa bulanub yatmış. İsgəndər bu halı gördükdə, atdan enüb, əmr eylədi kim, ol iki haramzadələri tutub möhkəm bağlıyalar. Andan sonra kəndusi Daranın yanına gəlüb, başını dizinə aldı. Daradır, gözünü açub gördi ki, bir kimsə gəlüb başını dizinə almış oturiyor. Həman dedi ki, ey pəhləvan, bəni kəndi halıma qoyub, yanımdan qalq, ta ki, qanım üstünə bulaşmaya. Bənim ömrüm axır olub, həyatım şəmi sönməgə az qaldı. Lütf edüb, başımı əlindən buraq. Hala görüyorsən ki, ədəmdir, yasına dalub gedərəm. Bəni bir ləhzə kəndi halıma qo ki, axır nəfsimi tamam edəyim. Əgər məqsudun üstümdə olan əsvabı soymaq isə, bir dəm səbr eylə, sonra istərsən, başımı da kəs, - dedikdə İsgəndər ağlayub, dedi ki, ey şəhriyari-alişanım, bən qulun İsgəndərəm, Sizin buncılayın qana qərq olub məcruh olduğına razı degildim. Lakin nə çarə ki, təqdir bu yüzdən imiş. Noleydi padşahımı böylə zarü zəbun görməyəydim və bu günlərə irməyəydim. Hey və səd heyf ki, İsfəndiyar nəslinin yadigarı cahandan getməklə dövləti-mülki-əcəm axır oldu və Cəmşid dövləti nəhayət buldu. Noleydi İsgəndər də sənciləyin məcruh olub, yanında can verəydi. Bir çarə biləydim, qadir olduğum mərtəbəyi sərf edərdim və nəqd ömrümi şəhriyarımın yoluna fəda edərdim. Lakin bütün dünya bir yerə gəlsə bu dərdə dəva edəməzlər. Həman niyazım budur ki, bu qullarına fərman buyuralar kim, lütf və ehsan edəyim və kimi yollarına fəda edəyim. Muradi-şərifləri hər nə isə bu qullarına fərman buyursunlar ki, yerinə gətürməkdə bin canilə səy eyləyəyim, - dedi.

Çünki Dara İsgəndərin bu vəchlə xatirini ələ alub, təsliyət eylədügini gördi, dedi ki, ey bənim tacü təxtə səzavər və layiq olan şahbazım, canı



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

boğazına gəlüb, ömri axıra irişmiş kimsə halından nə sorursan ki, sana deyəyim? Vücudum gülzarına xəzan yelləri hər tərəfdən əsdi və əcəl bəni böylə zarü zəbun edüb, cigərimi kəsdi. Tacü təxtimdən dur olub, qızıl qana daldım və başıma bəla arıları uşub, heyrətdə qaldım. Bənim bu halımı gör, ibrət al və ədlü dad ilə cahana avazə sal. Əgər sən də bənim kibi olursan, bila-şübhə bu hallar sənin dəxi başına gəlür və sanma ki, eylədügün yarına qalur və fani dünyaya gələn, əlbəttə, getsə gərəkdir və cahan bağında bitən bitsə gərəkdir. Nəslimizdən Bəhmən əjdər ağzında həlak olub, İsfəndiyar da Rüstəm əlindən mövt şərabını içmişdir. Bizim də cahandan getməmiz bu yüzdən imiş. Tacü təxt sana mübarək olsun. Çünki könlümüzdə olan arzulardan sual edüb, yerinə götürmək üzrə vəd eylədik. Pəs səndən üç şey rica edirəm. Biri budur ki, bəni bu hala qoyanları tutub həlak edəsən, biri də, çünki əcəm məmləkətinə radşah olasan, dərununda kimsəyə kin tutmayub, hər kəsi mümkün mərtəbəsi xoş tutasın və bir də bənim hərəmimdə olanları yabançı kibi görməyüb, qızım Rövşənəgi ki, cahanda misli bulunmaz bir nazənindir, alub kəndünə xatun edinəsin. Üştə səndən istədügüm bu üç şeydir, əgər kərəm edüb bu vəsiyyətlərimi yerinə götürərsən, lütf eyləmiş olurın,-deyüb sözini tamam eylədi və gözini yumub cahandan getdi.

Çünki cəngdə olan əsgər Daranın vəfatından xəbərdar oldular, biri-birindən ayrılub, cəngü cidaldan fərağət eylədilər. Andan sonra İsgəndər əmr eylədi, hərir kəfənlərlə Darayı bir altun tabuta qoyub, ol məhəldə dəfn edüb, üstünə bir ali qübbə bina eylədi. Çünki İsgəndər bu vəchlə müzəffər oldu, pəs Daranın təxtinə oturub, bunca zamandan bərü əcəm şahlarının malik olduqları xəzinəyə bir-bir gətürüb zəbt eylədikdə, əmr eylədi kim, bir miqdarını kəndü yanında olan əsgərə ənam edələr. Pəs, cümləsi qəni olub, İsgəndərin əyyami-dövlətinə dua eylədilər. Bə'də əcəm dilavərlərinə və Daranın əyani-dövlətinə bu



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

vəchlə tənbeh eylədi ki, cümləsi yanına gəlüb, dərgahına qul olalar və kəndu də hər birinə rəayətlər edüb və hallı-hallınca mənsəblər verüb, lütf eyləyə. Pəs əcəm xəlqi bu sözi eşitdikdə cümləsi biryerə gəlüb, kəmali-sərvərlə İsgəndərin dərgahına yüz sürüb, dualar eylədilər. Andan sonra birinə zərər etməyəcəginə İsgəndər əhd edüb, hər birinin müqəddimən zəbt eylədügi mənsəb hər nə isə, bəratını təcdid edüb, neçə tərəqqilər ehsan eylədi və xəzinələr açılub ənamü ətayi-vafirə ilə xoşhal eylədi. Anlar da İsgəndərdən bu lütfü kərəmi gördüklərində hər biri bin can ilə qul olub, duayi-dövlətinə məşğul oldular. Pəs, cümlə əsgərin könlündə İsgəndərin məhəbbəti Daradan yüz qat ziyadə olub, bu tərzü tövrə hezar afərin eylədilər.

Andan sonra İsgəndər meydana bir təxt qurdurub, üzərinə oturdu. İbtida fərman eylədi kim, Darayı həlak edən oğlanları gətürüb, hesabsız mal verdilər. Bə’də, İsgəndər: İştə sizə mal və xəzinə verdim,-deyüb əmr eylədi kim, boğazlarına iplər taqub, siyasət dəllalları bütün orduya gəzdürüb: Padşahına xəyanət edənin halı budur,-deyələr, ta ki, qeyrilər görüb, ibrət alalar, bə’də qarşu-qarşuya səlb edələr.

Pəs, bu haramzadələrin işi tamam olduqdan sonra cümlə xəlq İsgəndərin bu hökumətinə təhsin və dualar eylədilər. Bu hal üzrə bir qaç gün keçdikdə, bir gün İsgəndər divan edüb, cümlə əyani-dövlət və hükəma və ixtiyarlar cəm olub, hər kəs məclisi-şahanə münasib sözə başladı. Lakin Daranın ətbaində cahan görmüş və neçə şəhriyarlara xidmət etmiş bir pir var idi. İsgəndər bundan sual edüb, dedi ki, ey pir, sən bu qədər zamandan bərü neçə əhval təcrübə edüb, dünyanın keyfiyyətindən xəbərdar ikən Dara buncılayın yaramaz işə mübaşirət eylədikdə neçün nəsihət edüb, mən’ eyləmədin və bunun sonu nədamətdir, deyü tədbir qılmadın, ta ki, sənin sözünlə hasil olub, böylə girdabə düşməyə idi. Padşahlar xəta işləsələr, suç yanında olan üqəlanındır ki, ol iş xəta olduğunu söyləyələr, - dedikdə: İxtiyardır, sözə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

gəlüb dedi ki, daima həq-taala həzrəti şəhriyarımı afatdan biri edüb, cahan turduqca dövlət və şövkətlə müəmmər düşmənlərin müəmmər eyləyə. Qulunuz Daraya sözümi diriğ eyləməyüb, hər babda pəndü nəsihət eylədim və toğru yola dəlalət eyləməkdə var qüvvətimi bazuyə gətürdüm. Lakin heç biri də faidə vermədi və kəndi bildügindən qalmadı. Zira, çünki təqdiri-əmri dəftərini devirişdi və tacü təxtini səadətlü padşahıma vermişdi. Pəs, cümlə işlər xam olub dövlət kəndusindən yüz çevirməkdə idi və bəxtü iqbal padşahıma təvəccöh eyləməkdə idi. Həq-taalaya çox şükürlər edək ki, bu tazəlikdə cahan şahları həsrətiylə can verdikləri tacü təxtə nail oldunuz. Pəs, haman fürsəti qənimət bilüb, vəqteərini zaye eyləməsünlər və oturub, zövqü səfa ilə ömür sürsünlər, - deyüb sözini tamam eylədi.

Çünki İsgəndər pirin cahan əhvalından xəbərdar olduğunu gördi, təkrar sual edüb dedi ki, ey pir, sərəsgər olan kimsəyə cəng yüzində nə gunə tədbir eyləmək gərəkdir ki, zəfər və nüsrət yüz göstərə və xəsminə qalib olub, meydani-kəndusində qala? - dedikdə pirdir, cavab verüb: Padşahım, sənin kibi ədlü qüvvət sahibi ki, bir əsgərin içində ola, cümlə əsgərə qüvvəti-qəlb olub, bəhri-hali-xəsminə qalib olur. Bizdən əvvəl cahana gəlmiş və ruzgarı təcrübə eyləmiş ixtiyarlarından eşitdim ki, bir padşah nə qədər adil isə, qüvvət və şücaət on qat andan ziyadə olub, ədalət sahibində başqa hal vardır derlərdi və cəng vəqtində padşaha layiq olan budur ki, səbr edüb, yerində sabitqədəm ola və yardımı həq-taala həzrətindən istəyüb: Ya rəbbi, bəni mənsur və xəsmimi məqhur eylə,- deyü niyaz eyləyə. Düşmən bozulduqda yol vermək gərəkdir. Zira, bozuğun əsgəri qaçacaq yolları qapanıq görsə, əlbəttə, qeyrətə gəlüb, məğlub ikən əksəri qalib ola gəlmişdir.

İsgəndər təkrar sual edüb: Ey pir, eşitdim ki, Rüstəmyab yalnız bir əsgərə qarşu qoyub, cəng edərmiş. Bu heç bənim əqlimə sıqmaz. Necə mümkündür ki, yalnız bir adam kəndusini bütün əsgərə ura və zəfər



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

bula. Bu bənim qəti çoqdan müşkildür, - dedikdə, pirdir, cavab verüb: Şəhriyarım, öylə eşidiriz ki, Rüstəmin adəti ol imiş ki, ibtida əsgərin sərdarım meydana dəvət edüb, işini tamam eylərmiş. Çünki əsgərin sərdarı həlak ola, sairləri çoqluq qarşu turmayub, pərişan olurlarmış, yoxsa buyurduğunuz kibi, necə mümkündür ki, yalnız bir adam bir əsgərə qarşu qoyub, cavab verə? - dedi.

İsgəndər təkrar sual edüb: Bəhmən Fəramurzi öldürüb, Rüstəmin xanədanını xərab eyləmək murad eylədikdə yanında olan ixtiyarlar neçün nəsihət edüb, bu işdən vaz keçürdilər, ta ki, ol ocaq pərişan olmaya, - dedikdə pir dedi ki, padşahım, ixtiyarlar nəsihətində əsla qüsur qomadılar. Lakin söz tutmayub, bildügindən qalmadı və eylədügi iş anın da yanına qalmayub, aqibət əjdər ağzında həlak oldu. Dünyada kimi gördün ki, bir kimsənin qanına girə də ol qan kəndi yoluna gəlməyə,- deyüb əpsəm oldu.

Çünki İsgəndər pirdən bu sözi eşitdi, xofa düşüb, könlündə: Biz də Darayı öldürüb, xanədanını pərişan eylədik. Bəhri-hal, bizim də yolumuza gəlsə gərəkdir, -deyüb bu hekayədən ibrət alub, qəsavətləndi və qeyri müsahibətə başlayub, ixtiyara neçə ənam və ehsan eylədi.

Daranın ərkani-dövləti İsgəndərin ixtiyar ilə bu vəchlə hökmanə müsahibət eylədügini gördüklərində şad olub: Əgərçi şəhriyarımız olan Dara öldi isə, həq-taalaya çox şükürlər ki, yerinə bunun kibi bir aqil padşah gəldi, - deyü dua eylədilər və Daranın eylədügi zülm və cövrləri İsgəndərə ərz eylədiklərində cümləsini qaldurub hər vəchlə könlüni ələ aldı.

## İsgəndərin atəşxanələri xarab eylədigüdir

Rəvayət olunur ki, ol vəqtdə cümlə əcəm xəlqi atəşə taparlardı və ol məmləkətin hər bir şəhərində neçə atəşxanələr var idi ki, ayini-basilləri



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

üzrə kəlisaləri idi. İsgəndər əmr eylədi ki, ol atəşxanələri yıxub, xərab eyləyələr və cümlə xəlqi ol batil dünyadan döndərüb, həzrət İbrahim əleyhissəlam dininə dəvət eyliyələr və əcəm qövminin adətləri bu idi ki, bir maldar kimsənin vəfatı qərib olduqda varisi yoğsə cümlə malını atəşxanələrə vəqf edərdi. Ol səbəbdən atəşxanələrə cahan malları cəm olmuş idi.

İsgəndər cümləsini cəm etməklə hesaba gəlməz xəzinələr hasil oldu və bir yaramaz işlər də bu idi ki, neçə nazənin mahparə qızları atəşxanələrə qoyub, daima anda olan məlunlarla şərab içüb, fisq edərlərdi və hər novruzda cümlə nazənin qızlar zərü zivərə qərq olub, atəşxanələrə gedərlərdi və övrət, oğlan cümlə biryerə gəlüb, zülflərini pərişan edüb, əl-ələ verüb, rəqsə girərlərdi və neçə günlər anda qalub, fitnə və fəsad edərlərdi.

Pəs, İsgəndər ətrafa fərmanlar göndərüb, bu batil ayinləri bilcümlə mən’ etməklə, hər kəs hərəmini zəbt edüb, naməhrəmə göstərməzlərdi və bu əsil iş etməgə cürət etməzlərdi və əksərisi həq dininə girüb, girməyənlər də qılıc qorqusundan məzhəblərini gizlü tutarlardı.

Tarix sahibləri bu günə dəxi rəvayət edüb demişlər ki, Dara ilə İsgəndər cəng eylədügi yer Mosul ətrafında idi. Pəs, İsgəndər ibtida Babil dedikləri şəhərə gəlub, nə qədər sahir varsa, cümləsin həlak edüb, atəşxanələrdən dəxi əsər qomayub, cümləsin xərab eylədi. Andan sonra İsfahana varub, atəşxanələri xarab eylədi. Lakin anda bir böyük atəşxanə var idi ki, içində hesaba gəlməz xəzinə və nazənin qızlar var idi və qızlar arasında Sam nəslindən bir qız var idi ki, adına Ədr Hümayun derlərdi. Hüsn və lətafətdə afəti-dövran olub, ancaq qayət sahirə idi.

Pəs, ol atəşxanəyi də xərab eyləməgə vardıqlarında həman qız kəndusini yedi ballu əjdər qiyafətinə qoyub, gələnlər üstünə hücum eylədi. Anlar da gördikləri kibi pərişan olub, qaçaraq İsgəndərin



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

hüzuruna gəlüb, vaqei-halı bəyan eylədiklərində İsgəndər bildi ki, gördikləri gerçəkdən əjdər degil, bəlkə, tilsimdir, deyüb Ərəstuyi hüzuruna dəvət eylədi və kəndusindən əjdərin dəfinə bir çarə istədikdə: Padşaim, ol əjdər tilsim olmaq gərəkdir, anın əlacını Bəlinas həkim bilür,-dedikdə İsgəndər Bəlinas həkimi hüzurinə çağırdub, əjdərin əhvalını söylədikdə: Şahım, ol əjdər sehrdir, əgər fərmanınız olursa, tutub hüzurinizə gətürəyim, - dedi. İsgəndərdir: Biz də səni anınçün dəvət eyləmiş idik, lakin gəlürsə, həman turmayub var, bir çarə eylə, - dedi.

Pəs, Bəlinasdır, atəşxanəyə toğru varub gördi kim, qapusında tağa bənzər bir əjdər bükülüb-bükülüb olub yatmış.

Bəlinası gördügi kibi qalqub üzərinə həmlə eylədi. Həkimdir, əsla müqəyyəd olmayub, əfsunlarını bozmağa başladı. Qızdır, əfsunların bozulduğunu gördügi kibi, həman dəm kəndi qiyafətinə girüb, Bəlinasın ayağına yüz sürüb, aman dilədi: Lütf edüb, bən fəqirin qanını padşahdan rica edüb, əfv etdir: Bilməzliklə bir küstaxlıqdır etdim, bir dəxi eyləmiyəm, - deyü üzr eylədikdə, Bəlinasdır, qıza baqub gördi kim, bir mahparədir ki, cahanda misli görülmiş degil. Bin can ilə aşiq olub, İsgəndərdən suçını əfv etdirməgə vədələr eylədi. Andan sonra qızı yanına alub, İsgəndərə gəldi. Qızı tışrada qoyub, kəndusi içərüyə girüb dedi ki, şəhriyarım, ol yedi başlu əjdər bir mahparə qız imiş, amma sənətində xeyli mərdanə olub əfsunla fələkin qulağını burub, ayı endürüb sağmağa qadirdir. Böylə ustad qızı ömrümdə görmədim. Sair ülumi-qəribəyə də istedadı var. Əgər bir ustad həkimin yanında olsa, cahana bir gələnlərdən olurdu və hüsni xod hünərindən yüz qat ziyadədir. Padşahımın iqbal-hümayunlarınla varub, əfsunlarını bozub, yanıma alub gəldim. Əgər padşahım rəğbət edüb, xidmətlərinə alursa, nə gözəl, əgər istəməzlərsə, bu qullarına ehsan sürsünlər ki, kəndumə xatun edəyüm, - deyüb qızı padşahın hüzurinə gətürdi. İsgəndər gördi



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

kim, qayətdə gözəl bir nazənin qızdır. Həkimə verüb dedi ki, bu əjdər çünki sənin kəndi şikarındır, yenə sana verilmək münasibdir, al sənin olsun. Lakin məkrü əfsunundan qafil olma. Şayəd səni eşşək eyləyə, - deyü lətifə eylədi.

Bəlinasdır, yer öpüb, qızı alub gətürdi və kəndusinə xatun edüb, neçə ruzgar biri-birindən murad alub, murad verdilər.

## İsgəndər Ərəstuyi Daranın hərəminə göndərüb qızı Rövşənəgi istədügidir

Raviyani-əxbar bu yüzdən rəvayət eyləmişlər ki, çünki İsgəndər gəlüb İsfahanda qərar eylədi, bir qaç gün kəndi aləmində olub, gah bağ və bağçalarında eyşü işrət, gah tağ və səhralarında seyd və şikara müdavimət edər ikən bir gün Daranın hərəmi ol şəhərdə olduğundan xəbərdar olduqda neçə yük diba və qumaş və lələ cəvahir və udü ənbər göndərüb, xatirlərini sordu və bu gunə müamilei-lütf ilə xatirlərini kəmali-mərtəbə kənduyə cəlb eylədi. Bir qaç gün mürur etdikdən sonra Ərəstuyi dəvət edüb, xəzinədən neçə ziqiymət cəvahir və tühəf verüb: Var Daranın hərəminə, bizdən salam edüb, xatirlərin sor və bizim muradımız qızını almaq olduğunu söylə, görəlim nə cavab verür, - dedikdə, Ərəstudur: Fərman şəhriyarımın, - deyüb, töhfələr alub, Daranın sarayına vardı və içərüyə xəbər göndərdi ki, şəhriyarımız sizə salam edüb, xatirinizi sual buyurdular və murad edirlər ki, qızınız alub, mabeyndə olan yabançılığı dostluğa təbdil eyləyə. Təqdir böylə imiş, nə çarə? Daranın ölməsində şəhriyarımızın əsla rizası yoğ idi. Əcəli bu yüzdən imiş. Şimdən sonra sizlərə layiq olan budur ki, düxtəri-pakizə-əxtərinizi şəhriyarımıza verüb, bir-birinizlə xəsmü qövm olasız. Dara padşahımıza bir qaç vəsiyyət edüb, biri də budur və bundan qeyrisini padşahımız həp yerinə gətürdi. Bu xüsus içün dəxi kəndiləri məxsus



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

əzimət edüb, gəlmişlərdir. Şimdən bəni sizə göndərdi, ta ki, görə bu məsləhətə sizdən rizanız varmıdır, -deyüb töhfələri ərz eylədi. Birəzdən sonra xəbər çıqub demişlər ki, həq-taala padşahımıza dünya turduqça ömrlər versün, bizi xakdaq rəf buyurmuşlar. Qızımız kəndu cariyəsidir. Əgər kənduyə qul edərsə canü könüldən xidmət edər və əgər xatun edinürsə, dəxi kəndü bilür, biz iki halda da ömrlərinə mütiyuz, - dedilər.

Ərəstudur, bu cavabları alub, gəlüb İsgəndərə bir-bir bəyan eylədi. İsgəndərdir, böylə itaət edüb razı olduqlarından şad olub, buyurdu ki, bir ali divan edüb, nə qədər əyani-dövlət və ərkani-səltənət varsa, yerlü-yerlü qərar eylədilər.

Pəs, İsgəndər Daranın qızı Rövşənəgi kənduyə nikah edüb, ömr eylədi ki, cümlə şəhəri donadub, neçə gün şənliklər edələr və əyani-dövlətə giranbəha xələtlər geydürüb, ənam və ehsanlar eylədi. Anlar da yer öpüb, mübarəkbad eylədilər. Pəs, şəhərdir, əzim donanub, neçə günlər eyşü işrət və zövqü səfalar olundu. Bə'də, İsgəndərdir, Daranın hərəminə xəbər göndərdi ki, şənliklər tamam oldu, şimdən sonra nigari-nazənini göndərsünlər. Anasıdır, Rövşənəgə pəndü nəsihətlər edüb, dedi ki, haq-taala həzrətinə çoq şükürlər ki, İsgəndər kibi padşah sana rəğbət edüb, xatun edəndi. Çünki bu səadətə irişdin, lazım olan budur ki, əmrinə kəmali-mərtəbə itaət edəsin və xatirincə olub, məhəbbətini könlündə möhkəm edəsin. Baban Dara dünyadan getməklə dövlət və izzət bizdən yüz çevirmiş idi. Əlhəmdülillah şimdi İsgəndər səni kəndusinə xatun edənməklə təkrar rifət bulduq. Həman bunun şükrini bilüb bir xoşca aqilanə hərəkət eylə.

Andan sonra zərü zivərə qərq edüb, gözlər görmədən qatar-qatar cihaz ilə və altun və gümüş ərəbələr ilə cümlə əyani-dövlət önünə düşüb, hezar ezaz və ikramla İsgəndərin sarayına gətürdilər. Axşam İsgəndər hərəmə girdükdə bir incə aftab gördi ki, əqillər çaq-çaq olur. Bir zaman hüsnini tamaşa edüb, böylə nigari-nazənin kəndusinə xatun



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

olduğuna haq-taala həzrətinə şükürlər eylədi. Çünki dəsti-muxtar Züleyxayi aftab çak, daməni-Yusifi-sübh eylədi, İsgəndərdir, hərəmindən çıqub təxtində qərar eylədi və cümlə əyani-dövlət gəlüb, mübarəkbad eylədilər. Bə'də, xəzinələrdir, açılub hər kəs əfam və ehsanlarla məsrur olub, zövqü səfayə və eyşü işrətə məşğul oldular.

## Bu məhəl İsgəndər İstəxrdə təxtə oturduğudur

Çünki İsgəndər bir qaç gün İsfahanda qərar etdikdən sonra Kəyumərsdən bərü təxtgah İstəxrə varub, taxta oturduqda cümlə əyani-dövlət yer öpüb, mübarəkbad eylədilər.

Pəs, İsgəndər cümlə əcəm məmləkətini zəbt edüb, hər bir şəhərin bəgi xəzinə və peşkeşlə gəlüb, ərzi-übudiyyət eylədiklərində tərəfi-İsgəndərdən xələtlər geyüb, mənsəbləri müqərrər oldu.

Çünki İsgəndər bu şövkətlə məmaliki-əcəmi zəbt eylədi, həqq-taala həzrətlərinə şükr edüb dedi ki, həmd ol Allah-əzimüş-şanə olsun ki, bəni övci-topraqdan yaradub, cümlə qulları üzərinə padşah eylədi və bəni Rum məmləkətində gətürüb bunca zamandan bəriyedi iqlim, dört guşə padşahları yüz sürə gəldikləri Əcəm təxtinə padşah. Pəs bu nemət müqabiləsində bən də həq-taala həzrətlərinin əmri-şərifini yerinə gətirüb, ədlü dad edüb, məzlumların həqlərini zalımlardan alı verüb, tul xatunların və yetimlərin mühümmatını görüb, cahanı məmur və abadan edəyim və min bə'd bir kimsəyə zülm və cövr, malü mülkinə qəsd eyləmiyəm. Əgər xəlq bana kəmlik dəxi edərsə də, bən yenə mümkün mərtəbəsi eylədiklərinə qalmayub, yerinə iyiliklər eyləyim və bu dünyada toğru yola gedüb, neçə xeyir işləyim ki, axirətdə nicat bulam. Zira bir adam nə işlərsə, anı bulacağında qətiən şək yoqdur və bu təxtə malik olmaqdan məqsudum mücərrəd şəriəti-İbrahimi əleyhiəssəlam üzrə necə gözəl qanunlar və adətlər qoyub, Allah həzrətlərinin rizasını



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

və əmrini təhsil və icra etməkdir. Əsla qeyri muradım yoqdur. Allah-taala kəndu rizasını müvafiq olan əməllərə müvafiq eyləyə, amin! - deyü sözini tamam eylədi.

Çünki əhli-divan İsgəndərdən bu sözi eşitdilər, əyyami-dövlətinə dualar edüb, məsrur oldular. İsgəndər də bu hal üzrə gah xəlqin məsalehini görüb, gah zövqü səfa və gah seyrü şikarında oldu.

### Bu məhəl İsgəndər xatunu Rövşənəgi Ruma göndərüb və Ərəstuyi kəndi yerinə qaimməqam edüb, kəndusi cahanı seyr murad eylədigidir

Çünki əcəm məmalikinin cümlə zabitləri və hakimləri İsgəndər tərəfindən nəsb olundu, hər birinə fərmanlar göndərüb, aqca kəndu adına sikkələndi. Lakin yenə əcəm xəlqindən əmin olmayub: Fürsət bulduqlarında bir fitnə qoparmaları müqərrərdir, -deyüb, bir gecə Ərəstuyi hüzurinə dəvət (etdi). İkisi tənha qaldıqda İsgəndər dedi ki, könlüm bir yerdə oturub qərar eyləmək istəməz, fələk kibi daima cahanı gəzmək istər. Ta ki, aləmi tolanub hər vilayətdə nə vardır görəyim və bizdən ziyadə dövlət və səltənətə malik padşah varmıdır, görüb əhvalına vaqif olam və kəndim bu məhəldən qalqa da, nə qədər xəzinə və malım varsa, Ruma gətürəm. Zira Rum bizim qədimdən vilayətimizdir, anda xəzinəmiz hər vəchlə məhfuz olur. Bunda qalmasını münasib görmədim. Vilayət hənuz əlimizə girməklə ehtimaldır ki, biz getdikdən sonra bir fitnə zühur edüb, malü xəzinə mərhabayə gedə . Pəs, sən də Ruma varub, bizim yerimizə qaimməqam olub, əqd və rayın ilə vilayəti görüb güzənmək münasibdir. Səndən özgə bizim məmləkətimizi görüb, gözdər adam olmaz. Tamam mərtəbə ərzimizi saqınub adımızı kəmlik ilə əkdirməzsin və kərki kibi ümuri-dövləti görüb, fitnəvü fəsaddan saqınasın və xatunum Rövşənəgi alub Ruma götür,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

anı da bunda buraqmaqdan xof eylərəm, -dedi. Çünki Ərəstu İsgəndərdən bu sözi eşitdi, dedi ki, şəhriyarım, həq-taala səni dünya turduqca bərqərar edüb, afətlərdən hifz eyləyə. Gözəl fikir eyləmişsiz. Kişi sonunu fikir eyləmədən zərər görməz və aqibəti fikir edən kimsənə nədamətə düşməz və bu qullarına fərman olunan işi yerinə götürməgə bin canilə çalışub, əlimdən gələni diriğ eyləməm və başü canımı şəhriyarımın yoluna fəda eyləmədən əlim çəkməm. Lakin, padşahım, bu işə dəxi ziyadə təqəyyüd edüb, möhkəm tədbir eyləmək gərəkdir. Zira, çünki böylə övraq yerlərə səfər eyləmək muradi-hümayunuz olmağın dövlətlə hərəkət buyurduğunuzda bu qulunuz yalnız bir başımla bu qədər böyük məmləkəti zəbt eyləmək müşküldür. Əlimdən gəlursə, ancaq Rum məmləkətini gözədə bilürəm. Əcəm məmləkətini kim gözətsün? Bir alay yabançı adamlara etimad edüb hakim eyləmək münasib degildir və bunca zamandan bərü şəhriyarlar zəbt edə gəldikləri vilayətləri olur-olmaz hakimlər əlində pərişan eyləməkdə dövlətiniz layiq degildir. Bunun təxti zəbt eyləmək müşkül olduğu kibi, burağub getmək də öylə müşküldür. Siz getdikdən sonra hər guşədən əcəm şahları nəslindən neçə şahzadələr zühur edüb, hər biri dəvayə başlasa gərəkdir və içlərindən birisinə əcəm xəlqi itaət eylədikləri kibi amə tabe olub, yanına gəlsə gərəkdir. Andan sonra Daranın qanını bəhanə edib, sellər kibi Rum məmləkəti üzərinə aqub gəldikdə bu qulları degil. Rüstəmlər belə qarşu qoyamazlar. Ol zamanda iş xeyli güc olur. Şəhriyarım xəbərdar olub gəlincə anlar fənayə verərlər. Pəs, bu qullarının xatirinə bir tədbir gəlür. Qəbul buyurulursa, ümiddür ki, bu qorqular bir tərəf olur. Hala bu məmləkətdə şəhriyar nəslindən nə qədər şahzadələr varsa, cümləsini hüzuri-izzətinizə dəvət edüb, hər birini bir şəhərə padşah edəsiz və kəndi tərəfinizdən olan bəgləri cümlə qaldırasınız. Böylə olunca şahzadələr vilayətlərini zəbt eyləmək arzusuna düşməklə bir-biriylə xüsumətə başlayub, ikisi biryerə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

gəlməzlər. Bu təqdircə biz də sözlərindən əmin olub, rahət oluruz və bunca zamandan bəri şahlar zəbt edə gəldikləri məmləkəti xarab eyləməyüb, yenə padşah nəslindən olanlara ehsan eylədi, deyü amə padşahıma dua edərlər, - dedi.

Ərəstunun bu tədbiri İsgəndərə xoş gəlüb, hər şəhərə padşah nəslindən birini hakim eylədi. Bunlara tarix kitablarında «müluki-təvayif» derlər.

Əlqissə, çünki sabah oldu, İsgəndər fərman eylədi ki, Ərəstu mühimmatını görüb, Ruma getməgə hazırlana və əcəm kitabxanalarında nə qədər kitab varsa, cümləsini alub Ruma götürə və farsidən yunan dili üzrə tərcümə oluna. Andan sonra intixab edüb, bir kitab yaza.

Pəs, Ərəstudur, fərman üzrə tədarükini gördükdən sonra Rövşənəgi müəzziz və mükərrəm təxti-rəvanə bindirüb və cümlə kitabları belə alub, Ruma rəvanə oldu. Məgər Rövşənəg İsgəndərdən hamilə olmuş imiş. Ruma vasil olduqda, bir qutlu dəmdə altun başlı, sirmə saçlı bir şahzadə toğurdur. İsgəndərə müjdəçilər gedub, bəşarət olunduqda ziyadə şad və məsrur olub, fərman eylədi ki, adını İsgəndəri-Rus qoyalar. Ərəstu dəxi Rumda İsgəndərin yerinə qaimməqam ümuri-dövləti görüb, gözətməyə məşğul oldu.

### Bu məhəl İsgəndərin Kə'bei-mükərrəmi ziyarət eylədigidir

Pəs, İsgəndər Ərəbistanı görməgə arzu edib Əcəm və Rum qailələrini bir tərəf etdikdən sonra əmr eylədi kim, səfər tədariki görülə. Cümlə mühimmat görülüb tamam olduqda Kə'bətüllahı ziyarət eyləmək niyyəti ilə qalqub əzm eylədi. Ərəb qəbaili agah olduqda, qadir olduqları qədər peşkəş mühəyya edüb, İsgəndərin gəlməsinə müntəzir oldular. İsgəndər isə hər mənzilə qonduqda bulunan qəbail bölük-bölük gəlüb,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

qulluqları ərz edüb, tüləh-tüləh ərəbi atlar və qatar-qatar dəvələr və sair peşkəşlər gətürməkdə idilər. Bu hal üzrə İsgəndər Kə'bətüllaha varınca hər qonaqda neçə qəbilə gəlüb itaət eyləməkdə idi.

Əlqissə, ərəb qövmi zəngi və Əcəm əsgərinin başına gələn halları eşitdiklərindən cümləsi gəlüb İsgəndərə itaət eylədilər. İsgəndər də bunlara izzətlər edüb, bəglərinə xələtlər və sairələrinə ənam və ehsanlar eylədilər. Bu hal üzrə bir gün Kə'beyi-mükərrəmə vasil olub mənasiki-həcci yerinə götürmək içün hərəmi-şərifə varub, ibtida Kə'bə-nin eşiginə baş qoyub, yüzini yerlərə sürüb, həq-taala həzrəti dərgahına bi-nəhayə və ehsanlar eylədi və bihesab qurbanlar edüb, cümlə əhli-Məkkəyə ziyafətlər eylədi. Bə'də, Yəmən tərəfinə əzimət edüb, bir neçə gün də ol tərəfləri dəxi seyrü tamaşa etdikdən sonra yenə İraq tərəfinə gəlüb qərar eylədi.

Günlərdə bir gün Azərraba dedikləri şəhərin hakimindən ulaq gəlüb bu xəbəri götürdi ki, şəhriyarımız Əcəm məmləkətini başdan-başa fəth və cümlə atəşxanələri xərab edüb, Əcəm xəlqini bilkülliyə itaət və inqiyad etdirmiş ikən nə əcəb Ərmən dedikləri şəhərə əsla təqəyyüd buyurmayub, əhvalını yoqlamadılar? Hala ol şəhərin içi atəşxanalarla toptolu və nə qədr xəlqi varsa, Əcəm adəti üzrə neçə fəsad və şəqavətlər edüb, atəşə taparlar və ol şəhərin bəgi Ad qövmi nəslindən bir pəhləvan olub adına Dəvalı derlər. Rüstəmləri gözünə salındırmaz. Ol yerin xəlqi cümlə kəndusinə itaət edüb, yoluna can verərlər və nə qədər xərac və məhsul varsa, həp bəglərinə verüb, hala ol şəhərdə padşahın fərmanı keçməyüb. Dəvalinin əmri yürər. Əgər padşahımız bu məsləhətə təqdir buyurmayub, ehmal edərlərsə, şübhəsiz, bizim əlimizdə olan şəhəri dəxi alub, Əcəm məmləkətinə bir fitnə salar.

Çünki İsgəndər bu haldan xəbərdar oldu, əmr eylədi kim, cümlə əsgər hazır və mühəyya ola. Əsgərdir, hazır olduqda haman qalqub: Qandasın, Ərmən?- deyü əzm eylədi. Hər qələyə gəldikcə, əhalisi ana



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

xeyrətini gətürüb, İsgəndərin önünə qoyub, qulluqlar ərz edərlərdi. Çünki Dəvali İsgəndərin bu qədər əsgərlə gərilüb gəldigündən agah oldu, qayət aqil kimsənə olmağın başına gələcək halı duyub, bir qaç mənzil qarşu gəldi və İsgəndərə qulluqlar ərz edüb, eylədigi küstaxlıqdan üzrlər dilədi və canü könüldən itaət edüb, hesaba gəlməz xəzinə və töhfə ərz eylədi. İsgəndər dəxi cürmini əfv edüb, kəndi vilayətinə yaqın bir şəhər verildi və başına tac geydirüb və belinə mürəssə qılıc qoşadub, hər vəchlə iğrazü ikram eylədi. Dəvəli bu mərtəbə lütf və ehsandan şad olub İsgəndərə əzim ziyafətlər edüb, xidmətdə qətiən qüsur eyləmədi. İsgəndər dəxi ol yerin abu həvasından həzz eyləyüb, bir qaç gün bağ və bağçalarında eyşü işrət və tağ və səhralarında seyrü şikar eylədi və ol şəhərdən alduğu mal ilə Tiflis dedikləri şəhəri bina və məmur eylədi. Andan sonra Bərdə dedikləri vilayətin hakimi olan Nüşabədən xəbərdar olmağın, üstünə varmağın qəsd eylədi.

**Bu dastan İsgəndər Bərdəə vardıqda Nüşabə ilə olan əhvaldır**

Raviyani-əxbar və naqilani-asar bu yüzdən rəvayət və bu gunə hekayət eylərlər ki, Əcəm diyarında Bərdə derlər bir vilayət vardır ki, abü həvası gözəl və bağu bağçası bibədəl bir şəhri-zibadır ki, sanki cənətdən bir parədir. İsgəndər zamanında ol şəhərin padşahı bir xatun idi ki, adına Nüşabə derlərdi. Daima eyşü işrət və cəngü çəğanə ilə ömür keçürürdi və bu Nüşabə gərçi xatun idi, lakin eylədügi rəy və tədbirdə Ərəstular heyran idi və xidmətində olanlar cümlə mahir və nazənin qızlar olub, erkək cinsindən yanına əsla kimsə gəlməzdi və bin nəfər dilavər şahbazı olub cəng günündə hər biri neçə bölük əsgərə qarşu qoyub. Rüstəmlərə cavab verməgə qadir idilər. Cümlə məmləkəti anlar zəbt edüb, bir tərəfdən düşmən zühur eyləsə, varub pərişan eylərlərdi.

İsgəndər gəlüb Bərdə səhralarına otaqlarını qurub oturdu. Gördü



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

kim, cümlə torpağı miskü ənbər, həvası gözəl, yemişləri bibədəl, cənnətə bənzər məhəl. Sual eylədi ki, bu vilayətə kim hökm eylər və bunun kibi yerdə nə şəkil şəhriyar atub-tutar? Dedilər ki, padşahım, bu vilayətin şahı bir xatundur ki, əqlü rəyi ilə neçə ərlərdən mümtaz olub, dilavərlik kəmərini yedi yerdən belinə quşanmışdır və rəaya və bərayayi görüb, gözətməkdə neçə hakimlərə qalib edərdi və Əcəm şahları nəslindən olmaqla, cümlə əsgər kəndi qullarıdır. Lakin bunca zamandan bərü yanına erkək varub yüzini görmiş degildir. Gecə-gündüz neçə mahparə qızlarla eyşü işrət edüb, sözü söz ilə kəndü zövqinə məşğuldur və hər bir qız cahan mallar dəgər cövhər və zivərə qərq olub, hüsnləri xod dünyada görülməmişdir və kəndusi, gərçi pərdə altındadır, lakin daima xəlqin ümurinə mətlə olub rəayapərvərlikdə əqillər çaq olur və padşahlara layiq bir sarayi-zibası vardır ki, cahanda nəziri görülməmişdir. Busati-şahanə ilə düşünüb, ortada yekparə billurdan bir təxt qopub, ətrafında hesaba gəlməz şəb çirağları vardır. Şöylə ki, gecə olduqda ay kibi ziya verüb, əsla muma möhtac olmazlar və təxtin yoluna çağıl taşı yerinə lərlü cəvahir döşənmişdir. Gündüz üzərinə oturur, axşam olduqda sürməi mərmərdən bir köşkü vardır, yalnız içinə girüb sabahadək haq-taala həzrətinə qulluq edüb, təzərə və niyaz olur. Ancaq bir saət uyxu uyur, - deyü İsgəndərə bəyan eylədiklərində, bir təriq ilə sarayına girüb görmək arzusuna düşdü.

Pəs, bir qaç gün ol məhəldə əglənüb, seyrü şikara məşğul (oldu). Nüşabə çünki İsgəndərin şəhərə yaqın qonduqundan agah oldu, şahlara layiq təam və şərab tədarük edüb, qatar və xidmətkarlarla göndərdi. Gedən xidmətkarlar İsgəndərin bargahına varub, götürdükləri yeməkləri və meyvələri fəğfuri tabaqlara və günagün çiçəkləri billür şüşələrə dizüb, ərz eylədilər və İsgəndərin olan əyan və əkabirə başqa-başqa təamlar və meyvələr göndərüb, cümləsin qonaqladı.

Əlqissə, bu üslub üzrə hər gün tərəqqi bulurdu. İsgəndər Nüşabənin



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

halına heyran olub, tərzü tövrini görməgə dəxi ziyadə könli düşdi. Axır, bunu fikir eylədi ki, qiyafətini təbdil edüb, elçiliklə sarayına vara və hüzurunə girüb görə ki, dedikləri yerindədirmi. Pəs, elçi qiyafətinə girüb, yanına bir qaç adam Nüşabənin sarayına varadır, baqsa asimana sər çəkmiş bir sarayi-alidir ki, qapusını bir neçə xidmətkarlar bəkləyüb tururlar. İsgəndər padşah tərəfindən elçiliklə gəlüb, Nüşabəyə bulaşmaq istədügini dedikdə, xidmətkarlardır, Nüşabənin hüzurinə ərz eylədiklərində, əmr eylədi kim, sarayın içini dürlü-dürlü zinətlərlə arastə edüb, nə qədər cariyə varsa, cümləsini qarşusına düzüb, kəndusini təxtində qərar eylədi. Andan sonra: Elçiyi götürün!-deyü əmr eylədi.

Pəs, İsgəndəri içərüyə götürdüklərində belində olan qılıcı çıqarmayub, bipərva Nuşabənin qarşusına varub turdı və açmazdan ortalığı göz tarazusına urdı. Gördü ki, guya dünyada olan cümlə cəvahiri saraya toldurmuşlar və Nüşabə təxt üzərində zərü-zivərə qərq olub niqab ilə oturub, ətrafında başdan-başa cəvahirə qərq olmuş nazənin mahparələr səf-səf əl qavuşdurub turmuşlar. Nüşabə qayət aqilə olmağın İsgəndərin əsla iltifat etməyüb, elçi adəti üzrə yer öpüb təzim qeydinə düşmədügündən şübhəyə düşüb İsgəndəri başdan-ayağa varınca göz tərazusına urub bildi ki, İsgəndər qiyafətini təbdil edüb gəlmiş, açmaz qoyub təxt üzrə yanında edüb: Buyurun,-dedkdə, İsgəndərdir, çıqub yanında qərar eylədi. Andan sonra Nüşabə İsgəndərin hal və xatirini sorub: Xoş gəldiniz, səfa gəldiniz, qədəminizlə məclisimizi müşərrəf eylədiniz-deyü sənalar eylədi. İsgəndər də cavabında dualar edüb, gətürdügi xəbəri söyləməgə başlayub dedi ki, şəhriyarımız bizi hüzurunizə göndərüb buyurdu ki, biz bunca əsgər ilə bu vilayətə ayaq basandan bərü banuyi-dövran nə əcəb bizə qarşu çıqmayub, gəlmədi? Bizdə nə gunə zəbunluq anladılar ki, açmaz qoyub, əsla kəzinə aldırmadılar? Bunca cahan şahları qılıcımız qorqusundan ayağımız tozuna yüz sürərkən banu həzrətləri heç qorq-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

mayub müqəyyəd olmadılar. Bir qaç gündür atlarımızın ayağı topraqlarına basub bu vilayətə sayei-dövlət salalı, bizə übudiyyət yerinə yaran kibi şərab və məzə göndərmənin nə məzəsi var? Hələ bu vaqtadök göndərdiklərini qəbul edüb, lakin bundan sonra gərəkdir ki, xakpayımız gəlüb yüz sürə,-deyü sözə xətm eylədi.

Nüşabədir, İsgəndərdən bu sözləri eşitdikdə bu günə cavab verdi ki, afərin sənin (kibi) dilavər şəhriyarə ki, arslan kibi kəndin fərmanı yenə kəndusi iblağ eyləyə. Xatirimə öylə gəlür ki, siz elçi olmayub, İsgəndəri-sahibqıran və şəhriyari-cahanistan kəndi olasız. Zira, sözünüz qılıc kibi təsir edir. pəs kəndiniz İsgəndər olduqdan sonra qılıcını vəsf edüb nə qorqudusız? Siz şimdi kəndi başınızın çarəsini görün ki, kəndi ayağınızla gəlüb damımiza düşdünüz, - dedikdə, İsgəndər cavab verüb: Ey banu, mükərrəm bənümlə İsgəndər arasında nə münasibət vardır? Ol bir dəryadır ki, bən bir qətrəsiyəm, anın qapusında neçə bin bənim kibi yerə gəlməgə tənəzzül edərmi? Bən ancaq söz həmmalıyam, hüzurunuza gəlüb fərmanını gətürdüm, - dedi. Nüşabə cavab verüb: Ey şəhriyarım, namınız necə ali isə, sözünüz də öylə alidir. Elçilərin nə canı vardır ki, hüzurumuzda buncılayın söz söyləyələr və yanımıza gəldiklərində yer öpməyələr. Buncılayın şövkət ancaq padşahlara məxsusdur. Bundan qeyri, İsgəndər olduğunuza neçə dəlilimiz vardır, - dedikdə İsgəndər cavab verüb: Əgər bən sizə kəskin söz söylədim isə ixtiyarımla degildir, ötədən neçə tənbih olundu isə hüzurinizə gəlib eynilə nəql eylədim və İsgəndər kibi yedi iqlim, dört güşəyə malik olan sahibi-qirani-cahanın fərmanilə gəldügümdən bəndə gərilən şövkət və heybət dövlətlü şəhriyarımın şövkətidir və padşahlar yanında elçiyə zaval olmamaq əsl adət olmağla qorqusuz gəldim. Bundan şübhəyə düşməyəsiz və bizə nə cavab verəcək isəniz həman verün ki, varub padşahımıza elam edəlim, -dedi.

Nüşabə İsgəndərin böylə inkarını görüb, bir vəchlə ikram eyləməgə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

qadir olmadıqda: Ey şəhriyarım, heç günəş palçıq ilə suvanırmı? -deyüb qarşusunda turan cariyələrə əmr edüb: Varun, İsgəndərin surətini gətürün. Həman dəm, cariyələrdir, varub xəzinədən bir zərir gətürüb, Nüşabənin əlinə verdilər. Ol dəxi İsgəndərə: Bu surət şahi-cahani-sahibqırani-dövran İsgəndərin surətidir. Əgər sizə bənzər isə, nə gözəl, heç inad eyləmin. Əgər bənzəməz isə, ol vəqtdə söz sizin olsun,-dedi. İsgəndərdir, həriri əlinə alub, açub baqdıqda gördi kim, eynilə kəndi surətidir, əsla artıq-əskik degildir. Pəs, bir vəchlə inkar eyləməgə qadir olmayub: Nə tar yerdə bulundum, -deyü heyran olub qaldı.

Nüşabədir, İsgəndərin pərişanlığını gördükdə dedi ki, ay xosrovi-kamkar, nə ələm çəkirsiz, ruzgarın böylə oyunları çox olur. Xatiri-şərifə kədər gəlməsün. Həman bu məhəlli kəndu sarayınız tutub, bəni də bir xidmətkar cariyəniz məqamına qoyub, səfada olun. Murad haşa sultanə bir zərər irişdirmək degil, bəlkə, biz də dişiligimiz ilə cahanda qafil olmayub, siz necə erkək arslan isəniz, biz də öylə dişi arslan olduğumuzu bildirməkdir. Bu dəxi məlumi-şərifiniz ola ki, gərçi surəti-zahirdə bir zəbun xatunam, lakin neçə tədbirin müntəzası üzrə əsgər çəküb, neçə pəhləvanlara qarşu qoyub, ələnlərinə dağ olmağa qadirəm. Əgər xəsmim sizin kibi şəhriyar dəxi olursa, qarşusına çıqub cəngü cidal eyləməkdən yüz çevirməm. Əgər bana qlib olursanız, ha bir tul qarının bir avuc əsgərini bozmaq bir əzim hünərmidir? - deyirlər. Əgər allah-taala həzrəti nüsrət və zəfəri bana ehsan edərsə, ol zaman deyərlər ki, afərin ol qaryı ki, İsgəndər kibi yeddi iqlim, dört kuşəyə malik şəhriyarı əsla gözünə aldırmayub, əsgərini bozub pərişan eylədi, -deyü, namım qəhrəmani-zaman kibi qiyamətədək dillərdə qalur. Əgərçi bən xatun olmağla tışra çıqmayub, daima pərdə altındayam, lakin cahan şahlarının əhvalından xəbərdar olub, əl altında hər birinə bir fərasət sahibi ustad müsəvvir göndərib, cümləsinin surətlərini hüzuruma gətürtmişimdir. Pəs, hər birinin surətinə baqub əql və idrakını nə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

mərtəbə olduğunu bildim və cümlə padşahlar da nəzərimə siz qədər şəhriyar gəlməyüb qayət bəgənmişdim, - deyü neçə bunun kibi bipərva sözlər söylədikdən sonra təxtindən enüb, İsgəndəri təxt üzərində yalnız qodı və: İki padşah bir təxtə sığmaz, - deyüb altun təxt gətürdüb, İsgəndərin qarşusuna qodurub, üzərinə çıqub qərar eylədi. İsgəndərdir, Nüşabənin bu hərəkətindən heyran olub, hicabə düşdi və sözə qadir olamayub, başını önünə saldı və könlündə dedi ki, bu xatunun əql və idrakına bərəkallah. Nə çoq başlı qarı olur. Bu tərz və tövrə gögdə mələklər belə təhsin və afərin eylərlər. Lakin bu çökələrə etimad eyləməmək gərəkdir. Bəlkə, sonra bir məkrü əfsuni ola. ancaq yenə böylə əqlü idrak sahibi nazəninidən ümid oldur ki, kəmlik gəlməyə, bizə lazım olan qəzayə riza deyüb təslim olmaqdır və adımızla oturub salıyor deyü bimə'ni yalvarmaqdır. Zira, keçmiş zamanda bir suçlu adamın boğazına ip taqub dar ağacına götürülərkən, görmüşlər ki, hərifdə əsla ələm və iztirab olmayub oturur ilə gedər. İçlərindən biri, bəhi adam: Nə şənlik yeridir, şimdi səni öldürsələr gərəkdir. Adam böylə vaqtda nə ağız ilə gülər? - dedikdə, cavab verüb demiş ki, bənim ömri-nazəninim əsər yel kibi keçüb gediyor. Hala ol ömrdən bir-iki nəfəs qalmışkən layiqmidir ki, varub anı da fəryadü fəğanla keçürəyim? Bu sözdə ikən həq-taala həzrəti ol bəladan xilas eyləmiş. Çünki allah-taalanın lütfi ilə buncılayın bağlu işlər qolaylıqla açılurmış. Həq-taalanın kəmali-kərəmindən ümidim budur ki, nicat verüb, vərtədən xilas eyləyə, -deyüb kəndu-kənduyə təsliyət verdi.

Nüşabə isə xidmət kəmərini quşanub cariyələrə əmr eylədi kim, yemək gətürüb padşahı ziyafət eyliyələr. Pəs, cariyələrdir, fəğfuri mürəssə təbaqlar və piruzə və yaqut kasələrə şəhriyarlara layiq yeməklər gətürdilər. Andan sonra təxt üzərinə bir altun təpəsi qoyub, üstünə dört danə billur kasə qodılar ki, birinin içi tolu altun və biri tolu yaqut və biri ləl və biri tolu incu idi. Nüşabə: Buyurun! -dedikdə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

İsgəndər: İnsan buncılayın taşları və altunı necə yeyə bilür? Buyur deməgin nə mənası var? Məqsudun bizə ziyafət isə, yemək gətür, - dedi.

Nüşabədür, gülüb: Ey şəhriyarım, altun və cəvahir, çünki yeyinmədikdən sonra çaq yoxdur. Zəhmətlər çəküb, yolundan başlar vermənin mənası nədir. Məlum oldu ki, bu taşlar heç bir şey degilmiş. Bizdən əvvəl gələnlər bunları hezar zəhmətlərlə bir yerə cəm eyləyüb, yemədən necə burağub getdilər isə, bizim də işimiz yaramayub, burağub gedəcəgiz. Pəs, şəhriyarım, sizə də layiq olan oldur ki, bu şeylərə könül bağlamayub, bir gün əvvəlcə ətək silkəsiz, - dedi.

İsgəndərdir, Nüşabəyə cavab verüb dedi ki, ey banuların şahı, söylədigün sözlər cümlə yerindədir. Həqiqətdə bu cəvahirlər məhəllində adamın qarnını toyurmaz, lakin bu sual sizə də varid olur. Kasələrə ləlü cəvahir toldurub, neçün rəğbət edirsiz və tacü təxtinizə cəvahirlər oturdub hər birinə könül bağlarsız. Hələ biz nəsihətinizi qəbul eylədik. Əqd və idrakınıza hezar afərin olsun!

Nüşabədir, çünki İsgəndərdən afərinlər eşitdi, yer öpüb xidmətlər eylədi və əmr eylədi kim, ol kasələri qaldırub, yemək gətürələr. Pəs, cariyələr hər təbağı gətürdükcə, ibtida kəndusi tatub, andan sonra padşahın önünə qordı. Əlqissə, Nüşabədir, yemək tamam olunca, xidmətdən bir dəm əl çəkməyüb, cümlə şəraiti-ziyafəti yerinə gətürdi. Çünki yeməkdir, təmam olub padşahın gedəcəgi vəqti gəldi, Nüşabə İsgəndərə keçən təqsiratdan ötri xatiri qalmayub, intiqami-qəsd eyləməməsinə kəndi qələmiylə bir əhdnamə yazdırub, əlinə aldı və iğrazü ikram ilə padşahı yolladı.

İsgəndər çünki saraydan çıqub qorqudan əmin oldu, xilasını həqtaala həzrətindən bilüb, çox şükürlər eylədi və otağına gəlüb, kəndi səfasına məşğul oldu.

Ertəsi Nüşabə cariyələri ilə atlara süvar olub, xəzəm və həşəmlə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

İsgəndər ordusuna gəldi. Gördü ki, bir səhrayi-bipayanda hesaba gəlməz əsgər qonub, yüz min rəngarəng çadırlar qapılmış və altun ələmli sancaqlarla ortalıq zeyn olmuş. İlərüyə varub gördi ki, atlasdan başı göglərə irmiş bir otaq qurulmuşdur ki, altundan tənabları əbrişimdən olub, adam baqdıqca gözi qamaşur. Təəccüb edüb, atından endi. Divan xidmətkarları önünə düşüb, İsgəndərin hüzuruna gətürdülər. İçərüyə girdikdə gördi kim, bu qədər cahan şahları başlarını önlərinə salub, adab ilə diz çöküb, əpsəm oturmuşlar. İsgəndər isə heybət və səlatla təxtində qərar eyləmiş, ərbabi-dövlət qarşusında səf-səf əl qavuşdurub turmuşlar. Pəs, kənduyi heyrət alub hezər öczü niyaz ilə gəlüb, İsgəndərin önündə yer öpüb turdı. Padşahdır, qarşusına bir altun təxt götürdüb, «otur» dedikdə, təkrar yer öpüb kürsinin üzərinə çıqub qərar eylədi. Andan sonra İsgəndər xatirini sorub vafir nəvazişlər eylədi. Bə’də əmr eylədi kim, təam gətürüb simat çəkələr. Pəs, çaşəngirlər miskü ənbər qoqulu, dürlü-dürlü ləziz yeməkləri mürəssə təbəqlər və cəvahir kasələrlə nəfayislər dizdilər. Hər birindən murad üzrə yendikdən sonra, saqilərdir, gəlüb camları sürməgə başladılar. Kəllələr kərm və sinələr nərm olduqda sazəndələr ehzardər olundi, gəlüb ortalığa səfalar bəxş edüb, rəqqasələr dürlü-dürlü oyunlara girdilər. Bir zamandan sonra İsgəndər əmr eylədi ki, Nüşabənin, ol nazənin mahparələr cəngiləri də meydana girələr. Pəs, fərmani-İsgəndər üzrə ol mahparələr də kakillərin aşiq könli kibi pərişan edüb ortalığa fitnələr saldılar və sazlarla həmavaz olub, əhli-məclisi valeh və dəmbəstə eylədilər.

Əlqissə, bu üslub üzrə axşamadək eyşü işrətlər olunub, dəmlər sürdülər....

**Həkimdir, camı əlinə alub, ətrafında olan yazıları cümlə oquyub, nə varsa, həp xatirinə aldı**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Rəvayət olunur ki, İsgəndər səfərdən dönüb, Ruma gəldikdə Bəlinas həkim camdan əzbərlədügi sözlərdən üstürlabı peyda eylədi. Pəs, İsgəndər bir miqdar ol məhəldə əglənüb, Bəlinasa dedi ki, olmaya bir kimsə Keyxosrov kibi şəhriyarın təxtinə malik olmağla küstaxlıq edüb, üstünə otura. Bu gün bir tilsim eylə ki, hər kim üstünə çıqub, azacuq turduqdan sonra enməyüb, oturmaq istədikdə həman təxtdən aşağı düşə, -deyü sipariş eylədi. Bəlinas dəxi İsgəndərin muradı üzrə bir tilsimiəzim təsnif eylədi. Andan sonra İsgəndər ol məhəldən qalqub, Keyxosrovun məzarı olan mağaraya getmək istədikdə dizdar gəlüb, padşahın önünə düşdi. Hezar zəhmətlə mağaranın qapusına gəldilər. Atla içərü girilmək mümkün olmamağla, andan enüb, yaban girdilər. Ol mağaranın əhvalından xəbərdar olanlar: Şəhriyarım, içəri girilmək mümkün degildir, daima şimşək atəşlər çağır, yaqın duran adamı həlak eylər,-dedilər. Padşah müqəyyəd olmayub, içinə girüb getdi. Bir zamandan sonra, dedikləri kibi, bir tərəfdən bir atəş zahir oldu. Dəxi iləri vardılar. Gördülər ki, ol atəş bir quyu kibi yerdən çıqır. İsgəndər heyran olub buncılayın mağarada atəş nədən olur ola? - deyüb, əslini bilmək içün yanında olan hükəmadan birinin belinə bir ip bağlayub, aşağı sarqıtdılar. Çünki həkim hezar zəhmətlə aşağı endi, gördi kim, mağaranın aşağısı kükürd mədəni olmağla, ol atəş anda peyda olurmuş. İpi qımıldatdıqda yuqarı çəkdilər. Vaqei-halı padşaha bəyan edüb: Şəhriyarım, mağaranın ortası kükürd mədəni olmağın, görilən atəş andan hasil olurmuş. Girilmək mümkün degildir, - dedikdə, padşah atəşin üstünə ənbər saçub, Keyxosrovun ruhuna dualar eylədi. Andan sonra dönüb mağaradan çıqmaq istədikdə, yolu qaib edüb, o yana-bu yana gedə, gördilər çarə olub yolu bulayamaz. aciz olub, heyran qaldılar. Bir zamandan sonra mağaranın bir tərəfindən bir bulut peyda olub qar yağdırdı. Diblik yolu bulmaqdan qalub dərmanda oldular. Pəs, cənab həq-taala həzrətinə təzərrə və  niyazlar eyləməgə başladılar.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Məgər tışradan mağara qapusında olanlar qar yağdığunı dizdarə xəbər eyləmişlər. Ol da bir neçə adam ilə gəlüb mağaranın qarını küriməgə başlamış. Pəs, bu hal üzrə qarı açaraq İsgəndərə rast gəlüb, önünə düşdülər. Padşahdır, mağaradan səlamətlə çıqub, həqqə çox şükürlər eylədi. Andan sonra atlara süvar olub, orduya gəldilər. Ol gecə yatub rahat oldular.

Çünki sabah olub aləm günəş nuri ilə münəvvər oldu, İsgəndərdir, yerdən qalqub əmr eylədi kim, bir məclis tərtib edüb, Sərir padşahını hüzuruna dəvət edələr. Fərman üzrə məclisdir, arəstə qılınub şəhzadəyi dəvət eylədilər. Gəlüb padşahın hüzuruna girüb, dualar eylədikdə, İsgəndər, izzət və ikramlar edüb, yanına aldı və ol gün axşamadək eyşü nuşlar edüb, zövqü səfalar sürdülər. Axşam olduqda İsgəndər xəzinədarlara əmr eylədi, şəhzadəyə bir mürəssə tac gətürüb geydirdilər və padşahlar geydügi xələtlərdən xələt geydürüb, mürəssə rəxtli on danə at və yüz dəvə yüki diba və atlas verdilər. Şəhzadədir, İsgəndərin əlini öpüb, dualar eylədi və qalqub kəndi çadırına getdi.

Çünki ol gecə keçüb sabah oldu, İsgəndər əmr eylədi, əsgərdir, ol məhəldən köçüb, səhralara endi və səhralarda bir həftə seydü şikar edüb, zövqü səfayə məşğul oldular.

## Bu məhəl İstəxrdən ovlaq gəldikdə İsgəndərin qalqub getdügidir

Çünki İsgəndər ol tərəfdən bir həftə qədər seydü şikar eylədikdən sonra əcəb nə canib hərəkət eyləsin? -deyərkən nagah bir ovlaq gəlüb, padşahın hüzuruna girüb, yer öpüb, dua eylədikdən sonra dedi ki, şəhriyarım, bən qulunu İsgəndərdən olan qaim məqamınız göndərüb, dedi ki, səadətli padşahım bu qullarını yerlərinə qoyub, dövlətlə hərəkəti-humayun buyurduqdan sonra qadir olduğum mərtəbei-məmləkətin əhvalını təqdir edüb, xəlqin düşən məsləhətlərini görərkən



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

xəbər gəldi ki, Rey dedikləri vilayətin xəlqi cümlə kəndusinə itaət edüb, üsyan eyləmişlər və bununla qənaət eləməyüb, yanına hesabsız əsgər cəm edüb, ətrafında olan şəhərlərə yürimiş. Xəlqin kimi kəndusinə itaət edüb, qarşu qoyub cəng edənlər həlak edüb, mallarını qarət edərək Xorasana gəldikdə, cümlə Xorasan xəlqi də kənduyə itaət edüb, yanına varmışlar. Hala bir əzim əsgər olub Əcəm məmləkətini qarət edərək şəhriyarımızın təxtgahı olan İstəxrə əzimət eyləmiş. Bu gün-yarın üstümüzə gəldikdə ol qədər əsgər ilə cəng eləmiyəcəgimiz məlumi-humayunlarıdır. Bəs bir gün bu tərəf əzimət eyləyüb bu, bəlayi dəf eyləmələri lazım gəlmişdir,-deyü, vaqe olan əhvalı cümlə bir-bir bəyan eylədi.

İsgəndər, çünki bu xəbəri eşitdi: Qəti əla, bu nə olmaz işdir. Biz bunda Keyxosrov təxtinə oturduq, deyü fərəhlənürkən İstəxrdə olan təxtimizi ellər malik olmaq sevdasına düşələr, - deyüb əmr eylədi kim, ol məhəldən köçüb düşmən üzərinə əzimət edələr.

Tamam bahar vaqtı olub, cahanın tazələndügi dəmlər olmagilə hər gün bir məsirəyə qonub seydü şikar edərək, yola girdilər. Bir neçə müddətdən sonra Gilan dedikləri şəhərə gəlüb, üsyan eyləyən adamları bulduqları yerdə həlak eylədilər. Andan sonra ol yerdən də qalqub, Rey şəhərinə gəldilər. Nə qədər atəşə tapar adam buldular isə, cümləsini həlak eyləyüb, möhkəm təftiş eylər. Bu tərəfdən düşmən əsgəri İsgəndərin gəldügindən agah olub, can atub Xorasana qaçdılar. Pəs, İsgəndərdir bir qaç gün Reydə əglənüb və düşmən əsgərünün Xorasana fərar eylədigindən agah olduqda əsla əglənməyüb, Xorasana gəldi və nə qədər əsgər buldisə, cümləsini həlak eyləyüb, padşahlıq və dəvasını edən hərifləri ələ gətirüb, işini tamam eylədi. Çünki İsgəndər düşmənə zəfər bulub, ortalığı şərlərindən pak eylədi, bunun şükranəsi ol məhəldə bir şəhər yapub, adını Həri (Hərum) qodı. Andan sonra Əcəm məmləkətində olan şəhərləri cümlə birər-birər gəzüb, hər birində



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

bir qaç gün aram edüb, eyşü nuşlar edüb, dəmlər sürdi.

### Bu dastan İsgəndərin hində gedüb, Keydi-hindu ilə olan əhvalıdır

Çünki İsgəndər Əcəm diyarında olan şəhərləri tamam seyr eylədi, bir gün divan edüb, ərkani-dövlət və əyani-səltənət yanına cəm oldular. İsgəndər sözə başlayub dedi ki, həq-taala həzrətinə çoq şükürlər olsun ki, bütün Əcəm məmləkətinə malik olub, cümlə şəhərlərini seyr və tamaşa eylədik. Şimdən sonra könlüm istər ki, Hindustana səfər eyləyim və hind padşahı olan Keydi-hindu ilə cəng eyləyim. Əgər sair padşahlar kibi bizə itaət edərsə nə gözəl. Biz də əğraz və ikramlar edəlim və əgər itaət etməyüb, qarşu qorsa, üstünə əsgər çəküb miqdarını bildürəlim və tacü təxtini əlindən alub, yerinə qeyri kimsəyi padşah eylərim. Andan sonra Qur-hind üstünə səfər edüb, anın tacın da başından aldıqdan sonra Türküstana gedüb, xaqani-Çin ilə cəng edüb, cahanı seyr və tamaşa edəlim. Siz nə deyirsiz? - deyü əsgərin bəlli-başlılarına sual eylədikdə, cümləsi dualar edüb: Həq-taala həzrəti şəh-riyarımızın gününi günündən yek eyləsün, həman hər nə tərəfə səfər eyləmək muradi-humayunları olursa, biz cümləmiz hazır və madəyiz,- dedilər.

Pəs, İsgəndər əmr eylədi kim, əsgər ol məhəldən qalqub Hindustana əzimət edələr. Fərman üzrə, əsgərdir, bölük-bölük yola rəvanə olub, ardlarınca İsgəndərdir, qalqub bunca əsgər ilə qəti-mənazil və teyi-mərahim eylədi. Çünki Hindustan sınurinə irişdilər, murad eylədi kim, həman bir uğurdan Keydi-hindinin üstünə varub, cahanı başına (təng) edə. Yenə fikir eylədi kim, hələ əvvəl bir elçi göndərüb, üstünə əzimət eylədigimizi bildürəlim, bəlkə, itaət eyləyə. Əgər inad edüb qarşu qorsa, ol vəqtdə üstünə varub, miqdarını bildürmək asandır,-deyü mötəmidlər-dən birinə əmr eylədi kim, hind padşahı olan Keydə varub, tərəfimizdən



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

salam edüb, fərmanımızı bəyan eylə ki, hala yer götürməz əsgər ilə gəlüb Hindustana girdik. Əgər bizimlə cəng edərsə, vəqtinə hazır olub, sonra üzr və bəhanə eyləməsün ki, dərya kibi əsgər ilə varub, məmləkəti xərab eylərəm və əgər itaət edüb, cəng eyləməzsə, qılıcımızdan xilas olub rəayətlərimizə məzhər olur və əsgərin çoqluğuna məğrur olub, bizimlə cəng eyləmək sevdasında olmasun ki, əsgər çəküb bir yerə vardığımızda tağ və taş əsgər ilə mala mal olsa, qarşumda olan xəsmim hər kim olursa, əlbəttə, altımda zəbun ola gəlmişdir. Həman əqli kəndusinə yar isə, ərkindən bizə sərfiru edüb, itaət edə görsün, ta ki, izzətü hörmət bulub, tacü təxti paymal olmaya, - dedi.

Çünki Кeydən adam gedə varub, İsgəndərin göndərdigi atəşli cavabları bir-bir bəyan eylədi. Кeydir, qorquya düşüb, xəzan yaprağı kibi ditrədi. Zira, müqəddimən bir qorqulu duş görüb, üstünə bir yerdən düşmən gəlməklə təbir eyləmişlərdi və Daranın qarşu qoduğundan başına nə hallar gəldügini həp eşitmiş idi. Fikir edüb, qarşu qomağı münasib görmədi və: Layiq olan itaət edüb, mülayimət göstərməkdir,- deyüb, ibtida padşaha dualar edüb, andan sonra gələn adama cavab verüb, dedi ki, bizim nə canımız vardır ki, İsgəndər kibi şəhriyara qarşu qoyub, cəng edəvüz. Müqəddimən, iyi adlarını eşidəndən bəri məhəbbətləri könlümüzdə bərqərar olub. Bir səbəb ola ki, hüzurlarına peşkeşlər göndərüb, ərzi-übudiyyət eyləsin, deyü məhəbbətlərində ikən, hala suçsuz üstümüzə əsgər çəküb, cəng edəcək nə var? Əgər muradi-hümayunları xəzinə isə, xakpaylarına cahan malları göndərəlüm. Mal degil, canımız belə istərsə, diriğ etməyüb, yollarına fəda edəlim. Yok, əgər muradi-humayunları xəzinə olmayub tacü təxtini almaq istərlərsə, kəndilərinə zəhmət olmasun, bir qullarunı göndərsünlər, cümlə məmləkətimi təslim edəyim, kəndim varub qapusında qulluq edəyim. Anlar bizim əfəndimizdir, biz anların bir ədəni quluyuz. Anlar naz eylədikcə lazım olan niyaz eyləməkdir. Həman hər



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

nə buyururlarsa, əmr eyləsünlər, bin can ilə itaət edəlim və əgər qulluğumuz keçməyüb, əlbəttə, cəng eyləmək murad eylərlərsə, anlar gəldikcə, biz dəxi qaçub qarşularına gəlməziz. Lakin əgər bizim üstümüzə gəlüb, vilayətimizi paymal eyləməyəcəginə əhd edüb, könlümizi qorqudan əmin edərlərsə, hüzuri-humayunlarına hər biri cahana bir gələnlərdən dört töhfə göndərəyim. Biri hərəmimdə olan qızımdır ki, hüsndə dünyada misli bulunmaz. Biri də yaqutdan bir kasədir ki, içindən nə qədər şərab içərlərsə, əsla qətrə əksilməz, yenə əvvəlki kibi tolu turar və biri bir hikmət sahibi ustaddır ki, yeddi qat yerdə nə var isə, cümləsindən xəbər verüb, gögdə olan yıldızların hərəkətini də nə olub və nə olacaqdır, cümləsini bir-bir bəyan eylər və bir də bir ustad həkimdir ki, insanın bədənində olan hər nə qədər mərəz var isə, cümləsindən xəbərdardır. Bir xəstəyə həman əli toqununcadır, ol saət səhhət bulur. Pəs, bu dört nəsnəyi ki, hər biri cahanda misli bulunmazlardandır, əgər şəhriyari-cahan bizimlə cəng eləməyüb, vilayətimizi paymal eyləməyəcəklərinə əhd edərlərsə, neçə xəzinə ilə hüzurlarına göndərəlim, - dedi.

Çünki gələn adam Keydi-hindidən bu sözləri eşitdi, dedi ki, əgər buyurduğunuz şeyləri şəhriyarımıza göndərərsənüz, şübhəsiz, sizi rəncidə eyləməyüb, qədrinizi cahan padşahları arasında mümtaz edüb, neçə rəayətlər eylər. Həman ehmay eyləməyüb, bir gün əvvəl ərzi-übudiyyət eyləməgə əcələ buyurun,-dedikdə, Keydi-hindi yanında olan əyandan bir ixtiyar kimsəyi əhdü peyman eyləmək içün gələn elçi ilə İsgəndərin dərgahına göndərdi. Bunlardır, yola girüb, İsgəndərin ordusına gəldilər. Hindi gördi kim, tağ və taş cümlə çadırlarla tolub. Sağ və solu tamaşa edərək, sanki cümlə yer yüzini əsgər tutmuş. Bu hala heyran olub, sağ və solu tamaşa edərək padşahın otağına gəldilər.

Hindidir, İsgəndərin hüzurunə girüb, yer öpdikdən sonra padşahdan qulluqlar ərz edüb, söylədigi sözləri cümlə bəyan eylədi. İsgəndər



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Keydi-hindinin itaət eylədigindən şad olub, ərz eylədigi töhfələri görməgə mail oldu. İbtida, gələn hindi ilə əsla bir təriqilə zərər və ziyan eyləməyəcəginə əhdü peyman edüb, andan sonra Bəlinas həkim ilə əyandan bir qaç kimsəyi hindi ilə məa qoşub göndərüb, ol töhfələri götürməgə fərman eylədi və əmr eylədi kim, Keydi-hindiyə bir namə yazalar.

Namədir, yazılub Bəlinasa verdilər. Ol da bir neçə əkabir ilə hindiyi yanına alub yola girdilər. Günlərdən bir gün Keydi-hindinin təxtgahı olan şəhərə gəlüb hüzuruna girdilər. İbtida yer öpüb, padşaha dualar eylədikdən sonra İsgəndərin naməsini çıqarub sundular. Ol da ayaq üzrə qalqub təzimlə naməyi aldı və möhürini öpüb, yüzinə sürdikdən sonra açub, yanında olan katiblərə verdi. Namədir, oqunub ibtidasında həq-taala həzrətlərini həmdü səna eylədikdən sonra demiş ki, ey şəhriyari-namdar, daima bəxtin tazə olub, dövlətin ziyadə olsun. Cahangirlik adəti üzrə yer götürməz əsgər ilə Hində əzimət edüb, qəsd eyləmiş idik ki, bu diyarları cəngü cidal ilə fəth edüb, olanca əsgərini ayaqlar altında paymal edəyiz və bütün Hindistan torpağını adam qanı ilə palçıq edüb, hər güşəsini qarət eylədikdən sonra dönüb gedəyiz. Çünki sizlər sülhə talıb oldunuz, biz də müqəddimən eylədigimiz əzimətdən fərağət edüb, sizinlə sülh və səlahə qərar eylədik və gələn adamınız ilə əhdü peyman eyləyüb, sülh qaidəsini yerinə gətürdük. Zira, siz çünki könüllər alçaqlığı edüb, neçə tatlı sözlər söyləmişsiz eşitdikdə könlümüzdə olan ədavət məhəbbətə dönüb, ol sözlərə məftun olduq. Gərəkdür ki, siz də müqəddimən eylədiginiz şərti yerinə götürüb, ol dört töhfəyi hüzurumuza göndərəsiz və bizimlə xəsm olub, cahan şəhriyarları içində şanü şövkət bulasız və bir dəxi düşmən qorqusundan əmin olub, rahətdə olasız. Madam ki, biz cahanda sağ olayuz, heç kimsə bir dəxi sizin məmləkətinizə əl uzatmağa qadir olamaz, - deyüb xətmi-kəlam etmiş.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Namə oqunub tamam oldu. Keydi-hindi ziyadə şad olub, İsgəndərə dualar edüb, canü dildən qulü-qurban oldu. Bəlinasa və yanınca gələnlərə ziyafətlər edüb, iğrazü ikramlar eylədi və peşkeşləri hazırlamağa bir həftə möhlət alub.

Çünki bir həftədir, tamam oldu, İsgəndərə ol dört töhfədən qeyri altun və ləl, cəvahir və ud və əmbər və sair, diba və zibadan qiyasa gəlməz xəzinələrlə, cəng günündə üstünə təxt qurulmaq içün üç danə bəyaz fil göndərüb, Bəlinasa bir xəzinə verüb və yanınca gələnlərə cümləsinə hesabsız töhfələr verdi və qızı ki, adına Pəridəxt deyərlərdi, ud ağacından yapılmış bir təxti-rəvanə qoyub, neçə nazənin cariyələrlə belə göndərdi.

Bəlinasdır, bu qədər xəzinələr ilə yola girüb, günlərdən bir gün İsgəndərin hüzuruna gəldi. Gətürdigi peşkeşləri ərz eylədikdə, İsgəndərdir, bu qədər töhfələri görüb şad oldu. Lakin ol dört töhfədən ziyadə məmnun olub, ibtida camı götürüb gördi kim, içində olan şərbət ilə bütün cahan xəlqini qandırmaq mümkündür. Andan sonra ustadı yanına gətürdüb, hər tərəfini yoqladı. Ol da cümlə ülumda mahir və cəmi hünərdə kamil bir kimsə olub, həkimi də təcrübə eylədi. Anı da sənətdə ustad bulub, çünki növbət qıza gəldi, gördi kim, bir nazənin mahpeykərdir ki, cahana misli gəlməmiş, yanağı gül, saçı sünbül, bəni hindu, zülfi əmbərbu, qaşları siyah, tüzli kəmanə, çöhrəsi bədr olmuş ay, həqqə ağızlə, gərdanı kafurdan püskürmə bənli, incə belli, təni yasəməndən nazik, bir incə aftabdır ki, baqdıqca adamın gözi qamaşır. Adam surətində bir pəri, cümlə gözəl hər yeri. Əlqissə, İsgəndər nigari-nazənini gördikdə bin can ilə mail olub, həzrəti-İbrahim əleyhissəlam şəriəti üzrə nikah edüb, xatun edindi. Andan sonra hind padşahına təkrar məhəbbətnamə ilə bir neçə yük ləlü cəvahir və diba ilə bir otaq və bir altun mürəssə təxt və cövhərli bir tac və bir qaç tüləh at və incə nazənin oğlan və mahparə qızlar göndərdi və ol məhəldə dügün edüb



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

hind şahı qızından murad alub, murad verdi və bir neçə gün ol yerlərdən seydi-şikar və gah eyşü nuş edüb, dəmlər sürüb, bə’də vaqe olan əhvalı Ərəstuyə yazub göndərdi və əhvali-məmləkəti sipariş edüb, hind şahı qızını da yanında olan xəzinə ilə Ruma göndərüb, kəndi ol məhəldən Furi-hindi üstünə səfər eyləmək murad eylədi və ətraf və əknafə adamlar göndərüb, hər vilayət hakimindən nə var, nə yoq, deyü xəbər sordu.

Gedən adamlardır, xəzinə ilə padşahın xatununu Ruma gətürüb, naməyi Ərəstuyə verdilər. Ol da namənin cavabını yazub, təkrar İsgəndərə gəldilər. Sair yerlərə gedənlər də gəlüb cümlə səlamət xəbərini gətürdilər. İsgəndərdir, şad olub əmr eylədi kim, səfər tədarükini görələr.

## Bu məhəl İsgəndər Qənnəuc dedikləri şəhərin padşahı olan Furi-hindi üstünə əsgər göndərüb, işini tamam eylədikdən sonra Çinə səfər eylədigidir

Çünki səfər tədarüki görilüb, cümlə əsgər hazır və mühəyya oldular, pəs, İsgəndər kəndi ol tərəflərdə seydü şikara məşğul olub, yanında olan pəhləvanlardan birini hesabsız əsgərə sərdar edüb, Füri-hindinin üzərinə göndərdi. Əsgərdir, ətraf və əknafı qarət edərək Füri-hindinin üstinə vardılar. Cəng edüb, cümlə əsgərini pərişan eylədilər. Hesaba gəlməz qənimət ilə dönüb, İsgəndərin hüzuruna gəldiklərində Qənnəuc (Qənuc) şəhərinə kəndu tərəfindən bir kimsəyi padşah eylədi.

Andan sonra ol yerlər atlara yaramayub, tavarlar qırılmağa başladığından köçmək murad eylədilər. Cəmi vilayətlərin havasını təcrübə edənlər böylə bəyan eyləmişlər ki, üç dürli heyvan üç vilayətdə çoqluq yaşamayub, həlak olur. Biri Hinddə at yaşamayub, ol yerin havası tavara yaramaz imiş. Biri də Əcəm diyarında fil yaşamayub,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Hindudan hər nə qədər fil gətürsələr bir qaç yilin içində ölürmiş və Çin dedikləri vilayətdə kədi yaşamayub, ol diyarə nə qədər kədi götürsələr, az zamanın içində həlak olur imiş.

Əlqissə, İsgəndər ol məhəldən köçüb Tübbət (Tibet) dedikləri yerə əzimət eylədi. Çünki Tübbətə gəldilər, cümlə əsgər xəlqini səbəbsiz gülmək tutub, hər biri ixtiyarsız qəhqəhə ilə gülməgə başladı.

İsgəndər hükəmasından bunun əslini sual eylədikdə cavab verüb: Şəhriyarım, bu zəfərana bənzər sarı toprağın xassəsidir ki, görən adamı ixtiyarsız gülmək tutar, -dediklərində padşah təəccüb edüb, heyran oldu.

Andan sonra ol yerindən köçüb, Çin vilayətinə əzimət eylədilər. Otsuz, susuz byabana girüb, bir neçə günd ol çöli keçüb tamam eylədilər. Tamam murad üzrə otlu, sulu yerlərə gəldiklərində bir həftə ol məhəldə qərar edüb, atları ota saldılar. Bir həftədən sonra təkrar yola girüb, neçə mənzil köçüb, axır Çin vilayətinə yaqlaşub, cənnətə bənzər bir gözəl yerə gəldilər ki, cümlə ətrafı yemiş ağacları ilə toptolu olub, hər tərəfdən abi-həyata bənzər sular çaqlayub aqar idi. Pəs, ol yerdə qərar edüb, bir ay seydü şikar edüb, zövqü səfalar eylədilər. Bu tərəfdə xaqan İsgəndərin üstünə səfər eylədigindən xəbəri yoq, kəndu aləmində olub gecəvü gündüz zövqü səfasında ikən, günlərdə bir gün xəbər gəldi kim, İsgəndər Əcəm diyarından yer götürməz əsgər ilə Hindistana gedüb, Keydi-hindi ilə sülh edüb, Furi-hindinin tacü təxtini aldıqdan sonra sizin üstünizə gəlməgə qəsd eyləməgin hala Çin iqliminə ayaq basub, yeddi başlu əjdər kibi atəşlərin saçaraq gəlməkdədir. Yanında olan əsgərin qarşusına bu vilayət dilavərləri degil, Qaf tağının divləri belə turamıyub, bir həmləsinə taqət götürməzlər - dedilər.

Çünki Xaqan bu xəbəri eşitdi, əqli başından gedüb, ziyadə qorquya düşdi və əmr eylədi kim, əli altında olan məmləkətlərə namələr yazılub,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

hər vilayətin hakimi mükəmməl əsgəri ilə bir gün əvvəl gəlüb yetişməgə səy edəsən, - deyü, hər tərəfə möhkəm fərmanlar göndərdi.

Pəs, az zamanın içində ətraf və əknafdan bölük-bölük əsgərdir, Xaqanın yanına cəm olmağa başlayub, tağu taş sanki həp əsgər oldu. Çünki xaqan bu qədər əsgər cəm olduğunu gördi, bir miqdar canı yerinə gəlüb, həman kəndi yanında olan əsgəri də tışra çıqardı və gög dəmirə qərq olmuş hesabsız əsgərlə qalqub, iki mənzil İsgəndərə qarşu gəldi. Lakin yenə İsgəndərin qorqusundan gecə və gündüz öləm və iztirabda olub, əcəba, bu gün-yarın qarşumıza gəldikdə halımız necə olur-ola, deyü daima  əl altından casuslar göndərib, İsgəndərin tərzü tövrindən xəbər soruşdu. Anlar da gəlüb deyirlər idi ki, şəhriyarım, mələkə bənzər xoyi, xülqi gözəl bir padşah olub, daima ədlü dad ilə cahan xəlqini kəndusindən razı edüb, bir kimsəyə üqubət eyləməli olsa, əcələ ilə həlak eyləməyüb kərki kibi yoqlayub, əslini araşdırır və kimsənin matəmindən şad olmayub, məclisində kimsəyi kəmlik ilə yad eyləməz və bunca zamandan bəri heç bir yerdə məşğul olmayub, daima vardığı yerlərdə qalib  ola gəlmişdir və söz söylədügi vəqtdə ağzından cümlə hikmət çıqub, eşidən adam heyran olur qalur və az söyləyüb, çoq əpsəd durar və daima ümuri-dövlətini hükəma ilə və aqillərlə müşavirə edüb cümlənin ittifaqı olmadıqca bir işə başlamaz və bütün əsgərinin içində kəndu qədər şahbaz dilavar olmayub, bir tərəfdən bir zorlu pəhləvan zühur edüb kimsə cavab vermədikdə kəndusi cavab verir imiş və heç bir pəhləvandan qorqmayub daima zəiflərdən və biçarələrdən qorqub, olmaya ki, bir dərdimənddə bənim yüzimdən bir zəhmət ola ki, ahü fəğanı ilə tacü təxtimi xarab eyləyə, deyü daima dərvişlərin və fəqirlərin xatirini gözətməkdə imiş və əsgərindən malü xəzinə diriğ eyləməyüb, bir vilayət fəth edüb qənimət aldıqlarında olanca malı əsgərə ulaşdırar imiş, -deyüb, bunun kibi İsgəndərin neçə əhvalını bəyan eyləyələr idi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Xaqan cəsuslarından bu xəbəri eşitdikdə könlündən: həman İsgəndər ilə bir bəhanə bulub sülh eyləmək gərəkdir, yoxsa buncılayın şəhriyar ilə cəng edərsən, başa çıqarmayub tacü təxtimizi bərbad edərsiz, - der idi.

Bu tərəfdə xaqanın bu qədər əsgər cəm edüb qarşu çıqduğını İsgəndərə dediklərində cavab verüb, biz də anı istərüz. Haman gəlsün görəlim həq-taala həzrəti nə göstərər. Vəfiyi-ruzgardan sitəm görmədigindən bizi gözinə heç salındurmayub, əsgər çəkmiş. Hənuz damə düşməmiş ahu kəndi ayağ ilə damə gəldigi kibi, ol da qarşumıza gəldikdə miqdarını görər, -deyib, əmr eylədi kim, bir namə yazalar.

## Bu məhəl İsgəndərin xaqana naməsidir

İbtida, həq-taala həzrətinə həmdü sənadan sonra bən ki, İsgəndəri-sahibqıranəm, sən ki, xaqansan, bu namyəi sana göndərməkdən məqsudum odur ki, bu qədər əsgər ilə bu tərəfə gəlməkdən muradımız sizinlə cəng olmayub, bəlkə, bir qaç gün bu diyarı seyrü tamaşa eyləməkdir. Zira, məqribdən məşriqə varınca, cümlə cahanı tamaşa edüb, şəhriyarlardan bizə itaət edənlərə ikramlar edüb, qarşu qoyanlara miqdarların bildirüb, yerlərə çalub paymal eylədik və bundan əvvəl Hindistana gəlüb, Keydi-hindi ilə sülh edüb, Furi-hindinin tacü təxtini əlindən alub, vilayətini xarab eyləyüb, hala sənin məmləkətinə gəldik. Əgər bizi kəndu şəhərinə müsafir alub, iğrazü ikramlar edüb, itaət eylərsən, biz də səninlə cəngü cidal eyləməyüb, malü məmləkətinə zərər və ziyanımız toqunmaz və əgər sözimizi qəbul eyləməyüb, cəng eyləmək istərsən, vəqti ki, hazır olasan ki, yer götürməz əsgər ilə üstünə varub, cahanı başına təng eyləsəm gərəkdir. Əgər bizim qılıcımızın zorunu bilmək istərsən, Əcəm şəhriyarı olan Daranın halından anlayub, ana qiyas edəsən və anın başına gələn halın kəndu başına da



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

gələcəgini biləsən. Bunca zamandan bəri bizə qarşu qomayub, sülhə talib olan şəhriyarlarla möhkəm əhdü peymanlar edüb, dostluğlar eylədük və inadü müxalif edüb cəng edənlərin əsgərini pərişan edüb, tacü təxtini bərbad eylədik. Hala siz də fikir edüb görəsiz ki, bizimlə sülhmi edərsiz, yoxsa cəng yolunamı gedərsiz və ol fikirdə olma ki, bizim malü mülkə ehtiyacımız olmaqla sənin məmləkətinə qəsd eyləmiş olayuz. Bizdə olan mal və xəzinəyə bir padşah malik olmayub. Qapumuzda olan Çin gözəlləri və Türkistan dilbərləri hesaba gəlməyüb, xətayi qızların xod həddü hesabı yoqdur. Bizim ancaq məqsudimiz seyri-məmləkətdir və öylə eşitdik ki, hala yanına əzim əsgər cəm edüb, yolumızı alub turur imişsən. Haman ər olub qarşumızdan qaçmıyasan. İştə biz də ikimiz bir yerə gəldikdə miqdarını görərsən və əgər eylədigin küstaxlıqdan üzr eyləyüb, cəngdən fərağət edərsən, yenə də üzrini qəbul eyləyüb, suçını əfv edəriz. Naməmiz vardıqdan bizə bir gün cavab göndər ki, əsgər taifəsi hazır və amədə olub, xəbərə müntəzirlərdir: Bizim böylə təxir eylədigimizi ehmal sanub, həman bir gün əvvəl düşmən əsgərinin üstünə varub, cahanı başlarına təng edəlim, -derlər.

Çünki bu üslub üzrə namədür, yazıldı, İsgəndərə göstərdilər, möhürləyib, bir söz sahibi kiməsənin əlinə verüb, əmr eylədi kim, varub naməyi xaqana götürüb cavab gətürə. Pəs, ol kimsə də naməyi alub, fərman üzrə sürüb xaqanın qatına gəlüb, naməyi verdi. Xaqan da alub katiblərə verdi. Çünki namədir, oqunub məfhumu məlum oldu. Bu sözlərdən qəlbinə qorqu düşüb, bir miqdar fikrə vardıqdan sonra: Hələ əvvəl namənin cavabını göndərüb, sonra görəlim məsləhət nə yüzdən zühur edər, -deyü əmr eylədi kim, İsgəndərə bir namə yazalar ki, bir miqdari üzrlər olub mülayimət göstərilə və bir miqdari izhari-qüvvət və qüdrət olub qəzəbə götürilə. Pəs, əmri üzrə namədir, yazılub xaqana sundılar.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## Bu məhəl xaqanın naməsidir, hər ki İsgəndərə göndərdikdən sonra ardı sıra kəndunin təbdili-surət olub elçiliklə gəldigidir

Namənin əvvəlində həq-taala həzrətinə həmdü səna olunduqdan sonra sözə gəlüb bu gunə başlamış ki, ey şəhriyari-kamkar, həq-taala sizi səltənətlə müşərrəf eyləmiş, məğribdən məşriqə varınca bu qədər məmləkət padşahlarını sizə müsəxxir eyləmiş. Pəs, bunca dövlətə qənaət eyləməyüb, hala bu tərəflərə də hərəkət eyləmişsiz. Lakin əcəl eyləməyüb, bir miqdar saqınasız ki, yolunuz üsündə əjdər vardır. Bizi çaq bu qədər ayaqlar altında paymal eyləməgə əzimət eyləmək allahdan rəvamıdır? Siz əgər Rum şəhriyarı isəniz, biz də halımızca bu diyarın padşahıyız. Qapunızda bizim kibi neçə şahlar bəndə ola gəlmişlərdir. Bizi də anlar kibi görüb bu qədər qəzəb eyləməsəniz, olmazmı? Cümləmiz topraqdan xəlq olunub yenə topraq olsağ gərəkdir. Pəs, sizinlə bir qaç gün cahanda hüzur ilə keçüb getsək, nə var idi. Bizə əsgər çəküb, yolumızı almaq istəmişsən, deyü buyurulmuş. Öylə eşitdim ki, cənabınız bir yerə səfər eylədikdə bazərgan surətində bir qaç adamı iləri göndərüb, anlar da gəlüb ol şəhərdə zəxirə qalmadıqda, varsa, cümləsini alub gizli atəşə yaqub tələf edərlər imiş. Şəhərdə zəxirə qalmadıqda siz də əsgər ilə gəlüb, mühasirə edərmişsiz. Pəs, xəlq aciz olub, naçar qələyi sizə təslim edərlər imiş. Bu sözi eşitdikdə biz də iki mənzil şəhərdən tışra çıqdıq ki, bu afətdən nicat bulayız. Gərçi bu vilayətin zəxirəsi bunun kibi hiylələrlə tələf olmayub, xeyli çoqdur. Lakin xəlqi təşvişə burağub ələm verməsi müqərrər olmağla bu bəladan savışmaq münasib görüldü və, ey şəhriyari-alişan, bu məmləkət zəiflərinin mal və rizqlərini qarət eyləmək sevdasında olma ki, həq-taala həzrəti də sənin məmləkətin rəayasında mallarını xarab eyləməyə və mali-əsgər çaqlığiylə vardığın məmləkətləri xarab eyləmegi kəndunə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

adət eyləmə ki, cümləmizə bu dövləti ehsan eyləyən həq-taala bu qədər dövlətə layiq görüb, bunca malü mülk ehsan eylədigi yer yüzində olan qullaruna mərhəmət edüb, mülayimət ilə tutsun deyüdür. Pəs, sən də bu halı bilüb, hər zaman zor və bazunla cahan xəlqini rəncidə eyləmə. Ta ki, bir gün əlində olan dövlət qeyrilərin əlinə girməyə, deyü vəqtə gəlincə daima mənsur və müzəffər ola. Gəlüb neçə şəhriyarların tacü təxtini paymal eylədüginə qəti də məğrur olub pək də atub-tutma ki, cahanda gah qəm və gah sürur, gah zülmət və gah nur görilə gəlüb, hər zamanın bir iqtizası vardır. Pəs, hər vəqti bir bilməyəsiz və olur-olmaz yerə gəlməyəsiz. Dünyaya sizin kibi neçə qüvvət və qüdrət sahibi cahangir şəhriyarlar gəlüb, neçə namdar kimsələrlə cəng edüb, cümləsinə qələbə eyləmişkən axırkar gözlərinə salındırmayub xarü həqir tutduqları əsgərin əlində pərişan olmuşlardır və sizə İsgəndəri-sahibqıran deyinüb, namınız Qafdan-Qafadək cahanı tutduğu insaf və mərhəmət sahibi, bir dövlətli olduğunuzdandır. Yoxsa o da olmadıqdan sonra cahanda nə qədər padşah var isə, cümləsi sizinlə yeksandır və həm İsgəndərlərdir və sizə mülayimət göstərməkdən öylə sanmayasız ki, cəngü cidala qadir olmayım. Həq-taalanın övni ilə əsgərimi yanıma cəm edüb, təxtimi fillər üstünə qurduqdan sonra neçə şəhriyarlar bir həmləmə taqət gətürəməzlər. Lakin sizin kibi şəhriyara qarşu qomağı layiq görməyüb, bir əql və rəy sahibi padşah olduğunuzdan sülhə talib oldum. Bundan sonra qullar kibi xakpayınıza yüzlər sürəyim və bu diyarlarda olduqca damən-dərmiyan edüb qadir olduğum qədər xizmətlər edəyim, - deyüb namyəi tamam eyləmiş.

Pəs, xaqandır, naməyi möhürləyib, gələn adamın əlinə verdi. Çünki namədir, İsgəndərə gəldi, oquyub sülhə talib olduğundan açmaz qodı, kəndi aləmində oldu. Lakin bu tərəfdə xaqan İsgəndərdən əmin olmayub: Bəlkə, əlalqəflə üstümə ilqar edüb, əsgərimi pərişan edə, - deyü daima əndişədə idi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Axırkar, kəndinin bir aqil və dana vəziri var idi, yanına dəvət edüb, bu xüsusi anınla müşavirə eylədi və dedi ki, İsgəndər ilə əcəbanə yola getsəm, əgər qarşu qoyub cəng edərsəm, bizim əsgərimiz anlarla başa çıqamayub, əvvəlki həmləsində cümləsi pərişan olurlar, sonra kəm olub çarə bulunmaz və əgər sülh edib, ərzi-übudiyyət eylərsəm, məmləkətimiz içində zəbunluq göstərmiş oluruz və bu padşahın bu qədər əsgər ilə səfər edüb, gəlməkdən məqsudi nədir, anı da bir xoşca bilməziz. Gərçi kəndusi naməsində «muradımız bu vilayəti seyr və tamaşa eyləməkdir», demiş, lakin bəlkə sonra bir qeyri yüzdən ola, sən nə dersən? - deyü vəzirinə sual eylədikdə, ol da cavab verüb, şəhriyarım, sizə layiq olan mal və əsgərinizə tapınmayub, haman sülh eyləməkdir. Bunca cahan şahları kəndusinə qulluqlar ərz eyləyən sahibqıran qomaq-zaman ilə sülh edüb, müdara eyləmək zəbunluq degildir və əgər müdara eyləməyüb, cəng edərsənüz, sonra nədamət çəküb tacü təxtinizdən ayrulursuz. Zira bu qədər zamandan bəri bu padşahlara kimsələr cəng edüb başa çıqamamışdır. Əgər cəng ilə qarşu  mümkün olsa Dara qoquz kərrə yüz bin əsgər ilə qarşu qor idi. Lakin ol da qürur ilə kimsənin sözini tutmaduğından tacu təxtindən ayrıldı və Keydi-hindi sülh edüb bu qədər izzətlər bulub, qızını verməklə kəndusinə şərəf verdi. Pəs, bənim anladığım budur ki, siz də sülh edərsiniz, zərər görməyüb rahət edərsiz, - deyüb, bunun əmsalı neçə sözlər söylədi. Axır bu ki, qərar verdilər ki, xaqan kəndusi qiyafətini təbdil edüb, elçi surətinə girə və İsgəndərin bargahına varub, məclisini bir kərrə görə.

Pəs, bunun üzərinə vəzir ilə ittifaq edüb cümlə ümurini həp vəzirə sipariş edüb, kəndusi ol gecə rahətlə yatub, çünki sabah oldu, əsgər içinə: İsgəndərə elçi gedir, -deyü avazə buraqdılar. Pəs, xaqandır, şəhriyarlar libasını çıqarub, bir qeyri qiyafətə girdi və yanına mötəməd xizmətkarlarından bir qaç adam alub, kəndu əsgərinə görünməyüb, bir



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

tənha yerdən çıqub getdi.

Çünki İsgəndərin ordusuna gəldi, gördi kim, dünyayı əsgər tutub, sanki cahan xəlqi cümlə bir yerə gəlmişlər. Sağ və solu seyr edərək, İsgəndərin otağı önünə gəlüb gördi kim, başı göglərə çıqmış, atlasdan bir bargahdır ki, qapusunda hesabsız xizmətkarlar tururlar. İləri gəlüb kəndisinin xaqan tərəfindən elçi olduğunu bildirüb, hüzura girməgə izn istədikdə, gəlsün, deyü fərman olub, anlar da, buyurun, deyü xaqanın önünə düşüb içərü götürdilər. Pəs, xaqandır, İsgəndərin hüzuruna girdikdə, yer öpüb padşaha dualar eylədi. Elçilər oturduğu məhəldə yer göstərüb, buyurun, dediklərində, ol da oturub, göz tərazusuna urub gördi kim, bir tərəfi şahlar və şahzadələr, bir tərəfi pəhləvanlar və bir canibi əyani-dövlət və cümlə üləma və hükəması yerli yerində qərar edüb, öpsəm tururlar. Xaqandır, bu şövkət gördikdə mədhuş olub heyrətə vardı. Bir zamandan sonra İsgəndər sözə gəlüb elçiyə: Şəhriyarından nə xəbər gətürdin isə, söylə görəlim, -dedikdə elçidir, təkrar yer öpüb: Şəhriyarım, padşahımız bənimlə birər gizli sözlər göndərüb, əmr eylədi ki, sahibqırani-zəmanə bu sözləri tənhada söylə, kimsə eşitməsün, deyü fərman eylədi, - dedi. Pəs, İsgəndər: Nə gözəl, - deyüb əmr eylədi, bir altun zəncir gətirüb elçinin əlini və ayağını ol zəncir ilə möhkəm baqladılar. Andan sonra padşahın önünə bir yalın qılıc, qoyub ortalığı tənhaladılar. Əsla elçi ilə padşahdan qeyri kimsə qalmadı. Pəs, İsgəndər elçiyə: İştə ortalıq tənha oldu, sipariş olunan söz hər nə isə, bəyan eylə, - dedi. Xaqandır, padşaha dualar edüb, dedi kim, şəhriyarım, həq-taala həzrəti sizi cahan turduqca bərqərar edüb, həmişə xürrəm və xəndan eyləsün. Sözün gercəgi budur ki, bən qulun elçi degil, bəlkə, Çin padşahı xaqanam. Hüzuri-humayunuza gəldim ki, yüzüm xakpayınıza sürüb, qulluqlar eyləyim, -dedikdə, İsgəndər xaqanın böylə elədigindən qəzəbə gəlüb dedi ki, sən bizdən nə mülayimət gördün ki, qılıcımızdan qorqmayub böylə küstaxlıq ilə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

məclisimizə elçilik ilə gəldin?! -deyü itab eylədikdə, Xaqandır, dua edüb dedi kim, padşahım, daima cahan şahları qapunda bəzək olsun. Çünki qullarından müqəddimən şəhriyarım haqqında bir yaramazlıq olmadı ki, qılıclarından qorquya düşəm və padşahın lütfü ehsanı hesabsız olmağın bənim kibi qulları neçə kərrə suç eyləyüb təkrar üzr diləyüb, etiraf eylədiklərində suçlarını bağışlayub, üzlərini qəbul buyururlar. Pəs, bu qulunuz da şəhriyarin lütfü ehsanına etimad edüb gəldim və qapunuza yüz sürə gələn kimsəyə cövrü cəfa olunmayacağını bildim. Əgərçi əzm suç eylədim, lakin şəhriyarım da, niyaz edirəm ki, bənim bu günahıma baqmayub əfv buyuralar, - deyüb bunclayın necə mülayim sözlər söylədi və padşahın könlünü öğurlayub kəndusinə məhəbbət etdirdi. Pəs, İsgəndər dedi ki, sənin suçundan keçdik. Bu xüsusdan ötrü əsla xatirinə qəm və qüssə gətürmə. Lakin bu cins qiyafətini təbdil edüb, elçi surətində məclisimizə gəlməkdə məqsudun nədir, bizə bəyan eylə dedikdə xaqan təkrar dua edüb: Şəhriyarım, dərgahınıza bu qiyafətlə yüz sürməkdə məqsudum padşahın bu qədər əsgər ilə bu tərəfə səfər eyləməkdən muradi-humayunları nədir, ani bilüb görəyüm ki, bu qulları ilə sülh buyurub məmləkətimi yenə bəndələrinə ehsan edərlərmi, deyü bir xəbər almaq idi. Ta ki, biz də rahət üzrə olub qədərimiz mərtəbəsi mal və xəzinələr verüb bulların da xizmətlər edəyüz. İştə muradımız bu idi ki, xakpayə bəyan eylədim. Bundan sonra fərman sizindir, hər nə əmr edərsiniz, qəbul edüb, itaət edərəm. Lakin sizdən də məmul olan lütfü kərəmdir. Rica edirəm ki, bana atam tacu təxtüni bağışlayub, çirağ edəsiz. Bən də mümkün olduğu mərtəbə şəhriyarıma xizmətlər edüb hesaba gəlməz mal və xəzinələr verəyim, dedi. Pəs, İsgəndər Xaqana cavab verüb: Ey namdar, çünki bizim bu tərəflərə gəldigimizdən sual eylədin, biz də sana əslini bəyan edəlim. Bu qədər əsgər ilə bu məmləkətə gəldik ta  ki, Əcəm diyarı kimi, bu vilayəti də alub, kəndi mülkimizə qatub, tərəfimizdən bir padşah qoyub, çıraqımız ola. Lakin



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

sən, çünki kəndi ixtiyarınla gəlub bizə itaət eylədin, biz də əvvəlki niyyətdən dönüb, bu vilayəti yenə sana verəlüm və səninlə əhdü peyman edüb, kərki kibi sülh və səlah edəlim və bir qaç gün bu tərəfləri seyr və tamaşa eylədikdən sonra dönüb gedəlim. Bu şərt üzərinə ki, vilayətindən hər nə qədər mal hasil olursa, yeddi yillık məhsulunu bizə verəsən. Əsdi yil tamam olduqdan sonra yenə əvvəlki kibi kəndin atub-tutasan, - dedi. Xaqandır, bu sözi eşitdikdə dualar edüb: Padşah, fərmanınız üzrə yedi sənəyədək vilayətimdə nə qədər mal hasil olursa, hüzurunuza göndərəyim. Lakin bu qədər mal qarşusunda şəhriyarımdan rica edirəm ki, bu qulların yedi yilədək axirətə getməyüb, dünyada baqi qalmasına bir xətti-hümayun ehsan edələr, -dedi. İsgəndər bu sözi eşitdikdə gülüb: Həman bizə bir yillik məhsulu ver ki, qalan altı yillik məhsul sənin olsun, -dedi. Xaqandır, bundan şad olub, padşaha dualar eylədi və: Şəhriyarım, səndən niyaz edirəm ki bir sənəlik məhsul üzərinə sülh olduğuna mübarək qılmanız ilə bir əman kağızı ehsan edəsiz, ta ki, varub bir yillik məhsulu gətirincə padşahım bu məhəldən hərəkət buyurmayalar, - dedi. Xidmətkarlardır, İsgəndərə dəvat - qələm gətirib, qələmi ilə bir əhdnamə yazub, əmr eylədi ki, gəlüb xaqanın bağını çözələr. Pəs, xizmətkarlar gəlüb, xaqanın bağını alub, başına bir mürəssə tac geydürüb, arqasına bir xələti-şahanə geydirdilər. Ol da gəlüb padşahın əlini öpüb, əhdnaməyi alıb və çıqub əsgərinə getdi.

Xaqandır, getdikdən sonra İsgəndər artıq düşməndən əmin olub, əmr eylədi kim, şahanə bir məclis qurub, oturub eyşü işrət edüb, dəmlər sürələr. Pəs, fərman üzrə məclisdir, tərtib olunub gecə və gündüz fərağət xatirlə zövqü səfalər edüb, gah şərabi-ərğəvani nuş edüb, sazəndə və cəngilərlə əglənüb, gah seydü şikar içün səhralərə çıqub, ətrafı seyrü tamaşa edərkən, Xaqan əsgəri tərəfindən gözçilərdir, gəlüb padşaha dedilər ki, şəhriyarım, hesaba gəlməz əsgər ilə xaqan



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

yerindən qalqub, təbil və surnaları yerlərə zəlzələ və göglərə vəlvələ verərək, bunca fillər ilə sellər kibi ordunun üstünə aqub, gəlməkdədir, deyü xəbər götürdiklərində İsgəndər xaqanın buncılayın hiyləsindən agah olub, həman dəm təxtindən aşağı endi və cəng libaslarına qərq olub, əmr eylədi kim, cümlə əsgər süvar olub, gələn əsgəri qarşulayalar.

Pəs, kusi-şahi çalınub cümlə əsgərdir, gög dəmirə qərq olub atlarına süvar oldular, yer yüzini əsgərdir, tutub qiyamətlər qopdu. Bu tərəfdən xaqan dəxi şövkəti-padşahi ilə filinə süvar olub, yer götürməz əsgər ilə gəlüb gördi kim, İsgəndərin əsgəri cümlə süvar olub, dəmir tağ kibi səddi-İsgəndər olub turmuşlar. Pəs, xaqandır, əsgərindən iləri meydana gəlüb hayqırdı: Qanı padşahınız, xəbər eyləyik gəlsün,-dedikdə, İsgəndərə: Padşahım, xaqan meydana çıqub sizi istər,-dedilər. Həman dəm, İsgəndərdir, atını meydana sürüb, gəlüb: Ey nabikar, Çinə, gəlüb bizimlə bu qədər əhdü peyman edüb, qövlü qərar eylədikdən sonra, hala bunun kibi hiylə ilə əlalqəflə üstümüzə gəlüb, bizə şəbixun eyləmək sənin kibi padşaha düşərmi? Çin xəlqində vəfa olmaz, dedikləri gerçək imiş. Zira əgər vəfa olsa, padşahlarında olurdu. Lakin sana bir iş edəyim ki, aləmə dastan olsun. Sən də gör ki, adam əhdini bozmaq necə imiş,-dedi. Xaqandır, İsgəndərdən buncılayın sözləri eşitdikdə dedi ki, ey şəhriyari-kamkar, bu qulunuz padşahımla əhd edildən bəri, hala bu ana gəlincə ol qövlü qərar üzrə olub, qıl qədər itaətləri dairəsindən tışra çıqmadım və sizin kəndi qulunuz və çiraqi-xasınız olduğumda şübhə yoqdur və surətən üsyanla gəlüb, bunun kibi küstaxlıqdan məqsudun oldur ki, şəhriyarımın məlumları ola ki, Hində səfər eyləsəm, altını-üstünə götürməgə qadirəm. Lakin şəhriyarıma itaət edüb, qulu qurbanı oldum, - deyüb filin üstündən aşağı endi və padşahın önündə yer öpüb xizmətlər eylədi.

İsgəndərdir, xaqanın buncılayın etirazını gördükdə əmr eylədi,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

kəndiyə gələrindən mürəssə rəxtli bir at götürüb, xaqanı üstünə süvar eylədilər. Andan sonra ol bir yillik məhsul malını da bağışlayub ortalıqdan, xüsumətdir, qalqdı. At başı bərabər müsahibət edərək çəkilüb getdilər. İki əsgərdir, cümlə dost olub bir-birinə qarışdılar.

Pəs, bir miqlar getdikdən sonra dönüb bərgahlarında qərar eylədilər. Hər gün xaqan tərəfindən İsgəndərə ziyafətlər olub, nə qədər yemək və şərab lazım isə, cümlə xaqan tərəfindən gəlürdi. Pəs, hər gün iki padşah biryerə gəlüb, zövqü səfalar edüb, sazəndə və cəngilərlə eyşü işrətlər edüb, dəmlər sürürlər idi.

## Bu hekayə Rum nəqqaşları ilə Çin müsafirləri İsgəndər ilə xaqani-Çin hünər göstərdikləridir

Günlərdə bir gün yenə İsgəndərin hüzurunda məclis qurulub, İsgəndərdir, təxt üzrə qərar edüb, xaqan ilə simtək saqilər əlindən şərabi-ərğəvanilər nuş olunub, kəllələr gərm və sinələr nərm olduqda hünər sahibi neçə aqil kimsələr ol məclisdə böylə olmağın müsahibətə başlanub, hər vilayət xəlqinin əlindən nə gunə hünər gəlür ola, deyüb, içlərindən biri dedi ki, Babil vilayətindən olan xəlqin əksəri cadu olub sahir olurlar və biri də Xorasan və İraq vilayətinin xəlqi gözəl və avazəli olmağın sazəndə və xanəndə olurlar, deyüb, Çində ustad nəqqaşlar olub, Rumda da neçə ustadlar bulunur. Əcəb qanqısının nəqşi gözəl ola, deyü, bəhs olunub. Kimi Çin nəqqaşlarını bəgənüb və kimi rumiləri dəxi ustaddır, deyü, axır bunun üzərinə ittifaq eylədilər ki, bir odanın ortasına pərdə çəkilüb, bir divarını Çin nəqqaşları təsvir edüb, o biri divarını Rum nəqqaşları…

...dir deməz, əlbəttə, varub seyd eyləməsi müqərrər idi.

Biri də bir nazənin mahpeykər cariyə idi ki, dünyada misli



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

görülməmiş idi. Bir afəti-can, fitnei-dövran olub qəmzəsi oquna Rustəmlər taqətlər götürəməzlər idi. Pəs, bu töhfələrdir, birər-birər padşaha ərz olnduqca yanında bir kimsə turub, hər birini bəyan eylərdi. Çünki bu üç töhfədir, ərz Idundu ol kimsədir, bəyan edüb: Şəhriyarım, bu at ilə quş cahana bir gəlüb, hər birinin hünəri təcrübə olunduqda şəhriyarıma məlum olur. Lakin cariyənin hüsnündən qeyri iki hünəri dəxi vardır. Biri bir cins avazlı gözəldir ki, yarlıqda ixtiyarsız gögdə uçan quşları yerə endirüb və çağlıyub açan irmaqları dikdirir və biri də qayət dilavər şahbaz olub, cəng günündə dögmə pəhləvandan yüz döndərməyüb, xəsmin mərdanə həqindən gəlür, -dedi. İsgəndərdir, bu sözi eşitdikdə təəccüb edüb, xoş avazının gözəl olduğuna etimal eylədi. Lakin buncılayın kafuri tənli ziyadə mədh eylədiklərindən gücənüb, aldıqdan sonra yüzinə baqmayub, nazənin cariyə necə dilavər olub, pələvanə ola,- dedi və cariyəni əsla məclisinə gətürmədi.

Əlqissə, çünki axşam oldu, İsgəndərdir, qalqub bargahına gəldi. Ol gecə rahət edüb, çünki sabah oldu, ol gün yenə bargahında məclis qurub, eyşü işrətə məşğul oldu və əmr eylədi kim, cümlə əsgər hazır və mühəyya olub, yol tədarüklərini görələr. Pəs, əsgərdir, hazırlanmağa başlayub, padşah isə xaqan ilə axşamlaradək söhbətlər eylədi. Ol gecə də keçüb, sabah olduqda, İsgəndərdir, cümlə əsgər ilə ol məhəldən köçüb, bir qeyri yoldan ətrafı seyrü tamaşa edərək Əcəm məmləkətinə döndilər. Xaqani-Çin də padşahla bir miqdar getdikdən sonra, İsgəndər: Şimdən sonra siz artıq dönüb, varın kəndi... olub, məmləkətiniz əhvalını görün. Biz də seyrü şikar edərək çəkilüb gerü gedəlim, - dedi. Xaqan da padşaha dualar edüb, dönüb şəhərinə getdi.

Pəs, İsgəndərdir, bir miqdar getdikdən sonra bir gözəl yerə gəlüb qodular. Ertəsi ol məhəldən də qalqub, bu tərz üzrə bir qaç gün getdikdən sonra bir dilguşa yerə gəlüb, bir qaç gün seydü şikar içün ol məhəldə qərar eylədilər.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## Bu məhəl rus əsgəri gəlüb, Bərdə məmləkətini qarət edüb, Nüşabəyi əsir eylədiklərində İsgəndərin agah olduğudur

Çünki İsgəndər ol məhələ qonub qərar eylədi, pəs, bir qaç gün seydü şikarə məşğul oldu. Lakin daima vətən arzusu könlündən getməyüb, neçə zamandan bəri Rum məmləkətini görmədügindən Ruma varub, bir kərrə görmək istər idi.

Bir gecə böylə fikir eylədi kim, ol yerdən qalqub Xorasana vara. Bir qaç gün ol yerdə adam eylədikdən sonra təxtgahı olan İstəxrə vara, bir müddət də əglənüb zövqü səfalar və eyşü işrətlər eylədikdən sonra Ruma əzimət edüb, varub əski təxtini görə. Lakin hər vəqtdə adamın istədügi olmayub, neçə qane yüz göstərməklə murad eylədügi işi edəməz və əzimət eylədigi yola gedəməz.

Pəs, İsgəndərditr, bu fikrin üstünə qərar edüb, Ruma getməgə niyyət eyləmişkən, nagah Ərmən vilayətinin hakimi olan Dəvali çıqa gəldi. İsgəndərin hüzurunə girüb, dua eylədikdən sonra tacını yerə urub, Rus taifəsinin zülm və təəddisindən fəryad və fəğanlar edüb dedi ki, hesaba gəlməz rus əsgəri ələlqəflə Əcəm diyarına ilğar edüb, neçə şəhəri qarət eylədikdən sonra xəlqin mallarını alub, kimini qılıcdan keçirüb və kimini də əsir edərək Bərdəə gəlüb Nuşabənin şəhərini xarab edüb getdi və kəndusini əsir eylədi. Sarayına nə qədər mal və xəzinə var isə, cümləsini qarət edüb, yer ilə bərabər eylədi. Hala ol şəhərdə adəmizadədən kimsə qalmayub xarab olmuşdur. Andan sonra bu qulların vilayəti olan ərmən şəhərinə gəldilər. Bəndəniz anda bulunmayub, yabanda idim. Pəs, cümlə şəhəri qarət edüb, bənim də olanca malımı alub əhlü əyalımı əsir edüb, bu tərz üzərə neçə şəhərləri qarət edərək, yenə kəndi vətənlərinə yıqılub getmişlər. Bəndəniz can atub qapunuza dad istəməgə gəldim. Əgər ol taifənin eylədikləri yanına



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

qalub müqəyyəd olunmazsa, gələcək yil Xorasanı və sair məmləkətləri xarab edüb, o bir sənə Rum vilayətini qarəteyləmələri müqərrərdir, - dedi.

İsgəndərdir, çünki Dəvalidən bu qara xəbərləri eşitdi, pərişan olub, qayət qəsavətləndi, baxüsus Nüşabənin əsir olub, məmləkəti qarət olunduğuna ziyadə acıdı. Zira, İsgəndər müqəddimdən Nüşabənin sarayına varub, cümlə sazəndə və cəngilərini görüb və şahanə necə töhfələrini seyr edüb, tərz və tövrünə ziyadə mail olmuşidi. Pəs, ələmindən başını bir miqdar önünə salub, fikrə vardı. Axır, sözə gəlüb dedi ki, çünki ol taifə gəlüb, sana və şəhərinizə bu qədər zülm və təəddi eylədiklərindən agah olduq, bundan sonra görəsən ki, bən da anların başlarına nə qiyamətlər qoparub, necə vilayətlərini xarab edəyim. Ol tərəf əsgərinin ikisi bir yerdə qalmayub, darü diyarlar bir cins xarab ola ki, əlac içün bir yaşıl bayraq bulunmaya. Əgər həq həzrəti əcəldən aman verərsə, Nüşabəyi xilas edüb, ignədən ipligə varınca nə qədər zaye olmuş malı var isə cümləsini birər-birər təhsil edüb, yenə əvvəlki kibi təxtinə padşah eyləmədikcə rahəti kəndi nəfsimə haram edəyim. Sən gəlməzdən əvvəl Əcəm məmləkətinə gedüb bir qaç gün anda zövqü səfa eylədikdən sonra Ruma getməgə əzimət eyləmişdim. Çünki gəlüb bizə bu xəbərləri gətürdün, hala himmət kəmərini yeddi yerdən quşanub, varub Rusdan dadınızı almadıqca bir dəxi Ruma getmək degil, bəlkə eyşü işrət belə eyləməyim, - dedi.

Dəvali, çünki İsgəndərdən buncılayın möhkəm əzimət gördi, könli yerinə gəlüb, padşaha dualar edüb, şəhriyarım, həman həq-taala sizi cahan turduqca bərqərar eyləsün, siz cahanda sağ oluqca qullarınızdan kimsəyə zərər olduğunu istəməyüb cümləsini məcruh könüllərinə mərhum urub məsrur edərsiz, dedi.

## Bu məhəl İsgəndər Qıfçaqa gəldikdə ol vilayətin övrətləri daima



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**yüzi açıq gəzdigindən yüzlərini örtməkçün tilsim eylədigidir**

Çünki İsgəndər rus taifəsinin şəhərləri buncılayın qarət eylədiklərindən agah oldu, ol gecə gözlərinə əsla uyqu gəlməyüb: Əcəb, ol vilayətə vardıqda nə yüzdən cəng edüb xəlqin dadlarını necə alı versəm? - deyü bütün gecə əndişədə oldu.

Çünki sabah oldu, xaqanın verdigi ata süvar olub, ilğar ilə sürüb, Ceyhun suyuna gəldi. Əsgər də cümlə ağırlıqların gerüyə burağub, sayə kibi padşahın yanından ayrılmayub, bir qaç mənzil bir eylədilər və neçə biyabanlar keçüb, Xarəzmə gəldilər. Andan Qıfçaq səhrasına gəlüb, gördilər ki, ol yerin qövmi cümlə köçər oli-olmağın səhraya yayılmışlar. Cümlə övrətləri yüzləri və gözləri açıq gəzməgin, nazənin və mahparə qızlar tavus rənalar kibi cövlan edüb, ərkəklərindən qaçmazlar. Pəs, İsgəndərin yanında olan əsgər taifəsi ömürlərində buncılayın nazənin mahparələr görməmişlər idi.

Çünki ol məhələ gəlüb qondular, nazənin qızlar gördüklərində, hər birində tazəlik həvası cuşu xüruşə gəldi. Lakin İsgəndərin qəzəbini bilüb, qorqusundan kimsə ol qızlara əl uzatmağa qadir olmayub, canlarına cəbr edüb yürəklərinə taş basdılar. Çünki İsgəndərdir, bu qissədən xəbərdar oldu, ələm çəküb: Olmaya ki, buncılayın ac əsgər ömürlərində övrət üzi görməmişkən, hala bir qaç gün bunların arasında turarlarsa, bəlkə, bir qəbahət eyliyələr,-deyü fikrə vardı və ol taifənin bəlli-başlılarını dəvət edüb, hər birinə iğrazü ikramlar eylədi. Andan sonra bunlara: Neçün xatunlarınızın yüzləri böylə açıq olub, daima bir alay yabançı adamlardan qaçırmayub, naməhrəmlərə göstərirsiz. Bəlkə, görərək şeytan aralıq yerə bir fitnə bırağub, fəsada səbəb ola. Bunların yüzlərini örtmək, bir dəxi böylə açıq gəzməsünlər, - dedi.

Çünki ol taifənin ixtiyarları padşahdan bu sözi eşitdilər, dualar edüb dedilər ki, biz padşahımızla quş olub, yollarında malü canımızla xizmət



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

eyləmək üzrə əhdü peyman eyləmişizdir. Yoxsa övrətlərimizin yüzlərini örtmək üzrə əhd eyləmək, buncılayın açıq yüzli gəzmək bu taifənin adətidir. Sizdə övrətlər yüzlərini örtmək necə adət isə, bizdə də ərlər gözlərini yumub, naməhrəmlərə baqmamaq adətidir. Bu qövmin bunca zamandan bəri adətləri bunun üzərinə olub. Heç kimsə nə bunların yüzlərinə baqar və nə fəsad eylər. Lütf edüb bu xatunların yüzlərinə pərdə çəküb, dünyayı başlarına zindan eyləmək, zira, bir dəxi dünya yüzinə həsrət olub cahanı görməkdən qalurlar. Əgər şəhriyarımız bizdən can istərsə dəxi, yollarına fəda edəlim. Lakin, bunca zamandan bəri olan adətimizi buraqmaq gücdür,-dedilər.

Çünki İsgəndər bunlardan bu sözi eşitdi, cavab verməyüb aciz qaldı və nə təriqlə bunları ram edüb, bu yaramaz işdən vaz keçirəcəgini bilmədi. Axır, yanında olan hükəmayı hüzuruna dəvət edüb: Bu taifənin övrətləri daima yüzləri açıq gəzməgin neçə naməhrəm kimsələr görüb, vəbalə girələr və bəlkə, görərək bir fəsad da edələr,-deyü ixtiyarlarını yanına dəvət edüb söyləyə: Gördüm taş yürəkli bir alayi-nadan qövm olmağla əsla söz keçirəmədim. Bizim əski adətimizdir, bundan əsla zərər görmədik, dedilər. Pəs, bunlara nə çarə eyləsək ki, bu yaramaz xubdan vaz keçələr?-dedikdə hükəmadan biri cavab verüb dedi kim, əgər padşahım fərman edərsə, bu səhranın ortalıq yerində bir tilsim edəyim. Hər qanqı övrət ol tilsimi görərsə, yüzinə pərdə tutub, bir dəxi yüzi açıq gəzməyə. Lakin ol şərtlə ki, padşahım bir qaç gün bu mənzildə əglənüb, köçüb getməyələr və nə qədər şey lazım isə, cümləsini hazır eyləməgə fərman buyuralar, - dedi. İsgəndər: Çünki rus üstünə varmaq bizə bundan dəxi ziyadə mühümdür, lakin bir dəxi bu yola uğramayub, buncılayın bir xeyirli məsləhətdə bitməyüb, qalmaq lazım gəlür, - deyü naçar bir qaç gün ol məhəldə oturmaq eyləməgə qərar verüb, əmr eylədi kim, həkimə nə qədər şey lazım isə, cümləsini hazır və mühəyya edələr.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Pəs, həkimdir, daməni-dərmiyanın edüb, ustad memarlara siyah taşdan bir övrət surəti yondurub, bəyaz mərmərdən yüzinə yaşmaq tutdu və tilsim ilə surəti ol səhranın ortalıq yerində dikdi. Pəs, qıfçaq nazəninləri gəlüb keçdikcə ol səhranın ortasında tilsim ilə vəz olan övrət surətinin yüzindəki pərdəyi gördiklərində hər birinə təsir edüb, anlar da pərlə ilə gəzməgə başladılar və yüzlərini bir dəxi kimsəyə göstərməyüb, naməhrəmdən saqındılar.

Padşahdır, bu halı görüb, heyran olub, həkimə dedi ki, hey alim, biz padşahlığımız ilə bu qövmün ixtiyarını hüzurumuza gətürüb, hər birinə neçə ehsanlar edüb, nəsihətlər eyləyə gördük əsla sözimizi tutmayub, inad eyləmişlər ikən sənin buncılayın taşdan yapılma surətinə bu qədər xəlqin ram olduqlarının hikməti nədir? - deyü sual eylədikdə, həkimdir, cavab verüb: Şəhriyarım, bu nazənin övrətlərin gərçi sinələri gümüş kibidir, lakin içində olan yürəkləri taş kibi pək olmağın bu taş yürəklilərə dəgmə adamın sözi təsir eyləməyüb, yenə bunlara bu surət kibi taş yürəkli gərəkdir ki, anın qiyafəti görüldükdə bunlar ibrət alub, qəlblərinə təsir edə. Pəs, bunlar da surəti görüb, buncılayın cansız surət naməhrəmlərdən saqınub, yüzini örtdügi yerdə, biz niçün örtməzüz, deyüb, hər biri yüzlərini örtməgə başladılar və bir səbəbə dəxi odur ki, bu tilsimdir, bunda neçə gizli təsir vardır ki, anı yenə tilsim bilən adam anlar,-dedi.

Əlqissə, ol tilsim səbəbi ilə cümlə ol yerin övrətləri yüzlərini örtməgə başlayub, bir dəxi naməhrəmə görünmədilər. Rəvayət edirlər ki, hala ol tilsim dəxi  Qıfçaq səhrasında turur imiş. «Əl-öhdətü əlar-ravi»-babalı rəvayətçinin boynuna.

### Bu məhəl İsgəndərin əsgər alub getdigidir

Çünki İsgəndər ol məhəldən köçüb, bu qədər əsgər ilə yola girdi, hər



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

varduğı yerdə bir dürli xəbər edüb, xəlqə neçə ənam və ehsanlar edər idi. Pəs, bu təriq ilə Rus məmləkətinə yaqlaşdıqda bir qaç gün oturaq edüb, cümlə əsgər də dingəldilər və gerüdə olanlar da gəlüb yetişdilər. Bu tərəfdə Rus əsgəri kəndu aləmində günlərdə bir gün xəbər gəldi ki, İsgəndər intiqam almaq qəsdilə hesaba gəlməz, gög dəmirə qərq olmuş əsgər ilə bu məmləkətlərə yaqın gəlmiş, yanında ol qədər pəhləvanlar və dilavərlər var imiş ki, hər biri cəng günündə yeddi başlı əjdər olub, yalnız bir baş ilə neçə bin əsgərə qarşu qor imiş və yanınca Hinddən və Çindən iki yüz fil gətürmş ki, hər biri bir tağa bənzəyüb, cəng günündə fillərə dəmirdən cübbələr geydirüb düşmən əsgərinin üstünə saldırırlar imiş, - deyü başdan-başa İsgəndərin yanında nə qədər dilavər var isə, cümləsini birər-birər bəyan eylədilər.

Pəs, Rus taifəsinin sərdarları ki, adına Qiytal derlər idi, çünki bu xəbərdən agah olduqda ətraf və əknafa xəbərlər göndərüb, yeddi bölük rus taifəsi cümlə bir yerə gəlüb, Qiytalın yanına cəm oldular. Rus əsgəri ilə İsgəndərin qonduğu yerin arası iki fərsəx idi. Pəs, Qiytaldır, yanına bu qədər əsgər cəm olduğunu gördükdə şad olub, cümlə bəlli-başlarını qatına dəvət edüb, hər birinə istimalətlər verüb, dedi ki, İsgəndərin əsgəri çoqluğundan əsla xatirinizə ələm gəlməsün. Anların cümləsi bir alay dərmə-çatma əsgər olub, kimi Rumda və kimi Hindü-Çindən bir yerə gəlmədir və cümləsi nazü niyaz ilə bəslənmiş bir alay yeyüb-içməgə alışmış əsgər olub, bizim kibi zəhmətlə hasil olmuş degillərdir. Bu gün-yarın üstümüzə gəlüb, qarşumuza qonduqda bir həmləmizə taqət gətürməyüb, cümləsi pərişan olurlar. Həman ər olub, ayıq bəgligi edüb, can ilə çalışın. İsgəndər Hindü-Çinə varub, hala yanınca bu qədər mal və xəzinə gətürmişdir. Əsgərini bozduqda cümlə mallarını alub, əlimizə girüb, bir dəxi dünyada mala möhtac olmayub, nikbətilikdən xilas oluruz və İsgəndəri bozduqdan sonra artıq bir vilayət xəlqi bizim önümüzə turmayub, İsgəndər kibi yeddi iqlim, dört guşəyə malik oluruz



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

və əlimizə cahan malları girüb, biz də sair vilayətin xəlqi kibi dövlət bulub, kamran oluruz,-deyü bunun kibi sözlər ilə vafir əsədi sadirdi.

Pəs, ol əhməq qövm ki, ömürlərində mal və xəzinə gördikləri olmayub, daima zərurətlə keçinə gəlmişlərdi, sərdarlarından buncılayın qənimət xəbərlərini eşitdikdə, hər biri cuşü xüruşa gəlüb: Madam ki, biz sağ olayız, var qüvvətləri bazuya gətirüb, düşmən əsgərini bozmaqda səylər edəlim, - dedilər.

Çünki Qiytal əsgərinin buncılayın bipərva olub, düşmən əsgərini gözlərinə salındırmadıqlarını gördi, şad olub cəng tədbiri ilə müqəyyəd oldu.

Əz in canib, İsgəndər də divan edüb, padşahlar və pəhləvanlar hüzuruna cəm oldular, hər birinə təsliyətlər verüb dedi ki, bu rus taifəsi nə qədər çoq olursa da, bizim pəhləvanlarımızla cəng etməgə qadir degillərdir. Bunların daima işi-güci yol kəsüb, hiylə ilə açmazdan bir yeri qarət eyləməkdir, sair əsgər kibi qarşu gəlüb, mərdanə cəng eyləməgə canları yoqdur. Əsla cəbəh və coşanları olmayub, çıplaq-çıplaq bir alay nikbəti taifə olmağın, bizim çög dəmirə qərq olmuş əsgərimizin qarşusına gəldiklərində bir həmləyə taqət gətürməyüb, cümləsi pərişan olurlar. Həq-taala həzrətinin övni ilə bu zəmanə gəlincə, gah Əcəmdən, gah Hinddən neçə hesaba gəlməz qüvvətli, mükəmməl əsgər ilə cəng edüb, cümləsinə qalib olduq. Həq-taala həzrətindən ümidimiz oldur ki, bunlara da qalib olub, pərişan eyləyəvüz və hala bu tərəflərə hesaba gəlməz tatar əsgəri vardır, anları düşmən üzərinə həvalə eyləyüb, biz tamaşa tursaq da olur. Zira, tatar əsgəri əgərçi Rum taifəsi ilə də ol qədər dost degildir, lakin rus ilə düşmənlikləri Rumdan dəxi ziyadə olmağın bulduqlarında qanını içərlər.

**Hekayət.** Netə kim, zəmani-əvvəldə iki qurd bir tülkiyi avlamağa qəsd edüb, üstinə həvalə olmuşlar, tülkidir, qurdların əlindən aciz olub, ol məhəldə yaqın yerdə bir köy var imiş ki, içində bir çoban köpəkləri



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

olub, hər biri qurdun düşmən canı olduğunu tülki bilür imiş. Pəs, tülkidir, qurdların önündən qaçaraq köyə yaqın gəldigi kibi, həman hayqırub çağırmağa başladı. Köpəklərdir, bu avazı eşitdikdə, hər biri yerindən atılub, köydən tışra çıqub, iki danə qurdu gördikləri kibi qovmağa başlayub, ardlarına düşərlər. Tülkidir, köpəkləri qurdlara həvalə edüb, kəndi zərafətlə əllərindən yaqasını qurtarar və uzaqdan seyrlərin çalub, tamaşaya turar.

Pəs, biz də bir düşmən bir düşmənə həvalə eyləsək, murad üzrə işlərini tamam edüb, həqlərindən gəlürlər. Lakin bizə qeyri kimsənin imdadı lazım degildir. Kəndi əsgərimiz hesabsız olmaq ilə həq-taala həzrətinin övni ilə düşmənə kərki kibi cavab verüb, həqlərindən gəlürüz, -deyü əsgərə təsliyət içün bunun kibi təmşitlər gətürüb, neçə sözlər söylədi. Pəs, namdarlar cümlə padşaha dualar edüb, dedilər ki, biz bunca zamandan bəri bir cəng də düşməndən yüz çevirməyüb, can və baş ilə səylər edə gəlmiş idik. Şimdi də padşahımızın himməti ilə kərki kibi səylər edüb, düşmən əsgərini pərişan eyləməkdə can və başımızı diriğ eyləməziz,-dediklərində. İsgəndərdir, sərdarlara xələtlər geydirüb, sair əsgərə də ənam və ehsanlar eylədi və cümlə əsgər cəng içün tədarüklərini görməgə başlayub, İsgəndər də cəng tədbiri fikrində olub, əmr eylədi kim, qaravul çıqub, əsgəri sabahadək bəkləyüb, düşmən tərəfindən əmin olalar.

Çünki sabah oldu, iki əsgərdir, yerlərindən turub, dəryalar kibi mövc urmağa başladılar. Bu tərəfdə İsgəndər əmr eylədi kim, cümlə əsgər yerli-yerində qərar edüb, saf bağlayub turalar.

Pəs, bunca padşahlar hər biri kəndi əsgəri ilə ərman olunan tərəfdə qərar edüb, başdan-başa gög dəmirə qərq olmuş iki yüz fili əsgərin önünə dizüb, ardına dilavərlər turdu və İsgəndərin təxtini bir bəyaz filin üstinə qodular, çıqub üstində qərar eylədi. Əcəm əsgəri sağ qolda durub, Hind və Çin və Təbərkistan xəlqi sol tərəfə burdular.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Rus əsgəri də bölük-bölük saf bağlayub, cümlə sağ və solunu tərtib edüb, sərdarları olan Qiytal əsgərin orta yerində qərar eylədi.

Pəs, İsgəndərin kos və surnaları çalınmağa başlanub, sədası ortalığa zəlzələ verdikdə rus əsgərinin canları da cuşü xüruşa gəlüb, atların kişnəməsi və dilavərlərin nərəsindən qiyamətlər qopub, hay-huy ilə aləm dolduqda, nagah rus əsgərindən bir dilavər meydana əzm eylədi. Bir miqdar cövlan edüb, hünər göstərdikdən sonra ər tələb eyləyüb dedi ki, bən ki, filan bin filanəm, arslanlarla necə tutuşub, qaplanlarla cəng edüb, neçə dilavərləri zəbun eylədim. Cəng günündə mizrağım önündən dəgmə pəhləvan can qurtarub, xilas olamaz. Əgər sözimə inanmazsınız içinizdən biriniz qarşuma gəlüb görsin, - dedikdə Rum əsgərindən bir dilavər qarşu çıqub, bir miqdar cəng eylədikdən sonra bir cılıc urub Rumiyi həlak eylədi. Bir dilavər dəxi çıqub, ol da həlak olduqda, həman dəm hind əsgəri içində bir dilavər şəhzadə var idi, bu halı gördükdə qərarı qalmayub, meydana girdi və hərifə müqabil olub, cəng eyləməgə başladı. Cahanın biri-birinin başına təng edüb, axırkar şəhzadə qəzəbə gəlüb, tiği-alması belindən çəgüb, bir qılıc çaldı ki, rusun başı top kibi meydana yuvalandı.

Pəs, rus əsgərindən təkrar bir dilavər dəxi intiqam qəsdilə meydana girüb, şahzadənin qarşusına gəldikdə anın başına da bir qılıc öylə urdu ki, ta kəmərinə varınca iki para eylədi. Andan sonra biri dəxi meydana girüb, anın da işini tamam eylədi. Əlqissə, günün yarısı oluncayadək şəhzadənin meydanına girən cümlə həlak olmağla, düşmən əsgərinin gözi qorqub, artıq kimsə meydana girmədi. Pəs, şəhzadədir, başdan-ayağa varınca düşmən qanına boyanub, dönüb qərargahına gəldikdə, İsgəndərdir, şahzadəyə xələt geydirüb, afərinlər eylədi.

İki əsgərdir, meydandan dönüb, yerli-yerinə gəlüb, qərar eylədilər. Ol gecədir, keçüb sabah olduqda, təkrar iki əsgərdir, at arqasına gəlüb, dəryalar kibi cuşü xüruşa gəldilər və bölük-bölük səf bağlayub biri-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

birinin qarşusına turduqlarında həman dəm Rum əsgərindən başdan-başa gög dəmirə qərq olmuş bir pəhləvan meydana girüb, məst fil kibi kükrəyüb, ər tələb eylədi. Hind əsgərindən qara tağa bənzər bir pəhləvan fil qədər ata süvar olmuş, meydana girdi. Bir miqdar cəng eylədikdən sonra hindidir, həman xəsminə bir kürə urub başını xurd eylədi. Düşmən əsgəri bu halı görüb, hidlilərdən qorqub, kimsə meydana girmədi. Bir zamandan sonra bir dilavər yürəklənüb, əzmi-meydan eyləidkdə ol da hindinin əlindən həlak oldu. Əlqissə, bu üslub üzrə düşmən əsgərindən bir neçə pəhləvan, biri-birilərdi, sıra hindinin əlində həlak oldular. Pəs, hindidir, qarşusına gələnləri cümlə paymal eyləməgin kəndusinə qürur gəlüb: Artıq kimsə bənim həmləmə taqət gətürəməz, - deyərkən, nagah düşmən əsgərindən bir zorlu pəhləvan meydana girüb, hindiyi həlak eylədi. Andan sonra Rum dilavərlərindən biri meydana girüb, anı da həlak eylədi. Əlqissə, Rum və Çin əsgərindən bir neçə pəhləvan meydana girüb, cümləsi həlak oldular. Birisi də hərifə müqabil olub və cavab verə rvə bir dilavər bulunmadıqda, nagah Mazandaran dilavərlərindən bir şahbaz əjdər kibi qıjğırıb ağzından atəşlər saçar, atını meydana sürüb, Rus dilavərlərinə müqabil olub dedi ki, ey nabəkar rus, bənim əlimdən qanda can qurtursan? Şimdi sana miqdarını göstərüb, yoldaşlarımın qanını səndən alayım,-dedikdə, rusdur, gördi kim, gələn hərif məst ifritə bənzər bir dilavər olub, əlində bir hərbəsi var, sanki bir yeddi başlı əjdərdir ki, görən adamın yürəgi çak olur. Pəs, səfrası başına çıqub gözləri qərarmağa başladı və bildi ki, kəndinin cavabı verəcək adam degildir. Qarşusında turmağa təhəmmül edəməyüb, naçar ar və namusu burağub, döndi və murad eylədi ki, əsgərə qaçub, xəsmin əlindən can qurtara. Pəhləvandır: Bəhi, nabəkar, dəmindən bəri bu qədər adamı həlak eyləmişkən şimdi sağlığla meydandan çıqub, gilas olayım, deyirsən? Bu olmaz sevdadır, tut şu hərbəyi,-deyüb ardından bir hərbə atdı. Arqasından urub köksindən bir



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

qarış tışra çıqub yalman göstərdi. Hərifdir, at zoriylə əsgərə varduğı kibi, yıqılub can verdi. Gördilər kim, ardından atduğı hərbə bir qarış önündən çıqmış. Hərifdən qorquya düşüb, kimsə meydanına girməgə qadir olamadılar. Pəhləvandır, bir zaman meydanda yalnız qalub qarşısuna gəlür xəsm istəyüb, cövlan eyləməgə başladı.

Axırkar, rus əsgərinin sərdarı olan Qiytanın xəmsələrindən bir şahbaz dilavər var idi ki, adına Kobel derlər idi. Fil kibi bir ata süvar olub, əzmi-meydan eylədi. Bir miqdar cəng eylədikdən sonra mazandarani kuyla bir qılıc urub işini tamam eylədi. Düşmən əsgərindən qeyrü və fəryadlar qopub, bu acı ilə biri-biri ardınca yetmiş nəfər dilavər meydana girüb, cümləsi mazandarani əlində həlak oldular.

Qiytaldır, bu halı gördükdə naçar olub, silahlarını geyüb, atına süvar olub və meydana gürüb, xəsminə müqabil olub, axşamadək cəng edüb, biri-birinin başına cahanı təng eylədilər və ikisi də biri-birinə neçə yaralar urdular. Axır axşam yaqın olduqda Qiytal fürsət bulub, əla əl-qəflə mazandaraniyə bir qılıc urmağla işini tamam eylədi. Çünki Qiytaldır, xəsminə qələbə eylədi dönüb əsgərinə gəldi.

Bu tərəfdən İsgəndər dilavərin həlak olduğuna ziyadə acıyub, lakin axşam olmağilə meydana kimsə göndərməyüb, iki əsgərdir, döndilər və gəlüb yerli-yerində qərar eylədilər. Pəs, ol gecə də keçüb, çünki sabah oldu, iki əsgərdir, at arqasına gəlüb biri-ibirinin qarşusında səf bağlayub turdular. Koslar və surnalar çalınmağa başladıqda Rum dilavərləri tərəfindən bir şahbaz meydana girüb, düşmən əsgərindən adam istədikdə rus əsgərindən biri meydana girüb, biri-birinə müqabil oldular. Bir miqdar cəng eylədikdən sonra həman dəm Rum dilavəri aman və zaman verməyüb, gələn rusun başına bir kürz urub, xird eylədi. Təkrar biri dəxi meydana girdikdə, anı da həlak eyləyüb, bu üslub üzrə işlərini tamam eylədikdən həman dəm rus əsgərindən bir kürbəz pəhləvan meydana girüb, bir-iki həmlədən sonra Rumiyə bir qılıc urub həlak



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

eylədi. Pəs, Ərmən əsgərindən arslan kibi, bir dilavər kim, adına Şərvə derlər idi, at qoparub, rusun önünü alub, bir qılıc həvalə eylədi. Rusdur, qalqanı bərabər verdikdə, iki parə edüb, rusun işini tamam eylədi. Təkrar bir pəhləvan dəxi meydana girüb, Şərvəyə müqabil oldu. Bir miqdar cəng edüb, biri-birinə həmlələr eylədilər. Axır Şərvə hərifə bir qılıc urub həlak eylədikdə rus əsgərində Xürrəm derlər bir pəhləvan meydana girdi. Başdan-başa dəmirə qərq olmuş, bir Kürbəz hərif idi. Pəs, Şərvəyə müqabil olduqda əvvəlki həmlədə bir qılıc ilə Şərvənin işini tam eylədikdə Ərmən dilavərlərdən biri dəxi meydana girüb, ol da həlak oldu. Əlqissə, bir-biri ardınca bir neçə pəhləvan Xürrəmin əlində paymal olduqda, Ərmən şahı olan Dəvalinin artıq səbrü qərarı qalmayub, həman dəm silahına qərq olub, meydana əzm eylədi. Xürrəmdir, qarşusında Dəvaliyi gördikdə yürəgi qopub, canı boğazına gəldi. Lakin neyləsün, qarşu turmaqdan qeyri çarəsi olmayub, naçar Dəvaliyə həmlə eylədi. Ol da həmləsini rədd eylədikdən sonra qılıcını üryan edüb, Xürrəmə öylə bir qılıc çaldı ki, başından kəmərinə varınca iki parə edüb, hər parası bir tərəfə düşdi.

Xürrəmin bir dilavər qarındaşı var idi. Bu halı gördikdə təhəmmül qalmayub, bi-ixtiyar meydana girdi. Bir qaç həmlədən sonra Dəvali anı da qarındaşı getdügi yola göndərüb, işini tamam eylədi.

Əlqissə, bir neçə pəhləvan Dəvalinin əlində paymal olduqlarında rus əsgərindən bir pəhləvan var idi ki, adına Cövdərə derlər idi, ziyadə zorlu hərif olub, yalnız bir başiylə neçə bölük əsgərə qarşu qoyub, cahanı biri-birinə qatmışdı. Həman dəm meydana girüb, Dəvaliyə müqabil oldu və xəsmanə cəng edüb, cahanı biri-birinin başına təng eylədilər.

Axır, axşama yaqın olduqda Dəvaliyə bir qılıc həvalə eylədi. Qalqanını iki şəqq edüb, başına bir əzim yara açdı. Axşam vəqti olmaqla təbili-asayiş çalınub, iki əsgər meydandan dönüb, yerli-yerində qərar eylədilər.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Dəvaliyi məcruh meydandan çıqarub, otağına gətürdilər. Yarasına mərhəm urub, timarə məşğul oldular. Dəvalinin məcruh olduğuna ziyadə xəzinədən mərhəm göndərüb, xatirini sordu.

Pəs, ol gecə də keçüb, çünki sabah oldu, iki əsgərdir, yerlərindən turub meydana gəldilər. Кos və surnalar aləmə vəlvələ verdi. Haman dəm Cövdərə əzmi-meydan eylədi. Bir miqdar ərzi-hünər göstərüb, cövlan eylədikdən sonra ər tələb eylədikdə, hind əsgərindən bir dilavər meydana girdi. Cövdərinin əvvəlki həmləsinə taqət gətirməyüb, həlak olduqda, bir dilavər dəxi meydana girüb, anın da işi tamam olduqda, hind əsgərindən bir təvana pəhləvan var idi, həman dəm əzmi–meydan edüb, Cövdərəyə müqabil oldu. Biri-birlərinə xeyli mərdanə cəng edüb, ortalıq yerdə bir neçə  həmlə xəta keçdikdə, hindidir, qəzəbə gəlüb həman dəm var qüvvəti bazuyə gətürüb, əlindəki gürzini Cövdərəyə həvalə eylədikdə başına rast gəlüb xird eylədi. Çünki Cövdərədir, həlak oldu rus əsgərində Tərsus derlər bir namdar pəhlavan var idi ki, ol vilayətlərdə həmləsinə taqət gətürər adam yoğdu. Həman dəm meydana girdi, sanki bir yeddi başlı əjdər idi ki, ağzından atəşlər saçaraq gəlüb, hindiyə müqabil oldu. Cümlə əsgər Tərsusun cinbüşündən ürküb, qorqub düşdülər.

Əliqissə, hindi ilə cəngə başlayub, bir-birinə vafir həmlələr eylədilər. Axır, Tərsus bir qılıc urub, hindiyi həlak eylədi. Andan sonra qürrələnüb dedi ki, bənim adıma Tərsus derlər. Rus əsgərindən Rüstəmi-dastanəm, hər kim qarşuma gəlürsə, zireh yerinə kəfənini geyüb gəlsün və kəndinin həlak olacağını bilsün,-deyüb, İsgəndər əsgərindən pəhləvan istədikdə kimsə baş gətürməyüb, meydana girmədi.

İsgəndər isə hindini həlak olduğuna ziyadə ələm çəküb, murad eylədi kim, əsgərə əl salub, cümlə əsgər bir uğurdan düşmən üzərinə həmlə edələr. Yenə fikir edüb, bəlkə, bir dilavər meydana girüb, şu məlunu həqqindən gələ, deyü sağa-sola baqarkən, həman dəm əsgərin



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

bir tərəfdən şimşək kibi bir şahbaz at qoparub meydana girdi və cövlan edüb, xeyli çapüklik göstərüb, hünərlər ərz eylədikdən sonra Tərsusa öldürüb, bə'də gürzini əlinə alub, bir neçə dilavərin də gürz ilə başlarını xird eylədi, paymal eylədi. Əlqissə, düşmən əsgərinin başına qiyamətlər qoparub, az qaldı ki, cümləsi pərişan olalar. Axşam vaqtı yəqın olmaqla təbili-asayiş çalınub, iki əsgərdir, meydandan döndülər.

Çünki ol gecədür, keçüb sabah olduqda, iki əsgərdir, at arqasına gəlüb, meydana gəldilər. Səflərdir, tərtib olunub, kos və surnalar aləmə vəlvələ verdikdə, həman dəm rus əsgərindən dağa bənzər yayan bir hərif meydana girdi. Əsla görülməmiş ifritə bənzər bir canavar olub, üstündə əsla cəbəvü cövşəni olmayub, gövdəsi mağaraya bənzər, əsla nə oq keçər və nə qılıc kəsər və əsla silahı olmayub, ancaq kərpic kibi bir iki para dəmiri alub birini adamın üstünə degil, dağın üstünə həvalə eyləsə, yerə bərabər eylər idi.

Pəs, İsgəndər tərəfindən hərifin qarşusuna kim gəldi isə, birər həmlədə cümləsinin işini tamam eylədi. Meydana girən dilavərlərdən əsla kimsə hərifə qalib  olmaq degil, dəxi urmağa qadir olamadılar. Əlqissə, axşamadək hərifin qarşusunda neçə dilavər həlak olub çünki axşam oldu, meydandan, əsgərdir, dönüb çadırlarında qərar eylədilər.

İsgəndərdir, bargahına gəlüb, müsahibləriylə oturub dedi ki, bu gün meydana girən hərifin halına heyran oldum. Əcəba, nə məqulə canavər ola ki, üstündə cübbəsi olmayub, əlində silahı yoğkən bir-iki dəmir parasiylə bu qədər dilavərləri həlak eylədi. Var isə bu hərif insan olmayub, bəlkə, divdir, -dedikdə ol vilayətin əhvalından xəbərdar olanlardan biri ol məclisdə hazır olmaq ilə dedi ki, şəhriyarım, öylə eşidiriz ki, qaranlıq vilayətə yaqın yerdə bir dağ varmış ki, buncılayın ol dağda neçə adam olurmuş ki, hər biri surətən insan olub, lakin nə soydan olduğunu kimsə bilməz imiş. libas və təam  qeydində olmayub, geyəcəkləri qoyun pustı və yedikləri penir olub, qeyri şey yemirlər imiş



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

və alınlarında kərgədan buynuzu kibi buynuzları olub, uyquları gəldikdə bir ağaca çıqub, buynuzunu bir dala möhkəm saplayub, uyur imiş.

Rus çobanları dağlarda gəzərkən rast gəldikdə otuzu və qırqı bir olub, ağac üstündə uyurkən zəncirlərlə möhkəm bağlıyub, andan sonra güclə aşağı endülür imiş. Pəs, yerə endikdə hayqırub, zor edüb, bəndlərini qırub çobanları birər əl arqasiylə həlak edələr imiş və əgər bağları pək möhkəm olub, qırmağa qadir olamazsa, tutub şəhərə gətürərlər imiş və cəngləri olduğu vaqtda cəngi fillər kibi meydana götürüb xəsmlərinin üstünə həvalə edərlərmiş. Qaliba bu gün də meydana girən hərif anlardan olmaq gərəkdir, - dedi.

İsgəndər bu hekayəyi eşidüb, heyran qaldı.

Əlqissə, çünki sabah oldu, təkrar iki əsgərdir, meydana gəldikdə həman yenə dünki hərif cəngi fil kibi ağzından atəşlər saçaraq meydana girdi. Rum və Çin dilavərlərindən bir neçəsi meydana girüb, hər biri hərifin əlində həlak olduqda, həman dəm iki əsgərin ortalıq yerindən bir dilavər at qoparub, şahin kibi meydana girdi. İsgəndərdir, gördükdə bildi kim, iki gün meydana çıqub hünər göstərən dilavərdir. Acıyub: Yazıq şu dilavərə ki, buncılayın bir amansız divin əlində tələf olub, bihudə həlak ola, -deyü ələm çəküb durarkən, dilavərdir, oq atımı yerə gəldikdə, həman dəm tir və kamana əl urub, hərifə bir-iki oq atdı. Lakin əsla birisi də təsir eyləmədi. Hərifdir, qarşusında olan dilavərin oq atdığundan qəzəbə gəlüb həman dəm dəmirdən kərpicini əlinə alub xəsminə həvalə eylədi. Dilavərdir, kərpic gəlürkən çapuklik edüb, yerindən sıçradı. Kərpicdir, gəlüb yerə qərq oldu. Hərifdir, xəsmini meydanda sağ gördükdə qəzəbə gəlüb, bir dəxi həvalə etdi. Anın da önündən xilas olduqda diblik atəş olub, bir dəxi həvalə eylədi, üçüncü həmləsini də savışdırdıqda, növbət dilavərə gəlüb gürzini ələ alub, hərifə həvalə eylədi. Ol da arqasını verüb, rədd eylədi. Bə'də həman dəm sıçrayub, dilavəri yaqasından tutub, atından endirdi və qəsd eylədi kim, başını



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

qoparub, həlak eyləyə. Başından zireh külahı düşüb, yüzi açdıqda gördi kim, saçları pərişan olub, ay parasına bənzər bir gözəl çöhrəli nazənindir. Öldürməyüb, əllərini bağladıqda, düşmən əsgəri ziyadə şad olub, sərvərlərindən fəryad qopardılar. Pəs, bir neçəsi meydana girüb, əsiri aldılar və möhkəm bənd urub, həbs eylədilər.

İsgəndər bundan ziyadə ələm çəküb, əmr eylədi kim, cəngi fillərdən birini meydana çıqarub, hərifin üstünə salalar. Həman dəm dağ kibi bir fil meydana sürdülər və hərifin üstünə neçə hərbələr atub, atəşlər saça gördülər, əsla təsir eyləmədi. Hərif gördi kim, filin həmlə atub-tutduğu xotumundandır. Həman dəm iki əliylə filin xortumunu tutub, çəküb qopardıqda, fildir, bir tərəfə yıqılub, can verdi.

İsgəndər hərifin bu zorunu gördükdə, ziyadə ələm çəküb, yanında olan hükəmadan birinə: Qalib a, bizim dövlətimiz yüz döndərmişdir ki, heç bir işimiz iləri gəlməyüb, iki gündən bəri neçə şahbaz dilavərlərimiz şu hərifin əlində zəbun oldular, - dedikdə, hakim də padşaha dualar edüb: Şəhriyarım, ələm çəkmək bundan nəsnə yoqdur. Düşmən əsgərinə zəfər bulmaq muradi-hümayunları…

...içərsə bir dəxi dünyada fəna bulmayub, cahan durduqca aləmdə bərqərar olur. Şəhriyarım da ol çeşmədən nuş eyləsünlər, ta ki, cahanda fəna bulmayalar, -dedikdə İsgəndər dedi ki, abi-həyat dedikləri ələmdir və zülmət dedikləri yazı içində olduğudur, yoxsa zulmatda çeşmə olduğunu kim görmüşdür və bir suda nə hal olsa gərəkdür ki, adamı ölməkdən hifz eyliyə? -dedikdə bir cavab verüb: Şəhriyarım, söziniz yerindədir. Lakin abi-həyat qütbi-şimali altında zulmat içində gizli bir çeşmə olduğu müqərrərdir. Əgər bu qullarına etimal buyurmazlar isə, sair üqəla və hükəmadan sual buyurun görək nə deyərlər, - dedikdə pirin bu sözü İsgəndəri əndişəyə buraqmağla yanında olan hükəmadan cümləsini hüzuruna dəvət edüb, abi-həyatı sual eylədikdə, cümləsi: Söz ixtiyarındır, gerçəkdən zülmət içində bir



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

sudur, -deyü ittifaq eyləyüb və: Bu məhəldə yaqın olmağın gədəligi surətdə tez varulur, - dedilər. İsgəndər çünki hükəmadan bu əbərin səhihini alub gördi kim, zülmata yaqın gəlməgin, az zəhmət ilə abi-həyata vasil olmaqla dünyada paydar olub, fəna bulmaz.

Pəs, İsgəndər bərgahının qapusını zülmat tərəfdə açub, əsgərə ənam və ehsanlar edüb, könüllərin ələ aldı və ol məhəldən köçüb, hesabsız əsgər ilə yola girüb, bir qaç mənzil gedəldikdə, əsgərin çoğı neçə zəhmətlər çəküb xəstə oldular. Pəs, İsgəndər gördi kim, bu qədər əsgər ilə zülmata gedəlmək mümkün degildir. Qonduqları səhrada bir mağara var idi, nə qədər xəzinə və ağırlıq var isə, cümləsi ol mağaranın dibinə qoyub, əsgəri də ol məhəldə buraqmağa qərar verdi ta ki, kəndusi abi-həyata varub gəlincə əsgər ol yerdə qərar edüb, rahətə vardılar. Əsgərdir, ol məhəldə binalar yapub məmur eylədilər.

Pəs, ol bunğardə, yəni mağara dibində məmur olan yerin adı bulğar deməklə məşhur oldu, andan sonra, İsgəndər əmr eylədi kim, yanınca gedən adamlar cümlə tazə olub gücli, qüvvətli şahbaz dilavər olalar: Əsla qoca və xəstədən kimsə getməsün, - deyü möhkəm tənbehlər eylədi. Pəs, cümlə əsgərdir, ol məhəldə qalub, İsgəndər əsgərdən övrənildigi dilavərlərlə yola girüb getdilər. İki mənzil bir edüb, bu hal üzrə kamil bir ay gedüb, zülmata varub dayandılar.

İsgəndər gördi kim, artıq aydınlıqdan nişan qalmayub, ortasını cümlə zulmat tutmağın. Bundan sonra qaranlığa girilmək lazım gəldikdə yanında olan dilavərləri hüzuruna çağırub, bunlara dedi ki, bundan sonra önümüzdə olan zülmata girüb, getsək gərəkdir. Lakin biz bu qaranlığın içinə girüb getdikdən sonra təkrar dönmək lazım gəldikdə yolu necə buluruz, bizə kim dəlil olub yol göstərər, bunun çarəsi nədir? - deyü sual eylədikdə də hər biri bir çarə aramağa başlayub, əqlincə bir söz söylədi. Lakin heç biri İsgəndərin əqlinə münasib olmadıqda cümləsi aciz və heyran qaldılar. Axır, axşam olub, hər kəs yerli-yerində



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

çəkilüb getdilər.

Məgər əsgərin içində bir tazə cavan var idi və bu cavanın qayib ixtiyar bir xəstə babası var idi ki, daima ahu nalə ilə zar və zəbun olub, halı digərgun olmuş idi. Ol gün ki, padşah: Bizimlə qocalardan və xəstələrdən kimsə getməsün, deyü fərman eylədikdə ixtiyar oğluna: Sənsiz bunda qalamam, nə hal isə böylə götür, - dedikdə, cavandır, naçar babasının xatiri içün bir sandıq yandırub, ixtiyarı cəvahir kibi ol sanduğın içinə qoyub yanınca böylə götürdi. Yollarda qonulub, axşam olduqda babasını sandıqdan tışra çıqarub, tənhaca bir miqdar söhbət eyləyüb, yeməgini və suyunu verdikdən sonra, yenə kimsə görməsün deyü, sanuğa qoyub İsgəndərin yasağından pək saqınur idi.

Pəs, ol gün İsgəndərin hüzurunda zülmata girilmək tədarüki müşavirə olunub, kimsə bir tədbir bulamadıqda, cavandır, axşam çadırına gəlüb, babasını sandıqdan çıqarub, dedi ki, padşahımız bu qədər zəhmət çəküb bu məhələ gəldiklərində peşiman oldular və bu gün cümlə dilavərləri hüzuruna çağırub, zülmata girdikdən sonra, təkrar döndigimizdə yolu nə təriqlə buluruz, deyü müşavirə eylədilər. Əsla bir çarə bulunmayub, cümləmiz heyran qaldıq, - deyü vaqei-halı babasına hekayət eylədi. Çünki ixtiyar oğlundan bu sözləri eşitdi, dedi ki, bunun çarəsi asandır. Həman padşahımız zülmata girmək murad eylədikdə toğurması yaqlaşmış bir gənc, qüvvətli qısraq hazırlayalar. Yavrusını doğduğu kibi başını kəsüb öldürələr və üstünü örtüb, qısrağa tayın ol məhəldə qaldığını göstərələr, həman yola girüb gedələr. Murad eylədikləri yerə vardıqdan sonra təkrar dönmək murad eylədiklərində qısrağı əsgərin önünə qatub boş qoyalar. Qısraqdır, tayını arzu edüb, əlbəttə, yolu bulub, müqəddimən tay qonduğu yerə gəlsə gərəkdir. Bu təriqlə zülmatdan tışra çıqılur, - dedi.

Çünki cavan babasından bu tədbiri eşitdi, şad olub, rahətlə yatdı. Pəs, sabah olduqda, yenə dilavərlər İsgəndərin hüzuruna gəlüb, hər biri



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

bir çarə aramağa başladılar. Cavan da gəlüb, babasından eşitdigi tədbiri İsgəndərə ərz eylədikdə, padşah bu rəyi bəgənüb: İştə çarəsi bulundu, - deyüb şad oldu və cavandan sorub: Səndən bu məqulə tədbir gəlmək qatı əcəbdir. Öylə sanuram ki, sən bu rəyi kəndi fikrinlə bulmayıb, birindən ögrənmişsən. Bizə doğrusunu söylərsən, sana neçə ənam və ehsanlar edəyim, dedikdə, cavandır, padşaha dualar edüb: Əgər şəhriyarım bu qullarına yenə aman verüb, suçulu əfv edərlərsə, gerçəgini hüzuri-humayunlarına ərz edəyim, -dedi. İsgəndər də, hər nə qəbahətin var isə cümləsini əfv eylədik, həman söylə, - dedikdə cavan: Müqəddimən şəhriyarım bu səfərə əzimət buyurduqlarında ixtiyarlardan və xəstələrdən kimsə getməsün, deyü fərman edüb, möhkəm tənbeh buyurduqlarında, bir ixtiyar babam var idi, əlbəttə, oğul, bəni böylə götür, deyü ibram eylədikdə, naçar sözündən çıqamayub yanımca belə götürmişdim. Dün gecə bu müşküli andan sual eylədikdə, bu tədbiri bəyan eyləməklə andan ögrəndim. Sözün gerçəgi budur ki, hüzuri-humayunlarınıza söylədim, baqiyi-fərman şəhriyarımındır, - dedi. İsgəndər cavandan bu sözi eşitdikdə bildi kim, cahanda yalnız dilavərlərlə iş görülməyüb, ixtiyarlar da lazım imiş. Pəs, cavana ənam və ehsanlar edüb, xatirini şad eylədi.

İsgəndərdir, cavanla bu müsahibətdə ikən nagah gördi kim, müqəddimən azad eylədügi yaban adəmisidir, Zülmatdan çıqa gəlüb, padşaha bir arqa yüki, qayət əla səmmur gətürdi və önünə qodı və qulluqlar ərz edüb, bə’də yenə gəldügi yola girüb nabədid oldu. İsgəndər hərifin halına heyran olub, bu sözi anlamazlıqla yaban adəmisindən bu qədər vəfadarlıq ancaq olur, deyü təəccüb eylədi.

Andan sonra pirin dedügi kibi bir qısraq götürüb toğradıqda yavrusını öldürüb, zülmata girüb getdilər.

Çünki İsgəndər zülmata girüb, abi-həyat aramağa başladı. Xızır əleyhissalam İsgəndərin yanında belə olmağla yanına çağırub,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

kəndunin yügrək atını verdi və bir cövhəri var idi ki, xassəsi su bulmaq idi, anı da verüb dedi ki, sən önümüzcə bu at ilə ətrafı dolanub, abi-həyatı araşdır, ola ki, bulaydın. Pəs, bulduqda ol kəndin içüb, andan sonra gəlüb bizə də göstər, ta ki, varub içəlim. Bu iş səndən qeyri kimsənin əlindən gəlməz, görəyim səni, -dedikdə həzrət Xızır da fərman üzrə ata süvar olub, ol cövhəri də əlinə alub, çəkilüb getdi. Ərtafı dolaşub araşdıra gördi, çarə olub bulamadı. Axırkar, bir tərəfə doğru gedirkən, nagah əlində olan cəvahir parlayub ziya verdi. Həzrət Xızırdır, sağa-sola baqub gördi kim, gümüşə bənzər bir gözəl su, bir daşın arasından qaynayub çıqar. Həman dəm atdan enüb, soyundu və ol mübarək suya yuyunub və murad üzrə içüb, cahan durduqca həyat buldu. Andan sonra libasını geyüb, atına süvar olub: Çeşməyi bir xoşca nişanlayayım, ta ki, İsgəndəri götürdügümdə qələt etməyüb, şubhəsiz bulub, göstərəyim, -deyü, təkrar çeşməyə baqdıqda gördi kim, çeşməyi qodun isə bulasan, gözündən qaib oldu. Həzrət Xızır bildi kim, bunda həq-taalanın bir sirri vardır və ol dövlət ancaq kəndusinə müyəssər olub, İsgəndər məhrum olacaqdır. Pəs, həq-taala həzrətinə şükürlər eylədi və bir tərəfə çəkilüb, bir dəxi İsgəndərə görünmədi və bir rəvayətdə iləri su aramağa gedən həzrət Xızır ilə həzrət İlyas idi.

Pəs, bunlardır, abi-həyatı arayub zülmatın içində gedərlərkən bir çeşmə kənarına gəldilər. Bir miqdar təam yeyüb rahət olmaq içün atlarından enüb, süfrələrini ortaya gətürdilər. Süfrədə bişmiş balıq var idi. Birisidir, balığı çıqardıqda gördi kim, balıq canlanub həyat buldu. Pəs, ikisi də ol sudan içüb, cahan durduqca həyat buldular və İsgəndərin ol Sudan nəsibi olmayub, məhrum olacağı kəndulərə məlum oldu. Hər biri bir tərəfə çəkilüb, pəri kibi gözdən nihan oldular. Əlqissə, İsgəndər qırq gün gedüb, abi-həyatdan bir əsər görməyüb və Xızırı da bulamayub qaib eylədikdə, naümid olub geri döndükdə qısrağı əsgərin önünə qoyub, ardına düşdilər və tamam qırq gün getdikdən sonra yenə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

müqəddimən zülmata girdikləri yerdən tışra çıqdılar və ol məhəldən də köçüb, cümlə əsgər ilə ağırlıqların buraqdıqları yerə gəldilər.

İsgəndərdir, bargahında qərar edüb, müsahibləri ilə eyşü işrət edüb, daima zülmatda gördigi əcayibləri söyləyüb abi-həyat çeşməsini bulamaduğuna təəssüf eylər idi. Günlərdə bir gün yenə İsgəndər abi-həyatı anub: Heyf ki, bu qədər zəhmət çəkmiş ikən ələ gətürəmədik, - dedikdə, məclisdə ol ətrafın əhvalını bilənlərdən bir ixtiyar var idi, qalqub padşaha dualar edüb dedi kim, şəhriyarım, əgər abi-həyatdan murad ancaq cahanda paydar olmaq və ölməmək isə, bu məhəllə yaqın yerdə bir məmur şəhər vardır ki, anda heç kimsə öldigi görülməmişdir və şəhərin yanında bir əzim dağ vardır, gah-gah ol dağdan bir səda gəlüb, adamı adı ilə şəhər xəlqindən birini çağırur. Həman dəm ol kimsə can atub ol dağa doğru gedüb, nabədid olur. Bu sirrin əslindən kimsə agah olmayub bilməzlər ki, ol səda nə yerdən gəlür və gedən adam necə olur. Pəs, əgər şəhriyarım ölməkdən nicat istərlərsə, gərəkdir ki, ol şəhərə varub, anda qərar edələr, - dedi. Padşah çünki pirdən bu sözləri eşitdi: Görəlim şu şəhərin əsli varmıdır? - deyü əmr eylədi, əsgərindən bir miqdar adam alub və yanınca bir neçə aqil kimsələr də alub, ol şəhərə əzimət eylədi.

Günlərdə bir gün şəhərə gəlüb gördi ki, cümdə əhval pir dedigi kibi olub, sözündə əsla xilaf yoxdur. Lakin ol dağın əmrində heyran olub, neçə aqil kimsə əmr eylədi ki, arayub əslini bula. Anlar da bir gün ol dağın sirrini bulmaq içün təqəyyüd eyləyənlərdən birinin ömri axır olub, vədəsi tamam olduqda, haman dəm dağdan bir səda gəlüb, adı ilə ol kimsəyi çağırdıqda, hərifdir, biixtiyar dəvət olunan yerə can atub, qalqub gedəyim, dedikdə, yanında olanlar hərifə sarılub nə yerə gedirsən, deyü sora. Gördilər əsla ağzından cavab alamayub, zəbt edəmədilər. Həman dəm hərif yoldaşlarının əlindən qurtulduğu saət dağa döğru səgirdüb, nabədid oldu. Bir qaç gündən sonra biri dəxi gedüb, əlqissə, vədəsi



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

tamam bir qaçı bu üslub üzrə ol dağda nabədid oldular.

İsgəndərə bu əhvalı elam edüb: Şəhriyarım, bizim əsgərimizdən də bir qaçı ol dağdan çağrıldıqda nabədid olub getdilər, - dedilər. Pəs, İsgəndər bildi kim, cahanda kimsə əcəl pəncəsindən xilas olamayub, ancaq ol vilayətin ölümi bu surətdə olmağın həqiqət haldan xəbəri olmayanlar olmaz sanur imiş, deyüb ol şəhərdən də fərağət eyləyüb, dönüb əsgərə gəldilər.

## Bu məhəl İsgəndərin Ruma getdigidir

Çünki İsgəndər təkrar əsgərgahına gəldi, neçə xəzinələr sərf edüb, Bulğar şəhərini məmur eylədi və cümlə ol ətraflarda olan məsləhətləri görki kibi gördikdən sonra bir gün köç edüb, qandasan Rum, deyü yola girdi. Çünki Rum xəlqi İsgəndərin səfərdən dönüb gəldügindən xəbərdar oldular, şəhəri arəstə edüb, bir neçə gün padşaha qarşu çıqub, istiqbal eylədilər.

Pəs, padşahdır, gəlüb kəndinin əski təxtində qərar edüb, bir neçə zaman kəndi aləmində oldu və ətraf və əknafda olan məmləkətlərin hər birisini bir namdar kimsəyə verüb, ol məmləkətdə padşah eylədi. Pəs, hər kəs birər guşədə qərar edüb, rahətdə oldular və İsgəndərin duayi-dövlətinə məşğul olub, kəndi aləmlərində oldular. Bundan sonra bir dəxi səfər edüb, cahanı seyr eyləsə gərəkdir.

Lakin əvvəlki səfərində cümlə şəhərdən-şəhərə getmişdi. Bu növbətdə isə dağ və səhradan gedüb, məmur olmayan yerləri tamaşa eylədi, netə kim, kitabın axırında bəyan olunur.

## Bu məhəl İsgəndərin elmə rəğbət edüb və kəndusinin ibadət və taatı və bəzi əhvalı bəyanındadır



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Çünki Ruma gəlüb qərar eylədi, əmr eylədi kim, yunani və farsi və hindi və sair dildə nə qədər kitab var isə, cümləsini biryerə gətürüb tərcümə edələr və intixab eyləyələr. Pəs, həkimlərdir, gəlüb ol vəqtdə mövcud olan kitabları biryerə gətirüb, tərcümə eylədilər və cümləsindən bir kitab təlif edüb İsgəndərə ərz eylədilər.

Pəs, Rum xəlqinin mərifətə qabil olanları ol kitabı oquyub, fəzilət ögrəndilər və elm və fəzilət İsgəndərin yanında qədər və mərtəbə buldular. Zira, İsgəndərdən öylə işrət olmuşdu ki, bizim yanımızda izzət və hörmət istəyüb, məclisimizə girməgə talib olanların yolu elm və hünər olub, hər kim ki, elm və fəzilətdən bəhrəmənd olursa, bizim yanımızda qədrü şərəf bulub, iğraz və ikramımıza məzhər olur, - demiş idi. Pəs, cümlə xəlq elmə rəğbət edüb, səylər eylədilər və neçəsi alim və fazil olub, İsgəndərin yanında müəzziz oldular və İsgəndərin bir kiçik odası var idi ki, əsla altun və gümüşdən əsər yoğ idi gah-gah başından şahlıq tacını çıqarub, ol odaya girər idi və həq-taala həzrətinə qulluqlar edüb, ibadət və taatlar edirdi və cəmi xəlqə lütf və kərəm edüb kimsəyə güc eyləməz idi. Bu səbəbdən yeddi iqlim, dört guşəyə malik olub, cümlə xəlq əmrinə itaət eyləmişlər idi və rəvayət olunur ki, daima İsgəndərin yanından altı bölük adam ayrılmayub hər nərəyə gedərsə, bu altı dürlü taifəyi yanınca belə götürür idi. Biri əsgər taifəsidir ki, gücli, qüvvətli şahbaz dilavərlər olub, düşmən üzərinə varılub cəngü cidal eyləmək lazım olduqda əsgər qüvvəti ilə cahanı düşmənin başına təng eylər idi. İkinci bir alay sehr və əfsun bilür kimsələr idi ki, hər biri əfsunda haruta qalib olmağın məhəlli düşdükdə anlar ilə də necə tədbirlər olunurdu. Netə kim, bəzi hekayətlərindən məlum oldu, üçüncüsü söz sahibi kimsələr idi ki, bir yerə suala görə cavab verüb, məhəllə münasib sözlərdə iş görürlər idi. Dördüncü əhvali-fələkdən xəbərdar həkimlər olub, elmi-nücum qaidəsi üzrə kəndusinun düşmənə qalib və məğlub olmasını anlardan xəbər alub, ana görə əməl eylərdi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Beşinci ruzgar görmiş, çoq ömür sürmüş pirlər idi. Neçə cənglərə girüb, virtələr savmış kimsələr olmağın bir məhəldə tədbir və müşavirə lazım gəldikdə anların sözi ilə amil olub, hər nə derlərsə, anı işlərdi. Altıncı vəlilər və salehlər idi ki, necə müşkül iş zühur edüb, tədbirdə cümləsi aciz olsalar, anların duasından istimdad edüb, süləhanın duası bir qatilə ol müşkildə fəth olur idi.

### Bu məhəl İsgəndərə nçün Zülqərneyn denildi deyu olan ixtilafı bəyan eylər

İsgəndər Zülqərneyn dediklərinin səbəbində ixtilaf olunub, bəziləri məğriblə məşriqə vardığından ötəri denildi, deyüb. Bəziləri də əksinə salıyormuş. İki bölük pərçəmi olduğundan Zülqərneyn denildi, deyüb, bəziləri də iki qərn cahanda müəmmər olduğundan denildi, dedilər və bir rəvayət də, çünki İsgəndərin ömürü axır oldu, bu cahandan köçdü, yunan xəlqindən bir ustad İsgəndərin surətini təsvir eyləyüb, əqlincə sağ yanında iki mələk surəti də təsvir eylədi və mələk surətinin başına altundan buynuz təsvir eylədi. Pəs, cahan xəlqi cümlə İsgəndərin ruhinə dualar edüb, iyi namını yad edərlər idi və ol ustadın eylədigi təsviri gəzdirüb, İsgəndəri görməyənlər o surətə baqub, tamaşa eylərlər idi. Bu hal üzrə təsvirdir, ərəb xəliqinin əlinə girdikdə, gördülər kim, üç danə surətdir, qanqısı İsgəndərin surəti olduğunu bilməyübaltun buynuzlu mələk surətini İsgəndər sanub, Zülqərneyn dedilər və bir rəvayət də İsgəndərin qulaqları qayət uzun olub, kimsə bilməsün deyü, tacının iki yanından incudan birər həlqə yapdırub, qulağını ol incu həlqə ilə örtər idi və bu sirri başını təraş eyləyən oğlandan qeyri kimsə bilməz idi. Pəs, bir neçə zamandan sonra bərbər oğlanın ömri axır olub cahandan getməgin bir qeyrisinə möhtac olduqda bir ustad bərbər dəxi tədarük olunub, tənhada başını təraş eylədikdə, oğlana tənbih eylədi kim, saqın,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

bu sirri kimsəyə söyləməyüb, qəlbində pək saqla. Şöylə ki, əgər bir kimsənin ağzından eşidərsəm, səni həlak eylərəm, deyü möhkəm tənbihlər eylədi. Pəs, bərbərdir, bu razı qəlbində gizləyüb, kimsəyə söyləmədi. Lakin yürəginə ig olub, gündən-günə bu dərd ilə xəstə oldu. Axır, naçar olub, bir gün tışra, səhrayə çıqub, biyabanda gəzərkən bir quyu gördi. Varub, başını quyuya soqub: Padşahın qulaqları uzundur, dedi. Pəs, ol avazı söylədikdən sonra qəlbində olan qəsavət gedüb, könlü-gözü açıldı, dönüb saraya gəlüb, kəndi aləmində oldu. Bir zamandan sonra quyudan bir qamış bitüb, gündən-günə böyüyüb, boy çəküb tışra çıqdıqda bir gün bir çoban ol məhlədən keçüb gedərkən gördi kim, quyudan bir qamış bitüb tışra çıqmış. Bir miqdarını kəsüb, qaval yapdı və ağzına alub üfürdükdə içindən əmri-həqlə «İsgəndərin qulağı uzundur», - sədası çıqdı.

Günlərdə bir gün İsgəndərdir, şikara çıqub, ətrafı tamaşa edərkən, uzaqdan gördi kim, bir çoban əlinə bir qaval alub, durmadan «İsgəndərin qulağı uzundur», -deyü çağırır. Padşahdır, bu sədayi eşitdigi kibi, qayət qəzəbə gəlüb, həman dəm çobanı önünə gətürdüb, sual eylədi. Çoban da padşaha dualar edüb: Şəhriyarım, bən bu qavalı filan yerdən keçərkən gördüm ki, bir quyudan bir qamış bitmiş. Кəsüb andan peyda eylədim və daima çaldıqca içindən böylə bir səda çıqar. Bundan qeyri bir şey bilməm, dedikdə, İsgəndərdir, bu hala heyran olub sarayına gəldi və ortalığı xəlvət edüb, bərbəri hüzuruna dəvət eylədi və dedi kim, bənim sirrimi sən kimə söylədin? Doğru söylə, böylə faş olub, səhrada gəzən çobanların ağzına düşə. Doğrusunu söyləsən, sana zərərim toqunmaz və illa, bəndən zərər görərsən, - dedikdə, bərbərdir, padşaha dualar edüb: Haşa bən şəhriyarımın sirrini kimsəyə söyləmədim. Ancaq bu qullarına padşahım, bu sirri qəlbində gizlə, deyü əmr eylədiklərində, ol gizli söz yürəgimi yeyüb bəni xəstə eylədikdə, naçar səhrayə çıqub, filan yerdə quyuya varub, başımı içinə soqub



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

söylədim, deyü bunun üzərinə əzim yəmin eylədikdə, İsgəndər əmr eylədi kim, varub ol quyudan bir qamış kəsüb gətürələr. Pəs, fərman üzərə ol quyudan bir qamış kəsüb gətürdilər və islah eyləyüb, bir qaval yapdılar. Çaldıqları kibi həman içindən əvvəlki səda çıqdı. İsgəndərdir, bu halı gördikdə bildi kim, cahanda kimsənin razı gizli qalmayub. Əlbəttə bərbərdən faş olub toyulsa gərəkdir. Pəs, bərbərin suçundan keçüb, əfv eylədi. Andan sonra bu sirri ortalığa yayılub, faş olduqda İsgəndər Zülqerneyn deyü ləqəb qodular.

## Bu məhəl İsgəndər ilə çobanın hekayəsidir

Rəvayət olunur ki, İsgəndərin bir nazənin xizmətkarı olub, hüsndə cahana bir gələnlərdən olmağla, bir an padşahın yanından ayrılmayub, daima seyrü şikarda padşahın əgləncəsi idi. Günlərdə bir gün nazənin issitəmdən xəstə olub, gül camalı saralub-solmağa başladı. Padşahdır: Həkimlər gətürüb, dərdinə bir çarə eyləyin, - deyü fərman eylədikdə hər nə qədər əlac eylədilər isə, əsla faidə verməyüb, gündən-günə xəstəligi dəxi ziyadə oldu. Pəs, padşah nazəninin dərdinə lərman bulunmadığından ziyadə pərişan olub, zövqü səfası uçub, qəm və möhnətə düşdi.

Günlərdə bir gün ziyadə ələmindən sarayın üstünə çıqub, ətraf və cəvanibi seyr edərkən gördi kim, uzaqdan bir ixtiyar nurani çoban qoyunlarını önünə qatub, durmadan ötəldüb gəzdirir. İsgəndərdir, ixtiyar çobanı gördükdə bir miqdar könli açıldı. Pəs, damın üstünə oturub, yanında olanlara əmr eylədi kim, varub çobanı gətürələr. Fərman üzərə varub çobanı saray damının altına gətürdiklərində gördi kim, asimana sər çəkmiş bir ali sarayın damından bir möhtəşəm kimsə kəndusinə baqub durur. Yanında olanlardan sual eylədikdə, İsgəndərin sarayı olduğunu bildirüb və saray üstündən seyr edən padşah kəndusi



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

eylədügindən xəbərdar olduqda, yer öpüb dualar eylədi. Pəs, İsgəndər çobana dedi ki, ey pir, dağ və səhralarda görüb eşitdigin sərgüzəştlərdən bana bir hekayə söylə ki, könlüm ruzgarın əhvalından ziyadə pərişan olmuşdur, ta ki, sənin hekayətin ilə bir miqdar könlümə təsəllilər verəyim, - dedikdə çoban təkrar dualar edüb: Şəhriyarım, əvvəl padşahım bu qullarına mübarək xatirlərinin nədən pərişan olduğunu bəyan buyursunlar, ta ki, bən də ana münasib bir hekayə söyləyim, -dedi.

İsgəndərdir, çobanın sözündən həzz edüb, nazənin xəstəligini elam eylədikdə, pirdir, qissəyə vaqif olub sözə başladı. Dedi ki, şəhriyarım, bən qulunuz tazə ikən neçə şəhriyarlara xizmət eyləmişdim. Cümlədən biri Mərv şəhərində bir şahzadə idi ki, hənuz cavanlığı vəqti və tazəligi həngamı olmağilə daima cahan bağında gül kibi xəndan olub, həmişə nədimlərilə eyşü işrət və zövqü söhbət edüb, nə cami-sərvəri-əncamın inkisarından xəbərdar və nə çərxin xumari-dərdilə bimar olub, nə məclisinə qəm girmiş və nə ruzgarda ələm görmüş bir cavan idi. Kəndinin bir yari-xoşdəmi və bir munisü məhrəmi var idi ki, daima şahzadə ol hüsn bağının gülinə bülbül və ol sərvi-rəvanın cilvəsinə mail idi, bir an yanından ayırmaz idi. Qəza ilə bir gün dilbəri-nazənin isitmə dərdinə mübtəla olub, gündən-günə gül camalı sararub-solmağa başladı. Şahzadənin halı pərişan olmağın, həkimlər gətürüb əlaclar etdilər. Lakin əsla dərdinə dərman bulunmayıb, cüməsi xəstədən naümid olub, bu dərddən xilas olmaq qatı müşgüldür, deyü ittifaq eylədilər.

Çünki şahzadə həkimlərdən bu yas xəbərini aldı, artıq cavanın bu dərdilə həlak olacağını bilüb: Yarsız bana dünya dirligi haram olmağın, cananım öldükdən sonra bən də hicran dərdi ilə həlak olsam gərəkdir. Pəs, münasib olan budur ki, cananımdan əvvəl kəndi nəfəsimi tələf edüb, anın müsibəti günini görməməkdir, - dedi və ol ətrafda bir biyaban yer var idi ki, hər daşının dibində bir yırtıcı heyvan olmağın, ol



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

məhəllə gedən, əlbəttə, həlak olası müqərrər idi və bir kimsə bir dərdə uğrayub, dünya dirligindən naümid olsa, ol biyabana gedüb, heyvanlar pəncəsindən həlak olur və dünya qəmindən xilas olur idi.

Şahzadədir, ələmindən qəsd eylədi kim, baş alub ol biyabana gedə. Yanında olanlar nəsihət edə gördilər. Çarə olub kimsənin sözini dinləmədi və həman çəkilüb, ol biyabana getdi. Amma şahzadənin bir vəfadar dostu var idi kim, uğrunda canını diriğ eyləməz və hər vəchlə şahzadənin yolunda para-para olur idi. Bu matəm xəbərindən agah olduqda, həman dəm yolkəsici surətinə girüb, yüzinə niqab tutdu və şahzadənin yolunu alub, bir nərə urub, üstinə həmlə eylədi və aman və zaman vermədən tutub, möhkəm bağladı və gözini dəxi bağlayub, gətürüb bir zirzəmidə həbs eylədi. Suyunu və ətməgini vermək içün üstinə bir adam qoyub, ismarladı kim, kəndinin kim olduğunu şahzadəyə söyləməsün və möhkəm hifz eyləyə. Pəs, şahzadədir, bu hala heyran olub: Sübhanallah, bən ayağımla ölüm aramağa getmiş ikən, gör ki, başıma nə hal gəldi. Əcəba, bu hərifin bəni böylə həbs eyləməkdən məqsudi nə ola ki, deyü fikrə vardı və yanında xizmət edən adama sora gördi ki, əsla bir cavab alamayub, birər zaman bu hal üzrə məhbus qaldı. Bundan sonra ol yari-vəfadar şahzadənin nazəninini yanına alub, neçə timarlar eylədi. Məgər dəxi ömri tamam olmayub, xəstəlikdən xilas olacaq imiş. Pəs, bir zamandan sonra gün-gündən səhhət bulmağa yüz tutub, vücuduna qüvvət gəlməgə başlar. Bir qaç günədək tamam əvvəlki halına girüb, gül ruxları tazələnüb hüsni gülzari gözəlləndikdə ol yari-vəfadar bir gecə evində bir şahanə məclis qurub, odasını zərü zivər ilə döşəyüb, udu ənbərlərlə müəttər eylədi və cavanı məclisə oturdub, andan sonra şahzadəyi həbsdən çıqarub, məclisə gətürdi və eylədigi küstaxlığa üzrlərini dilədi. Şahzadə gördi ki, əla məclis hazır və mühəyya olub, şərab və kabab və dilbər cümlə məclisə gəlmişdir. Pəs, müqəddəm çəkdigi möhnətlərdən xilas olub, yenidən



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

dünyaya gəlmişə döndi və əski qəmləri fəramuş edüb, yeni başdan zövqü səfayə başladı.

Pirdir, İsgəndərə bu hekayəyi söyləyüb tamam eylədikdə müjdəçilər gəlüb: Şəhriyarım, xəstə aqsırub, qalqub oturdu, - dedilər. Pəs, padşah şad olub pirə ənam və ehsanlar eylədi və gəlüb gördi kim, xəstənin mərəzi dəf olmuş və səhhətə yüz dutmuş. Həqqə çoq şükürlər edüb, qəmdən xilas oldu.

### Bu məhəl Arşimediş həkim ilə nazənini-Çini əhvalındadır

Rəvayət olunur ki, Yunanda bir əsilzadə cavan var idi ki, adına Arşimediş derlər idi. Əql və idrak sahibi olmağilə elm və mərifət ögrənməgə talib olub, Ərəstuyə şagird oldu. Ərəstu da cavanı oğul edinüb, dərsi ögrətməkdə sair şagirdlərindən ziyadə təqyid eyləməklə, cavan az zamanın içində neçə mərifət ögrənüb, hər vəchlə iqranından mümtaz olmuşdu. Pəs, İsgəndər də bu cavana mərifəti içün məhəbbət edüb, hüzuruna gəldikcə lütflər edüb, rəvayətlər eylərdi.

Günlərdə bir gün İsgəndər müqəddəmən Çin padşahı xaqanın verdigi çəngi cavana bağışladı. Ol da alub, evinə gətürdikdə gördi kim, cahana misli gəlməmiş bir afəti-dövrandır. Haman dəm bin canilə cariyənin zülfi-zəncirinə əsir olub, oquyub-yazmağı unutdu və gecə-gündüz çənginin hüsni-kitabına baqub, Ərəstudan dərs oqumaqa varmaz oldu.

Günlərdə bir gün Ərəstudur, cavanı hüzuruna dəvət edüb dedi ki, ey oğul, neçə zamandır ki, bizə gəlüb dərs oqumağı buraqdın. İnsanın kamalı isə mərifətdir. Heç adam oqumağı buraqarmı? - deyü nəsihət edüb, gəlmədiginin əslini sual eylədikdə, cavan da üzr bəyan eyləyüb: Keçənlərdə şəhriyarımız bu qullarına bir nazənin cariyə ehsan eylədilər. Hala ol pərinin əfsununa uğrayub, eşqi sevdasına dilbəstə olub,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

oqumağa qadir degiləm, -deyü gəlmədiginin əslini bəyan eylədikdə Ərəstu dedi kim, ol cariyəyi bizə göndər görəyim neçün səni böylə avarə eylədi, - dedikdə cavan ustadının əmri üzrə cariyəyi göndərdi.

Pəs, cariyə gəldikdə, Ərəstudur, bir kasa həkim şərbəti cariyəyə verdi və bədənində olan əxlatı tışra çıqardı, bir ləgənə qodı. Andan sonra cavanı dəvət edüb: Cariyəyə əlac eylədik, şimdən sonra al götür, - dedikdə cavan gördi kim, nigari-nazəninin gül camalı solub, çirkin olmuş. Pəs, Ərəstuyə dedi ki, bu bənim zülfinə əsir olduğum, eşqiylə heyran olduğum nazənin degildir. O bir ay parası, pəncei-aftab idi. Bu isə bir çirkin cariyədir. Anınlabunun nə münasibəti var? - deyüb cariyəyi bilmədikdə Ərəstu əmr eylədi kim, ləgəni gətürüb cavanın önünə qoyalar.

Pəs, cavandır, ləgənə baqdıqda gördi kim, içi əxlatla dopdolu olmuş. Ustadın muradını biləməyüb, heyran olduqda, Ərəstu dedi kim, ey oğul, ay parəsi dedigin bu ləgən içində olandır. Zira, biz cariyədən bu əxlatı çıqarmağla bu qiyafətə girdi, -deyü vaqei-halı bəyan eylədikdə cavan bildi kim, kəndinin bunca zaman aşiq olduğu bir miqdar qan və xılt imiş. İrşad olub, ustadının əlini öpüb və cariyəyi alub evinə getdi və dərsə gəlüb-getməgə başlayub, bir zaman bu hal üzrə keçdikdə, yenə cariyədir, gözəllənüb hüsni tamam yerinə gəldikdə, cavan tazəlik həvəsiylə əvvəlki kibi evində qapanub, sabahdan axşamadək cariyə ilə eyşü işrət eyləməgə başlayub, oqumağı buraqdı.

Pəs, bir qaç yildən sonra cariyənin ömri axır olub, bu dünyadan getdikdə, cavandır, eylədigi işlərə peşiman olub, yeni başdan oqumağa başlayub, az zamanın içində kamil oldu.

### Bu məhəl Mariya namında bir xatunun hekayəsidir ki, Ərəstudan kimiya ögrənmişdir



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Rəvayət olunur ki, Şam məmləkətində bir xatun var idi ki, Mariya derlər. Babası ol tərəflərdə olub, əli altında neçə qələsi olmağın, ömri tamam olduqda Mariyadan qeyri övladı olmamağla, babası yerinə hakim oldu və ol qələlərə malik olmuş idi. Bir az zaman bu hal üzrə keçdikdən sonra ətraf və əknaf neçə zorlu kimsələr birdən-ikidən Mariyanın malik olduğu əmlakı əlindən alub, zəbt eyləməgə başladılar. Mariyadır, bunlara cavab verməgə qadir olamayub, fikir eylədi ki, əgər bu işin çarəsini görməyüb, müqəyyəd olmazsa, hala kəndusinin olduğu qələ də əlindən gedüb, cümlə mülkindən ayrılması müqərrər olmağın xəsmlərindən dadını alı-vermək içün İsgəndərin dərgahına şikayətə getdi.

Günlərdə bir gün İsgəndərin təxtgahına gəldikdə: İbtida varub halımı vəzirə ərz edəyim, -deyü sorub Ərəstunun sarayına galdi. Gördi kim, bir neçə adam turma vəzirdən dərs oqurlar. Pəs, Mariyadır, bu halı gördikdə şikayətdən fərağət edüb, vəzirə şagird oldu və neçə zaman xizmətində olub, elm ögrəndi. Bir zamandan sonra bir gün vəzirə halını elam edüb, vilayətinə getməgə izn istədikdə Ərəstu gördi kim, padşah olanlara xazinə lazımdır. Pəs, Mariyaya kimiya ögrədüb, bir neçə zaman kimiya ilə mal peyda edüb, andan sonra bir miqdar əsgər cəm edüb və Ərəstu vasitəsi ilə İsgəndərdən məmləkətinə hakim olmağa müqərrərnamə alub, vilayətinə çəkilüb getdi.

Pəs, günlərdə bir gün vilayətinə varub, xəsmlərinin neçəsini pozub, əllərində nə qədər mal və mülk var isə, cümləsini alub, əvvəlkindən ziyadə dövlətlə ol yerlərdə şah oldu və daima kimiya ilə cahan malları peyda edüb, yanında olan əsgərə hesabsız ənam və ehsan etməgin, qapusında olan xəlqin dövləti heç bir padşahın əsgərində yoğ idi. Hər kim ki, qapusına varub xizmət eyləsə, cahan mallarına malik olurdu. Əgər əşk belə gəlsə, altundan səmər ururlar idi. Pəs, bu tərz üzrə Mariyanın dövləti kimiya ilə eydügi aləmə faş olub, bir neçə həkimi-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

zülfünun ki, fəqrü faqədan bağırları çaq olmuş idi, ittifaq edüb, Mariyanın dərgahına gəldilər və niyaz eylədilər ki, kimiya elmindən bizə cahan xəlqindən müstəğni olacaq qədər bir şey təlim buyurun. Ta ki, anınla keçinüb zərurətdən xilas olayız və sizin şagirdiniz olmağla aləmdə iftixar edəyiz, -dediklərində Mariya qayətdə aqil və ənd idi. Bunları bir vərtəyə düşürmək və başında savmaq içün: Yarın sabahdan hüzuruma gəlin, sizə bir şey təlim edəyim, dedi.

Həkimlərdir şad olub, dualar eylədilər və sabah olduqda gəlüb, Mariyanın köşki altında müntəzir olub durdular. Bir zamandan sonra köşkin pəncərəsi açılub, Mariyadır, bunlara ərzi-camal edüb, dedi ki, dağ başı ilə yəbruhüs-sənəmi bir yerə ki, gətürib səngi-əzəm ilə səhiq edüb, əməl edəsiz, - deyüb bunları başından savdı. Həkimlərdir, Mariyanın sözünə aldanub, hər biri bir məna verüb, neçə zaman biməni yerə zəhmət çəkdilər və əllərinin kiri ilə yüzlərinin qarasından qeyri bir şey təhsil edəmədilər. Cahanda kimiya bilürəm deyənlərin hiyləsinə neçələr aldanub anlara uğramışlardır.

**Hekayət** Netə kim, rəvayət olunur ki, Xorasan xəlqindən biri Bağdada gəlür və bin danə xalis altuni əgəhdən keçirüb toz edər. Andan sonra qırmızı torpağla altun ufağını yoğurub, bir neçə yuvaluq edüb, bir torba içində qoyub, varub bir əttara: Bu yuvalıqların adına təpərik derlər, qayət lazımdır, -deyü güc ilə bir altuna satar. Andan sonra Bağdad şəhərinin içinə ustadi-kimyagərəm, deyü avazə burağub laf urmağa başlar. Bu xəbərdir, Bağdad xəlifəsinin qulağına vasil olub, derlər ki, padşahım, hala şəhərə bir ustadi-kimyagər gəlmişdir ki, torpağa yapışsa, əlində altun olur. Elmində qayət mahir olmağın bir əməli var imiş ki, birini ona sərf edüb, onunu yüzə xərc edər, -deyü hərifi göglərə çıqardılar.

Pəs, xəlifədir, hərifi hüzuruna gətürüb, ocaqlar yapılub, tutalar hazırlandıqda, xorasanidir, xəlifəyə dualar edüb: Padşahım, bu kimyayə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

təpərik deyirlər. Filan yerdən çıqar bir topraq vardır, madam ki, ol topraq ələ girməyə, murad hasil olmaz, - dedikdə təpərik aranmağa fərman olunub, şəhərin altını üstünə götürərlər. Nə görmüş adama rast gəlürlər və nə adını eşitmiş kimsə bulurlar. Axırkar, təpərik satduğı dükana gəlürlər və əttardır, torbasiylə çıqarub, yenə bir altuna həriflərə verüb, zərər eyləmədüginə şükürlər edər. Pəs, təpərik bulunub şərifin önünə götürdiklərində, həman dəm daməni-dəyirman edüb, putalara qoyub, altunı topraqdan ayırır və səbikələr edüb, meydana götürür, görürlər kim, bir floriliq xalis altun hasil olmuş. Pəs, cümləsi hərifin ustadlığına afərinlər edüb, kimyagər isə ancaq odur, bərəkallah, usta eşin kəsadlıq görməsün, deyü dualar edirlər və həman dəm hərifə on bin altun verüb, bir neçə qatar ilə yanına adamlar qoşub Hindistana yaqın yerdə təpərik almağa göndərirlər. Hərifdir, yola girüb, bir-iki qonaq getdikdən sonra bir gecə yanında olan adamlara şərab içürüb, cümləsi məst olduqda on bin altunu alub, fərar eylər. Sabah olduqda hərifi arayub bulamadıqlarında görərlər kim, ortalıqdan on bin altunu alub qaçmış. Gəlib vaqei-halı xəbər verirlər.

Pəs, təbərik satan əttara adamlar göndərüb: Bu toprağı nə qiyafətli adamdan aldın? -deyü sual edirlər. Axır, vaqif olurlar ki, yenə təbəriki peyda edən xorasanlı hərif imiş. Hərifin hiyləsinə heyran olurlar.

Əlqissə, Mariyanın dövləti cahana yayılub, xəlqin dilinə düşür. Axır, İsgəndərə keçüb: Şəhriyarım, Şam tərəfində bir xatun kimiya ilə mali-Qaruna malik olub, yanına əsgər cəm edərmiş. Bu gün-yarın xüruc edüb, mal qüvvəti ilə cahana bir fitnə burağur və aləmi xarab eylər, - dedüklərində, padşahdır, qəzəbə gəlüb, qəsd eylədi kim, Mariyanın başına cahanı təng edə. Ərəstudur, bu haldan xəbərdar olduqda: Şəhriyarım, ol xatun bir abidə və zahidədir. Haşa ki, andan buncılayın iş gəlüb padşahıma üsyan edə. Neçə zaman bu qullarının xizmətində olmağın, bizdən elm ögrənüb, gördün ki, talei kimiya elminə müvafiqdir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Pəs, ol elmi ana təlim eylədüm və padşahımın ömri ilə varub, babası yerinə padşah olmuşdur, - deyü həqiqət halı bəyan eylədikdə İsgəndərin qəzəbi gedüb suçı əfv eylədi.

Andan sonra, Ərəstudur: Padşaha xəzinə göndər, -deyü Mariyaya xəbər göndərüb, vaqe olan halı elam eylədikdə Mariya da İsgəndərə hesaba gəlməz mal və xəzinə göndərüb, qulluqlar ərz edər.

## Bu hekayə bir fəqir kimsənin əlinə mal girüb kamran olduqda bəzi qəmmazlar İsgəndər keçdikdərində padşahın eylədigi lütfdir

Rəvayət olunur ki, Rum vilayətinə bir qeyri diyardan bir fəqir kimsə gəlüb, az zamanın içində mal və əmlak sahibi olur. Bir xacei-kamran olur. Pəs, xəlq: Bu hərif buncılayın dövlətə nədən nail oldu? Dün bir dilənçi ikən, bu gün bu qədər dövlətə irmak qolayına degildir, - dediklərində kimi: Dəfinə bulmuşdur ola, - deyüb, kimi də: Xırsızlıq edüb, yola enmişdir, - dedi. Axır kar ərzi-hal ilə hərifin vəqiəsini İsgəndərə elam edüb: Şəhriyarım, bu diyara yaqında bir hərif gəlüb, ömründə beş ağçayı bir yerdə görməmişkən və … sahibi olmayub, yalın ayaq başı, qəba bir … ikən, bir yilin içində bir dövlətə malik olmuşdur ki, padşahım hərifin malını hesab eyləməgə on katib göndərsə, üç aya mal və əmlakının ucunu-bucağını bulamayub, aciz və heyran qalurlar. Ömrində malik olmamışkən, hala şəhriyarlar xəzinəsində bulunmaz ləlü cəvahir satub, yük-yük aqçalar peyda eylər. Pəs, şəhriyarımıza lazımdır ki, hərifin əhvalını təftiş edüb, əslini araşdıra, -dedilər.

İsgəndərdir, ərzi-halı oquyub hərifin əhvalını eşitdikdə əmr eylədi kim, varub hüzuruna gətürüb, tənhada bulaşduralar. Pəs, fərman üzərə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

hərifin olduğu yerə bir qaç adam varub: Qalq, səni padşah istər, - deyü yanlarına düşüb getdilər. Çünki İsgəndərin hüzuruna gəldi, yerlər öpüb, dualar eylədi. İsgəndərdir, hərifi təxtin yanına çağırub lütflər göstərdi və müsahibət açub, bəzi şey sorduqdan sonra dedi ki, eşitdim ki, sən bu diyara gəldigin zaman halın pərişan olub, qayət zərurət üzərə ikən hala dövlətə irüb malu mənal sahibi olmuşsan. Bu malı nərədə buldun, bizə əslini bəyan eylə. Əgər xilaf söləməyüb, gerçəgini dersən, sənin mal və canına zərərimiz toqunmaz, haman varub kəndi aləmində ol və əgər doğrusunu söyləməyüb, yalan söylərsən, səni həlak edüb, malını geriyə alıruz, -dedikdə hərif bildi kim, kəndusini qəmmazlar padşaha, mal buldu, deyü keçmişlər. Pəs, doğru söyləmədən qeyri yoğ idükin bilüb, təkrar padşaha dualar edüb, dedi ki, şəhriyarım, bən qulun bu şəhərə gəldigimdə bir aqçaya möhtac bir fəqir idim. Şundan-bundan gündə bir-iki aqça peyda edüb anınla keçinürdim və kəndumə münasib bir xatunum yükli olmağın, toğulması yaqlaşdıqda bana niyaz edüb dedi ki acılıqdan taqətim taq olub, qayət zəbun oldum, hala könlüm əsicəq çorba istər. Əgər bana bir qaç qaşıq çorba gətürə bilürsən, nə gözəl və illa, artıq dərmanım qalmayub, həlak olmam müqərrərdir, -dedikdə bən də naçar olub tışra çıqdım. Yanımda bir aqça yoq idi ki, anınla çorba tədarük edim. Aciz və dərmanda qalub, o tərəf-bu tərəfə gedə gördüm, əsla bir yerdən çorba peyda edəmədim. Axırkar, gəzərkən bir viranə önünə gəldim, gördüm ki, dört yanı xarab olub, neçə zamandan bəri içinə adam və adəmizad girməmiş. Hələ bir kərrə şu ki, bən girəyim, deyüb içinə girdikdə gördüm ki, qorqunc yer olub, hər güşəsi cinlər və divlər məkanı olmuş. Pəs, ətrafı dolanub gəzərkən gördüm ki, bir yerdən torma tütün çıqar. Can atub yaqın vardıqda gördüm ki, divə bənzər bir zəngi bir əzim atəş yaqub, qarşusuna keçmiş və yanında küp qədər bir dəsti şərabı var. Tormadan saqsıyı urub içər. Bəni gördükdə yerdən sıçrayub bir nərə urdu və dedi ki, ey nabəkar, qaç başın var ki,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

bənim kibi qaniçici həraminin məkanına gəldin və bənim bunda olduğumdan nədən bildin? - deyüb üstümə həmlə eylədikdə yürəgim ağzıma gəlüb, niyaza başlayub dedim ki, ey pəhləvani-zaman, bən biçarə və dərdiməndi-avarə ruzigarın möhnətinə uğrayub, fələkin cövri ilə bağrım xun və halım digərgundur. Ola ki, dərdimə bir çarə qılam, deyüb xakipayinizə yüz sürə gəldim, deyü vafir çəkələr, çəlüb önüncə yurlandım. Zəngidir, bənim buncılayın niyazımı gördükdə qəzəbi sakin olub, yerinə oturdu və bana da, otur, deyü əmr eylədi və şərabını içməgə başladı. Gördim ki, yanında bir sazı var. Həman bitəklif sazı əlimə alub, çalub-çağırmağa başladım. Zəngidir, cuşü xüruşə gəlüb, qalqub oynamağa başladı. Bu halı gördükdə dəxi ziyadə çalub hərifi cuşə gətürdüm. Zəngidir, oynaya-oynaya taqəti taq olub təkrar oturdu və bir qaç qədəh dəxi içüb, tamam kəlləsi gərm olub, şərab gözinə gəldikdə, bənimlə yaran olub dedi kim, bu viranədə olduğumun əsli oldur ki, bir yerdə vafir dəfinə bulduq. Bir yaranım vardır, anınla bir sənədir ki, daima viranədə atub-tutmadayız. Hala ol dəfinədən bir arqa yüki mal qalmağın bu gecə yoldaşım varub ol malı götürməgə getdi. Çünki sən gəlüb bizə müsafir oldun, lazım gəldi ki, sənin zərurətini dəf edəcək qədər sana ənam və ehsan edəyiz. Lakin yoldaşım gəldikdə sən qalqub bir guşəyə pünhan ol, bunda səni görməsün. Zira, qəsdim oldur ki, malı götürdigi kibi hərifin işini tamam edəm. Andan sonra bu yerdən qalqub bir tənhayə çəkilüb yalnızca ol, malı səfalanım və sana da bir hissə verüb könlüni şad edəm, dedi. Bən də zəngiyə dualar edüb bu müsahibətdə ikən, nagah bir ayaq tapırdısı gəldi. Həman yerimdən sıçrayub, bir guşəyə çəkildüm, anı gördüm ki, dağ kibi bir zəngi gəlüb arqasından bir yük malı yerə qodı və oturub bir miqdar çorpa yeyüb, andan sonra uyqusu qələbə eləməgin uzanub yatdı. Zəngidir, yoldaşının uyquya daldığını gördikdə, həman dəm yerindən qalqub de-digi key bir qılıc urub, zənginin başını gövdəsindən cüda eylədi. Bən



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

durduğum yerdə bu halı gördigim kibi əqlim başımdan gedüb yıqılub, yenə qeyrət edüb, kəndümi düşürüb qalqdım və görəyim dəxi nə işlər, deyü tamaşaya durdum. Zəngidir, yoldaşını öldürdükdən xəncərini çıqarub, hərifi iki para eylədi və bir parasını omuzuna urub, çəkilüb getdi. Təkrar o bir parasını dəxi omuzlayub getdi. Zəngi gec gəldügindən bildim ki, şey götürdigi yer xeyli uzaqdır. Haman dəm fürsəti qənimət bilüb zənginin gətürdigi malı arqama urdum və atəş başında bəqrəc ilə bir miqdar çorba qalmış idi, anı da alub yola girdim. Qayət əcələ ilə səgirdüb evə gəldim. Yüki yerə qoyub, xatunuma çorpayı gətürdikdə gördüm ki, bir oğlum dünyayə gəlmiş. Qat-qat könlim şad olub, xatunuma çorpayı verdikdə içüb, həqqə çoq şükürlər eylədi. Andan sonra yüki açub baqdım. Nə gördüm, bir xəzinə ki, cümləsi gözlər görmədik, ləlü cəvahir, andan sonra altun və incu imiş. Oğlumun qutlu qədəmində bunun kibi dövlətə irdügimə həq-taala həzrətinə çoq şükürlər edüb, yüzimi yerlərə sürdüm. Hala əlimdə olan mal və mənalik cümləsi ol qaranlıq gecədə əlimə girmişdir,-deyü sözini tamam eylədi.

İsgəndər, çünki hərifdən bu hekayəyi eşitdi, oğlunun toqduğu vaqtı sual edüb, hükəmaya əmr eylədi kim, taleini yoqlayub görələr. Pəs, həkimlərdir, oğlanın taleini bulub, dedilər kim, padşahım, bu dünyaya gələcək vaqtı yaqın olduqda həq-taala məsumə dövlət ehsan etməgin, babası bu yüzdən kamran oldu, - deyü vaqei-halı elam eylədilər. Pəs, İsgəndər hərifi kəndusinə müsahib edinüb, neçə ənam və ehsanlar eylədi.

### Bu dastan Əflatunun saz peyda eylədigüdür

Rəvayət olunur ki, günlərdən bir gün İsgəndərin hüzurunda hükəma cəm olunub, hər biri elm və fəzldən dəm urub, kimi filan elmdə bən aliməm, kimi də filan hünərdə bən cümlədən fazələm,-deyüb hər biri



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

mərifətlərini meydana gətürüb, biri-birindən ziyadə alim və kamil olmaq dəvasına başladıqda, Ərəstudur, sözə gəlüb: Hala cümlənizin səri-çeşməsi bən olub, siz cümlə mərifəti bəndən əxz edüb ögrəndiniz. Şimdi cahanda bəndən ziyadə elm və mərifət sahibi kimsə yoqdur,-dedikdə cümləsi Ərəstuyə dualar edüb: Behəqiqət hala cahanda siz qədər sahibi-fəzilət yoqdur,-deyü ittifaq eylədiklərində Əflatun ol məclisdə hazır olmağın Ərəstunun bu qədər cürrələnüb, atub-tutduğuna sığılub: Könlündən olsun. Bən sana hünər necə olurmuş göstərəyim,-deyü qalqub getdi və neçə zaman xəlqə görünməyüb, bir gün içinə girüb, riyazətlər eylədi və fələklərin dövr eylədikcə sədalarına qulağ urub, dövri-fələkdən hezar zəhmətlə bir ərğənun dedikləri sazı peyda eylədi və cümlə pərdələrini yerli-yerinə qoyub, bir cins düzün verdi kim, insana necə təsir edirsə, cümlə heyvana dəxi insan kibi təsir edərdi.

Andan sonra, bir gün səhrayə çıqub, bir pərdəsini çaldıqda dağlarda nə qədər vəhşi canavarlar var isə, ol sədayi eşitdiklərində can atub, gəldilər və cümləsi saza qulağ urub, uyquya vardılar. Bir zamandan sonra pərdəsini çevirüb, bir qeyri gunə çaldıqda cümləsi uyqudan oyanar. Oyanub cuşü xüruşa gəldilər və səhra yüzini tutub, çəkilüb getdilər.

Pəs, Əflatunun buncılayın bir saz peyda eylədigi ortalığa yayılub, padşah məclisinə vardıqda, Ərəstudur, qeyrətə gəlüb, neçə günlər tənha yerə qapanub, riyazətlər eylədi. Axır hezar zəhmətlə ol da bir saz peyda eyləyüb, səhrayə çıqdı. Pəs, əvvəlki pərdəsini çaldıqda, yenə cümlə məxluqat gəlüb, uyquya vardılar. Lakin ikinci pərdəsini çaldıqda uyqudan oyanmayub, əvvəlki hallarında qaldılar. Nə qədər ki, səy edüb, çarələr araya, gördi, əsla ol sirrə vasil olmayub, aciz və dərməndə qaldıqda Əflatuna varub, əczləri göstərüb, şagirdligə təslim oldu. Pəs, Əflatundur, sazını ələ alub, ol sirri ögrəndikdə, Ərəstudur, dualar edüb, üzrlər dilədi və bir dəxi Əflatunun yanında hünər dəvasından fərağət



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

edüb, müdara eyləməgə başladı.

İsgəndərdir, bildi kim, Əflatunun fəziləti sair həkimlərdən ziyadə imiş. Pəs, izzət və hörmətlər edüb, qədərini ali eylədi.

Rəvayət olunur ki, İsgəndərin adəti bu idi ki, ol zamanda hikmət elmində mahir və cümlədən ustad yeddi həkim var idi-daima tənhada anlar ilə oturub elm və mərifətin ənvaindən söyləşürlər və müsahibət edərlərdi. Yenə günlərdə bir gün bu yeddi həkim İsgəndərin ətrafında oturmuşlar idi. İsgəndər bu həkimlərin içində Əflatuna sordu kim: Əcəb, sizdən əvvəl gedən hükəmadan heç kimsə varmıdır ki, hünəri sizdən ziyadə olub, anların bildügini siz bilməyəsiz? -dedikdə Əflatun İsgəndərə dualar edüb: Şəhriyarım, eşitdim ki, bir tarixdə bir yer yarılub, içində bir tilsim aşkarə olmuş, ol ətrafın çobanlarından biri ol yerə gəlüb gördikdə, əcəba, bunda nə var ki, deyü açdıqda görür kim, bir meyit yatur. Dünyadan gedəli xeyli zaman olmuş, lakin əsla bir qılına zərər olmayub, əndamiylə durur. Çobandır, bu hala heyran olub baqarkən görür kim, meyitin barmağında qayət gözəl bir yüzik var ki, gözlər görmiş degil. Pəs, çobandır, yüzigi gördigi kibi, bundan iyü işkar olmaz, deyü meyitin barmağından çıqarub, kəndi barmağına taqır. Axşam olduqda qoyunları önünə qatub, xizmət eylədügi əfəndisinə doğru gedüb, qəsd edər ki, yüzigi göstərə və nə miqdar aqça dəgər edügini bilə. Pəs, o da gəlüb, qoyun sahibidir, çobanı gördikdə qoyunları sual edüb, ol da cavab verirkən, qoyun sahibi baqır ki, çoban gah ğaib olub və gah aşkarə olur. Bu haldan təəccüb edüb, çobana deyir ki, nə şəkil sehr ögrəndin ki, gözümdən gah qaib olub və gah aşkarə olursan, bunun əsli nədir? -dedikdə çoban bilür kim, mehrin xassəsi imiş. İnkar edüb, bədə tənhadə təcrübə eylər, görər kim, barmağındakı yüzigi yuqarı çevirsə, aşkarə olur, aşağı döndərüb avıcı içinə aldıqda, kəndusi də gözdən qaib olurmuş. Bundan iyi kar olmaz, deyüb həman sabah olduqda qoyunları burağub, çır-çıplaq olur və əlinə bu kəskin qılıc alub ol şəhərin bəgi olan



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

kimsəinin hüzuruna girüb, kəndusini gözdən nihan edər. Bir zamanadan sonra ortalıq tənha olub, məclisdə kimsə qalmadıqda kəndusini aşkarə eylər. Bəg görər kim, nagah odanın ortalıq yerdə əli qılılı bir üryan hərif işarə olur. Yürəgi ağzına gəlüb, aman istəyüb, çobana: Siz kimsiz? - deyü sual eylədikdə məlun peyğəmbərlik dəva edüb: Əgər inanmazsan, bən kəndumi istədikdə ğaib edüb, istədikdə aşkarə edərəm, - deyər və bu yüzdən neçə fitnə və fəsad edər. Pəs, şəhriyarım, ol həkimlərin sənətinə hezar afərin ki, hikmətlə buncılayın mehr peyda edərlər. Neçə zaman fikir edə gördüm, aslandan olur, edüginə (?) əqil irişdirməyüb, heyran qaldum, - dedi.

## Bu məhəl həq-taala həzrəti İsgəndəri şərəfi-nübüvvətlə müşərrəf edüb, təkrar cahana səfər edüb xəlqi həq-taala həzrətinin əmrinə dəvət eylədigidir

Rəvayət olunur ki, İsgəndər neçə zaman Rumda oturub, həkimlər və fazillərlə söhbət edərək, nə qədər ülum var isə, cümləsindən də kamil olub, tənhasında daima cənab həq-taala həzrətinə ibadət və taət edüb, təzərrə və niyaz edərkən kəndusinə vəhy nazil oldu və peyğəmbərlik şərəfi ilə müşərrəf oldu. Təkrar cahana səfər edüb, xəlqi təriqi-müstəqimə dəlalət edüb, həq-taalanun əmrini irişdirməgə məmur oldu. Sabah olduqda hükəmasını yanına dəvət edüb, tərəfi-həqdən səfərə məmur olduğunu bəyan eylədi. Andan sonra oğlu İsgəndərusi kəndi yerinə təxtə otrdub, neçə nəsihətlər eylədi və anasına oğlunu sipariş edüb: Bən səfərə getdikdən sonra xəlqə kərki kibi hökumət edüb, ədlü dad edə və kəndu həvanıza uyumayub, həq-taalanın əmr eylədigi yola gedəsiz,-deyüb andan sonra əsgərindən yüz bin miqdarı adam intixab edüb və yanına bin dəvə yüki mal və xəzinə alub bir mübarək vəqtdə Məkduniyədən tışra çıqdı. Bir qaç gün oturub, cümlə mühimmat



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

götürildikdən sonra qalqub, İsgəndəriyyə getdi. Varub bir qaç gün anda əglənüb, hikmət ilə bir ayinə peyda eyləyüb, bir filin üstinə dikdilər və ol ayinədən tamam bir illiq yol görünür idi. Hər nə canibdən bir düşmən ol məhəllə qəsd eyləsə və yüz göstərsə, gəlməzdən bir ay müqəddəm ol ayinədə görünüb, çarəsini görərlər idi.

Andan sonra Misirə varub, bir neçə gün anda dəxi əglənüb, ol məhəldən də köçdi. Ol zamanda Qüdsi-şərifə bir zalım kimsə müsəllət olub, neçə zaman ol tərəfləri qasub-qavurub, daima xəlqə cövrü cəfalar edüb, həq-taala həzrətinin əmrinə itaət eyləməz bir dinsiz hərif imiş. Ol vilayət xəlqindən bir neçə kimsənə İsgəndərə hərifdən şikayət edüb, eylədügi qəbahəti bir-bir bəyan eylədilər və dedilər ki, şəhriyarım, bir cabbar vilayətimizə müsəllət olub, daima həqqə qulluq edənlərə ihanət və əziyyət edüb, kiminin malına qəsd eyləyüb və kimin də həlak edüb, kəndinin çirkin adəti ilə ortalığı murdar eyləməgin cümləmizi canımızdan bezar eyləmişdir. Niyaz ediriz ki, gəlüb başımızdan bu bəlayi dəf edəsiz, - deyü təzəllüm eylədiklərində, İsgəndərdir, həman əsgərə fərman edüb, Qüdsi-şərif canibinə əzimət eylədi. Bu canibdən ol cabbar çünki İsgəndərin üstinə səfər eylədigindən agah oldu, əsgərin yanına cəm edüb, qarşu çıqdı. İsgəndərdir, gəlüb biri-birinə müqabil olduqda əvvəlki həmlədə cümlə əsgəri pərişan olub, kimi həlak olub və kimi də qaçub tar-mar oldular. Kəndusi də qətl olunub, şərindən xəlq xilas oldular. Andan sonra İsgəndər Qüdsi-şərifdə hərifin təvabe və müstələqatından nə qədər adam var isə, möhkəm təftiş edüb, həqlərindən gəlməklə ol mübarək yeri pak və pakizə eylədi.

Andan sonra ol yerdən köçüb, məğrib tərəfinə rəvanə olub Afərincə və Əndəlisə varub, neçə yerləri seyr və tamaşa edüb, hər varduğı yerdə xəlqə həq-taala həzrətinə ibadət və taət eyləmək yolunı göstərüb, anlar da qəbul eylərlər idi. Andan sonra neçə dağ və biyaban keçüb, dəryaya gəldi. Gəmilər yapdırub, cümlə əsgəri ilə içinə girüb, üç ay da dəryada



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

səfər edüb, neçə cəzirələrə gəlüb gördi kim, içinə adam və adəmizad ayaq basmayub, biri-birinə bənzəməz heyvanat məkan tutmuşlar. Həq-taala həzrətinin sün və qüdrətini tamaşa edərək, dəryayı da keçüb, kənarə gəldilər.

Gəmidən tışra yenə yola girdilər və Afirbərə keçüb, bir biyabana gəldilər kim, toprağı cümlə sarı qum idi. Adam basdıqca ayağın atəş kibi yaqar idi. Tamam bir ay gedüb, hezar zəhmətlə ol qumlu yeri keçdilər. Andan sonra yolları Dəryayi-mühitə varub, tayandı. İsgəndər gördi kim, ol məhəldə bir asıcaq çeşmə var. Axşam olduqda günəş ol suya batub, nabədid olur. Ol yerdə bir ixtiyar kimsəyə bu çeşmənin əslini sorduqda pir: Şəhriyarım, bu çeşməyi görənlər həqiqətinə vaqif olmayub, otası nərəyə çıqar idügini həq-taala həzrətindən qeyri kimsə bilməz, - dedi. Andan sonra dəryayi keçüb, bir biyabana gəldilər və neçə dağ və səhralar keçüb, əcayiblər gördilər. Axır bir yerə gəlüb gördilər kim, siyah daşdan bir yüksək dağ var. Əcəba, ortasında nə var ki, bir xəbər alalım, deyüb ol məhəllə varub və bir neçə adam orta tərəfinə də göndərüb hezar zəhmətlə dağın başına çıqdıqları kibi qəhqəhə ilə gülüb, kəndulərini götürüb, orta tərəfə pürtab eylədilər və bir dəxi gəlməyüb, nabədid oldular. İsgəndərdir, bu halı gördükdə heyran olub: Əcəba, bunun ortasında nə müşkil tamaşa var ki, bu adamlar biixtiyar kəndulərini atalar. Şundan bir xəbər alsaq, - deyüb bir qaç adam dəxi irsal eylədilər. Anlar dəxi dağın başına çıqdıqda gülərək kəndulərini ot tərəfə pürtab eylədilər.

İsgəndər gördi kim, dağ başına hər varan adam zəbt ol-olmayub, kəndusini orta tərəfə atayur. Axır, fikir edüb, irsal eylədikləri adamlar kəndulərini orta canibə atmaq içün ol qədər təbir edə gördilər, çarə olub zəbt edəmədilər. Yenə hər kim dağa çıqdı isə, bi-ixtiyar orta tərəfə çəkilüb getdi. Bu təriqdə neçə adam zaye olub, aciz və dərmandə qaldıqlarında əsgər içində bir aqil və hindli kimsə var idi, oğlunu yanına



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

alub, İsgəndərin hüzuruna gəldi və: Şəhriyarım, bən varub, xəbər almaq içün bir tədbir eylədim. Oğlumu yanıma alub belə gedəyim və anı dağın dəpəsinə yağın yerdə qoyub, kəndim dəpənin ortasına çıqub görəyim. Əgər kəndumi zəbt edə bilürsəm, nə gözəl, hüzurunuza gəlür, vaqei-halı elam edəyim və əgər gələməyüb bən də qeyrilər getdügi yola getmək görinürsə, əhvalı oğluma söyliyəyim, gəlib sizə bəyan eyləsün və əgər dilim tutulub söyləməgə də dərman olmazsa, bir kağıza yazub yenə oğlum ilə sizə göndərəyim,-dedi. İsgəndər də: Nə gözəl, haman varub, bir xəbər gətür,-dedikdə hərif yanına kağıd-qələm alub, oğlu ilə çəkilüb getdilər və tağı bir miqdar yerə çıqdıqda oğlunu ol yerdə burağub, kəndusi dəpəyə çıqdı və orta tərəfə baqduğı kibi, dərhal bir kağıd yazub, oğluna atub, kəndusi orta tərəfə can atdı. Pəs, oğlandır, kağıdı alub, gəlüb İsgəndərə verdikdə kağıdı oquyub, yazmış ki, dağın yolu bir cins sanki sər ikə çaqınca adamın canı boğazına gəlüb, taqəti taq olmağın bir dəxi aşağı enməgə dərmanı qalmaz. Çünki bən də hezar zəhmətlə ol dağa çıqmağa əzimət eylədim. Qiyas eylədim ki, ol yolda həlak olub, dağın başına çıqmadan can verəm. Hələ nə hal isə dəpənin üstünə çıqub orta tərəfə baqdıqda gördüm bir gözəl yerdir ki, ömrümdə ana bənzər bir yer görməmişdim. Cənnətmisal cümlə bağ və bağça olub, gunəgun çiçəklərlə ortalıq zeyn olmuş yer, bir abi-həyat kibi sular çağlayub aqar, toprağı sanki misku ənbər, həva əsdikcə adamın dimağını müəttər eyləyüb, quşların sədası xod adamı məst eylər. Gerüyə baqdım, dağ yolunun zəhməti görinüb, önümdə isə buncılayın zövqü səfa görünməgin bir dəxi gerü dönmək təbiətə güc gəlüb, cəhənnəmdən çıqub cənnətə yaqılışmış ikən, təkrar ixtiyarı ilə cəhənnəm yoluna getmək lazım gəlməgin naçar orta tərəfə ixtiyar olunub, vaqei-hal hüzuri-humayuna elam olundu. Həman, dövlətli sultanım, siz baqi olun, - deyü sözini tamam eyləmiş.

İsgəndər kağıdı oquyub, əsgər xəlqi bu haldan xəbərdar olurlarsa,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

cümləsi varub görməgə can atub, deyüb saqladı. Kimsəyə söyləməyüb, açmaz qodı və bu məhəldə əglənmək xətadur, deyüb həman dəm köç edüb, yenə yola girdi. Neçə biyaban keçüb heyvanatdan qeyri bir şeyə rast gəlmədilər. Axır, bir daşlı yerə gəlüb, hezar zəhmətlə ol yeri də keçüb, bir səhrayə gəldilər kim, Şəddadın yapdığı Baği-İrəm ol məhəldə idi. Pəs, İsgəndər içinə girüb, tamaşa eylədi. Gördi kim, cümə ağaclar altundan olub, başları ləlü cəvahir və incu idi. Safi billurdan hovuzlar və incə köşklərlə sərapa içi müzəyyən idi. Ətrafını seyr edərək, bir böyük köşkə gəldilər. Gördilər kim, bir kərpici altundan və bir kərpici gümüşdən olub, içinə ləlü cəvahir ilə ziynət vermişlər. Andan sonra bir köşkə dəxi gəldilər, safi əqiqdən idi. Anı da tamaşa eylədikdən sonra safi altundan bir qübbəyə gəlüb, gördilər Şəddad bin Adın məzarı içində imiş. Qapusı üzrə bir lövh üstünə yazılmış idi ki, ey bu məhələ gəlüb görən padşahi-kamkar, bizim halımızı görüb, bundan ibrət alasan və biləsən ki, bu ruzigarda, kimsə paydar olmayub, əlbəttə, cahana gələn getsə gərəkdir. Pəs, vəqtini qənimət bilüb, cahanın rəngü buyinə aldanub qalmayasan, deyü neçə nəsihətlər olunmuş. İsgəndərdir, lövhi oquyub, Şəddadın halından ibrət alub, İrəmdən tışra çıqdı və əsla içindən bir hibbə almayub, əsgərə də tənbeh olunub, kimsə bir daşın yerindən ayırmadı.

Andan sonra ol məhəldən də köçüb, yenə biyabana getdilər. Axır, bir yerə gəldilər kim, əsla otdan və sudan nişan olmayub, günəşin hərarətindən cümlə ətrafı yanub, qapbara olmuş idi. İçində bölük-bölük yaban adamlarına rast gəlüb, İsgəndər hallarından sual eylədikdə, dedilər kim, daima səhralarda olub, yırtıcı canavarlar kibi heyvanatdan nə bulunur isə, anı seyd edüb qidalanıruz. Ətlərini yeyüb, dərisini geyüb, anınla keçinürüz. Su ilə atəş nədir bilməyüb, atəşimiz günəş və suyumuz bulut olub, yağmur yağdıqca içüb xoş keçirüz,-dedilər.

Anları keçüb bir yerə dəxi gəldilər kim, ol yerin xəlqi cümlə gülər



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

yerlər idi. Ol məhəlli də keçüb, xeyli yer getdikdən sonra bir şəhərə gəldilər kim, havası gözəl və cümlə adamları xub olub, əsla içlərində ixtiyar kimsə yoqdı. Pəs, İsgəndər bir qaç gün ol məhəldə qərar edüb, bunlara ənam və ehsanlar eylədi və həq-taalanın əmrini bəyan edüb, cümləsinə ögrətdi. Andan sonra ol məhəldən də köçüb getdilər. Neçə biyaban keçüb, dərya kənarına gəldilər.

Bir neçə gün ol məhəldə qərar edüb, gəmilər yapdılar. İçinə girüb, kamil bir ay dərya yüzində səfər edüb, kənara gəldiklərində, yenə dəryadan tışra çıqub, otlu, sulu gözəl yer olmağın, bir həftə ol məhəldə qərar edüb, rahət oldular. Andan sonra ol məhəldən də köçüb, yola girdilər və bir qaç mənzil getdikdən sonra xəbər aldılar ki, ol məhəldə cənnətə bənzər bir gözəl yer olmağın bir alay qövm gəlüb, anda qərar eyləmişlər və hər biri doğru yoldan çıqub, şeytana uymuşlar. Hər bir evdə olan cəmaət içlərindən birini tutub, bir küp şir yığan yağın içinə qorlar imiş. Qırq-əlli gün ol yağın içində durub, cümlə gödəsi əriyüb bir şey qalmadıqda hərifi küpdən çıqarub, başını gövdəsindən cüda edərlərmiş və ol kəlləyi önlərinə qoyub, daima ana taparlar və bir müşkilləri olduqda bir çapaq ilə al başa urduqlarında içindən bir səda çıqub, sorduqları hər nə isə, cavab verər imiş və gələcəkdə nə qədər şey var isə, cümləsindən xəbər verüb, hər nə deyərsə, cümləsi gəlüb çıqub, ol əhməq qövm daima ol kəllənin ömrinə oyun verüb, sözünə itaət edərlərmiş.

Çünki İsgəndər ol qövmün buncılayın yaramazlıqlarından xəbərdar oldu, həman dəm ol tərəfə əzimət eyləyüb, gəlüb gördi kim, cümlə ətrafı bağ və bağçalı bir gözəl yerdir və əhvalları sordu. Gördi kim, müqəddimən xəbər aldığı kibi, birər bustan oyuğunu kəndulərinə rəhnüma eyləmişlər və şeytan ol kəlləyə girüb, bunlara iğva verdügindən xəbərləri olmayub, ol sədayı gerçəkdən ol baş söylər sanub, daima işləri bunun kibi zəlalət imiş. Pəs, İsgəndər əmr eylədi, ol kəllələri



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

qırdılar və yağ küplərini dökübə, bunların getdügi yol zəlalət olduğuna neçə dəlillər gətürdi və ol qövmə həq-taala həzrətlərinin əmrini bəyan edüb, içlərinə kəndi yanında olan alimlərdən birini qoyub, ol məhəldən də köçdü.

Neçə dağ və səhralar keçüb, bir daşlı yerə gəldilər. Hezar zəhmətlə anı da keçüb, almas mədəninə gəlüb, gördilər kim, bir mağara kibi çuqurun içi almas ilə malamal olub, lakin ətrafını minarə kibi hesaba gəlməz yilanlar əhatə eyləməgin, yanına varılub içindən bir daş alınmaq mümkün degildir və ol mağaranın qarşusunda qayət zərb bir dağ olub, hər bir dəligində tuşəncəl dedikləri quşlar məkan tutmuşlar. Axır, bunu fikir eylədilər ki, ol almas olduğu yerə ət atalar, ta ki, varub ol almaslara yapışa. Bə’də, quşlardır, süzülüb əti qapdıqda götürüb gedərkən ətdən düşən almasları düşürələr. Pəs, bunun üzərinə bin danə qoyun boğazlayub, para-para eylədilər. Andan sonra ol çuqura birər-ikişər atdıqca, paralardır, aşağı enüb almas ətə duz kibi yapışdı. Quşlardır, əti gördüklərində süzilüb, qapmağa başladılar və alub, məkanlarına doğru götürüb gedərkən düşən almas paraların alub İsgəndərə gətürürlər idi. Bu təriq ilə çuqurda olan almasları cümlə çıqarub, yilanlardan qeyri bir şey qalmadı və ət paralarından hesaba gəlməz almas tökülüb, cümlə-sini düşürüb, İsgəndərə gətürdilər.

Andan sonra ol məhəldən də köçüb, tamam bir ay da hezar zəhmətlə ol daşlı yeri keçüb, bir gözəl yerə gəldilər. Gördilər kim, bir təvana cavan durmadan çift sürüb, əkin əkər. İsgəndərdir, cavanın yanına gəlüb, ol yerin əhvalından sual eyləyüb, cümlə xəbər aldıqdan sonra dedi ki, səni yanımuza alub neçə və ikramlar edəlim, ta ki, buncılayın zəhmətdən xilas olub, zövqü səfada olasan. Bunun kibi bir də cift sürməkdən nə bitər, bizim yanımızda neçə mənsəblərə irüb, dövlətə düşərsən, - dedikdə cavan dedi ki, ey şəhriyari-alişanım, buyurduğunuz üzrə zövqü səfada olmaq, yenə müqəddimən rahətə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

mötad olan kimsələrə görədir. Biz ata və dədələrimizdən daima bunun kibi işdə olmağı görməgin, bizə buncılayın cift sürmək, sizin rahətinizdən hezar mərtəbə ziyadə rahət və səfadır, - deyü cavab verdikdə İsgəndər cavanın cavabını xoş görüb: Baqayım həq-taala şöhrətlərini bilürmi? – deyüb sordu kim, səni kim xəlq eylədi və gündən-günə sana qüvvət və qüdrət verüb, afətdən saqlamağla bu hala gətürdi, bilürmisən? Ta ki, sən də anın qulluğında olub əmr və fərmanına itaət üzrə olasan, -dedikdə, cavandır, cavab verüb: Ey həq-taalanın peyğəmbərligi şərəfilə mümtaz olub xəlqə yol göstərici olan şəhriyarım, daima qulluq eylədigim ol xudayi mütəal həzrətləridir ki, bu lacivərdi asimanı qüdrətilə icad edüb, yer yüzində olan otları və ağacları və isanı cümlə yoqdan var eylədi və bəni ibtidai xilqətimdən bu anə gəlincə dürli-dürli nemətə qərq eylədi. Pəs, vücudumda olan hər qıl bir dil olub ehsan eylədügi nemətlərdən birinin şükrini ömrüm olduqca həmdü səna eyləsəm, öhdəsindən gəlmək məhaldır və cümlə nemətdən biri sənin kibi peyğəmbəri-alişanı bu məhəllə götürməgi, sizinlə buluşmağı müyəssər eylədi. Sizləri bu məhəllə təşrif eyləməzdən neçə gün mü-qəddəm vaqiəmdə gələcəginizdən agah olub, sizə müntəzir idim. Həqqə çoq şükürlər ki, ol dövlətə yetişdim, - dedi. İsgəndər gördi kim, cavan vaqifi-əsrari-nihan olmuş və kərki kibi həq-taala həzrətinin qulluğuna bel bağlamış.

Pəs, İsgəndərdir, cavana səna edüb, xələt geydürüb, ənam və ehsanlar eylədi.

…və dualar eylədilər. Andan sonra ol məhəldən də köçüb, yeni yola girdi. Ətraf və əknafı seyr və tamaşa edüb, çəkilüb gedərkən günlərdə bir gün qaibdən bir avaz gəldi kim, yetər bu köhnə cahanda seyr və tamaşa eylədin. Şimdən sonra o bir cahana köçəcək vəqtin yaqın oldu. Həman bu məhəldən gerü dönüb tədarükini gör, -dedilər.

İsgəndərdir, bu avazı eşitdikdə bildi kim bu cahandan köçüb, axirətə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

səkir eyləmək vəqti qərib olmuşdu. Həman dəm əcələ ilə ol məhəldən gerüyə dönüb, Ruma əzimət eylədi və gecəyi gündüzə qatub, əsla bir yerdə əglənmədi. Axır, Кirman dedikləri şəhərə gəlüb, andan da Babilə gəldi. Ol məhəldən də qalqub, şəhri-Zura gəldikdə məzacı xəstə olub, taqəti taq olmağın bir addım iləri getməgə dərmanı qalmadı. Hər nə qədər əlac eylədilərsə, əsla faidə verməyüb, xəstəligi gündən-gunə ziyadə oldu. Pəs, bu halı gördükdə ovlaq göndərüb, əcələ ilə gəlüb-yetişmək gərəksin, ola ki, bir dəxi bəni görəydin, - deyüb və Rumda olan həkimləri də belə alub gətür, - deyü fərman eylədi. Ovlaqdur, yola girüb az zamanda Ruma gəlüb, İsgəndərin fərmanını Ərəstuya söylədikdə can başına sıçrayub, həman dəm Rumda olan həkimləri yanına alub, yola girdi və günlərdə bir gün şəhri-Zura gəlüb gördi kim, İsgəndər zar və zəbun olmuş yatur. Həkimlər ilə nəbz və qarurəsinə baqub, gördilər kim, artıq əlac və tədbir zamanı qalmamış. Cümləsi həyatdan məyus oldular.

Pəs, İsgəndər Ərəstuyə və sair həkimlərə neçə vəsiyyətlər edüb, Rumda validəsinə də bir vəsiyyətnamə göndərüb, canını həq-taala həzrətlərinin əmrinə təslim eylədi.

Cümlə əyani-dövlət ...edüb, ağlaşdılar və kəfənini ud və ənbər ilə müəttər edüb, altundan tabuta qodular və meyitini ol məhəldən qaldırub, Misrə gətürüb, İsgəndəriyyədə dəfn eylədilər.

Bu məhəldə İsgəndərnameyi-Şeyx Nizami tamam oldu.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## [TƏRCÜMEİ – «MƏXZƏNÜL-ƏSRAR»]

…yer girdi, mal bulmuş mağariyəyə döndüm.

Həqqə yüz bin şükürlər edüb, yüzimi torpağa sürdüm. Ətrafı gəzinüb tamaşa eylədim və şəkərdən dadlu yemişlərdən yeyüb, sovuq sulardan içdim və bir sərv dibində ol gecə axşamlamağa qərar verdim.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Çünki axşam olub aləmi siyah libas bürid,i bir zamandan sonra bir tərəfdən səda bulurdu, gedə-gedə yaqlaşub anı gördüm ki, hesabsız ay parası kibi qızlar yanaqları gül, saçları sünbül, dodaqları lalənin bağrını yaqar, qəmzələri qılıca qılıcı çaqar, qollarında altun biləziklər, qulaqlarında incü asqılı cəvahir küpələr, hər birinin əlində bir kafuri bal mumi sərvi-xuramanlar kibi sallanı-sallanı gəlməkdə və kimin başında döşəmə və altun təxt və sair məclis əsbabı.

Pəs, bunlardır, gəlüb bağçanın bir gözəl yerində döşəmələri döşəyüb bir tərəfə təxti qurdular və sair məclis əsbabını hazır və mühəyya edüb donatdılar. Çox keçmədən anı gördüm ki, yüzi niqablı bir nigari-nazənin zahir olub, yanınca bir süri qızlar ki, qaşları qurulmuş siyah yaya bənzər və çöhrələri bədr olmuş aya bənzər və hər birinin əllərində qul kibi bal mumu var idi. Hezar izzü naz ilə gəlüb, təxtin üstündə qərar eylədi. Başdan-başa cariyələr əllərin bağlayub, ol fitnei-zaman və afəti-dövranın, fitnei-cahanın fərmanına qulaq tutarlar. Andan sonra niqabı çöhrəsindən qaldırdıqda, anı gördüm ki, bulut altından bir mahparə zahir oldu. Qiyas eylədim ki, gögdə olan ay yerə endi, yaxud axşam dolanan günəş niqabın altından doğdu və bağçanın içi göglərə dönüb, sair yıduzlar yerinə cariyələr və nigari-nazənin dəxi ay, ya günəş idi.

Pəs, andan sonra məclis arastə olub, eyşü nuş olub, saqilər işarət edicək, həman dəm meydan açılub, ətrafına altun şəmdanlı kafuri bal mumları dizilüb, sazəndələr bir-birlərilə dəmsaz və həmavaz olub, şövq ilə bir ağaz eylədilər ki, sədayi-dilnəvazları göglərə çıqub, Zöhrə eşidüb, dəmbəstə və heyran qaldı və bir qaç mahparə rəqqaslar da bən aşiqi-şeydanın könlini çarparə edüb, tavusi-rənalar kibi cövlan və pərvanələr kibi pərvaz edüb, bir mərtəbə şivələr və bir dərəcədə şivələr eylədilər ki, əqillər çak-çak oldu. Bir zamandan sonra rəqslər tamam olub, yenə saqilərə izn olduqda piyalələr yüriməgə başladı.

Bən bir tərəfdən eşqi-nazənin və bir yandən keyfiyyəti-şərab və saz



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

ilə artıq ixtiyarım əldən gedüb nigarın ayağına yüz urdum və meydani-məhəbbətdə neçə piyadələr sürdüm. Nazənin isə hər vəchlə gülər yüz-göz göstərüb, bana şaftalular verüb və təkəllüfi ortadan qaldırub, bəni divanə eyləməkdə idi. Dönüb dedim ki, ey məhbubların şahı və ey gözəllərin padşahı, həq yaramaz nəzəri üstünizdən iraq eyləsün. İsmi-şərifiniz nədir, qanqı bağın güli və qanqı bustanın sünbülisiz? Bu qulunuza bəyan buyursanız, - deyü yalvardıqda bir dürli lütf ilə sözə gəlüb dedi ki, ey yari-həmdəm və ey qəribi-xoşdəm, bənim adıma Türkinaz derlər. Bu şəhər padşahının qızıyam və bu bağça seyrangahımdır, hərdəm bunda gəlüb əglənürəm, - dedi və getdikcə məclis qızub şəftalınun bəgi bir pulə oldu, yürəgim cuşü xüruş edüb, ixtiyarım əldən gedüb, həman dəm qollarımı boynuna salub, məstanə üstünə düşdükdə, nigardır, yalvarub: Nəfsinə zəbun olub həddi keçmə və bu gecə şəftaluyə qənaət edüb, andan ziyadə səni istəməgə nədamətə düşməyəsən və qarşuda duran cariyələrdən hər qanqısını könlün tutarsa, anınla sabahadək aləmdə ol, - dedi.

Bu hal üzrə dün yarusunadək eyş və nuşlar olub, axır şənliklər ziyadə olucaq, ol gözəllər şahbər sazəndələrə və saqilərə işarət edüb, haman tası-taraği düşürüb dağıldılar. Kəndusi də qalqub, bir mahparə gözəl cariyəni bana verüb: Al bununla səfadə ol, -deyü, vida edüb getdi. Cariyədir, əlimdən yapışub, bən də ardına düşüb, püplə döşəklər burağılmış bir gözəl yerə vardıq. Döşəgə girüb, neçə dəmlər sürüb, quşlıqlaradək yatdıq. Andan sonra, mahparədir, qalqub bəni vida edüb: Yenə axşam görüşürüz deyü getdi. Bən dəxi qalqub, abi-həyat kibi sularla yuyunub, həqqə qulluqlar eylədim. Andan sonradır gördüm ki, gülşən yarsız qalmış, mahparələrdən namü nişan yox. Bir tərəfdən firqəti-canan və bir tərəfdən xumari-şərab baş ağrıları tamam mərtəbə bəni almış. Gəlüb bir ağac dibində axşam oluncayadəkin yatdım.

Çünki axşam olub cahan yenə miski şalını büründi, həman dəm



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

mahparələr hər tərəfdən görinüb, yenə döşəmələr döşənüb, altun təxtdir, quruldu.  Məclis tərtib olunub, sazəndələrə dəstur verildi. Bir zamandan sonra afəti-dövran da çıqa gəldi. Təxtində qərar eyləyüb, qarşusında olan cariyələrə buyurdu ki, dün gecə olan müsafirimizi bulun, necə oldu? -dedikdə bən də yerimdən durub vardum, Təxt üzərə çıqub oturdum. Keçən kibi yeməklər yenüb, saqilər əllərindən tolular içilüb, sazəndə və cəngilər aləmi vəlvələyə verüb, kəllələri gərm və sinələri nərm olub, cümlə hicab ortalıqdan rəf olduqda, nazənindir, lütfini keçən gecədən ziyadə edüb, gizlücə cariyələrə göz qıpdı. Həman dəm cümləsi məclisdən gedüb, bir nigari-nazənin və bir bən qaldım.

Bu halları gördükdə ixtiyarım əldən gedüb, qollarımı zülfi kibi incə belinə sarıdım və çöküb, köksüm üstünə alub qəsd eylədim ki, təni-sinə ulaşdurub, şəkəri südə qatayım. Nazənindir, bənim böylə göz qızdırub sunduğumı gördükdə, gül yüzin yüzimə sürüb dedi ki, ey bivəfa, saqın-saqın, həddi keçüb küstaxlıq eyləmə ki, sən də, biz də zərərə uğrarız və şəftalu fəslini qoyub, qayısı sevdasında olma ki, dəxi zamanı degildir, -dedikdə dedim ki, ey nigari-nazənin, gözəl başın içün olsun, bən xəstei-biçarə və dərdiməndi-avarəyə bir dərman eylə. Məhəbbət dəryası daşdı və eşqin irmaqları başdan aşdı və zülfin zənciri bəndəki divanəyə qat-qat dolaşdı. Lütf eylə, bəni bu girdabi-heyrətdə qoma və eşqin atəş ilə yaqub-yandırma. Bu üftadə gözdən bu qədər qaçınub və hər gecə fərdəlarə salub yaralar, sinəmə dağ üzərə dağ yaqmağa səbəb nədir bilsəm, dərman arayub bir çarə bulsam. Əgər böylə naz xəncərilə sinəmi dəlik-dəlik eyləmədən məqsudiniz bu əsirnizi həlak isə, iştə boynum iştə qılıcın öldür. Yüz bin canım da olsa, cümləsini uğrunda fəda eylədim. Adam səndən cani-cahanı saqunurmi, bənim dövlətlü sultanım, - dedikdə nigari-nazənin çünki fəryadımı dinlədi, cavab verüb: Əgər bu xam təkliflərdən vaz gəlüb, səbr eylər isən, vaqtı gəldikdə atəşinə su səpəriz və sənin yoluna gedüb dedigün edəriz və əgər



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

sözüm tutmayub əcələ edirsən, nədamət atəşlərinə yanub-yaqılursan və son peşimanlıq faidə verməz. Biz sana neçə yüzdən lütfimizi məbzul eylədik. Nə qədər şaftalılar istərsən, al və əllərini boynuma zülfim kibi sal və nəfsin təqazasını qarşuda duran cariyələrdən qanqısını istərsən al, zövq eylə, - dedikdə, naçar olub, həman öpüb qucmağa qərar verüb, xatirincə oldum. Dəxi otası içün yürəgimə daş basub, oruc tutdum. Bə'də yenə şərəbü nablar içilüb, keyflər gərmagərm olduqda, məstanə yenə nazəninə sarılub yalvarmağa başladım. Nazənin bənim bu gəckinligimi gördükdə, dünyada misli bulunmaz bir pəriyə işarət edüb, əlimə varub və kəndusi qalqub getdi. Cariyə ilə çünki dün gecəyi yerə vardıq, yüzinə baqub gördüm ki, bir afəti-dövrandur ki, hüsni dün gecəki mahparədən yüz qat ziyadə həman zövqü səfayə mübaşirət edüb, ol nazənin və nazpərvər, təni pənbəmisal cariyəyi kənarə çəküb, iştə, bənim əfəndim, bir neştəri-sərtiz ilə dil altından bir qan alub, hekayənin ağzı ləl rəng mərcanə dönüb, bə'də sabahadək sudi şəkkərə qatub və gah kiraz dodaqlardan səfalanub, gah dərraqi şaftalular çərəzlənüb, gah turunclar oxşayub, gah gül xərməninə yüzüm sürdim, neçə yüzdən aləmini eylədim.

Çünki sabah olub ayrılıq dəllalı nida eylədi cariyədir, bin təəssüflə bəni vida edüb getdi. Bən xəstə və biçarə gülşəndə yarsız qalqıb, günim keçürdüm. Çünki yenə axşam olduqda mahparələr hər tərəfdən yüz göstərüb gəldilər. Eyşü işrətlər eylədik. Əlqissə, bu hali-məzkur üzərə neçə-neçə aləmlər eylədük.

Axirül əmr, yenə bir gecə ol mahparələrdir, gəlüb ortalıq döşənüb, təxtlər qurulub və məclis tərtib olunub, adət üzərə altun və gümiş şəmdanlar dizəldi. Bir zamandan sonra afəti-cahan da gəlüb, təxtə qərar eylədi. Sazəndələr fəslə sərağaz eyləyüb, saqilər şərabi-ərğəvan sunmağa başladılar.

Nazənindir, qarşusunda duran cariyələrə: Bizim yaranımızı tez bulub



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

məclisə götirün, -deyü fərman eylədikdə, simin tənlər gəlüb, bəni hezar təzim və ikramla banuyi-dövranın yanına götürüb, nigardır, bəni gördügi kibi ayağa qalqub, kəndinin əliylə oturacaq yerimi düzəldib, buyurun, -dedikdə, bən də qulluqlar edüb keçüb oturdum. Tamam süfrələr döşənüb, günagün təamlar çəkilüb, hər birindən murad üzrə yenüb, səmatlar qalqub, saqilər kasa-kasa şərablar götürüb, bən xəstənin yenə məst eylədikləri kibi divanə könlüm cuşa gəldi və əlim-ayağım boşanub, tutar yerim qalmadı və cümlə bütün əndamıma lərzə düşüb, həman dəm biixtiyar incə belinə sarılub pək qucdum. Çünki məhparə bənim bu ibramımı gördükdə dedi ki, ey yari-bivəfa, böylə əcələ edüb, qədrini yerlərə urursan. Sana biz bisəbəb bu qədər lütfü kərəm eyləmişkən heç səndən bir şeyimi saqınıruz və səninlə cövrü cəfa yolunamı gedəriz? Lakin bir zaman dəxi səbr edüb, zinhar, saqın, möhürlü xəzinənin möhürini bozmaq murad eyləyüb, ol sevdada olma ki, bir dəm rahət içün neçə yillər möhnətə uğramıyasan və bir qaç gün dəxi bəkləyüb, vüslət dairəsinə uğrama ki, muradına nail olub, səninlə neçə əyyam zövqü səfalar edüb, murad alub, murad verəlüm, - dedikdə, dedim ki, ey bənim gözim nuri və könlüm sərvəri, susuz olana su göstərüb, yenə içmə deyirsən. Adam buna necə səbr eyləsün?! Sən də bir kərəcik insaf eyləyəsən. Xod bir kərrə yüzin görən divanə olub dağlara düşər. Səbr nərədə qalur?! Lütf eylə, bu gecə muradıma irişdir də, sonra istərsən kəndunə qul eylə, xizməti-şərifinlə şərəfyab buyur və dilərsən həlak edüb bin parə  eylə, həsrətinlə canım boğazıma gəldi. Cənabınız isə sana, yaru mehribanım, səbr eylə de, sonra neçə səfalar edəriz, -deyü toşan uyxuları verüb, bəni yalan sözlərlə fədalara salarsan. Əgər bu gecə bən susuz çeşmei-vəslində məhrəm etməyüb, məhrum göndərərsən, bilmiş ol ki, dərdindən həlak oluram. Pəs, nazənin dedi ki, müsafirlərin nazı padşahlara belə keçər. Sən də çünki yanımıza gəlüb müsafirimiz oldun, nə qədər naz eyləsən də cəfana təhəmmül olunur.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Lakin ol söylədügin söz olmaz, anı qatı çox arayub pək gec bulursan. Əgər səndə vəfa olaydı, bəndən qeyrə meyl etməz idin. Sən isə ol qeyddə olmayub, hər gecə bir cariyə ilə zövq etməz idin. Bizə məhəbbətin nə qədər olduğu bundan bəllüdür. Bizimlə bir gecə yatsan, sabah usanub yenə qeyri sevdaya düşərsən. İmdi qatı çox zaman istər ki, dedügin murad hasil ola. Andan qeyri yanımızda nə qədər hacətin var isə, söylə, cümləsini hasil eləlim və sana qeyri gecələr kibi bu gecə də saqi olan cariyə verəyim, anınla dəfi-arzu eylə, - dedi.

Çünki ol aftab camalın bu aldatma sözini eşitdim, eşitməzlənüb od-kül oldum və yenə ibram ətəgini əlimdən qomayub dedim ki, ey nigari-nazəninim, bizim işimizi böylə güc eylədikcə səbrü qərarımı tar-mar edirsən. Heç olurmu ki, səndən əlim çəkəm?! Həman üzr və bəhanəyi bir tərəf edüb, ram ol və illa, mümkin degildir ki, zülfin kəməndini əlimdən salı verəm. Həman bu gecə ya bu təxt üzərə bənim muradım mumını yaqırsan, ya bəni təxt kibi çarmıx edüb həlak eylərsən. Yoxsa bir vəchlə əlimdən qurtulmazsan. Əlbəttə və əlbəttə, bu gecə bənim muradım şəmini yaqub, şəmdani-məhəbbətə dikəlmədikcə olmaz. Zira, qəminlə neçə günlərdir ki, bənim yürəgim əriyüb yanmaqdadır,-deyüb həman əl urdum ki, belindəki kəməri çözüb xəzinəyi vasilü nail olam və incü kasəsindən ləl üzüb, əsbabını sorxa boyayam. Bəndən möhlət istəyüb, o and, bu and eylədi ki, bu gecəlik də səbr edüb, yarın gecə səni muradına irişdürəm - deyü yalvarmağa başladı. Bən isə: Bu sənin dükənməz yarınkı gecələrin bəni öldürdi. Bu gecə olmayınca olmaz, - deyü bir əlim zülfində və bir əlim kəmərbəndində vafir cəng eylədik. Ta ol məhəllə irişdi ki, nazənin yorulub, boğuşmaqdan fərağət edüb, naçar bana ram olub, xoş, imdi muradım hasil edəlim, lakin azacıq gözüni yumub dur ki, kəmərim çözüb, şəkər xəzinəsini sana açub, hazır və mühəyya edəyim. Andan sonra bəni bir uğurdan bağrına basub, səfaya başlayub, gözini aç dedikdə açasan, - dedikdə bən də bu əfsanəyə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

etimad edüb, nigarı əlimdən salı verdim və gözlərimdir, yumub, bir ləhzə kor kibi durdum. Bir zamandan sonra: Aç gözünü,-dedikdə bən də tamam kərəmiyyət ilə, hələ bu gecə muradıma vasil oldum, şimdi cananı sinəmə sarub zövqini eylərəm, artıq ölürsəm də, qəm degil, - deyü gözümi açduqda kəndimi müqəddəm zikr olunan viranə içində, girdigim səbət içində bulub, nə nigar və nə bağça, zhəman gözlərümdən qanlu yaşlar rəvan olub, əhü fəğanlar eylədüm.

Bir zamandan sonra səbətdir, aşağı enüb yerini bulduqda həman əski yarğarum qəssab gəlüb, bəni qucdu və sana, bu hekayəyi yillərcə söyləsəm, qövrinə vasil olamayub, etimad eyləməzdik. Şimdi kəndin görüb qissəyə vaqif oldun. Bu şəhər xəlqi cümlə bu məkkarənin damına düşüb, hər biri dərd ilə niçün siyahlar geydügin anladın, - dedi. Bən də: Ey bəradər, bizə də çarə yox. Götür, yenə siyahlar geyəyim,-dedim. Məgər qəssab halı bilüb, hazır etmiş, geyüb, ol gecə atımı binüb, qəssaba vida edüb, ah-vah ilə şəhərimə gəldim.

Raviyi-qissə Zahidə xatun sözini bu məhələ götürdikdə dedi ki, çünki bu qüseyrədə ol padşahi-alişanın cariyəsi idim, bən də əfəndim libasına girüb siyah geyərdim. Çünki hind padşahının qızı hekayəyi tamam eylədi, Bəhram şah afərin edüb, qızı qoynuna alub, şəkəri südə qatdı və bu məclis burada tamam oldu.

## Bu məclis Bəhram şahın bazar güni zərrin köşkə gedüb, Rum padşahı qızının hekayə söylədigidir

Çünki sabah olub günəş toğı məşriq meydanına dikəldi, Bəhram şah zərü dibalar geyüb, altun tacla qülə ata binüb zərrin köşkə sürurla əzm eylədi.

Köşkə varub axşamlaradək altun qədəhlər meydanda dövr edüb, gah sazlar çalınub, gah rəqqaslar pərvaz edüb, neçə dürlü aləmlər



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

eylədi.

Çünki axşam altun şəmdanlarla kafuri bal mumları yanub, banuyi-Rum ilə döşəgə girmək zamanı yaqlaşdıqda, Bəhram şah nazənini-Rumdan bir hekayə istədi. Mahparə də yaqut dodaqların açub, incular saçub, ibtida padşahə dualar edüb, bə'də hekayəyə başlayub dedi ki, cariyə alan padşah hekayəsidir.

İraq vilayəti şəhərlərindən birində bir padşah var idi. Gözəl yüzlü, iyu xoylu olub, hər nə qədər hünər var isə cümləsi əlindən gəlüb, hər yüzdən məhbub və məqbul idi. Lakin padşah kəndu taleini öylə bulmuş idi ki, övrətlərə xüsumət üzərə olub, daima aralarında ədavət əksik olmaya. Bu səbəblə əzm eyləmişdi ki, heç bir övrət ilə cift olmaya və daima erkən dura. Pəs, bu hal üzərə neçə zaman keçüb, axırkar yalnızlıq canına kar edüb, çarü naçar bir nazənin ilə cift olmağa meyl edüb, neçə mahparə cariyələr aldı. Lakin birisi də könlünə görə olmadığından biriylə də keçinməyüb, yenə saraydan tışra rədd eylədi. Zira, hər nə zaman bir cariyə alsa, həftəsinə varmayub, dünyada olmaz təkalifə başlayub, padşahı canından bezdürüb, padşah da soğuyub rədd eylərdi. Məgər padşahın sarayında əzrəq cazudan nişan verür bir qoca qarı var idi. Hər gələn mahparəyə dillər töküb, gah cin şahı və gah fələklər mahı deyü bir gunə söz ilə cariyənin altından girüb-üstündən çıqub, könlini böyüdüb uçururdu. Gələn cariyələr də, dərdimənd nə bilsün, qarının əfsunini gerçək sanub axşama varmadan yüz bin dürlü naza başlayub, məğrur olurdu. Padşah da bunları böylə gördükcə igrənüb yanına yaqlaşmırdı.

Əlqissə, padşah məzacına görə bir cariyə bulamayub, daima xəlq içində cariyə alub-satmaq ilə məşhur olub, hər kəs bir söz söyləyüb, qoca qarının məkrini bilməz idi.

Axır, padşah aciz olub cariyə almaqdan fəraəğət eylədi. Günlərdə bir gün bir dəllal gəlüb padşaha xəbər verdi ki, yaqınlarda Çin vilayətindən



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

vafir cariyə ilə bir maldar xacə key bazərgan gəlüb, vafir pəri surətli cariyələr gətürdi. Amma içlərində bir cariyə var ki, ağırınca altun və cəvahir istər. Lakin hüsndə ayın on dördinə bənzər, dodaqları mərcan, dişləri incu, saçı sünbül, ləbləri mül, yanağı gül, püskürmə bənli, uzun boylu, incə belli, bir incə aftabdır ki, gülsə, güllər açılur, söyləsə, şəkərlər saçılur, dünyada misli görülməmişdir. Bən ki, bunca yillərdir bu qədər cariyə gördüm, heç buna bənzər bir afətə sataşmadım və nə gördüm. Əgər padşahım bir kərrə görsə, sanuram ki, tamam məzacları üzərə olub, qeyri cariyə aramaqdan fərağət buyururlardı, - dedikdə padşah qulaqdan aşiq olub, həman dəm dəllala buyurdu ki, bazərganı cümlə cariyələrlə hüzuruna gətürüb seyr eyləyə.

Pəs, dəllal varub bazərganı cümlə cariyələr ilə hüzuruna gətürdi. Padşahdır, cümlə cariyələri birər-birər gözdən keçürüb gördi ki, hər biri bəhanəsiz bir alay gözəl mahparələr. Lakin dəllal dedügi cariyə haza gözəl həqiqətdə hüsni o birilərindən yüz qat ziyadə bir incə aftabdır ki, cahana misli gəlməmiş. Padşah almağa talib olub, bazərgana: Bu cariyə əla, gözəl, lakin hüsnindən qeyri hünəri nədir, söylə, andan sonra bahası hər nə isə verəyim, - dedikdə bazərgan dedi kim, hüsni nə qədər kamalda isə, həp hünərləri də ana görədir. Heç əsla bir sənət yoqdur ki, əlindən gəlməyə və əsla eybi və qüsuru yoqdur. Ancaq şu qədər eybi vardır ki, erkək adam sevməz və yanına yaqlaşdırmaz və kimsəyə ram olmadığından hər kim bəndən bin dürli rəğbətdə aldısa, ertəsi gün götürüb bana rədd eylədi və əgər bir-iki günədək ram olur ümidiylə cəbr edərlərsə, kəndusini öldürmək istəyüb, naçar gerü göndərirlərdi və səadətli padşahımı da eşitdim ki, heç cariyə bəgənməyüb, hər aldıqlarını bir qaç gündən sonra geriyə verirlər imiş. Bu cariyə də ər bəgənməyüb, kimsəyə ram olmaz imiş. Böylə olunca alsanız da xəta etməyüb, yenə bana rədd eylərsiz. Pəs, imdi bundan fərağət edüb, qeyrilərindən hər qanqısını bəgənürsiniz, aqça-pul lazım



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

degil, alub hərəmə götürsünlər, - dedi.

Padşahdır, bu sözi eşitdikdə, təkrar cariyələr cümlə bir-bir baqub könli heç birinə meyl eyləməyüb, gözi bu cariyədə qaldı. Heyrətə varub: Əgər alsam, ram olmaz, almasam, xod könlüm düşdi, yenə olmaz. Nə çarə eyləsəm? - deyü vafir fikir eylədi. Axirüləmr, padşahın şövqi atəşi parlayub, yanına varmamaq üzərə almağa razı olub: Nə qədər eybi varsa, cümlə məqbulumdur, - deyü buyurdu ki, bazərgana ağırınca aqça verələr və cariyəyi götürələr.

Cariyədir, hərəmə vardıqda cümlə işi-güci görməgə başladı. İqdam üzərə olub, yatub-qalmadan qeyri sair işinə əsla qeyl (qıl) qondarmazdı. Qoca qarı padşahın yenə bir tazə cariyə aldığını eşidəcək həman dəm qalqub, yanına varub, bunu da qeyri cariyələr kibi əhməq sanub, həman sehrü əfsuna başlayub: Ey Xəta gözəli və Çin şahı xanım, canım, - deyü önüncə yuvalanduğı kibi, cariyə bu məkkarənin cümlə əfsunin anlayub, həman qəzəbə gəlüb: Bən nazlı xan və can degiləm. Bənim adım-sanım nə isə, anınla çağır, deyü qarıya bir ey zövrəq alırdı ki, padşah da bu halı görüb qeyri cariyələrlə dirilk-düzənlik olmaduğun əsli bu məlunənin əfsuni olduğunu anlayub, həman dəm səhharəyi saraydan sürüb, bir dəxi içərüyə qomaz. Cariyədir, bu bəlayi savdıqdan sonra padşahın sarayını zəbt edüb, nə qədər xizmət var isə cümləsini kəndu görüb, padşahın tamam mərtəbə tutub qapamada könlünə girər, lakin yenə ram olmayub, xəzinəsi əvvəlki kibi möhürlü durub.

Gecələrdən bir gecə padşah yatub ayağını cariyənin dizinə qoyub naziləndə padşahın ayağını urub dürli-dürli hekayələr deyərdi və biri-birisinə gizli guşələr və ərzi hallar olunarkən, padşah dönüb mahparəyə dedi kim, ey bənim punçeyi-afitabim incə boylu sərvim, mehribanım, şivəkarım, səndən bir şey sorsam gərək, amma saqılub yalan söyləmə. Doğrusı hər nə isə anı söylə, ta ki, sənin doğru sözindən bənim də İşim doğru ola. netə rəvayət olundu ki, həzrət Süleyman əleyhissəlam ilə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bilqeys hekayəsidir.

Süleyman əleyhissəlam ilə Bilqeys bir övladı var idi. Həq-taala əmriylə əli və ayağı sağ və salim olmayub bir şeyi tutamazdı və yerə basamaz idi. Günlərdə bir gün Bilqeys həzrət Süleyman əleyhissəlama dedi ki, bilməm nə hikmətdir ki, övladımız böylə ali və ayağı səqad olubdur, dərdinə bir çarə olmadı. Cəbrayıl əleyhissəlam sana cənabi-həqdən dərman xəbərini gətürə, dedikdə Süleyman ə.-m. bu çözi məqul görüb Cəbrayıl ə.-m. gəlməsinə müntəzir oldu.

Bir qaç gündən sonra Cəbrayıl ə.-m. nazil olduqda həzrət Süleyman ə.-m. övladının dərdinə çarə nədir, deyü Cəbrayıl ə.-m. sual eylədikdə Cəbrayıl ə.-m. dəxi gedüb cənabi-həqdən dərmanla təkrar gəlüb həzrət Süleyman əleyhissəlama bu xəbəri götürdi ki, ər və övrət bir yerə oturub söz söyləşdükdə hər birisi nə söylərsə yalan söyləməyüb gerçək söyləyələr. Ta ki, gerçək sözün bərakatiylə övladın mərəzi gedüb sağ ola, dedi.

Pəs, həzrət Süleyman ə.-m. Bilqeysə Cəbrayıl ə.-m. götürdigi xəbəri və əlacı bəyan eylədi. Bilqeys bu sözdən şad olub övladının dərdinə əlac bulunduğundan məsrur oldu və həzrət Süleyman ə.-m. cavab verdi ki, bəndən nə sorur isəniz sorun, taki Allah Əzim-üş-şan həzrətlərinin əmri üzərə gerçəgi nə isə söyləyim, dedi. həzrət Süleyman ə.-m. dedi ki, heç dünyada bəndən qeyriyə rəğbət eylədinmi? dedikdə Bilqeys dedi ki, bu qədər gözəl yüzli və dadlı sözli xubu mərğub və sair həp cümlə məhbub ikən və həq cillü əlahəzrətləri səni sair qulları üzərə pey-ğəmbərlik ilə əziz qılub, insü cini və cümlə heyvanatı əsrinə ram və hökminə müti eyləyüb, bu izzət və səadət dünyada səndən qeyrə müyəssər olmamışkən, hər qaçan bir tazə cavan görsəm, müqtəzayi-təbiət üzərə bənim ərim də böylə tazə cavan olaydı, deyü arzu eylərəm, dedikdə məsum bu sözi eşitdügi kibi əlinə səhhət gəlüb, Bilqeyəsə uzadub, ana, əlim iyi oldu dedi..



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Çünki Bilqeyəskəndinin gerçək söyziylə məsumun əli iyi olduğunu gördikdə, dönüb həzrət Süleymana dedi ki, ey imsü cini və divü pərinin Süleymanı, bənim doğru sözümlə məsumun əli iyü oldu. Sizdən də bir sualım var. Xatiri-şərifə qübar gəlməyfə. Ta ki, anın cavabı ilə məsumu ayaqlandırasız. Əcəb, bu qədər mal və xəzinə sahibi ikən heç kimsənin malına meyl edüb, şu da bənim ol idi, deyü xatiri-şərifə gəlürmi dedikdə, həzrət Süleyman əleyhissəlam dedi ki, dünyada bizdə olan nemətlərə kimsə malik degil ikən, yenə hüzuruma bir adam gəldikdə, əcəb bizə nə peşkəş götürdi, deyü açmazdan ədinə baqıram, dedikdə məsumun ayağına dəxi səhhət gəlüb və qalqub baba, ayağım iyu oldu, dedi.

Pəs, padşah bu hekayəyi cariyəyə söyləyüb dedi ki, çünki gerçək söz bərəkətlə anların əhvalı böylə oldu. Bizə də lazım olan, səninlə yalan söyləməyüb gerçəki nə isə anı söyləyəlim deyüb, dedi ki, ey bənim canım, bən sana bu qədər mail olub dərdinlə bağrım xun ikən niçün böylə sovğuq qanlı olub bəndən qaçub bana ram olmazsın. Bunun səhih cavabını səndən istərəm, dedikdə, qız dəxi naçar doğrusu nə isə syöləməgə qərar verüb dedi ki, bizim əslü nəsəbimizdə təcrübə olunmuşdur ki, dişi qismində hər kim yanına erkək yaqlaşdırarsa cümləsi, əlbəttə hamilə olub, övlad doğurduqda həlak olur. Hətta bən cariyəniz də dünyaya gəldikdə, bənim dəxi validəm həlak olmuşdur. Pəs, ərlərə yaqın olmaq həlakə səbəb olunca, aqil olan heç kəndu ixtiyar ilə ölümini istərmi. Əvvəl can, sonra canan lazım. Bundan sonra muradi-şərifiniz nə isə bu eybimlə qəbul buyurun və dilərsiniz rədd eyləyin, bu xüsusda fəqirəniz məcburam deyüb, bə'də padşaha dedi ki, bən kəndi razımı padşaha sitəm etməyüb ərz eylədim. Şəhriyari-cahanım da niyaz eylərmi ki, razlarını saqlamayub bəyan buyuralar ki, neçə zamandan bərü bu qədər günəş yüzli cariyələri, bin dürli rəğbətlə alub zərü zivərə qərq edüb, bu qədər nazü nemətdən sonra hüsni bağından bir gül qoparmadın və saçı sünbülin qoqulmadan yerlərə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

çalub neçə həqarətlə qapunızdan rədd eyləməgə səbəb nədir, dedikdə padşah dedi ki, hər nə qız aldımsa cümləsi kəndəzini görmiş məğrur olub, bizim qədrimizi bilməyüb xizmətlərində qüsur eylərlərdi və yenə böylə ikən dünyada olmadıq təklif eylərlər idi. Pəs, biz də bu halı gördikdə qapumuzdan rədd edüb məzacımıza münasib bir nazənin arardıq, ta ki, səni aldıq. Gərçi səndən murad almadıq. Lakin xizmətimizdə qüsurun yoq. Anınçün sana meyl edüb bir an sənsiz olamam deyü bunun kibi neç nazu niyazlar oldu. Lakin qız əsla yaqlaşdırmayub quşağını dəxi pək bağlardı və həsrətlə padşahın yürəgini dağlardı, bu hal üzrə neçə zaman dəxi keçüb. Bir gün müqəddimən saraydan sürilən fərtuteyi-cahan və səhhareyi-dövran padşah cariyə ilə keçinüb bu qədər zamandan bərü kənduyə ram edəməyüb aciz qalduğını deyüb, həman dəm, kin almağa bundan iyi fürsət olmaz varub ocağın salı verüb əncir dikəyim, ol da görsün adamı sürmək necə olur deyüb, yaşıl əbalar geyüb, bir əlində mərcan təsbih və bir əlində həzaran dəgnək «lahövl» deyərək padşah sarayına varub, qapuçılara varub, bən yedilərin aşı və ərənlərin yoldaşıyam. Padşaha buluşub tənha bir sirlü sözüm var dedikdə qapuçılar padşaha şu qiyafətdə bir duası alınacaq kimsə gəlüb sizə gizlü sözi varmış dediklrində, izin olub xəlvət xasə girdikdə, padşaha dualar edüb, əgər cariyəyi ram eyləyüb murad almaq istərsiniz çarəsi oldur ki, bir gözəl nazənin cariyə alub qarşusında hər zaman gülüb oynayub, hər gecə bir yerdə bir yatub aləmlər edin və bir qaç gün yüzinə baqmayın. Cariyə buna təhəmmül edəməyüb əlbəttə sizə ram olub, muradınız hasil olur deyüb, padşahdır, qarının sözlərini bəgənüb həman dəm bir cariyə alub anınla gülüb-oynamağa başlar və daim gecələr qoynuna alub anınla zövqü səfada olur, ana əsla iltifat eyləməz.

Əski qızdır, bu halı gördükdə qısqanub kəndisi də padşahla yatub qalmaq arzu eylər və könlünə atəşlər düşüb yanmağa başlar. Lakin



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

padşahın xizmətində yenə əvvəlkindən ziyadə iqdam edüb əsla qüsur qomaz və bu tufan var isə ol qoca qarı məlundur, deyü şübhəyə vardı, nə çarə. Bu hal üzərə bir qaç gün səbr edüb bir gecə tənha padşahın fürsətin düşürüb yanına varub der ki, ey padşahi-cahanım, keçən gecələrdə görçək söz söyləmək gərək, deyü qövlü qərar buyurub və bir hekayə söyləmiş idiniz. Şimdi, səadətli padşahımdan bir şey sorsam gərək mübarək başınız içün doğrusın söyləyüb bunda cariyənizi məsrur buyurun. Həq-taala dövlətli padşahımın dəxi dünyalar durduqca ömrini ziyad edüb, əgər bu cariyələrin dəxi əvvəlkilər kibi xizmətindən usandılarsa, allahdan rəvamıdır ki, bəni böylə əjdərin ağzına atub, nəfə alub-verdikcə bəni yaqub külimi göglərə savırır, əgər muradi-humanınız olursa qətl  edin. Ta kim, bir saət əvvəl ölüb bu yalandan xilas olayım. Lütf edüb söyləyiniz, bu yolu sizə kim göstərüb bənim qanıma girdi. Datlı canında bulsun. Əgər saqlamayub doğrusunı söylərsiniz, padşahım gözəl başıyçün əmri-şəriflərinə ram olub muradi-humayun-larından təcavüz etməyüb əmrlərindən yüz döndərməyəm, deyü yalvardıqda, padşahdır, cariyənin bu andlarını görüb kənduyə ram olacağını bildikdə həqiqət halı söyləyüb dedi ki, çünki sənin atəşi-eşqin könlümüzdə gündən-günə ziyadə olub, səni ram eyləməgə bir çarə bu-lamadıq, bir gün qoca qarı gəlüb bu dərmanı sağlıq verüb dedi ki, hər nə qədər təbi-şərifinizə güc isə də bir qaç gün bir hünər edüb bir qeyri cariyə alub anınla səfada olun, deyü səninlə bizim ortamızdakı atəşi üfürüb yalınlandırdı. Həqqə çoq şükürlər ki, dedügi əlac rast gəlüb. Sə-nin məhəbbətin atəşi üstündə olan tütün də gedüb tamam parlayub yüz göstərdi. Çünki bizim taleimiz qüvvətli olub böylə novruza irişdik. Artıq bir daliəcuz sovuğundan nə qəm çəkəriz. Həman səninlə aləmdə olalım, dedikdə, nazənindir, qissənin əslini bilüb padşaha ram olacağın, bunca zamandan bəru olan həsrətlər bir dəmdə havaya gedüb şəkərlər südlərə qatılub zövqü səfada oldular və bu dünyada neçə zaman



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

dəmlər sürüb bu hekayəyi yadigar qodular.

Çünki nazənin-Rum hekayəsini tamam eylədi, Bəhram şah təhsin və afərinlər edüb, qucağına alub uyquya vardılar.

## Bu məclis Bəhram şah bazar ertəsi güni yaşıl köşkə gedüb Xarəzm şahı qızının hekayə söyləməsidir

Çünki sabah olub yaşıl fələk otağına altun ələmli sancaq dikildi, Bəhram şah libaslar geyüb zümrüd rəngili köşkə əzimət edüb, fəslt-bahar olmağın səhra və dağlar başdan-başa yaşıl atlaslara girüb, hər tərəfə baqdıqca yüzlərinə nu rvə qəlbinə sürur verərək köşgə varub axşamadək zövqü səfalar eylər.

Çünki axşam olub, uyqular gəlməgə başlayub, istirahət içün döşəgə girdüklərində Xarəzm gözəlindən bir hekayət istədi. Nigari-nazənindir, söhə başlayub, ibtida padşaha dualar edüb, andan sonra dedi ki «Bişrlə Məlik xanın hekayəsidir».

Rum vilayətində bir abid və bir saleh kimsə vardı. Adına Bəşir derlərdi. Hər nə qədər elm varsa cümləsini ögrənüb, hər birində ustad olmuşidi və qayət dindar olduğundan xəlq təzim edüb əl üstündə tutarlardı

Günlərdə bir gün bir yoldan keçüb gedərkən bir xatuna rast gəlib Bişrə yaqlaşdıqda, olacaq var, həman dəm, ruzigardır, xatunın yüzində olan niqabı sərpdikdə yüzi açılub Bişrin gözi gözinə rast gəldügi kibi qəmzəsi oqları çaq cigərinə saplanub gördi kim, bir incə aftabdır ki, neçə bin tövbəyi bir dəmdə yüzüb xərab eyləmiş. Bir sərv boylu, incə belli afətdir ki, qəmzəsi sehirlə neçə aşiqi-uftadənin uyqusını qaçırmış və neçə biçarəyi məcnun edüb, başına quşlar yuva yapub yavrular uçurmuş, dodaqları gül yaprağından, tər ağzının suyu san ki, şəkər, gözləri xod bir nərgisi-rənadır ki, hər güşəsində neçə fitnələr uyuquya



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

varub gizlənmiş və kiprikləri timrini zəhərlə suvarılımş oqlardır ki, qaşı yanına gizlənmiş, kafuri gərdanında olan bənlər yasəməni lalə kibi dağdar eylər, zülfinin hər bir teli neçə müsəlmanı suçsuz, günahsız bərdar eylər. Çünki, Bişr dərdimənd bu əndamla suçöhrəyi gördikdə biixtiyar bir görə ah edüb fələk ayinəsi siyah eylər. Mahparədir, həman dəm niqabını yüzinə çəküb əcələ ilə yoluna rəvanə olur. Bişrin nagaşan başına böylə bir qiyamət qopıcaq heyrətə dalub fikirə varar ki, əcəb, nə eyləsəm əgər vüsal arzusunda olub bu xatunun ardına düşərsəm allahdan rəva degildir. Əgər səbr edüb açmaz qorsam o da güc və bir də bu ki, hayır. Bir qaç gün səbr eylədikdən sonra şeytan bana vəsvəsə verüb bəlkə genə bir günaha səbəb ola və bənim bunca yildən bəri eylədügim ibadət və tat bir dəmdə həva ola. pəs, ərlik oldur kim, şəhvəti tərk edüb və şeytana qarşu qoyub yaramazlıqdan bir hünər edüb bu şəhərdən çıqub Qüdsi-şərifə gedəyim və bir zaman anda həqqə ibadət və taət edəyim, ta ki, həq-taala lütfindən və kərəmindən bana güc işi asan edüb, dərunimdə olan hərамə meyl eyləmək səgisini gedürüb bəni əvvəlki halıma qoya, deyüb və bu niyyət üzərinə yol mihatını görüb, şəhərdən çıqub Qüdsi-şərifə gedər.

Günlərdə bir gün ol məqami-mübarəkə varub cənabi-həq-taala dərgahına yüz sürüb təzərrə və niyaz eylər və kəndusindən müqəddimən xəta ilə sadir olan günaha qat-qat tövbə və istiğfar edüb neçə günlər gözlərindən qanlu yaşlar dökər. həq-taala həzrətləri tövbəsini qəbul edüb duasını müstəcab eylər. Pəs, dərunində şeytanın vəsvəsi gedüb, qəlbi açılub nurə qərq olur. Kənduyə bu hal gəldikdə cənabi-həqqə çoq şükürlər edüb təkrar vilayətinə əzimət eylər və bir kimsə ilə yoldaş olub yola çıqar.

Lakin yoldaş olduğu adam bədxuy olub, hər sözə qarşu qoyub, öylə degildir bəlkə böylədür və şöylə gərəkdir, deyü yetmiş iki dərədən su götürüb durumaz, kəndu sözini cümlədən üst çıqarar bir inadçı adam



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

idi.

Pəs, Bişrlə yola girüb musahibətə başlayub Bişrə, adın nədir, bizə deyüz biz də sana adımız nədir söyləyəlim, dedikdə Bişr də, bənim adım Bişrdir, sən nə qorsan qo dedi. Pəs, hərif də bənim adıma Məlixa deyirlər. Bən cümlə xəlqin imamıyam və yerdə-gögdə nə varsa cümləsini bilürəm və cəmi xəlqin əql və rəyi bulduqları nə qədər məsələ varsa həp kəndi əqlimlə bulub nə qədər haram və halal varsa cümləsindən agah olub və bu fələkin altında nə qədər daş və dağ və dərya və mədən və sair şeylər varsa hər birisinin əslini və fəslini kərki kibi bilüb və nədən olmuşdur və xassəsi nədir həp cümlə məlumumdur və göglərdə nə varsa anı da bilüb, nə olub və nə olacaqdır, cümləsinə vaqifəm və nə zühur edəcəksə bən anı neçə yil məqdəm bilüb anlamışam və xəstələrin bənizinə yapışub qarurəsini gördikdə, xəstəligi nədir və dəvası nə gərəkdir həp məlumum olub nə qədər tilisimət və simiy və kimiya və qərib elmlər varsa cümlə əsli ilə bilüb, daşı cəvahir və ya qarı altun edirəm. Hasili-kəlam, dünyada bir şey yoqdur ki, bən anı bilməmiş olam. Hala, yer yüzində bana bənzər bir adam yoqdur, deyü ol qədər asdı-savurdı ki, Bişr hərifi lafü kəzafına heyran oldu.

Nagah, dağ üstündə bir qara bulut zahir olub, Məlixadır, gördükdə Bişr, niçün buludun bəzisi siyah olub və bəzisi bəyaz olur hikmətini bizə bəyan eylə, dedikdə Bişr dedi ki, Allah-əzim-əş-şanın əmridir, kimini siyah və kimini bəyaz eylər. Sualın mənası nədir. Pəs, Məlixa dedi ki, buncılayın söz bəhanədir. Həman əslini bilmədügin işə, allahın əmridir, deyirsən. Bunun əsli budur ki, siyah buldun əsli yerdən buxar çıqdıqda, əgər ol buxar yanıq olsa siyah bulut peyda olur və əgər buxar yanıq olmayub, məzacında rütubət olursa ol vəqtdə bəyaz olur, dedi.

Bundan sonra, bir tərəfdən bir ruzgar əsdi. Pəs, Məlixa yenə dönüb Bişrə, bu ruzgar niçün əsər. Hava kəndi haqqında dururkən anı qımıldadub oynadan nədir, bəyan eylə dedikdə, Bişr, bu da Allahın



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

əmridir, heç dünyada həqqin əmri olmadıqca bir şey olmaz, dedikdə Məlixa, bə hiy adam, bən sana hikmət soruram, sən isə durub bana əhməqlər cavabı verirsən. Məlumun olsun ki, yerdən buxarlar çıqub həvayi oynadub, andan peyda olur, dedi.

Bə'də göglərə sər çəkmiş bir dağ görüb, dağlar niçünböylə yüksəkli və alçaqlıdır, dedikdə Bişrdir, həqqin əmridir, kimin yüksək və kimin alçaq yaratmışdır dedi. Məlixa yenə, anın əsli budur ki, bulutdan əzim yağmurlar yaqduqda, sellər olub tağlara uğradıqda alçaq dağları yıqa-yub daşını-toprağını gedərə-gedərə böylə alçaq olmuşdur, dedikdə Bişrdir, Məlixayə çıqırub, bəhey hərif, əbsəm ol ki, həq-taalanın yaratdığı şeylərə cibindən, söz söyləmə. Bən sənin dedügin elmi səndən ziyadə bilürəm. Lakin şunun əsli şu və bunun əsli budur deyüb həq-taalanın yaratduğı şeylərin hikmətinə söz söyləmək ədəbsizlikdir. Ədəb oldur ki, cümləyi həqdən bilüb, həqqin əmriylədir demək gərək, deyü vafir nəsihət eylədi. Lakin əsla Məlixanın qulağına girməyüb kəndu bildügindən qalmadı və dürlü-dürlü lafu kəzafı qomadı.

Bir gün bunlar otsuz, susuz bərru biyaban yerdə vafir yer gedüb qayət yoruldular və hərarətdən susayub taqətləri taq oldu. Axır, hələ gedə-gedə bir lətif çəmənli yerə gəlüb gördilər, bir böyük ağacın dibində bir xosrovani iri kupi yerə gömüb ağzınadək abi-həyat kibi sovuq suyla doldurmuşlar. Pəs, Məlixa Bişrə sordu ki, bu küpi niçün böylə yerə gömüb suyla doldurmuşlardır, səbəbini bəyan eylə dedikdə, Bişr sahibxeyrlərdən biri yoldan gələn susuzlara, içün deyü qoyub yerə anınçün gömmüşdür ki, bir afət irişüb qırılmaya, dedi. Pəs, Məlixa bu cavabı eşitdikdə dönüb Bişrə dedi ki, əgər sənin hər sözün böylə isə cümlə yanlışdır, heç bir söz anlar adam degil imişsən. Bəlkə əsli budur ki, bu məhəl avçılar yeridir və bu kupi suyla doldurub yerə gömdüklərinə bais səhradan susuz heyvanlar gəlüb bundan içmək dilədikdə, avçılar uzaqdan gizlənüb oqla urub şikar eylərlər dedi. Bir şeyin əslini böylə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

kühənilə cavab ver ki, eşidənlər «Barəkallah» desünlər, dedi.

Pəs, Bişr dedi ki, hər kəsin bir sanışı var. Bən kimsə həqqində yaramaz sanmam, böylə dedim. İyulik ilə iyu bulasan. Yaramaz zən edərsən, sən də yaramazlıq görərsən, deyüb ağac gölgəsində varub oturub və yanlarında olan biçindən yedilər vo ol sovuq Sudan içüb həqqə çoq şükürlər eylədilər.

Andan sonra Məlixa Bişrə, sən yerdən qalqub bir az ota var ki, bənim gövdəm qayət eylə kirlənmişdir, şu suya girüb yuyunub pak olayım. Bə'də bu kupi qırub gedəlim, ta ki, bir dəxi heyvanlar gəlüb avçı əlinə girməyə, dedikdə Bişr, bəhiy adam, şu xıltı qoyub ədəbinlə ol, yazıq degilmidir ki, böylə lətif suyi kirinlə təlvis edüb və bir adamın xeyirini bozub bimə'ni iş edəsən. Bu nə olmaz işdir, deyü vafir nəsihət eylədi. Lakin çarə olub inadından döndərmədi.

Həman dəm, Məlixa təbindəki yaramazlığı izhar edüb soyunmağa başladı. bişrdir, gördi olmaz. Bir miqdir gerü çəkilüb arqasını Məlixaya döndü. Məlixadır, soyunub kəndusini ol kupin içinə atdı. Məgər bu küp olmayub, dibi və bucağı yoq bir əzim sarınc imiş, daldığı kibi qərq oldu və dibində qalqub bir dəxi yuqarusına çıqmadı. Bişrdir, şu hərif əcəba şu qəbahəti edürmi, deyü azacıq durub, bə'də olmaya ki, şu həramzadə şu fəzahəti edə bula ki, mən' edə idim, deyüb təkrar yerindən dönüb məzbur küpün yanına gəldi. Məlixadan əsla namu nişan bulamayub, əsbabi meydanda, kəndi qaib olmuş. Heç degil, hərif suda boğulmuşdur, deyüb, ağacdan bir dal kəsüb, əcəba su dərinmi, yoxsa yuyu qaldı… gördi ki, su dərindir. Kəndusi qayət dalğac olmağa susayub dibinə daldı. Araşdırub gördi ki, Məlixa boğulub, bir guşədə qalmış. Çöküb tışra çıqardı və daş və tpraqla basdıra qoyub, hüznlə başı ucına keçüb dedi ki, ey dərdimənd və biçarə Məlixa, qanı sənin əqli-fikrinlə dünyanın dört bucağını və yeddi guşəsini və dəryalar dibində olan şeydən xəbər verirdin. Niçün bu küpün böylə dərin



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

olduğunu bilmədin və dünyada nə zühur edərsə olmazdan neçəyil əvvəl bidür, keçinüb böylə yerdə həlak olacağını bilməyüb vəsiyyət eyləmədin və bənim əqlü mərifətimi bəgənməyüb nə qədər hünər var isə əlindən gəlürkən quyunun dərin olduğunu duyduqda yüzüb tışra çıqmadın və bu küp avçılar duzağıdır deyü içini murdar edüb, bə'də qırmağa niyyət eylədi. İştə ol yaramz sayışın başına uğradı, deyüb kəndi vücudun küp yerinə qırılub həlak oldun. Həqqə çoq həmd olsun ki, bən kimsəyə yaramaz qəsd etməyüb iyü sanışım bərəkatilə sənin gördügin yerə girüb və gerü səlamətlə tışra çıqub səni də çıqardım. Hər kəs iyü və kəti kəndü işinin cəzasını görər deyüb, bə'də cümlə əşyasını bir yerə götürüb düşürərkən içində bir kisə çıqub, möhürini bozub baqdı ki, bin danə altundur. Yenə mhürləyüb, layiq budur ki, hər nəsi varsa cümləsini götürüb varisinə verəyim və başına gələn vəqəyi xəbər verəyim. Əgər bən dəxi təmə edərsən anın düşdigi çahə düşərəm, deyüb cümlə əşyasını bir yerə bağlayub yola girdi.

Bir qaç gündə şəhərə varub, bir-iki gün evində rahətdən sonra, müqəddimən Məlixa əlbisə məhəlləsini xəbər vermişdi. Pəs, Bişrdir, cümlə əşyası alub dedügi məhəlləyə varub sual eylədikdə evini bulub qapusını çaldıqda bir mahparə xatun qapuya gəlüb, «kimdir o» dedikdə Bişr qadıncığı qapuya çığırub qadıncığa, sözüm və həm əfəndidən əmanət verəcək vardır. İçərüyə girilmək mümkün isə girəyim, dedikdə, xatundır, qapuyı açub Bişri içəruyə alub «bir yerə buyurun», deyü yer göstərüb, qadıncıq niqabilə qarşusına keçüb, «buyurun, sözünüz nədir» dedikdə Bişr billtamam hekayəyi söyləyüb Qüdsdən çıqdıqda kəndusiylə necə yoldaş olub və hər kəsin həqqində yaramaz sanub, nəticeyi-kəlam, cümlə macərayı nəql eyləyüb və suya qərq olduqda yanında bulunan əşya və altun budur deyüb «alınız» dedikdə, xatun yoldaşının öldigini eşitdikdə matəmlər edüb ağladı. Andan sonra dönüb Bişrə dedi ki, ey tanrının məqbul qulu, həq səndən razı olsun, afərin



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

sənin həlalzadəliginə ki, kimsəsi olmayan dərdiməndə böylə lütf eylədin. Bu mərdanəligi dünyada kim eylər, barəkallah. Adam həqiqətdə ol kimsədir ki, anı dünya malı yoldan çıqarmayub və əmanətə xəyanət etməyə, məhəllinə irişdürə və Məlixanın həqqində söylədigün sözlər gerçəkdir. Bil ki, bin mərtəbə söylədügindən ziyadədir. Daima işi və güci xəlqi incidüb və hər kəsin könlini yaqub bir alay təlbislik idi və bu məhəldə ər və övrət qismindən anın əlindən və dilindən incinməmiş kimsə yoq idi. Daima xəlqi yalan kibi soqar idi və bən bunca zamandan bəru anın nigahı altındayam. Heç ağzından bir kərrə bir dadlı söz eşitmədim. Daima işi xatir yıqmaq idi. Çünki həq-taala anı bu xəlqin üzərindən rəf eyləyüb qaldırdı. Əgər iyü və əgər kəm canına rəhmətlər olsun. Bizə lazım olan anı qeyri-yaramazlıqla yad eyləməməkdir. Pəs, imdi gedən gedüb, qalan qaldı. Hala sən saleh dindar adama bənzərsən. Əgər nigahla bəni almağa rəğib olursan, səndən iyu kimsənə olmaz.

Allah taala həzrətlərinin əmri üzərə nigah edüb anın yerinə ərim ol. Mülk və əmlakım vafir, bir şeyə ehtiyacım yoqdur və hüsnimə dəxi baqub, əgər bəgənürsən al, ixtiyarın əlində, deyü niqabını açı verdikdə, Bişri-dərdimənd gördi kim, müqəddimən yolda rast gəlüb və anın eşqiylə tərki-diyar eyləyüb, çaqub getməsinə səbəb olduğu sərv boylu, incə belli, yanağı gül, ləbləri mül, gözəllər padşahı ol nigari-nazənindir. Həman biixitiyar bir kərrə ah edüb arqası üstündə yıqıldı. Bir zamandan sonra əqli başına gəlüb, qalqub oturdu və kəndunun böylə ah eylədügindən, yəm hicabə düşüb dedi ki, ey pəri surətli mələksima, bən səni ibtida görüb və hüsnünə taqət gətürməyüb, əqlim getmək degil. Bəlkə cənabınız çaqi-filan zaman, filan soqaqdan keçər ikən qəza ilə ruzgar niqabını açdıqda, ol vəqtdə görüb bin canilə sana aşiq və uftadə olmuş idim və şeytan bəni ol vəqtdə bir olmaz sevdalar düşürməsin deyü, bu vilayəti tərk edüb sənin eşqin həsasiylə çıqub Qüdsi şərifə getmişdim.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

İmdi cənabi-həqqin lütfü kərəmini gör ki, doğpuluğub həsbiylə və səlahətim bərəkatiylə sizi bu fəqirə həlallıq ilə müyəssər eylədi, dedikdə, xatundur, Bişrin kənduyə müqəddimən aşiq olduğunu bilüb və yaramaz yola getməyüb, böylə tədbir ilə dəf edüb, hala kənduyə rəğbəti olduğunu gördikdə Bişrə məhəbbəti bir ikən on qat olub, həman dəm məhəlləsi camatını və imamı çığırub Allah taalanın buyuruğu üzərə əqdimən nigah edüb bir yerə gəldilər və biri-birindən neçə zaman murad alub murad verdilər və bu hekayələri yadigar qodular.

Çünki Xarəzm padşahının qızı bu arada hekayəsini tamam eylədikdə, Bəhram şahdır, hezar təhsin və afərinlər eyləyüb, qoynuna alub, ikisi bir döşəkdə rahət oldular.

## Bu məclis Bəhram şah salı güni qırmızı rəngli köşkə gedüb və Səqlab padşahı qızının hekayə söylədigidir

Çünki sabah olub fələk gülşənində günəş güli açıldı Bəhram şah qırmızı libaslar geyüb Qırmızı köşkə əzimət edüb axşamadəkin eyşü nuş və zövqü səfalar olub tamam zaman rahət və vəqti-istirahət olduqda Bəhram şah nigari-nazənindən bir hekayə istədükdə, nigari-nazənin də əvvə padşaha dualar edüb, andan bin nazilə dedi ki, zamani-qədimdə bir padşahı-alişanın hezar nazu niyaz ilə bəslənmiş bir dəxtəri-pakizə əxtəri var idi ki, nə gözlər görmüş və nə qulaqlar eşitmiş bir mahparə idi. Bağçada salınsa sərvin belini bükərdi aə kimsəyə baqsa qəmzəsi könlünə afət toxmunu əgərdi. Ağızı qönçə, dodağı şəkər və bəni ənbər, zülfi fitnə, gözi xuni, yanağı gül, saçı sünbül, belı qıldan incə, adam bin canilə aşiq olur görüncə. Bir pənceyi-aftabdır ki, dillərə təbir olunmaz və cahanda misli bulanmaz və hüsnündən qeyri və qədər hünər varsa cümləsini ögrənüb qələmlə nəqş eylədügi təsvirlərdə əqillər heyran olurdu və sair nücum və tilsimat kibi nə qədər ülumi-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

qəribə varsa vərəq-vərəq oquyub ögrənmişdi. Bu hüsnilə və bu qədər hünərlə günəş kibi aləmlə məşhur olmuşdu. Pəs, ətraf və əknafda olan padşah və şahzadələr qulaqdan aşiq olub hər biri təhsili-kəmərini yeddi qat quşanub, kimi cahan malların ərz və kimi əsgər və dilavərlik göstərüb babasından istədikdə, qızdır, rza verməyüb və bunların birinə də varmayub, babasını bu qədər namdar şəhriyarlar ilə qarşulaşmaqda aciz və heyran edüb aləmə bir fitnə saldı və kəndusini aləm xəlqi istədiklərini gördükdə bir yüksək dağ üzərində, fələk ucına peyvəstə eyləmiş bir qüllə yapdurub anda sakin olmağa babasından izn istədi.

Görçi kim, babası yanından ayrılduğına rza verməzdi. Lakin neyləsün, xatirindən çıqmayub, naçar izn verdükdə, qızdır, həman kənduyə lazım nə qədər şeyi varsa alub babasını vida edüb ol qüllədə qərar eylədi. Yazlarda və qışlarda nə qədər şey lazım isə cümləsini içinə qoyub yanında xəddam və cariyədən nə qapuçı və qələ xəddamından kimsə qomayub cümləsini tışrasına sürüb və qapusını möhkəm qapayub tək və tənha ol qələnin içində qaldı və qapuya tilsim ilə bir sənət eylədi ki, bir aqil və ustad əgər bir ay fikir edüb arasa idi bulamayub aciz və heyran olurdu və qələnin yoluna neçə dolu tilisimlər edüb bir vəchlə ki, insu cindən kimsə içinə girməgə əsla bir çarə bulamazlardı. Yolun sağında və solunda kimi daşdan yonulma və kimi tucdan tökülmə hesabsız surətlər yapdılar. Kiminin əlində kəskin qılıc və kiminin dəxi kürə və sair alati-hərblə dizilib, həman dəm bir adam yaqlaşduği kibi tilsimlər hərəkətə gəlüb əllərində olan alət və qətl edərlərdi. Ancaq bir Adama bir yol ögrətmişdi ki, neçə bin zəhmətlə ol yoldan tilsimlərdən savuşub gahu bigah babası tərəfindən xəbər götürdi. Andan sonra nazənin dəxi əlinə bir qıl qələm alub, hər hərir üstünə başdan ayağa kəndi surətini biqüsur cümlə təsvir edüb və surətin üzərinə iri yazuilə yazdı ki, hər kim bəni istər isə iştə məkanım buncılayın mətin və müstəhkəm bir qələdir ki, böylə yerə gəlmək dögmə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

adamın işi degildir. Əvvəla, bin canilə mərdlik kəmərin quşanub himmətilə bu yola girə. Andan sonra dört şərtim vardır. Anları bilüb və anlayub ana görə əməl edə.

Əvvəlki şərt budur ki, bana cift olmağa talib olan kimsənə bir böyük adam olub bana kfuv olmağa adı-sanı bəllü ola. ikinci şərt budur ki, gəlüb əql və fikir ilə bu tilsimləri fəth edə. Üçüncü şərt budur ki, çünki tilsimləri bozub qələ dibinə gələ, əql ilə bula ki, bu qələnin qapusı nərədədir. Dördüncü şərt budur ki, bu işlər tamam olduqdan sonra şəhər var, bən də babam sarayına varu banda bir qaç danə sualım vardır. Əgər hər sualıma da gərki kibi cavab verərsə ol vəqtdə biz dəxi şərtimizə vəfa edüb ol əziz və möhtərəm kimsəyə xatun olmağa razıya olaram. Əgər bu şərtləri yerinə götürməgə qadir olmazsa və balı boynuna olsun, qətl olunub həlak olur deyü sözünü tamam eylədi. Bə'də bu həriri düşürüb kəndusinə gəlüb-gedən Adama qələdən atub bu surəti qələnin qapusında bir yüksəklik yerə asub, hər kim ki, bənim vəslimə muştaq isə baqub, bu şərtləri əgər əlindən əlürsə bana tali bola və şüruyi yerinə gətürüb bana vasil ola. yaxud bu yolda canını fəda edə, dedikdə əmri üzərə ol kimsə dəxi təsviri alub hezar zəhmətlə tilsimləri keçüb gəlüb şəhərin qapusına asar. Pəs, bu xəbərdir, cahana yayılub, hər tərəfdən bu qədər şahzadə və namdar adamlar arzuyla gəlüb ol gözəl surəti götürdiklərində, bin canilə talib olub, lakin üstündə olan şərti gördüklərində, neçəsi, əlimizdən gəlməz. Xoş mahparəyi sinəyə sarmaq gözəl. Lakin bu yolda baş vermək də xeylicə zordur, deyüb gerü çəkildi və neçələr də bə nə olsa gərəkdir, bən ol tilsimləri həp cümlə kürd ilə qıraram deyüb, damən-dərmiyan edüb bu yola girdüklərində kimi əvvəlki həmləyə taqət gətürməyüb kəskin qılıc ilə başı kəsilüb və kimi zərafətlə bir-ikisini keçdükdə otadan bir dövr bilməz tilsimin biri kuhəlbürz kibi kürziylə xurdu xam edüb və kimi də xeyli keçdükdə əlbəttə birində xəta edüb həlak olurdu və əli qıl kimsə bu şərtin



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

öhdəsindən gələməyüb hər kəs aciz və heyran qaldı.

Ədqissə, bu hal üzərə neçə zaman keçdükdə, həlak olan adamların başları cümlə kəsüb şəhərin bədənlərinə dizərlərdi. Qədənin bədənləri dolub cəng içün hazır olmuş əsgər kibi qat-qat oldu. Uşaq bu halı gördükdə yenə ibrət almayub ol edəmədi, amma bən varub qızı aluram dedikcə, dostları-bəhyi adam, qoç başın sağ olsun, tək həman bulunmayan dünyada qız olsun. Şu olmaz sevdadan vaz keç, deyü nə qədər nəsihət edələrsə də əsla sözi təsir etməyüb, ol dəxi qeyrilər getdügi yola gedüb həlak olduqda anın dəxi başına bir çarə edüb bir gödigə yerləşdirərlərdi.

Rəvayət olunur ki, bu şəhərdə bir şəhzadə var idi ki, qayət gözəl yüzli və aqil hünərli bir şahbaz dilavər idi. Günlərdə bir gün gözi və könülü açılmaq içün şikar qəsdiylə binüb şəhərdən tışra çıqarkən ol surəti duran qapuya uğrar və bu qissəyi müqəddimən neçələrdən eşidüb, lakin müqəyyəd olmamış idi. Hələ bu kərrə görmüş olalım, əcəba nə qiyafətdə, deyü yanına yaqlaşdıqda gördi ki, divara bir surət asılmış və qapunın üsti olan qələ bədəni insan başiylə donanmış, yanına varub surəti uyur göz ilə baqdıqda həman görər ki, bi rsurəğdir ki, dünyada misli görünlməmiş şəhzadədir. Biixtiyar afərin ol ustadın qələminə ki, buncılayın təsvir yazmış, deyü təhsin edüb bin canilə ol surəti-zibayə aşiq olub biqərər oldu və neçə zaman heyrətə varub, baqub qalur və fikir edüb deyir ki, bən buna nə çarə eyləsəm, əgər fərağət eyləsəm bəni bu eşq həlak eylər və gər vüsal ümidiylə bu yola girsəm bu duvran başlara gələn hala bənim də başıma gəlür. Buna görə neç fikirlər edüb deyər ki, bu iş xeyli müşküldür. Buna səbr edüb nani ilə bir çarə aralıq gərəkdir deyüb, vafir düşünüb, axır ki, ey xuni sitəmkar, vəslini nə pək bəhalu eyləmişşən. Adam bustanda bitməz bir ah eylər ki, tütüni göglərə çıqar və seyrü şikardan fərağət edüb bu qəmiylə dönüb sarayına gəlür və sirrini kimsəyə açmayub, məzacım



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

yüzildi deyü xəstəliyə vara rvə hər gün çin səbbah qalqub yalnız varu bol surətin qarşusında vafir durub, bə'də dönüb yenə dərdinə dərman arar. Lakin bu çarə bulamayub aciz və heyran qalur. Bu qəmlə nə güni gün, nə gecəsi gecə olub gün-bəgün arıqlayub gül camalı solmağa başlar və neçə etimad eylədügi aqil dostlarına tənha sirrini açub ədacın arar. Axır kar bir gün xəbər alur ki, filan şəhərin filan yerində bir viranədə daş və kərpicdən çatılmış bir qülbədə bir ustad pir vardır ki, nə qədər ülumi-qəribə varsa cümləsini gəhərhki (kərki) kibi bilür. Bir hökmi-kamildir, xəlqdən əl çəküb ol guşəni ixtiyar eyləmişdir. Əgər buna çarə olursa məgər andan ola, dediklərində, şahzadədər,çünki ol hünərli kimsəyi eşidüb simurğun aşyanənəsindən nişan buldu. Həman təbdili-camə (edüb) eşidüb, qandasın ol pir kimsə deyü, ol dediklərin şəhərə əzimət edüb, günlərdə bir gün ol şəhər varub sağlıq verdükləri nişandan bulub pirin hüzuruna girər və əlini öpüb, sizdən elm təlimə gəldim, lütf edüb bu qulınızı şagirdligə qəbul buyurun, deyər. Pirdir, bunun böylə araduğuna baqub və alnında uluq nişanını gördükdə, olsun otul, deyü şagirdligə qəbul eylər.

Şahzadədir, pirin qulluğuna bel bağlayub xizmətində olur və ülumi-qəribə oqumağa başlayub neçə zaman ol abi-həyat çeşməsindən sular içüb, neçə qəraib şeylər ögrəndi. Axır bir gün nigarın qələsi yolunda olan tilsimləri bir-bir hüzuri-pirə ərz edüb, dərdinə çarə istədikdə, pir də cümləsinin əlacların birər-birər bəyan eylər. Həman dəm, şahzadədir, pirin əlini öpüb, himmət diləyüb yola girər.

Günlərdi bir gün şəhərə gəlüb və sarayandı oturub tilsimləri bozmaq içün neçə dürlü alətlər peyda edüb, oquyub üfurəcək əfsunları təkrar-bətəkrar əzbərlədi. Bə'də şəhərində məzənneyi-kəramdan müstəcab alduğı neçə adamları şöylə bir şeyinə mübaşirət eyləsək gərəkdir, deyü dualar etdürüb himmət tələb eylədi. Bə'də, bən ol kəndu canımdan keçüb, sonra bu işə evni-həqqilə başladım deməgə işarət olsun deyü



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

başdan-başa qırmızı libaslar geydi. Şəhər xəlqi şahzadənin bu halını gördüklərində, ah şahzadəm, bu olmaz sevdadır, fərağət buyurun, buna kimsə çarə bulamamışdır dedi klərində şahzadə bunlara cavab verüb-bəni kəndu halıma qoyub müqəyyəd olmanız. Bəlkə həq-taala fəthini bizə müyəssər edi, dedikdə, xəlq şahzadənin qürurі olmayub tükəl ilə əzimətini gördüklərində, hər biri könül yardımı ilə dualar edüb və həq-taalanın övni səninlə belə olsun deyü, himmət eylədiklərində ərənlərin himməti şahzadəyə yeddi qaç oq keçməz və qılıc kəsməz cübbə olub şahzadə dəxi bunlara həlallaşub padşah hüzuruna girüb izn istədi. Bə’də padşah da, buyurun, həman ər ol, baş yar (böylə ki): şüruti yerlərinə götürə idik, dedikdə, şahzadədir, damən-dər miyan edüb qələ tərəfinə rəvanə olub tilsimlərə yaqlaşdıqda, tilsimlərdir, hərəkətə gəlüb şahzadənin üstinə həmlə eylədiklərində, şahzadə əfsunlar oquyub üfürməgə dəxi incunun beş olduğun gördükdə bir havən içinə qoyub dökdi və bir avıc şəkər ilə qarışdurub təkrar şahzadəyə göndərdi. Şahzadədir yenə nigarın muradını anlayub bir fincan süt götürüb ol şəkərin bir yerə qarışmiış incu ufağını sütün içinə döküb, bu sualın da cavabı budur, deyü içərüyə göndərdi. Nigar bunu gördükdə süti içüb gördi ki, şəkər əriyüb sütə qarışmış və incunun ufağı dibinə çöküb qalmış. Bə’də, nazənin barmağındakı yüzügi çıqarub göndirdi. Şahzadədir, ağaz və ikramla alub barmağına taqub və qoynundan bir iri, şəffaf binəzir incu çıqarub, bunun da cavabı budur, deyü içərüyə göndərdi. Nazənindir, incuyi gördükdə qulağından küpəsin çıqarub şahzadədən gələn incuyə müəddəl küpədən bir ayru incu çıqarub o bir incunun yanına qoyub, yenə şahzadəyə göndərdi.

Çünki şahzadə ol iki incunun əsla biri-birindən fərqi olmadığın görüb, bir gög buncuq istəyüb ol iki incunun yanına qoyub incülərlə daşı içərü göndərdi. Nigar dəxi incülərin yanında buncuğu gördükdə, gülüb padşaha dedi ki, iştə cümlə sualıma cavab verdi. Qeyri üzür və bəhanə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

eyləməgə yer qalmadı. Həqqə çoq şükür ki, kəndumə yarar buldum ki, cahanda misli bulunmaz. Həman tışarıya təşrif buyurub, vəkilim olub nigah eyləmək, deyü izin verdikdə, padşah bu sual və cavabdan biz bir şey anlamadıq, bunun əsli nədir bizə bildir, deyü söylədikdə, nigari-nazənin dedi ki, müqəddimən iki incu göndərməkdən muradım, adamın ömüri dünyada pək azdır. Həman iki gün qədərdir deməgə işarət eyləmişdim. Ol da yanına üç inci qoyub bana beş inci göndərməkdən muradı, əgər ömür sən dedügindən ziyadə belə olsa, məsələn beş gün olsa, geni tez keçər deməgə işarət etmişdi. Andan sonra inciləri döküb, şəkərlə qarışdırub göndərməkdən muradım bu idi ki, adamda nəfisin necə yaramaz arzuları vardır ki, bu şəkər inci ufağına qarışduğı kibi qarışmışdır. Qanqı aqildir ki, bunu biri-birindən ayırmağa qadir ola demişdim. Ol da süt qapub bana göndərməkdən məqsudi nəfisin yaramaz arzuları bir kimsə ilə cift olub bir yerə gəldikdə və süt şəkərrə qatıldıqda cümlə əriyüb məhv olub gedər deməgə işarət etmişdi. Bən də süti içüb ana varmağa razı olub bu mənayi bildirmək içün barmağımdan yüzügimi çıqarub göndərdim. Ol da barmağına taqub qəbul eylədi və ol iki inciyi göndərməkdən muradı necə bu incinin işi yoqsa bənim də dünyada işim yoqdur demək idi.

Bən də qulağımdakı inciyi yanına qoyub göndərməkdən muradım iştə bu inciyi sənin göndərdügün incinin işi olduğu kibi, bən də sana işəm demək idi. Ol da gördikdə yanına ol gög buncuğı qoyub göndərməkdən muradı bu iki işə yaramaz göz dökməsün, demək idi.

Çünki padşahdır, qızının rzası gördikdə şad olub tışara çıqdı və üləmasını dəvət edüb qızını şəhzadəyə nigah eylədi və neçə günlər dügünlər olub bir mübarək vaqtda iki aşiq bir yerə gəlüb süti şəkərrə qatub nəfislərinin yaramaz yerə olan arzularını gedirdilər və neçə zaman dəmlər sürüb bu hekayəyi yadigar qoydular.

Çünki nigari-nazənin hekayəsini tamam eylədi. Bəhram şahdır,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

təhsin və afərinlər edüb, qoynuna alub uyquya vardı.

## Bu məclis Bəhram şah çaharşənbə güni gög rəngli köşkə gedüb Məğrib padşahı qızının hekayəsidir

Çünki sabah olub, gögx yüzindən gecənin zülməti gedüb günəş nuriylə cahan rövşən oldu. Bəhram şahdır, firuzə rəngli libaslar geyüb Asimani köşkə gedüb aqşamadək eyşü-nuşar eylədi. Çünki aqşam olub altun şəmdanlarla köşkim içi asimana döndi Bəhram şahdır, pənceyi-aftabdan bir hekayə istədi. Nazənin də ola, padşahə dualar edüb andan sonra hekayəyə başlayub dedi:

Mahin-Misrinin hekayəsidir

Rəvayət olunur ki,  Misirdə maldar bir tazə cavan bazərgan vardı ki, adına Mahan derlərdi. Tamam dəliqanlığının vəqti olmağın yaranla eyşu nuş və zövqü söhbət etməkdən bir an və bir zaman halı olmayub hər gecə bir dostunda qalub sabahlaradək gah saz və söz və gah hay-huy edüb, gündüz olduqda xod həman çin sabahdan bir miqdar alacağını alub, satacağını satub hesab və kitabını görüb andan sonra sair işini yoldaşlarına ismarlayub yaranla bir gülşənə aqar sular kibi can atub axşamadək şərabi-ərğəvani ilə can-cana qatub neçə yüzdən zövqü səfalar eylərdi.

Günlərdə bir gün dostlarından biri bağçasına dəvət edüb bir alay tazə cavanlar aqşamadək şah sözlər gözəl avazlarla dəmsaz olub və gah lətifə və şəqalar olunub, neçə dürlü dəmlər sürdilər və baqda gecə shbəti bir başqa aləmdir, deyü cümlə yaran ittifaq edüb və gecə bağ-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

çada qalmağa qərar verdilər.

Çünki aqşam oldu mahtaba qarşu aqar su kənarında oturub biri-birinə saqlıq edüb şərab sunmağa başladılar. Bir tərəfdən bülbüllərin fəryad və fəqanı və bir yandan sazların sədası yaqalar çak edüb bu tərzlə söhbət olunurkən, şərabdır, Mahanın başına çıqub, artıq oturub durmağa qərarı qalmayub, bir miqdar gəzinəyim, deyü məclisdən qalqub çayır çəmən üzərə vafir yer getdikdə nagah gördi ki; bazərganlığa getmiş bir yoldaşı var idi qarşusından çıqa gəlüb Mahanla görüşdükdə, Mahan də bə xoş gəldin. Böylə yap-yalnız gecə vəqtində buraya necə gəldin, deyü slrduqda bazərgan da, həqqə həmd olsun, bu səfərdə aqçamız biri on xeyir edüb, vafir mataə bozdum və səhhət və səlamətlə şəhərə yaqlaşdıqda yükləri bir tənha yerə endirüb cümlə hizmətkarlarımla həp anra buraǧub bən sana yalnız can atdım. Ta ki, kimsə əhvalımızı demyəy doymay gecə içində evə vardıqda sənin bu gecə bağda qalduğını xəbər alub həman buraya əzimət edüb gəldim. Əsla hal-xatir soruşacaq zaman degildir.

Həman kimsə duymadan bağa düşüb varalım və neçə töhfə mətalar vardır, bu gecə səninlə gömrikdən qaçırub oraya-buraya səpişdirəlim, dedikdə Mahan da bazərgan dükəli faidəyə eşüddigi kibi məsrur olub, ey didei bir azər deyüb yaranına xəbər etməyüb kimsə duymadan bağçanın bir tənha tərəfindən çıqub hərifin pişinə düşüb gedər. Dedügi yer qədər gedüb qərarı keçdikdə Mahan firiə varub, bəcanım, yol nə pək uzandı deyüb, cayiz ki, bən keyfli olmağa bana böylə uzaq göründi, yoldaşım yolu bilməyəcək degil deyüb, açmaz qoyub bu tərz üzərə durmadan çəkilüb gedərlər.

Əlqissə, ta ol zamanadək gedərlər ki, sabah xorusları üşəcək vəqt olur. Həman ol dəmdə yoldaşı Mahanın önündən qaib olur. Mahandır, bu halı gördükdə ayrılub əqli başına gəlür, ah və ahlar edər. Lakin nə çarə, hesabsız bir getməklə qatı bitab olmuşdi. Naçar bir qaya dibinə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

sığınub uyquya varar. Bir zamandan sonra gün doğub, günəşin sacağı ilə ortalıq qızdıqda Mahan da oynayub sağa-sola baqdıqda görər ki, otsuz, susuz bir daşlı yerdir ki, əsla insü cin və heyvanatdan namu nişan yoq. Hər dikən gözinə bir yılan kibi görinüb, böylə bir yer idi ki, insana dəhşət gəlürdi. Naçar yola girüb, bir tərəfdən susuzluq və bir tərəfdən  tənha və qorqunc yerlərdən keçdükdə, yürəgi ağzına gəlüb, gah səhrayi-bipayan və gah minarəvəş dağlar aşub bin zəhmətdə axşamadəkin gedüb, çünki axşam oldu, ortalığı zülmət qapladı, dərdi-mənd Mahan bir mağara bulub, içinə girüb, bin dürlü xofla oturub heyrət ilə dururkən, nagah qulağına bir adam səsi gəlüb sanki yenidən həyat buldu. Həman can atub mağaradan tışra çıqub yola girdi. Anı gördi kim, uzaqdan bir qarı ilə bir qoca, arqalarına birər yük çalı  yüklənüb durma müsahibət ilə gəlürlər.

Qocadır, Mahanı gördükdə ilərüyə sürüb və yanına gəlüb, kimsən və böylə bivəqtdə nərədən gəlürsən, nə əqil ilə buraya gəldin, dedikdə, Mahan da, bir mərdi-qəribəm, bir bəla ilə şəhərdən  ayrılub düşdüm. Kəndu ixtiyarımla gəlimədim deyü, başına gələn sərancamı cümlə nəql edüb, tanrı eşqinə, bana bir yol göstər, xəstə canıma bir dərman eylə dedikdə, qocadır, Mahanın bu qərib hekayəsini eşitdikdə dedi ki, ey dərdimənd və biçarə, anan və baban alqışı başında imiş ki, sənin ol yoldaşım dedügin adam yeyici bir divdir ki, ana Habili-Biyabani derlər. İşi və güci daima sənin kibi dərdiməndləri birər təriqlə bu biyabana düşürüb həlak eylər. Bizim də başımıza bir qərib hal gəlüb. Bir təriqlə buraya gəlüb düşdük. Mənzilə vardıqda sana hekayə edəyim. Hələ sana həq-taalanın lütfi olub bizə rast gəldin. Şimdən sonra heç qorq-mayub bizimlə bedə olub biri-birimiz ilə yaru həmdəm və arqa və yardım olalım deyüb, yola girdilər. Mahan da bunların ardına düşüb getdi. Yolda əsla söz söyləməyüb çəkilüb getdilər. Ta şol vaqtadək kim, sabah qərib olub xoruslar etmək zamanı olduqda həman dəm qarı ilə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

qoca ikisi də Mahanın gözündən qaib və nabədid oldular.

Mahan yenə bu halı gördükdə can başına sıçrayub diblik qorquya düşdi və yüriməkdən taqəti taq olmuşdu. Bir daş dibində sabahadək yatdı.

Çünki sabah olduqda gördi ki, dünki gündən dəxi ziyadə sərp və cümlə dağ və daş, əsla yol və iz yoq və bir gün, bir gecə təam yeməyüb qarnı pək acıqmışdı. Naçar olub gökləri çıqarub bir miqdar anınla çöylənüb bin zəhmətlə yenə yola girdi və axşamadəkin ahu vahilə neçə dağ və səhralar və dərə-təpə keçüb yenə axşam olduqda bir qaya qoltuğuna girüb anda sinüb bir miqdar yatdı.

Bir zamandan sonra qulağına bir at ayağı tapırdusı gəlüb guya Xızıra irdi. Yerindən sıçrayub baqdıqda gördi ki, bir atlu kimsədir. Qayət əşkin bir əsbə süvar olmuş və yedəgində yanınca bir at dəxi var. Duruma gəlür ikən nagah altındakı at bir uğurdan Mahanı görəcək ürküb dura vardı və üstündə olan adam dəxi dört yanına baqub Mahanı gördükdə, həman dəm dal-qılıc olub üstünə sürdi və hərif bu fəqtdə, burada nə ararsın, yoxsa dəxi yoldaşın varmı, xırsızmısan, tez söylə, yoxsa başını kəsərəm, dedikdə, Mahan da, ey şahbazım, Allah içün olsa bana qıyma, lütfü kərəm eylə. Bir vəqəyə uğramış qəribəm deyü cümlə hekayəsini nəqş eylədi.

Çünki ol kimsə Mahandan bu hekayələri eşitdi, barmağını isirüb, nə əcəb eylədi və dedi ki, ey dərdimənd və biçarə əllərində iyü xilas oluşsan. Kəndinə «Da-hövl» oquyub üfür ki, səlamətlə buncılayın bəladan qurtulmuşsan. Ol sənin qoca və qarı dedügün iki danə adam yeyici divdir ki, ərkəkinin adına Qila və dişisinin adını Hila derlər. İşləri budur ki, sənin kibi adamları böylə girdaba düşürüb həlak eylərlər. Həqqə şükür eylə ki, sana zərəri doqunmamış. Bən neçə zamandır ki, anların ardlarına düşüb biyabanda armaqdayam. Ola ki, ələ götürüb həlak edəm deyü, ta ki, xəlq anların şərlərindən əmin olalar. Həman



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

durma, tanrıya sığınub şu yedəgə süvar ol ki, sənciləyin bir qərib kimsəyə rast gəlürsəm, bindirəyim, deyü yanıma almışam edəm. Bola yenə rast gəlüb ol məkkarələri qətl və həlak edə idim, dedikdə Mahan da neçə günlər yayae yüriməkdən taqəti taq olmuşdu. Bu lütfi gördükdə həman olu yel ayaqlı ata binüb hərifin ardına düşüb şimşək kibi getməgə başladılar. Bir az gedüb neçə dağ və dərbənd aşub bir cənnətə bənzər səhrayə irdilər ki, başda-başa yaşıl çəmənlər içində yer, lal əvə sünbül açılmış və hər təfədən sazların sədası gəlüb qülğülə vermiş və mşələ vəmumlar ilə göglərə dönmüş bir alay adamlar bölük-bölük oturub, kimi otadan və kimi bəridən əl salub bizi dəvət eylər. Lakin Mahanın önündəki atlı heç bunlara baqmayub və birinə əsla cavab verməyüb əsər yel kibi ol səhrayi keçüb getdi.

Vafir yer getdikdən sonra bir yerə dəxi gəldi ki, adam qanı ilə ortalıq boyanmış, bir cəngü cidal və hay-huydur ki, dünyayı tutub, «bərə quma vardı» deyü bir qızılca qiyamətdir ki, bitməz. Mahan dərdimənd bu halı gördükdə əqli pərişan və Canı ağzına gəldi. Lakin önündə olan atlı bu cəngə əsla və qətiən iltifat etməyüb bir kənardan keçüb getdilər.

Bir zamandan sonra qarşularından vafir meşələlər gerindi. Bir götürdi, bir qülğülə idi ki, eşidənləri yürəgi qopardı. Yaqın gəldüklərində gördilər kim, hər biri bir minarə qədər bir alay zəngilər cümlə qətranə boyanmış libaslar geyüb cümlə kimin qıl kibi xortumu var. Yerə sarıqmış və kimi dəxi susağırı kibi boynuzlu və kimi də əjdər surətində bir qorqunc əsgərdir ki, görən adamın əqli çak olur. Əllərində təncərə qapağı qədər puli dəfləri var. Sədasından qiyamət qopar, bir hay-huydur ki, təbir olunmaz. Mahan fəqirin altındakı at bu sədayı eşitdikdə kişnəyüb iki ayağı üstinə qalqdı və bunların ahənginə görə rəqsə girüb gah ol tərəfə, gah bu tərəfə atılmağa başladı. mahan dərdimənd bu halı gördükdə yenə nəyə uğradığını bilüb, kəndunin ol Xızır sanduğı yadkar bir div olduğunu anlayub tanrıya sığınub naçar əllərini həman atın



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

yalasına pək sarub və oyluğu möhkəm sıqub «La-hövl» deməgə başlayub əqli gah gəlüb, gah gedərdi, gah gəzin yumub və gah at əcəba bəni nərəyə çarpar deyü baqardı. Bir zamandan sonra gözini açub baqdıqda nə gördi. Məgər kəndunin o lat dedügi yeddi başlı, çatal quyruqlu bir əjdər imiş ki, ağzından atəşlər saçub hayqırub gedər.

Mahanın can başına sıçrayub, aciz və heyran qaldı. Neyləsün, təslimdən qeyri bir çarə yoq. Bu hal üzərə vafir yer gedüb ol həngamə edən zəngilər də ayrılmayub Mahanın qorduğunu gördükcə dəxi ziyadə şəmatə edüb kimi sağ və kimi soluna keçərlərdi.

Amma, əlqissə, bu hal üzərə sabah yaqın olub xoruslar ötəcək vəqt gəldikdə həman dəm altındağı əjdər və önündə olan hayu-huy və zəngilər cümlə bir uğurdan qaib olub kimsə qalmadı.

Biçarə Mahan bu gejə dəxi böylə bir əzim vərtə varub savub har-har suvuyaraq bir guşəyə çəkilib yatdı. Bir zamandan sonra sabah olub günəş doğanda Mahan oyanıb gözlərini silərək sağ və sola baxdıqda, həman gördi kim, ucu-bucağı yoq sam-safil qırmızı qum döşənmiş bir biabandır. Ya tərki günəşin isıcağında qızub dörd tərəfi atəş tutmuş, heç bir sığınub kölgənəjək yer yoqdur. Naçar ahu-nalələr ilə yola düşüb bir zəhmətlə axşamadəkin ol səhrayı dutub getdi. Axır axşam olduqda bir çayırlı-çəmənli su kənarı göründükdə həman Mahan dərdimənd təzə can bulub, gəlüb ol Sudan qana-qana içüb və yüzin yudu. Həqqə həmd edüb bir yataçaq yer arayub hər gecəki sevdadan neçə xəyallar görünüb uçuqlu oldum, bu gecə tənha hüzür edeyim deyüb ortalığı arayub, bir mağara bulub içinə girdi və bir guşəsində yatub ətrafına dairə cızdı və neçə dualar oqudu. Sabahadək div və cinlər şərindən əmin olub rahət eylədi.

Sabahdır olduqda yerindən qalqub, həqqə çox şükürlər edüb ətrafına baqdı anı gördi kin, mağaranın bir tərəfində aqça qədər bir dəlikdən aydınlıq gəliyor. Əcəb, nədür deyüb kəndü əli ilə dəligin ətrafını bulladu



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

baş sığacaq qədər olduqda başını soqub gördi kim otası cənnətə bənzər bir baxça imiş. Həman dəm iqdam edüb dəxi ziyadə qazub bin zəhmətlə ota tərəfə keçüb baqçaya girdi. Gördi kim, görülmədən bir bağçadır ki, binlərlə təbir olunmaz. Bir tərəfi meyvəlik və bir tərəfi sular çaqlayub aqar. Hər günə meyvələr yetişüb kəmalın bulmuş.

Mahan bağı böylə cənnətə bənzər gördükdə əqli gedüb əcəb bunun bəqçisi varmıdır. Sonra yaqayı ələ verərsəm necə olur, deyüb bir-iki kərrə baxçıvandeyüb çağırdı. Gördi kim əsla və qətiyyən gəlüb-gedən yoq. Bildi kim tənhadır, həman qoyulub meyvələrdən düşürüb yeməgə başladı. bir qaç qun idi ki, bir şey yeməmişdi. Murad üzərə suyun aqıdaraq yemişdən səfalanurkən, nigah qulaqına bir qorqunc səda gəldü ki ey həramzadə, çək əlini işdə vardım dedikdə Mahan dərdimənd zahir bu avaz bizədür, əcəba genə nə bəla gəldi ola, deyüb xofla dörd yanına baqınca anı gördi kim, bir ixtiyar kimsəlinə bir sopa almış, atəş kibi xəşimlə girişüb həman göz asdırmadan Mahana girişüb və dedi ki, ey həramzədə bunca zamandır ki, bən bu baqa ömrümü çürütdüm, sən kimsən ki, bipərva gəlüb yemişlərini diüşünmək içun dallarını burub qırarsan, yoxsa baq səni babam mülkidimi. Birə heyvan sən bunu eşşək axuru, yaxud dəvə damımı sandın, dedikdə Mahan dərdimənd fəryad edüb ey bənim gözəl yüzli, dadlı sözlu babacığım, tanrı eşqinə bir az səbr eylə, dürli-dürli bəlalara uğramış bir dərdiməndə, başından keçəni sana hekayə edəyim dedikdə, pisr də dögümdən fərəğət edüb, söylə görəyim nə şəkil bəlalara uğramışsan, dedi. Mahan qocadan mülayimət gördükdə cümlə başına gələn vəqəyi xəbər etdi.

Pirdir, Mahandan bu hekayələri eşüdüb heyran olduqda dedi ki, ey dərdiməndü biçarə sənin o gəzüb yeridigin yerlər kuhi-Qaf atlarındır. Nə qədər div və cinlər varsa anda məkan dutub daima şər və fəsad ilə xalqı böylə mək rvə damə düşürüb həlak eylərlər. Onların böylə damları



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

çoqdur. Lakin həqq taleyə çox-çox şükürlər eylə ki, tofiqi sana rəfiq olub əllərindən səlamətlə xilas olub. Bu məkanə gəldik, artıq bir dəxi anlar sana yol bulamazlar. Buraya tilsim çəkilmişdir, div və cində kimsə ol tilsimi keçəməzlər. İndi şimdən sonra həman sana lazım olan vilayət arzusu və vətən havasını könüldən çıqarmaq gərəkdir. Zira, əgər umqabiyə ilə olsan bu yerlərdən diyarını varamazsan, naçar bundan qalursun. İşdə bən isə pir və ixtiyar kimsəyəm ömrüm axıra irişüb dünyada bir qaç günlük ömrüm qalmışdır və bu gördügün bağ mənim kəndi mülkümdür və bunda yaqın yerdə bir şöylə ki, əsla cahanda bir şeyə ehtiyacım yoqdur həman bu qədər var ki, heç övlad yüzi görməyib, övlada həsrətim səni, böylə bir şahbaz yigit gördükdə canım sana pək isindi. Əgər qail olursan səni oğul edinüb bu bağı və sair hər nəm varsa həp sana bildürəyim və bir sərv boylu, incə belli nazənin qız alı-verəyim, daim anınla zövqü səfada ol. Bən də ömrüm axır olunca sizə baqub könlüm ögnəyim. Sən də bəni babalığa qəbul eylə və gənclik həvəsiylə bəndən usanub getmə, dedikdə Mahan pirdən bu sözləri eşitdikdə dedi ki, hey baba, nə deməkdir ki, sənciləyin mübarək ixtiyarı babalığa qəbul eyləməyüb qaçam. həq-taala səndən razı ola, qaçmaq degil, ömrüm olduqca sənin hər nə qədər muradın var isə buyur, cümləsini canla edəyim, dedikdə pir ol Mhanın bu sözündən şad olub, əl tutulub və əhdü peyman eylədilər, baba-oğul oldular. Bə’də pir Mahan, artıq səninlə bizim ortamızda təklif qalmadı. Qalq, sana bağın o biri tərəfində neçə-neçə qəsrlər var, göstərəyim, deyüb getdilər.

Mahan anı gördü kim, ayinə kibi mücəlla səmaqilərlə yapılmış köşklər cümlə altun və laciverd ilə münəqqəş verir şadalar və anlar və abnuşdan və xam gülüşdən təxtlər qurulmuş kim, ancaq padşahlara məxsus bir ziba saraydır ki, nə gözlər görmüş və nə qulaqlar eşitmiş və dürli döşənimiş, pirdir, bir dolabdan Mahana təamlar və şərablar çıqardub və yeyüb, həqqə şükür edüb, pirə dualar eylədi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Əlqissə, Mahan ol halı görüb həmlə eyləyüb bağda pir ilə axşamadək söhbətlər edüb neçə aləmlər eylədi. Çünki axşam yaqın oldu pir dedi ki, ey səadətli oğlum, sən bu bağda bu gecə qalqub zövq eylə, bən şəhərə varayım, sənin içün yeməklər və geycək əsbablar hazır edəyim. Pirlikdir, əgər bu gecə bəlkə gəlməzsəm könlünə bir şey gəlməsünvə xofa düşmə. İştə şu böyük ağacın üstündə rahət ol və iştə nərdibanı dəxi deyü, ipdən düzəlmiş bir nərdiban göstrəüb dedi ki, təmam üzərinə çıqdıqdan sonra nərdibanı çəküb yuqaru alub bipərva aləmdə ol. Əgər cahan xəlqi bir yerə gəlsələr sana irişdirəməzlər. Amma sana də gərəkdir ki, olur-olmaz məkrü füsuna aldanub aşağı enməyə səni deyü vəsiyyət və pənd edüb şəhərə tərəfə rəvanə oldu.

Çünki Mahan bağda tənha qaldı. Bir zaman başını fikir dəryasına salub düşündi. Axır ortalıq qaranlıq oldu. Həman dəm ol nəribandan ağacın üstinə çıqub nərdibanı yuqaru çəkdi. Gördi ki, bir lətif təxt var, üstünə açlas səndəllər buraqılmış və sağ və solunda dallar arastə süfrələr asılmış içinə dürlü-dürlü çərəzlər qonulmuş. Mahan, dərdimənd bunlardan bir miqdar yeyüb neçə gecələr idi ki, bin dürlü xofla yatub rahat olmamışdı. Ol gecə bi-bak və bipərva ol havadar yerdə yatub hənuz uyquya vardıqda qulağına bir səs gəldi. Başını qaldırub aşağı baqdıqda gördi kim, bağçanın bir tərəfində vafir mahparələr və nazənin qızlar görünüb, hər birinin əlində bir kafuri mum, sərvi-xuraman kibi sallanub gəlməkdə. Çünki bağın səfəsinə gəldilər, həman dəm əbrişim xalılar və diba məqədlər döşəyüb bir altun, mürəssə Təxt qurdular. Başları olan pəncəyi-döşənüb üstünə fəqfuri təbəqlər və yaqut və firuzə kasalar düzülüb saqilər şərabi- ərğəvani sunmağa başlayub sazəndələr fəsillərə və rəqqasələrə zülflərin aşiq könli kibi pərişan edüb cilvələrə və bel qırmağa başlayub bağın içinə bir mərtəbə vəlvələ və fitnələr saldılar ki, görənlər yaqalarını çak edüb dəli-divanə olurlardı. Mahan dərdiməndi isə bu tamaşayı gördükdə əqli başından gedüb,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

əcəb, bən də bu məclisi-zibayə nə təriqlə vara bilsəm, deyü ağzının suyu aqmağa başladı və yenə pirin nəsihəti xatirinə gəlüb, xof edüb öpsəm olurdu.

Bir zamandan sonra nigari-nazəninin gözi ağac üzərində Mahana doqunub gördi kim, bir yabançı adam kəndulərinin məclisinə heyran olmuş baqub durur. Görməzlənüb kəndu aləmində oldu. Axır, şərab keyfi ilə kəllə gərm və sinələr nərm olduqda, yanında olan mahparə cariyələrdən birinə dedi ki, şu ağacda bir adam var. Axşamdan bəri bizim söhbətimizi göz tərazusına urub baqub turur. Əcəb, bu bağın bağbanımıdır. Biz bunca zamandır ki, bu bağa gəlüb gedəiriz, bağbana rast gəlmədik. Varsa bir mərdi-qərib olmaq gərəkdir. Var, dəvət eylə məclisimizə gəlsün. Uzaqdan baqub söhbətimizə həsrət çəkəcəginə gəlüb tamaşa eyləsün. Bilüriz kim, qəribin qəlbi sınıq və xatiri xəstə olub. Xatirini ələ alub qəribnəvazlıq edəlim, dedikdə, cariyədir, fərman üzərə ağacın altına varub, aşağıdan bülbül kibi çağırub banuyi dəvətini dedikdə, Mahanın Canı həman pisləhə qalub ol məclisə varmağa bin canilə mum idi. Nərdibanı salu verüb aşağı endi və nigarın hüzuruna varub, yer öpüb, dualar eylədi və murad eylədi kim, cümlədən aşağı ötürə. Həman dəm nigar lütlər edüb, bəri gəlin, deyü yanına dəvət edicək cariyələr qoltuğuna girub iğraz və ikram ilə təxtə çıqardılar.

Nigardır, yanına alub, xoş gəldiniz, qədəmlər gətürdiniz deyüb ol ağac üstünə çıqdığunun əslini sorub, adınız nədir, dedi. Mahan cümlə başından keçən macərayi bir-bir hüzuri-nigara ərz edüb bəyan eylədikdə nazənin vafir acıyub, vah-vah nə yavuz zəhmətlər savmışsız. həq-taala əvəzlərin edə deyüb cariyələrə buyurdu ki, beşigündə olan ləziz yeməklərdən bir-iki təbəq gətürüb Mahanın önünə qodılar, buyurun deyü, təklif edüb kəndi əlilə bir altun qədəhi şərabi-ərğəvanilə doldurub sundı. Genə saqilər meydana girüb kasa-kasa şərab sunmağa başlayub, bir tərəfdə sazəndələr sərağaz edüb, cəngilər də rəqsə girüb



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

dəmlər sürülməgə başladı. Gedərək Mahan pey-dərpey sunulan şərabdan məst olub xanənda və rəqqasələr cunbuşundan cuşü xüruşa gəlüb yüzi-gözi açıldı. Nazənin isə hər yüzdən lütflər göstərüb mülayimətlər eylədi.

Həman dəm nigara sarılub gül yüzindən şəftalular almağa başladı. Nazənindir, hay küstax, nə işlərsən, saqın, dedikdə Mahan da, bənim ömrüm vallah sənin dedügin olmaz. Qürbətdə gəzə-gəzə qara bağrım yanub, yürəgim dəli-dəlik olmuşdur. Mənin ol kafur təninə bir parə sarılayım, bir miqdar hərarətim getsün, deyü sarıldı və belindən qavrayub altına aldı və murad eylədi kim, mazrağın ərənlər meydanına dikə. Gördi kim, ol sənəmi-simintən dedügi bir ifritdir ki, şəkli-murdarını görən kimsənin mədəsi neçə yillər iştahası pozulur. Gözləri san ki, cəhənnəm quyusudur ki, içiq an və çapaqla dolmuş və burunun sümikləri və ağzının səlyaları ortalığı almış, saçı fitil-fitil olub içində yilan və əqrəblər yuva yapmış, ağzı mağara qədər var, dişləri bustana dikilən eşşək başına bənzər, dodaqlarının biri yerdə, biri gögdə, aləmi yumaq istər, arqası bükülmüş, qarnı əski hərar kibi sökülmüş, məmələri qətran tulumu, əli, ayağı arslan pəncəsi, gövdəsi xodəklər dərisi.

Mahan miskin bu halı görüncə can başına sıçrayub yürəgi ağzına gəldi. Əjdər pəncəsinə düşmüş ahu kibi dəmbəstə və heyran qaldı. Kərçi xeyli bəlayə düşmüşdi. Lakin heç böylə bir damə tutulmuş degildi. Hər nə qədər qaçmağa səy eylədisə çarə bulamadı. Zira ifrit ayağını sarub, qollarını boynuna dolayub deyirdi ki, ey bivafə, axşamdan bəri cümlə müştaq olub bu qədər niyaz eylərkən, şimdi qaçmanın əsli nədir. Bənim kəmər belimi qucub köksdə olan yaralarına mərhəm kibi sarımaq istərkən, hala nifrət eyləməgin mənası nədir. Niçün dodağım şərabını içməzsən və zülfim sünbilin qoqub canına səfalar verməzsən. İmdi səninlə bu gecə sabahlaradək neçə dəmlər, aləmdar eyləsəm gərəkdir. Qatı çoq zamandır ki, əlimə sənin kibi bir tazə cavan girmədi və vəslim



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

gülini kimsənə dərmədi. Pəs, səninlə şəkəri südə qatub muradım üzərə ruzigarda bir səfa sürsəm gərəkdir.

Mahan biçarə isə qrqusundan ödi yarılub, gahi əqli başına gəlüb, fəryadu fəğanlar edüb, gahi yenə gedərdi. Ta sabahadək bu əzabla müəzzəb olub, xorus ötəcək vəqt olduğu kibi yenə bunlar da bir uğurdan qaib olub nabədid oldular.

Çünki sabah oldu, Mahan dərdimənd gördi kim, atalıq bir qeyri yüzdən olmuş, ol kənduyə baba olan qoca da bir div imiş ki, ol bağı dami-təzvir qurmuş, həqiqətdə bir viranə imiş ki, içində yer-yer tikanlar bitüb, hər tərəfi yilan və çiyanlarla dopdolu, altun və mürəssə kasalar köpək yalağı çidamlar çanağı imiş ki, içi məhlatla dolu və şərabi-ərğəvani sanuğı qan imiş. Əbrişim xalılar əski həsir və pəlas imiş. Əl-hasil, bir murdar, Çirkin yaraymış ki, qələmlərlə vəsf olunmaz.

Pəs, Mahana həq-taala həzrətlərini tofiqi irişüb, eyşü nuş və sair nə qədər məhrumat varsa cümləsinə dəruni-dildən tövbə və istiğfar edüb, yüzini yerlərə sürüb zar-zar ağladı və əl qaldurub dualar və təzərrələr eylədi ki, əgər bu bəladan xilas olub bir dəxi vətənə vararsa, artıq zeh-dü səlah yolunda gedə.

Həman ol vəqtdə başdan-başa yaşıllar geymiş nurana ixtiyar zahir oldu ki, çöhrəsində gözlərə nur və qəlbə sürur gəlür. Ey qafil, həq-taala həzrətləri duanı qəbul edüb bən Xızri-nəbi əleyhissəlamım səni xilas eyləməgə gəldim, dedi. Mahan kənduyə Xızır irişdügini bildikdə həqqə həmd edüb şad oldu. Pəs, Xızır əleyhissəlam, yum gözini, dedikdə Mahan gözini yumdu. Bə’də, aç gözini, dedikdə gözini açub kəndusini müqəddəmən ol yaranla otururkən ortağı surətində div gəlüb götürdigi bağça qapusında bulub gördi kim, Xızır əleyhissəlam qeyb edüb, görünməz olmuş. Yüzini yerlərə sürüb həqqə çoq-çoq şükürlər eylədi və evinə gəlüb gördi kim, cümlə əqrəba təliqatı gög matəm libasları geyüb kəndudən bil-külliyyə ümidi kəsmişlər idi. Mahanı sağ və salim



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

gördiklərində cümləsi şad olub məsrur oldular. Mahan dəxi eylədügi tövbə üzərə bərqərar olub, bir dəxi həva və həvəs yoluna getmədi və neçə zaman bu cahanda sağ olub bu hekayəyi yadigar qodi.

Məğrib şahı qızı hekayəsini tamam eylədikdə Bəhram şah təhsin edüb qoynuna alub xabə vardı.

## Bu məclis Bəhram şah pəncşənbə güni səndəl rəngli köşkə gedüb və Çin padşahı döxtəri-sə'd əxtərin hekayə söylədügidir

Çünki sabah olub cahan rövşən olduqda Bəhram şah səndəl rəngli libaslar geyüb Səndəli köşkə rəvanə və axşamadək aləmlər eylədilər. Çünki axşam olub rahət vəqti gəldikdə Bəhram şah Çin gözəlindən bir hekayə istədi. Nigari-nazənin dəxi ibtida padşahə dualar edüb, andan sonra hekayəyə başlayub və Çin padşahı qızı olmağla Bəhram şaha kəmali-mərtəbə şövqü zövq vermək içün zülfi-ənbərbularını gərdəni-kafuri üzərində olan xali-hinduləri arasında çin-əndərçin edüb, dürlü-dürlü naza və gunə-gunə şivəyə ağaz edərək dedi ki, Xeyir və Şər iki adamın hekayəsidir.

Bir vəqtdə iki tazə cavan kəndi şəhərlərindən çıqub bir qeyri şəhərə getmək içün biri-biriylə yoldaş oldular. Birinin adına Xeyir və birinə Şər deyərlərdi və hər birinin işi-güci də ona görə olub, Xeyir bir səxi kərim adam olub, bu günim yarına qalsun deməyüb, Şər isə içindən bazarlı bir paxıl hərif idi.

Pəs, hər biri kəndusinə lazım olan zadu zəvadəyi hazırlayub, heybələrinə doldurub yola rəvanə oldular. İki-üç gün gedüb, Xeyir könli istədikcə heybəsində olan şeydən yeyüb və yoldaşına da verərdi. Şər isə nə kəndi zəxirəsini yerdi və nə yoldaşına qoqudurdu. Gedərək bunlar bir gün bir otsuz və susuz biyabana irişdilər ki, isıcaqdan sanki bir qızmış tabə idi ki, içinə girən hərarətdən  yanub kabab olurdu.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Şər biyabanın xeyli uzun olub içində su bulunmayacağını xəbər alub, yola girməzdən əvvəl matərasını və sair su qabını cümlə doldurub yoldaşından gizləmişdi. Xeyirin isə qissədən xəbəri yoq. Bir-iki gün gedüb yanında olan su dükənüb, susuz qaldı. Şər isə gah-gah kəndu suyunu gizlicə içərdi. Xeyir gördi kim, yoldaşının suyu var, lakin xoyi yaramaz olduğundan yüzi suyuni dökməyüb, canına cəbr edüb susuzluğa təhəmmül eylədi. Axır kar, susuzluq canına kar edüb cigərini kabab eylədi. Naçar, hərifdən bir içim su istəməgə qərar verüb, lakin müft verməyəcəyini bildügindən yanında qayət gözəl iki danə ləl var idi ki, dökmə yerdə bulunmazdı. Qoynundan çıqarub hərifin önünə qoyub, bəradər, susuzluqdan yürəgim kabab oldu, bana bir içim sucığaz ver. Əgər müft verərsən, kərəm eyləmiş olursan və əgər bəha istərsən, xod iştə bu iki cəvahir ki, cahanda misli bulunmaz, sənin olsun, zira susuzluqdan bir addım atmağa taqətim qalmadı, dedi.

Pəs, Şər Xeyirin dərmandəlikini göricək içində olan yaramazlığı izhar edüb dedi ki, bu sevdadan fəraĝət eylə. Daşdan su çıqarmaq arzusuna düşmə. Zərafətlə əlimdən suym almağiçün cəvahiri verüb də şəhərə vardıqda bir içim su nədir ki, anın bəhası bunun kibi iki danə ləl ola, deyü dəva edüb, gerü alasın. Bən böylə hiylələri neçə kərrə görüb zərərlərə uğramışam. Satlıq suyum yoqdur, deyüb su vermədi.

Xeyirdir, andlar içüb yəminlər etdi ki, gerü istəmək degil, bir dəxi ağzıma alub sana cəvahir verdim belə demiyəyim, deyüb neçə niyazlar edüb yalvardı. Susuzluqdan yalan yerə And içərsin. Bən bunun kibi sözə inanmam, heç başın ağrıtma. Əgər bəha ilə alayım dersən, bu cəvahirlərlə bən sana su verməm ki, yenə istədügin vəqtdə gerü almağa qadirsən. Bir cəvahir gərəkdir ki, əsla dəva edüb gerü almağa qadir olmayasan, dedikdə Xeyir ol gerü alınmaq mümkün olmayan cəvahir nədir, bəyan eylə. Əgər bəndə varsa sana verəyim, dedi.

Pəs, Şər ol cövhər sənin iki gözlərindir ki, bu cövhərdən əzizdir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Əgər çıqarub bana verməgə razı olursan nə gözəl, sana bir içim su verəyim və muradına irz görəyim və illa su degil, gözünə sıqmağa qoruq belə verməm dedi.

Xeyir hərifin bu yaramazlığını gördükdə, bəhi adam, insafın yoqmudur, tanrıdan qorqmazmısın ki, bir içim su içün bənim gözlərimi çıqarub cahanda bəni gözsüz qomaq istərsin. Ya bənim gözüm çıqmadan sana nə hasil olur. Allah eşqinə olsun, bu xam təklifdən fərağət edüb, şu iki cövhəri al və sair nə qədər şey varsa haq sənin olsun və vilayətimdə olan mal və mümkün içün sana təməssük verəyim ki, vardı da anları da alasın, tək bana bir içim su ver. Vallah sonra dava eyləməyə. Bən bu bazardan bin can ilə xoşnudam, susuzluqdan həlak olmaq mərtəbəsi irişdi, dedikdə Şər dedikləri məlun bu sözi eşitdikdə bana böylə uzun-uzdiya məsəl söyləmə. Zərurəti olan adamın bu cins niyaz və fəryadı çoq olur. Böylə söz bənim bir qulağımdan girsə, bir qulağımdan çıqar. Bən sana deyəcəgimi dedim. Əgər su muradın isə gözlərini çıqartmağa razı olursın və illa məhaldır dedikdə, Xeyir gördi kim, hərifin sözi bimə'ni, naçar susuzluğa səbr edüb bir-iki addım getdikdə artıq taqəti tağ olub dərmanı qalmadı. Axır qəzaya rza deyüb Şərə dedi ki, gəl adəm, əmir-allah cəll-şanənin başın yazusı böylə imiş, gözlərimi al çıqar, tək bana bir içim ver, deyüb genə könlindən, bəlkə hərif şu qəbahəti eyləməz ola, bərəzi bənimlə bazar şəkişdirməkdir, deyü təslim olduqda, Şər həman xəncərini əlinə alub Xeyir dərdiməndin iki gözlərini də çıqardı. Biçarə ah edüb gözlərindən qanlar rəvan olduqda, həman dəm Şər cəvahirləri və dəxi yanında nə varsa cümləsini durub düşürüb, Xeyirə bir içim su vermədən burağub qaçdı.

Xeyirdir, Şər kənduyə böylə mələnət edüb, hər nəsi varsa alub və gözlərini çıqarub, yenə bir içim su vermədən, həlak olsun, deyü buraĝub getdügini bildikdə, qana yuvalanub, ahu əfğanlar edüb, cənabi-həqdən mədəd istədi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Məgər ol tərəfdə qonar-köçər adlı türkmanlardan bir maldar türkman var idi ki, qoyunu və sığırı və at və dəvəsi hesabsız olub, yalnız kəndi öylə otlu və sulu yerlərdə gəzərdi. Hikmətən bir qaç gün idiki, o tərəfə yaqın bir yerə gəlüb qonmuş idi və bu türkmanın bir qızı var idi ki, incə belli, uzun boyla siyah saçı topuqlarını degər, qəmzələri görənlərin bağrını dələr, gözləri cadu, bənləri hindu, zülfi ənbərbu, sim tən, kafuri bədən, bir pənceyi-afitab idi ki, cahanda misli görülmüş degildi. Qızdır, qonduqları yerdən xeyli uzaq yerdə bir sovuq su var idi ki, varu bol Sudan mətrəsini doldurub evə doğru arqdan keçüb gedərkən nagah qulağına incə-incə bir xəstə adam naləsi gəlüb, əcəb, nə ola, deyü sürüb yanına gəldikdə gördi kim, bir adamdır ki, iki gözləri çıqub, qana qərq olub yatar və durma həqqə təzərrə edüb fəryad eylər. Başı ucuna varub və ah, sana nə oldu və səni kim məcruh eylədi dedikdə, Xeyir də, ey mübarək kimsə, bənim hekayətim pək uzundur. Lakin susuzluq qələbəsindən həlak olmalıyam. Əgər bana bir su tədarük edə bilürsən nə gözəl və illa, bir iki nəfəsdən sonra həlak oluram, dedikdə həman dəm qız əlində olan mətrəyi verüb, Xeyir də ol abi-həyat kibi lətif olan Sudan içdikdə tazə can buldu. Andan sonra qızdır, çıqan gözləri yerdən alub cənabi-həqqin zikriylə yerində qodi və bir təstmal ilə pək bağlayub və qoltuğuna girib yerindən qaldırdı və əlinə yapışub, gəl səni bizim obaya götürəyim deyüb yapça-yapça əlindən yedərək götürüb getdi. Obaya yaqlaşdıqda bir xidmətkarın əlinə verüb, sən bu xəstəyi yapça-yapça ardım götür, deyüb kəndusi anasının yanına varub, burada şöylə bir məcruh Adama rast gəlüb pək acıdım, deyü qissəyi bəyan eylədikdə anası, qızım, niçün eylə dərdiməndi görüb də yenə yabanda burağıb gəldin. Buraya gətürsən nə var idi, xeyrə girərük. Bəlkə bir çarə edüb əlac edəyik və xəstə könlünə rahət verəydik, dedi. Qız da, xəstəyi burağub gəlmədim, bəlkə qoltuğuna girüb gətürdim və yolda xidmətkara rast gəlüb əlinə verdim. Bən kəndim görəyim sizin də rzanız varmıdır, deyü



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

ilərüyə gəldim, ol da şimdi gəlür, dedikə anası buncılayın xeyirə kim razı olmaz. Pək gözəl etdin, çoqlar yaşa, deyüb bir zamandan sonra xidməkvardır, Xeyiri əlindən yedərək götürdi. Həman dəm qızdır, obanın guşəsində yer yapub oturtdu və çorpa gətürüb önünə qodi. Xeyirin isə isıcaqdan taqəti taq və yarası acısından cigər kabab olmuşdi. Bir-iki qaşıq çorpa içüb ah-vahla başını yasduğa qodi. Axşam olub səhradan türkmandır, gəldi, cuşədə məcruhi gördikdə, bu adam nərədən gəldi, dedikdə görçi Xeyirin kərki kibi başından keçən macərəyı bilməzlərdi. Ancaq qız yolda buldum, iki gözini çıqarmışlar, mərhəmət edüb götürdim, dedikdə türkman da iyü varmışsan, bərxurdan ol xeyrə girmişsən, deyüb həzz eylədi. Andan sonra oturub yemək eylədilər. Türkman sözə başlayub əma (ana) və dədələrimizdən eşidə gəlmişüzdir ki, filan yerdə iki çital bir böyük ağac vardır. Xassəsi oldur ki, bir dalın yaprağını döküb suyunu bir gözsüz adamın gözinə çəksələr həq-sübhanə və tali əmri-şərifi ilə gözləri açılub rövşən və o bir dalın yaprağını döküb suyını bir tutarlıqlı Adama içürsələr ba-izni-allah taala şəfa bula, dedikdə qızdır, babasına niyaz edüb yalvardı ki, kərəm edüb, bizə ol ağacın yaprağından bir miqdar götür ki, məcruh kimsənün dərdinə bolayki bir dərman edək, dedikdə türkman da, olsun, deyüb sabah olanda varu bol ağacdan bir avuc (üç, uc) yapraq, götürdi. Həman dəm qızdır, qollarını sığrayub yaprağı möhkəm dögdi və suyını sıqub cibrəsini geydərüb pak eylədi. Andan sonra xəstənin gözündə olan qanları ısıcıq suyilə yuyub, bə'də ol suyu aqıdub çıqan gözləri yerinə qoyub, möhkəm bağlayub yatarda qodi. Beş günədək açlayub, tamam beş gün olduqda bağı çözüb açdıqda həq-taalanın əmriylə gözlərinə sihhət gəlüb əvvəlki kibi olmuş. Xeyir dərdimənd gözlərinə sihhət gəlüb təkrar dünyayı gördükdə, yüzin yerlərə sürüb həq-taalaya şükürlər edüb, qızı və babasına dualar eylədi və cümləsi Xeyirin gözi iyü olduğundan şad olub məsrur oldular.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Qız gördi kim, Xeyir bir tazə gözəl cavandır, aşiq olub məhəbbət eylədi. Xeyir də görçi qızın yüzini görməmişdi, zira gözi iyu olduqdan sonra yanına gəldikcə yüz örtüb göstərməzdi. Lakin tatlu sözini eşidüb və buyi-busi yerində olub kəndunin üstinə pərvanə olduğundan ol da qıza məhəbbət eylədi.

Pəs, çıünki Xeyirin gözi iyu oldu, hər gün türkmanla gedüb qoyunu və sair tavarları otladub qurt şərindən və qeyri yırtıcıdan saqınub çobanlıq edərdi. Türkman Xeyirin böylə gedüb böylə çapık xidmətkar olduğunu gördikdə canla məhəbbət edüb cümlə əşyasını Xeyirə təslim edüb, kəndi oturub aləmində oldu. Xeyir də bipərva hər sabah səhraya gedüb heyvanları oturub axşam olduqda obaya gəlüb türkmanın hərəminə girər-çıqardı.

Bir  gün türkman Xeyirdən, ol biyabanda sənin gözini kim çıqardı, dedikdə Xeyir də neçə yoldaş olub Şər ilə yola çıqdıqlarını və başından keçən macarayi bir-bir bəyan eylədikdə, türkman ziyadə acıyub Allah-Allah, dünyada böylə məlun adam olurmı imiş, ah sana nə yavvuz zülüm olmuş deyüb dəxi ziyadə hörmətlər eylədi və qızı da Xeyirə könlündən məhəbbət edüb daima xidmətlər eylərdi. Lakin genə yüzini göstərməyüb niqabla görinürdi. Xeyir də qıza bin canila aşiq olub məftun olmuşdi. Bu hal üzərə bir zaman keçüb qızın eşqiyəl heyran gəzərkən bir gün fikir eylədi ki, bən bir fəqir xidmətkar olub bunların yanında keçinürkən, ehtimaldır ki, bu qızı bana verələr. Zira, böylə gözəl qızı talib olan kimsədən cahan malların istərlər. Pəs, bana münasib budur ki, bu sevdadan fərağət edüb yanlarından ayrılub vilayətimə gedəyim və anda mülk və əmlakımı cümlə nəqd edəyim. Tanrı öldürməyüb yenə bu tərəflərə gəlmək olursa, bəlkə ol zamanda razı olub verələr, deyüğ bir qaç gün bu fikirlərdə olurdu. Axır bir gecə səhradan gəlüb cümləsi bir yerə dərildiklərində Xeyir türkmana dedi, ey bənim qəriblərə mərhəmət edən babacığım, tanrı taala səndən razı



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

olsun ki, gözlərimi genə yerinə sən səbəb oldun və bən həlak olub getmiş ikən tazə Canı sənin əlindən buldum və bunca zamandır ki, sənin nemətlərinlə keçinüb qapunda duraram. Bunların şükrini etmək bir vchlə əlimdən gəlməz və dünyada Ömrüm olduqca sana xidmət eyləsəm bu nemətlərin şükri dükənməz. Həman cənabi-həq-taala kəndi lütfü kərərəmindən sana dünya və axirətdə hesaba gəlməz xeyirlər verə. Neçə zamandır ki, vilayətimdən çıqub qürbətə düşdüm və hala lütfindən rica edirəm ki, bana izin verəsiz ki, vilayətimə gedəm və ömrüm oldunca dünya-xeyrinə və zikri-cəmilinə məşğul olam və əgər tanrı taala öldürməyüb bir daxı bu tərəflərə salarsa yenə gəlüb sizinlə görüşəvüz. Sizdən dəxi rica edirəm ki, bəni könüldən çıqarmayasız və dua-etmək haqqını halal edüb yollayasız.

Çünki türkmən və sair evdə olanlar Xeyirin ayrılmağa icazət istədügini eşitdilər, cümlə bir ağuzdan fəryadu fəğanlar hay-hay edüb ağlaşdılar. Zira, neçə zamandan bərü bir yerdə olub alışdıqlarından ayrılduğına razı olmayub ələm çəkdilər. Xeyir də bunların ağladuqlarını görüb böylə ağlayub nagah ortalıqda əzim müsibət olub fəğanlar eylədilər.

Andan sonra türkman ortalığı tənhalayub Xeyiri yanına çağırdı və nəsihət edüb dedi ki, ey oğul, vilayətinə gedüb nə işlərsin, məqsud dünyada bir qaç gün keçinmək olduqdan sonra, bunda bizimlə belə keçinüb getsən olmazmı. Allah taalaya həmd olsun, iştə bənim bu qədər malım var, əsla cahanda bir şeyə ehtiyacım yoqdur və övlad və əsnabdan ancaq bir qızım vardır ki, gözəllikdə dünyada misli bulunmaz. Əgər bizim yanımızda qalmağa razı olusan, həqqin əmri malım varsa cümlə əlinə təslim edüb bən də cahanda olduqca sizin aranızda keçinüb gedəyim, dedi.

Çünki Xeyir bu sözi eşitdi, şad olub məsrur oldu. Körkdə allahdan istədügi iki göz idi, ol da hasil oldu. Pəs, cənabi-həqqə çoq şükürlər



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

edüb və türkmanın əlini öpüb bin canilə yanında qalmağa razı oldu. Andan sonra rahət ilə yatub səfadə oldular.

Çünki sabah olub cahan rövşən oldu. Türkman yerindən qalqub qızı nigah edüb Xeyirə verdi. Bir mübarək vəqtdə iki aşiq bir yerə gəlüb bir-birindən murad alub, murad verdilər və əski qəmləri unudub iki başdan zövq və səfayə başladılar.

Andan sonra türkman nə qədər heyvanatı varsa cümlə Xeyirə təslim eylədi. Həq-taala Xeyirin malına bərəkat verüb az zamanın içində malı-rizqi bir ol qədər dəxi olub daima lətif, çayırlıq, çəmənli, aqar sulu yerlərdə qonub-köçüb aləmdə oldular.

Bir gün yolları müqəddimən kəndi gözünə əlac olan ağac olduğu yerə uğradıqda türkman Xeyirə göstərüb sənin gözünə əlac eylədügimiz ağac budur, dedikdə, Xeyir gördi kim, hər bir dalı bir gəmi dirəginə bənzər bir böyük kölgəlü ağacdır. Üstündə qayət gözəl yapraqları vardır. Həman dəm bəlkə bir vəqtdə lazım olur deyüb, hər bir dalından vafir yapraq alub hifz eylədi və ol yerdən köçüb bir qeyri yerə getdilər. Bu hal üzərə neçə zaman keçüb, bir gün türkmanın ömüri axır olub axirətə getdi. Bir qaç gün yas və matəmlər edüb, bə'də yenə kəndi işlərinə məşğul oldular.

Günlərdə bir gün Xeyirin yolu bir şəhərə uğrayub, varayum şu şəhəri görəyim, deyüb sürüb şəhər gəldi və bir az əglənüb eşitdi ki, padşahın qayətdə gözəl bir qızı var imiş. lakin cinlər şərgil olub tutarlıq mərəzinə mübtəla imiş. vafir əlac eyləmişlər, lakin heç birisi də fayda verməyüb, əsla bir çarə bulamamışlar. Padşah da vilayət-vilayət adamlar göndərüb, hər nərədə bir ustad həkim, yaxud cini-dəvət, nüsxə yazar adam varsa hər birini götürtmiş olmamış, naçar olub dəllal çağırtmış ki, hər kim ki, qızını bir dərman edərsə qızımı ana verüb kəndimə damad edərəm və cahan mallarını verüb bir ali mərtəbəyə irkürəyəm. Lakin qızı gördikdən sonra əlac fayda verməzsə başını kəsüb həlak edərəm,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

dedikdə neçələr bu sevda ilə can və başdan olmuşlar və yenə bir çarə bulunmayub, hala ol üzərə qalmış.

Xeyir, çünki xəlqdən bu xəbəri eşitdi, xeyir ola, deyüb padşah sarayına gəlüb qapıçılara, bən padşahın qızına əlac edüb ol mərəzi inşallah taala gedərərəm. Lakin bəndi qız təməi olmayub həman həsbi əlac edərəm. Sihhət bulduqdan bana kəndi vilayətimə getməgə izin verüb, qızı kəndilər murad eylədikləri kimsəyə versünlər, dedi. Qapuçılar da bu xəbəri padşaha elam edüb, padşahım, qapuya bir adam gəlüb şöylə deyür, fərmanınız nədir, dedilər. Padşah da, gətürin görəgim, deyüb Xeyiri hüzuruna götürdilər. Yer öpüb padşaha dua eylədikdə padşah, adın nədir, deyü sorduqda, cavab verüb Xeyirdir, dedi. Padşah bu adı fal tutub, ümidimiz oldur ki, adın Xeyir olduğu kibi işin də xeyir ola, deyüb buyurdu kim, xadimlər Xeyiri hərəmə götürələr.

Pəs, Xeyir çünki hərəmə vardı, gördi kim, qız ay parəsinə bənzər. Lakin yeməkdən-içməkdən kəsilüb hilalə dönmüş. Həman dəm ld ağac yaprağını hazırlamış idi, dögüb və suyunu sıqub qıza içürdi. İçdügi kibi bədəninə rahət gəlüb uyquya vardı. Xeyir tışraya çıqub atasına vardı. Pəs, qız neçə zamandan bəru uyqusuz olmağın üç gün-üç gecə uyuyub, andan sonra qalqdı, gördi kim, vücudunda olan ağırlıq gedüb, könli-gözi açılmış, yemək istədi. Padşaha müjdələr gedüb, çoq şükürlər, banunun xəstəligi dəf oldu, dediklərində padşah şad olub hərəmə vardı, gördi kim, nazəninə sihhət gəlmiş və bəni-bənizi yerinə gəlüb, güd yüzi açılmış, cənabi-həqqə həmd olmaq içün qurbanlar kəsüb məxrur oldu və yenə tışraya çıqub təxtə oturdu. Padşah da getdügi kibi, nigari-nazənin bir xadimə dedi ki, bən hicab edüb padşaha kəndim deyəmədim. Sən var bənim tərəfimdən söylə ki, bunca zamandan bəri şərt-hər kim qızına əlac edərsə kəndumə damad edəyim və əgər görüb də əlac edəməzsə başını kəsərəm, buyurub, bu əhd üzərə neçə biçarələri aldarub həlak eylədilər idi. Pəs, şimdi əlac edən adam haqqında niçün



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

əhdə vəfa buyurmazlar, dedi. Xadim də gəlüb bu xəbəri padşaha dedi. Padşahdır, baş üstünə, bənim də fikirimdən keçən bu idi, deyüb buyurdu kim, Xeyiri izzətlə dəvət edələr. Bir qaç adam varub Xeyiri padşah hüzuruna gətirdilər.

Padşahdır, Xeyirə təzimlər edüb, yerindən qalqub yanına gəldialdı və buyurdu kim, kəndi xələtlərindən bir xələt götürüb geydürələr və üləmasını dəvət edüb, qızı Xeyirə nigah edüb bir məxsus saray döşətdilər və Xeyiri xədəm və həşəm ilə kəndi sarayına gətürüb neçə gün dügünlər olub altunərəbə, gümüş dökər, ləkli qoçı ilə padşahın qızını Xeyirin sarayına götürüb bir mübarək vəqtdə içərü qoyub ikisi bir yerə gəlüb aləmdə oldular və padşah tərəfindən Xeyirə təğənnilər və iltifatlar olunub haq içində şanu şövkətlər buldu və padşahın bir vəziri var idi, anında qayətdə gözəl bir qızı olub, lakin gözünə afət irişüb kor olmuş idi. Xeyirdən niyaz edüb şöylə bir gözəl qızım lütf edüb gözinə bir əlac edin, sizə verəyim, deyüb ol qıza da əlac edüb, gözi açılub, anı da Xeyirə verdilər.

Xeyirdir, üç qızı bir yerə cəm edüb, hər gecə biriylə aləm edüb zövqü səfadə oldular və xeyirə də cəmi xəlq məhəbbətlər ağaz və ikram edərlərdi. Bu hal üzərə neçə zamanlar keçüb günlərdə bir gün padşah axirətə getməklə cümlə xəlq ittifaq edüb Xeyiri padşah eylədilər. Xeyir də bunlara ədlü dad edüb cümlə xəlqi kəndidçn xoşnud eylədi.

Günlərdə bir gün binub bağçasına gedərkən nagah yolda Şərə rast gəlüb dedi kim, durmadan bir cühud ilə alış-veriş eylər. Pəs, Xeyir yanında olanlara, şu hərifi tutub ardımca bağçaya gətürün, deyü fərman edüb bağçaya varduqda əmiri üzərə Şəri gətürdilər. Şərin isə əsla Xeyirdən xəbəri yoq, ol səhrada susuz ölüb getmiş sanurdı. Bipərva gəlüb, yer öpüb padşaha dualar eylədi. Xeyirdir, Şərə adın nədir deyü sorduqda Şər cavab Bişrdir (Bəşirdir) dedi.xeyir, adın nə isə doğrusun söylə, yoxsa səni öldürürəm, dedi. Pəs, Şər adım hüzuri-izzətinizə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

bəyan olunandır, istərsəniz etimad buyurun, istərsəniz öldürün dedikdə Xeyir, ey haramzadə, sənin adın Şər degilmidir, filan yerdə bir içim su içün bənim iki gözimi çıqarub nəm varsa alub, bəni həlak olsun deyü, burağub qaçub getmədinmi. İştə tanrı taala bəni ol bəladan xilas edüb padşah eylədi. Şimdi necəsin, dedikdə Şər Xeyir olduğunu bilüb yüzini yerlərə sürüb ağladı və bən kimlik eylədimsə adıma münasib iş işlədim, sizin ismi-şərifiniz Xeyirdir, pəs xeyrinizə bən azad buyurun, dedikdə Xeyirdə suçundan keçüb əfv eylədi. Şər şad olub sürurla padşah hüzurundan çıqdıqda, padşahın adamlarından bir əli xeyirli kimsə, padşahımız bir kərimi-dövlətlüdir, sana mərhəmət edüb əfv eylədisə dəxi, sən şərsən, sənin vücudun dünyadan gedirmək gərəkdir, deyüb hərifin boynunu urdi və qoynunda bir kisə içində ol Xeyirdən alduğı iki danə ləl bulunub padşah hüzurinə götürüb Şəri öldürdügini dedikdə, padşah da, cəzasını bulmuş, ləl sənin olsun deyüb ol kimsəyə bağışladı və Xeyir neçə zaman cahanda padşahlıq edüb, xeyirlə anıldı.

Çin padşahın qızı hekayəyi tamam eylədikdə Bəhram şah afərin deyüb qoynuna aldı.

## Bu məclis Bəhram şah Cümə güni Bəyaz köşkə gedüb Kəsrinin qızı hekayə söylədügidir

Çünki gecənin zülməti cahandan getməgə başlayub sabah yeri ağardı. Bəhram şah bəyazlar geyüb Bəyaz köşkə rəvan oldu. Axşamadək eyşü nuşlar edüb neçə yüzdən zövqü aləmlər eylədi. Çünki axşam oldu, Bəhram şah Kəsrinin qızına bir hekayə söylə dedikdə, nazənindir, ibtida padşaha dualar edüb, andan sonra hekayəyə başlayub hezar şiv əvə nailə dedi ki:

Bir bazərganın çəngi qızlar ilə olan macəranın hekayəsidir.

Anam, cariyəniz ki, ruzigar görmüş bir ixtiyar xatun idi, hekayət



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

edərdi ki, kəndulər ki, bir yildə doğub, bir yerdə böyüdügümüz xatunlardan bir xatun var idi. Daxı qızlığımız çağı və tazəligimiz həngamında bir gecə bəni məhəlləmiz qızlarından bir qaç qızla oyuna dəvət edüb, varub müsafir olduq və cümləmiz bir yerə gəlüb gülüb oynamaq, axşam olduqda bizə dürlü-dürlü ləziz təamlar çəküb yedikdən sonra oturub biri-birimizlə bilməcələr söyləşüb, lətifələr aydaşdik. Qış gecələrindən biri uzun gecə olmağla, bir zamandan sonra lətif halvalarla təbəq-təbəq hərzələr gətürüb yendikdən sonra hər birimiz birər məsəl söyləmək üzərə ittifaq edüb, içimizdə bir şux qız var idi ki, sözi qayətdə gözəl bir işvəkar olub lətifə eylədikcə hər birimiz gülməkdən keçirərdi. Növbət ana gəldikdə aşiqanə zikr olunan bazərgan hekayəsinə başlayub dedi ki, bir zamanda bir tazə cavan bazərgan var idi ki, hünərli və mərifətli olub sözi şəkərdən tatlı, gözəllikdə xoc Yusifi-sani idi. Bu tazəliklə belə əsla harama əl uzatmayub daima pak və pakizə cənabi-həqqin lütfinə müstəğrəq olub dəxi bir nazənin ilə çift olmayub erkən (ərkən) idi. Şəhərdən tışra babasından qalma bir bağı var idi ki, sanki cənnətdən bir para olub toprağı ənbər, daşı gövhər, havası gözəl tərzi bi-bədəl, içində aqar sular, hər tərəfi yemiş ağaclarıyla dopdolu bir ziba bağça idi ki, şəhər dövlətlüləri ol bağa arzular edüb, ah filanın bağı bənim olsa idi artıq dünyada qeyri bağ və bağça neylərdim derlərdi.

Pəs, bazərgandır, həftədə bir gün ol bağa varub bir az içində gəzinüb yemişlərdən yeyüb əglənürdi və bağbana saqın seyirçidən kimsəyə bağa uğratma, Dey möhkəm tənbihlər eylədi.

Günlərdə bir gün bazərkan bağa varub gördi kim, qapusı möhkəm qapanub, içində sazəndələrin avazı aləmi tutub, bir çürinazənin qızlar bağça içinə vəlvələ burağub, kimi bülbüllər kibi fəryadə gəlüb və kimi də zülfini zülfi-sünbül kibi pərişan edüb, rəqsə girüb zövq edərlər. Ortalıqda bir qiyamət qopmuş ki, təbir olunmaz. Bağban biçarə də bu tamaşayı



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

görüb, ha əfəndimdən yeyəcəgim bir kötək degilmi,adam bu sözbət içün canını fəda edər, deyüb nazəninlər şövqinə peşəgər olub damənin dər-miyan eyləmiş və mahparələr əlindən qaç cam şərabi-ərğəvanani içüb, məst olub, əfəndim bəni dəxi on yilədək azad etməzsə də eyləməsün. Azadlıq bulunur, amma sizin kibi qadıncıqlar hər zaman bulunmaz, deyüb ortalıqda alub-verüb bir guşədə yıqılmış.

Bazərgandır, bu hayü huyi eşitdikdə iyü tamaşa, bunun əsli nə ola, dəllak qızlar bizim bağçaya təfərrücəmi gəldilər. Zira nə qədər qul var isə həp buna kibi, deyüb bir-iki kərə, bağçaban, deyü çağırdı. Heç gəlür-gedər yoq. Atəş olub şu məlun bu yaramazları bağçaya doldurub da kəndi cəhənnəmə getmiş ola, deyü əlinə bir daş alub qapuya bir qaç kərrə urdu, yenə səs gəlmədi. Bazərgandır, bu hayu huya birər qulaq urub dinlədi. Gedərək tazəlik həvası cuşü xüruşə gəlüb qəzəbi gedüb bunları görmək sevdasına düşüb bağın ətrafını dolaşub bir girəcək yer araladı. Çarə olub bir gedək bulamadı. Gördi ki, olmaz, həman bağın ətrafında olan calıyı söküb içərü girdi. Məgər qızlar bağa girdikdə bir-iki qızı gözçi qoyub, bir yerdən fənayı ələ verüb basılmayalım demişlər. Qızın birisi bazərganın divarı yarub içərü girdügini gördükdə, gəlin qızlar, bağa xırsız girdi, deyü çağırdıqda, bir qaç qızdır, səgirdüb, kimi yasəmən çubuğiylə və kimi gül dəstəsiylə bazərgana girişdilər. Bazərgandır, bəhi, qızlar, bən xırsuz degiləm, bağ sahibiyəm, dedikdə baqa-baqa xırsızlığından qeyri tələbəsligi də var deyüb dərdiməndi yumruğilə və çimdikdə tamam eylədilər. Axır bir-iki söz anlıyanarı, bə canım xırsız nərədən girmiş, deyü qızlar nərəyə girmişlər ki, görünməzlər, varalım baqalım dediklərində, gördilər ki, hərif, bağ sahibiyəm deyür. Bağın nişanların sordular, cavab verdikdə hər biri əlinə-ayağına düşüb, eylədikləri küstaxlıqdan etizar eylədilər, vallah əfəndim məzur olsun, sizin kim olduğunuzu bilməyüb, yabançı sandıq, bilməzliklə bir iş eylədik, lütf edüb bizə xatırcağın qalmasun



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

dediklərində, bazərgandır, nəzər edüb gödi kim, bir alay simin bədən mahparələrdir, yürəgi oynayub, könli çəküb cürmlərini əfv eylədi.

Qızlardır, həman dəm Xacə girdügi yeri çalı və çirpi ilə qalayub möhkəm etdilər və dedilər ki, biz şəhərin zürəfalarından birər ülfəiə cəngi qızlarız.. bu gördük ki, həva gözəl, şəhərdən tışra bir yerə getməgə qöv edüb bir yerə gəldük və tışra çıqub yer olmaq hesabiylə bu bağa gəlüb, bağçaban sazlarımız gördikdə, yoq-yoq, bunda olmaz, əfəndi dögər deyü bizi içərü qomayub ənvai üzür və bəhanə eylədikdə, yalvarub, kimimiz baba, kimimiz ağa deyüb, gülüm, sünbülüi bağçaban çələbi, deyü niyaz edüb, altından girüb, üstündən çıqdıq. Xatirini xoş edüb bağa girdik. Məgər dərdimənd bir ülfətə can imiş. bizimlə alışub, söhbətlər edüb, cuşü xüruşə gəldi və kəndi ahənginə görə türnilər irləyüb qışmərlik eylədi. Hala şu ağac dibində xabi-nazdədir, deyüb bazərgana göstərdilər. Bazərgan gördi kim, bağçaban məsti-layəqəl yatur. Qəzəbə gəlüb murad eylədi ki, bir dəpmə urub qaldura. Qızlardır, niyaz edüb, əfəndim, lütf eylə, təhəvvürə gəlmək bin yilin bir başıdır. Qoyun fəqir sizin əyyami-dövlətinizdə bir gün rahət eyləsün, deyüb bazərganın qoltğuna girdilər və buyurun, bu gün bizimlə sözbət edüb, içimizdən hər qanğımıza meyl edərsiniz sizin olsun. Bir tənha guşəyə gətürüb muradınız üzərə səfasını sürün, dedilər.

Bazərganın ömründə bu məqulə qəbahətə əl urduğu yoğikən qızların dadlı sözləriylə şeytan azdırub bin caniylə bu qövlə razı olub qızlarla məclisə gəldi. Bir az oturub, kimi sazını ələ alub, kimi rəqsə şirinkarlıqlar edüb bazərganın səlahı ocağına soqdular.

Bir zamandan sonra qalqub sərvi-xiram kibi bağçanın içini gəzməgə başladılar. Gedərək mərmərdən yapılmış bir hovuz var idi ki, su ilə dopdolu ayinə kibi mücəlla idi. Qızlardır, ol hovuzu gördükləri kibi, hərarətdən gövdələri dərləmişdi. Həman dəm bazərganın gözi qarşu bir-bir soyunub, əbrişim futələr tutanub, hovuza girdilər və gümüş tən-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

lərini yuyub sürmə saçlarını dağışdılar və cilvələr edüb biri-birinə saqın qız, yilan, deyü lətifə edəşdilər.

Bazərgandır, bunları seyr eylədikcə səbrü qərarı tarumar olub ditrəməgə başladı və hər birinə baqdıqca bir yüzdən məftun olub içlərindən qanqısını ixtiyar edəcəgini uda bilməyüb, şaşub qaldı. Əkərçi cümləsi həp biri-birindən əla olub şu-şöylə deyəcək yerləri yoğdı. Lakin içlərində bir şux və ştvəkar var idi i, cümləsinin mumtabı olub sərvinaz, işvəbaz, fitneyi-cahan və əyyareyi-dövran idi ki, dürlü-dürlü işvələrlə bazərganın könlini qeyrilərdən ziyadə oğurlayub kəndu tərəfinə sular kibi aqıtmış idi.

Çünki qızlar hovuzdan tışra çıqdılar, libaslarını geyüb gəlüb bazərganla bir yerə oturdular və söhbətlər edüb şəqalər eylədilər. Qızlar görçi bazərganın açmazdan çəngiyə sıq-sıq göz quyruğiylə baqduğundan murad yerini anladılar. Lakin bilməzligə urub bazərgana dedilər ki, əfəndim, sultanım, açmazdan kimə meyl eylədiniz isə işarət buyurun, ta ki, anı sizinlə bir tənha yerə götürəvüz, siz də səfadə olunuz, deyü ağızını aradıqlarında bazərganın sözə qüdrəti olmayub həsrət gözi ilə çəngiyə baqdıqda, həman dəm bazərganın qoltuğuna girüb, buyurun deyü qaldırdılar və çəngiyə də qalq qız, səni qoçaya verəlim, deyüb ikisini bir yerə götürüb çalqılarla təxtədən yapılmış bir kiçik köşkə götürüb qapuyi üzərlərinə divar eylədilər.

Bazərgandır, çəngi ilə tənha qaldıqda, bənim ömrüm, adın nədir, deyü sorub, qız da Bəxtiyardır, deyüb birəz ortalıq yerdə iki tərəfdən biri-birinə məhəbbətlər ərz edüb şəftalunın biri bir pula gedərək, bini bir pula olduqda bazərgan şərmü hicabı ardına burağub cuşü xüruşa gəldi və bəxtim yar oldu, deyüb çənginin zülfinə sarılub, belindən qavrayub altına aldı və murad eylədi ki mumnı şəmdan məhəbbətə diküm çənginin gözin aydın edə.

Bazərgan bir qoçlu-qüvvətlü şahbaz yigit olub zər ilə qızın üstünə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

gəldikdə, köşk məgər köhnə olmağla bazərganın həmləsinə taqət götürməyüb, həman bir tərəfi külədərədək yıqılub, bazərganla çəngi şallaq-mallaq bir tərəfə düşdilər. Bazərgan dərdimənd hicabından bir canibə qaçub, çəngi də qəm ilə qalqub yoldaşları yanına varub, qaşlarını çatub çəngini əlinə alub, dərdli-dərdli nalələr edüb fəraq türkilərini irləyüb gözlərindən incu danəsi kibi yaşlar aqıtdı.

Qızlar çənginin bu matəmini gördüklərində, bə qız, nə qara qəzayə uğradın, söylə görəlim bazərgan çələbiyi neylədin, yürəgimizi yaqma, dedilərində, çəngidir, ah edüb, dostlarım, bənim başıma gələn hallar düşmənlər başına gəlməsün. Yerlərə keçəcək köşk yıqılub çələbimdən ayrıldım, deyü hay-hay edüb ağlamağa başladı.

Qızlardır, acıyub, vah-vah, nə yavuz heyflər olmuş, canım, deyü təsəllütlər verdilər. Bir qaçı qalqub bazərgan dərdiməndi məhzun bir ağac kölgəsində bulub, öylə olur əfəndim, aləm çəkmin, biz sizin mübarək xatiriniz içün bu gecə evlərimizə getməyəlim və çəngi ilə sultanımı bir yerə götürüb bir qına gecəsi eyləriz, deyüb könlüni ələ aldılar və sazlar çalub, sözbətlər eylədilər.

Çünki axşam olub aləm əğyardan xəli oldu, həman dəm qızlar çənginin əlinə yapışub bazərgana verdilər və səfada olun, deyüb kəndiləri çəkilüb bir güşədə məclis qurub oturdular. Aşiq və məşuq bir ağac dibinə gəlüb bir-birindən həsrətlə şəftalular aldılar. Bazərgan dərdiməndin isə gözi qızub, əsla səbrü qərara macalı qalmamış idi. Həman dəm çənginin belinə sarılub altına aldı və qəsd eylədi ki, canıcanı qatub, atub-tuta. Məgər ağac üstündə bir böyük kədi var imiş. ağacın bir dalında gözi bir quşa rast gəlincə yab-yab gəlüb bir uğurdan quşun üstünə atılduğı kibi kəndusini zəbt edəməyüb dalın üstündən bazərganla çənginin üstünə düşdükdə, bunlardır, ürküşüb bazərgan bir tərəfə qaçub, qız da yoldaşlarına gedər. Varub məclisə oturub, yanub-yaqılub həsrət türkilərinə başladıqda, qızlardır, bə-qız yenə nə bəlayə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

uğradın, dediklərində çəngi, ah, zalıma qara kədi, allahdan bulsun, bəni uçuqlu eylədi. Sabah şəhərə vardıqda boyumca bir nüsxə yazdırayım, deyüb başına gələn halı bəyan (eylədi).

Qızlardır, bəhi qız, öylə ulu ağaclar təkin degildir, niçün oraya vardınız, qeyri yer yoqmiydi. Cinmidir, pərimidir sizə kədi surətində görünmiş. İyü ki, çarılmamışsız, deyüb bazərgan çələbiyi aradılar. Gördilər kim, süd tökmüş kədi bir guşəyə girmiş. Gəl, əfəndim, canım, deyüb qoltuğuna girdilər. Bəhi canım, böylə şahbaz, dilavər ikən niçün olur-olmaz götürdidən qorqub qaçarsız.

Təkrar ikisini bir yerə götürüb kəndilərinə, məclislərinə getdilər. Bu kərədir, bazərganla çəngi bağçabanın qolbəsi dibinə gəlüb, bundan iyü tənha yer olmaz, deyüb oturdular. Bazərgan dərdimənd isə iki kərədir nigarı əldən aldırmağın səbrü qərarə macalı qalmayub taqəti taq olmuşidi. Həman dəm, fürsət qənimət dir, deyüb istədi ki, bülbülini gülə qondura. Məgər bağçaban bir qaç danə su qabağını bir ipə düzüb bir sırığa keçirmiş idi. Ol dəmdə bir kəsəgən gəlüb durmadan ipini kəsirmiş. Bazərgan qızla şəkəri südə qatacaq məhəldə həman dəm yuqarudan qabaqlar bir ağurdan boşanub, hər biri davəl kibi sədalar verüb, ortalığa vəlvələ düşdikdə, bunlardır, təkrar ürküşüb bazərgan, heç degildir, varsa su başıyla əsən başı bağçayı davəllə basub. Daşa tutdular. Necə olur hal, nə olmaz yerdə yaqayı ələ verdik, yarın xəlqə nə yüzlə çıqayım, deyüb yalın ayaq, başı qaba qaçub getdi. Çəngi də bin dürlü xofla yoldaşları yanına varub birəz sövləyüb gördi kim, ardından gəlür-gedər yoq, ahu ahlar edüb fələkdən şikayət türkilərinə başlayub fəğanlar eylədikdə, qızlardır, nə bəlayə uğradınız, yenə aranızdan qara kədimi keçdi, deyü sorduqlarında çəngi, başımıza daşlarmı yağdı, bilməm nə qiyamət qopdu, dedikdə pəs qızlardır, məclisdən qalqub varub, heyf oldu, deyü həqiqət halı təcəssis eylədilər və su qabacı olduğunu görüb anladılar.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bazərganı bulub götürüb, sizlər səfada olub əsla subaşı qorqusunu xatirə götürməniz. Biz bağın qapusını bəkləyüb gözçilik edəlim və hər birimiz bir yola durub kəmali-mərtəbə gözədəlim, dedilər. Bazərgan təkrar vüsləti-canan arzusuna düşüb çəngi ilə əl-ələ verüb bir loşaya getdilər. Bağın bir tərəfində bir sıq yasəmənlik var idi. Anın altına gəlüb, bundan iyü yer olmaz, deyüb qərar eylədilər və biri-birinə sarılub sarmaşdılar. Bazərgan biçarənin isə başına afət uçurumla qum kibi kəlməgin üç kərədir ki, nigarını əldən aldırub, artıq səbrü qərarı qalmayub Məcnunə dönmişdi. Həman dəm, bənim sərvi-rəvanım, deyü öpüşəcək məhəldə, məgər bağın bir guşəsində birəz tülkilər şikar içün pusuya girüb dururkən üzərlərinə bir qocaman qurd çıqa gəlüb bunları qat-ən edüb bağın içi dörd dolaşdırarkən, həman yasəmənlik kənarından bazərganın üstünə bir süri tülkilərlə, bir qocaman qurd çıqa gəlüb, bazərgan dərdiməndir, buncılayın bir süri əsgər kəndilərini şəbixun eylədiklərini gördikdə, əqli başından gedüb çadırı pozub fəryad eylədi.

Bəkçi olan qızlardır, qarşu varub, əfəndim, sultanım, yenə nə tez gəldiniz, dediklərində, xacədir, qəzəbə gəlüb, ey nabakarlar, axşamdan bərü bana bir qızı verüb, səfada olun, deyüb də yenə əl altından dürlü-dürlü rənglər eyləyüb bəni canımdan bezar eylədiniz, dedikdə hər biri yəminlər etdilər ki, əsla bir şeydən xəbərimiz yoqdur. Bizə böylə böhtan eyləmə, deyü niyazlar eylədilər. Bazərgan da qızların suçı olmadığını bilüb əfv eylədi.

Pəs, bazərgana həq-taala həzrətlərindən hidayət irişüb, axşamdan bərü işi rast gəlmədügini tərəfi-həq cəllü əladan bilüb, bunca zamandan bərü saleh və dindar ikən hala şeytana uyub qəsd eylədügi işin olmaması canibi-həq izzi-şanədən tənbih olduğunu anlayub tövbə və istiğfar eylədi və qızlara, bən böylə adəmisi degiləm. Bəni kəndi halıma qoyub səfada olun. İnşallah tanrı yarın şəhərə vardıqda çəngiyi nigah ilə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

alub kəndumə xatun edinəyim və halal yolundan ikimiz bir yerə gələlim, dedikdə qızların da xatirləri xoş olub, nə gözəl, dəxi əla, bərək səlahınıza, deyüb təhsinlər eyylədilər və sabahadək yatub rahət oldular.

Çünki sabah olub şəhərə gəldilər, bazərgandır, çəngiyi nigah edüb aldı. Aşıq və məşuq bir yerə gəlüb gecə bağda çəkdikləri qəmləri bir dəmdə havaya verüb, bir-birindən murad alub, murad verdilər.

Anlar muradına irmiş, sizlər də belə ravi hekayət olan işvəkar sözin təmam eylədi. Bəhram şahdır, təhsinlər edüb qoynuna alub sabahadək səfalar oldular.

**Xatimətül-kitab.** Bu hal üzərə Bəhram şah hər gün bir köşkə gedüb axşamadək sazəndə və çəngilərlə eyşü işrət edüb, axşam olduqda uyqusu gəlincəyədək birər hekayə dinlər idi və şövkəti yeddi iqlim, dörd guşəyə yayılub, cahan şahları əmrinə ram olub, xərac və xəzinə göndərərlərdi. Əgər biri növən müxalifət surətini göstərsə, həmin dəm üzərinə varub cəzasını verərdi və daima ədlü dad edüb, neçə zaman cahan xəlqi sayəsində rahət oldu. Aqibət bir gün bu cahani-fanidən köçüb axirətə getdi.

Qəd təmməl-kitab biövnillahil-məlikil-vəhhab, təmmə.

## KİTABİ-HEKAYƏTİ-FƏRHADİ-AŞİQ VƏ MƏŞUQ ŞİRİN

Gəl ey qəvvasi-dəryayi-bipayan,
Çıqar andan biədəd gövhərfişan.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bu dünya bir zən, bir məkkarədir,
Кimsəyə yoqdur vəfası, qəddarədir.
Sana nəql edəni bir xoş rəvayət,
Кim ümdən necə oldu hekayət.
An ol cümlədən Adəmü Həvva,
Bu dünyadə bil, anlar oldu əhya.
Fələk dövr eylədi neçə məhü sal,
Bəs anlar oldular ol dəmdə xoşhal.
Ləh zəryat no adamlar əyan gəlübdir,
İçlərində çoq nəbilər dəxi gəlmişdir.
Neçə vəşlər bu aləmdə, kəyumər oldu çün şah,
Fələk anın da ömrin etdi təbah.
Cahan təxtinə hakim oldu Cəmşid,
Anın da durdu tumarın bu Xurşid.
Fələk dövr ilə Zöhhak oldu, bil şah,
Ana əl vermədi dünya, ol agah.
Fələk təxtinə keçür çün Freydun
Ana da yüz yumadı çərxi-gərdun.
Əgər şahi-cahanı eysəm təqrir,
Qalur qıssa kitabım cümlə təqsir.

Raviyani-əxbar və naqilani-asar və hədis, silsileyi dər ruzigar; əlfazi-sükkərini və bəlağəti-ənbarin birlə şöylə rəvayət və bu yüzdən hekayət edüb aydırlar kim, zəmani-sabiqdə, diyari-Xorsadan, yəni Əcəm içimində bir müəzzəm şəhər var idi, bir xub yerdə vaqe olmuşdu, adına Ərmən derlərdi. Havası qayət lətif və ətrafı bağ və baxça və bustan və guli-gülistan idi və hər bağçanın içində bir  irmaq aqardı. O şəhri-əzimin cəvanibi-bəqiəsi döni səhra idi. Çayır, çəmən, sünbül və bənövşə, vəzərin, lalə nur idi və ol səhranın orta yerində bir irmağə əzm açub iki cənubi məsngah və təfərrücgah idi və ol şəhərin xəlqi cümlə yeməgə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

və içməgə və eynü zövq və səfayə mail idi və şəhərin nəzərin adamları gərək ər və gərək övrət ol qədər hüsni-camal və kamal sahibləri idi kim, yüzlərinə baqmağa gözlər qamaşurdı və bir övrətə nəzər edən kimsələri ol məhbubələrin zülfi kəməndi keysuyə cəzb edüb eşqi zəncirinə əsirbənd edərdi və ruxləri alına və qəmzeyi-titarına baqlanaraq əql və fikirlərin yəğmayə verərlər idi və böylə lətif və xod məhbubun zəruri zəncirinə  əsirbənd olurdu və ruxları alına yaqlanub əqli və fikri yəqmə olur idi və böylə lətif və xodlətiflərinin vücuduna baxan içində işgi görünür idi və fəsihlisan olub, fəsahət üzərə təkəllüm edərlərdi. Raviyi-şirinkəlam aydırlar, ol diyar padşahı bir övrət idi. Ol diyarlara ol övrət hökm edərdi. Məgər ol diyarda qayda bu idi ki, qaçan ol diyar padşahının ərkək oğlu qalmasa qızını yerinə təxtə keçirüb padşah edərlərdi. Əcnəbidən etməzlərdi və bu padşah olan övrətin isminə Məhminə banu derlərdi və bunun bir aqil vəziri var idi. Qayət elə əql və tədbir sahibləri idi və bu Məhminə banu qayət aqilə idi və rəiyyətində ədldad edüb bir kimsə-bir kimsəyə hökm etdüği yerlərdə zülm etməgə qadir degildi və anın əyyami-səltənətində cümlə xəlq asudəhal idilər və anın əsgəri bişümar idi və ətraf və əknafda olan padşahlar Məhminə şahdan xof üzrə olub hər sənə peşkəş və hədiyyələr göndərirlər idi və bu Məhminə banunun bir qarındaş qızı var idi, adına Şirin derlərdi.

Amma ki, gözəllikdə lanəzir, guya Züleyxa və Bəlqis idi. Çeşm-əbruları sehr edici, cadu kirpikləri şir, qaşları kəman, hər kim görsə bulmaz aman, hoqqə dəhən, dişləri dür, ləbləri mərcan, yanağı ərğəvan, saçı sünbül, şirin zəban, incə miyan, qaməti sərvi-rəvan, sultani-xuban və şahi-məhbuban, aşiqə qıyan, böylə bir afəti-dövran hənuz on üç-on dört yaşında, dövlət tacı başında və hüsni-camalü kamil, ol şəhərdə rayxan və dilbəri-rənalığı ətrafda olan işlimlərdə dastan olub söylənürdi və ol vəqtdə ona şerlər və nəzmlər inşa etmişlərdür:

Beyt:



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Dövrimədən bəri gəlmiş gül, böylə gözəl
İsmi Şirin, kəndü şirin, sazi şirin bir gözəl.

Bir gün Məhminə banu Şirin içün bir köşk və bir  qəsdi-dilxuşa bina etdirmək iurad eylədi. Zira, Məhminə banu Şirin ol qədər sevərdi ki, əsər yeldən və toğan gündən saqinur idi və diləməzdi ki, bir an və bir saət camalından məhrum ola. amma bu Məhminə banunun bir üstad memarıbaşısı var idi. Səyahət ilə Hin və Yəmən və Sind və Şam, İraq, İsfahan diyarlarını gəzüb ol məmləkətlərin ustad bənnalarına neçə yillər xizmət edüb, hər birindən bir dürlü sənət əxz edüb, tamam birfəndə mahir və bənna sənətdə mahir və kamil idi. Həndəs(ə) elmində yeddi var idi. Ol əsrdə sanı bulunmaz idi və kənduyə ol bir qaç şagird ögrətmişdi. Anlar da həndəs(ə) elmində kamil idilər.

Çün Məhminə banu ol memarbaşıya qatını gətürüb və bir taş-buqələmun yapdırmaq murad eylədim. Amma bir köşki-hərəmi-abadan bina etmək gərək. Səngi ədəbili əl-misl rəbi-məskunda andan cüri misli olmaya və  bir şahidə anın kibi bulunmaya, dedi. Həman memar başı Məhminə banudan bu cavabı aydub, ol dəm zəminpus edüb. Fərman padşahımın deyüb, təkrar zəminpus edincə ol dəm Məhminə banu əmr edüb bir iqlim geydürüb. Təkrar zəminpu edüb huzuri-şahdan çıqub, Məhminə banunun sarayi-işlərinin içində bir münasib bitr padşahı olub. Memarbaşı zəminpuş edüb, hüzuri-padşahından tışra çıqub, şagirdlərin başına cəm edüb, andan mühimmati-lazimısin hazır edüb, andan təhmini-məvzəin cəvanibi-ərbəsin dairanə madaq.

Bəyaz mərmər divar çevirüb və yeddi yerdən kəmrə qapular qoyub. Hər qapuları cümlə təxtası abu idi. Həlqələri altun və mismarları gümüşdən edüb, eylə müsənni qapular eylədikdə, nəzər edənlər heyran olurdu.

Andan sonra ol hərəmin şa orta yerində bina olunacaq köşkün təməlin safi siyah mərmərdən edüb. Çün təməl uca qədər boy çıqdıqda



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

kəmərlər aşub daş döşədilər. Bəyaz mərmərdən ol fərşin orta yerində bir müsənne köşk bina edüb, öylə bir köşk ki, misli görilmiş degil idi və ol köşk ki, yeddi yıldız tərtibi üzərinə yeddi qübbəyi eylədilər. Əvvəlki qübbeyi Ütaridə mənsüb safi al mədəndən bünyad etdilər. İkinci qübbeyi Zöhrəyə mənsub safi al mədəndən bünyad etdilər. Üçüncü qübbeyi Zühələ mənsub safi siyah mədəndən daşilə bünyad etdilər. Dördüncü qübbəyi Mərrixə mənsub safi qırmızı mədən daşdan eylədilər. Beşinci qubbəyi Şəmsə mənsub safi sarı mədən daşdan etdilər. Altıncı qübbəyi Qəmərə mənsub safi bəyaz mədən daşdan bünyad etdilər. Yeddinci qübbəyi Müştəriyə mənsub safi yaşıl mədən daşdan bünyad etdilər.

Amma ravi aydır: Ol köşkün memarı, müqəddəm zikr olunduğu üzərə elmi-hikmət və heyət və həndəs elmində ziyadə məharət olduğundan, fələkdə olan yeddi yıldızlar üzərinə, ol köşkün qübbəsindən hər yıldızın rövni üzərinə bünyad eylədi. Müridi izhari-sənət idi. Ol qübbələrin yıldız rəngi ol guşədə xizmət edən cariyələrinə və xizmətkarların geydügi libasları dəxi yıldızların rəngi üzərinə idi. Təzyin edüb Müştəri mənsub idi.

Ravi aydır: Çün köşklər tamam oldu, amma ol şəhərdə bir ustad nəqqaş var idi. Adına Behzad nəqqaş derlərdi. Nəqş etmədə ol qədər mahir və sənətdə kamil idi ki, Hindustan və Çin nəqqaşları nəqşinə pəsənd edərlər idi. Guya nəqşində sehr edərdi. Ol vəqtdə misli bulunmaz idi. Haman memarbaşı Behzad nəqqaşı çığırub, ol qəsri-aliyə nəqş eyləməsin ifadə edüb. Ol dəm Behzad nəqqaş bəsəri-çeşm deyüb cümlə ləvazimati-mühimmatın hazır etdilər. Andan Behzad gəlüb ol köşki-zibanın nəqşinə şüru eylədi. Məgər Behzad nəqqaşın bir oğlu var idi. İsminə Fərhad deyərlər idi. Hənuz on üç-on dört yaşına qədəm basmışdı və dövlət külahı başında idi. Öylə bir məhbubi-zaman idi ki, ol ətraflarda olan ellərdə Fərhadi-novcavan deyü dillər daşanı olmuşdu.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Qaməti mövzun, ruxları gulgün, tuti zəban, qaşı kəman, qəmzəsi xunfəşan, çeşmi-cazuvəşi sehr edici cəllad-əman, hüsnü cəmıl və kamalda guya Yusifi-sani idi. Bu Fərhad pədəri ilə nəqqaşdan nəqş elmin təhsil edüb, babasına bərabər olmağa yaqın olmuşdu və hər gün gəlüb pədəri ilə ol qəsri-dilguşalarda nəqş edərdi.

İttifaq bir gün ol diyarın padşahı Məhminə banu hənuz dəxi varu bol köşkləri seyran etmişdi. Andan Şirini belə alub, varu bol köşkləri seyr edüb, bəgənüb, qayət ustadana təhsin edüb, andan Behzada vafir altun verüb bəxş eylədi. Amma, Şirin ol köşkləri seyr edərək Behzad ilə oğlu Fərhadın nəqş etdügi yerə gəlüb, amma baqub gördü ki, bir cavan, bər mələksima və bir dilbəri-rəna ətrafına əsla baqmayub durma(dan) nəqş edər.

Ravi aydır: Şirin Fərhada bu hüsni-camalda görəcək döndi dayəsinə ayıtdı: - ey dayə, bu nəqş edən cavan mələkmidir, yoxsa pərimidir, mual eylədikdə, dayə ayıtdı: - ey banuyi-cahan, bu cavan Fərhad derlər, Behzad nəqqaşın cigərguşəsidir, deyüb xəbər verdi.

Həman ol saət Şirinin dərunindən eşq atəşi cuş edüb Fərhadə boş bögüründən uruldu. Nəzakət ilə Fərhadın yanına yanaşub, bir avuc altun əta və bəxş edüb, bu beyti oqudu.

Beyt:

Bilməm mələkmisən, cana, yoxsa firiştə,
Könül verdim sana bin canilə ol görüşdə -

deyü, çıxub getdi.

Amma Fərhad işinə müqəyyəd edən, kənduyə altun verən kim eydügin əsla bilmədi. Öylə zənn edin, altunu verən Məhminə banudur. Ol cəldən başın qaldurub bağmamışdı.

Çün Şirin məkanına gəldi, amma Fərhad eşqi dərdunində tutuşub alovlandı. Nə gecə gözlərinqə uyxular göründi və nə gündüz yeyər-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

içərdi. Daima Fərhadın xəyalı gözündən geşməz və sirin kimsəyə deməzdi və bu beyt oqurdu.

Beyt:

Bənim dərdi-dərdunim, aşiqi-zar olmayan bilməz,
Məhəbbət bir bəladır, giriftar olmayan bilməz -

deyüb gündən-günə saralub-soldu. Ol gül bəniz zəfərana döndü.

Amma bir gün Şirin Fərhadın eşqi dərdunində alovlanub, bütün vücudu tutuşub, qeyri bir dürlü səbr-məcalı olmayub, bir bəhanə edüb ol Fərhadın üzərində olan köşkün seyrinə gəlüb, bir nəzakət ilə bir gümüşdən limon Fərhad üzərinə atub, kəndi bir köşkə dəxi getdi. Amma buna kimsəyə vaqif olmadı. Amma dərdumənd Fərhad əlindən nəqş işləyüb dururkən üzərinə bir şey düşdi. Baqub gördi ki, bir gümüşdən limon. Əlinə alub qoqlayıcı ol alət məshi-la-əql olub kəndudən gedüb, bir zaman yatdı. Bir zamandan sonra kənduyə gəlüb gücilə kəndusin düşürüb fikrə vardı. Əya, bən öldümmi, cənnət girüb huri qızları və ya mələkmi gördüm, deyüb heyrətə varub əlinə şey almadı və əli işə varmadı. Əqli, fikri Şirində idi. Zira, Şirin və Məhminə banu ilə gəldklərində görməmişdi: Sonra görüb kəndusi limon ilə urub əqli başına gəldiqdən sonra Şirin kənduyə nəzakət ilə ərzi-camal edüb, məkanına gedüb Fərhad ol xəyalı ilə dəruni Şirinin atəşi-eşqi ilə suzanu züryan olub, gərçi hər güngəlüb babası Behzad ilə nəqş işlərdi. Gecə olduqda Şirin eşqilə nəzlərinə uyxu girməyüb sabahadək gecələri ahu vah ilə keçirirdi. Nə yeyər və nə də içərdi. Amma bu tərəfdən Şirin, eşqi genə tazələnüb, sehri-məcalı qalmayub, Fərhad əqlinə gəlüb, bir danə altun turunca düzüb, bir şeyi bəhanə edüb ol köşkə əzm edüb, atəşə gülistan arasında girüb, sərvi-xuraman kibi bir miqdar gülləri tamaşa edüb andan fürsət gözədüb, haman mahitab kibi gülistan arasından çıqub, Fərhadın xəbəri yoq, işinə müqəyyəd ikən ol əlindəki altun turuncu Fərhad üzərinə atub, gülistan arasına yürürdi və yeridi. Amma,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

dərdiməndə Fərhad ol turuncu gördügü kibi ol saət əqli başından gedüb, bir zamandan sonra, əqli başına gəlüb, ol turuncu əlinə alub, qeyri dərdimənd Fərhad, nə əlində olan nəqşi düşürüb almadı. Ol dəm Şirinin təsvirin yazub gecə-gündüz ol təsvirə nəzər edüb ağlardı. Zira, Şirinə əli irmaz, güci yetməz, həman məbrdən qeyri çarə yoq deyüb, daima ağlardı və iki gözlərindən yaş aqardı. Bir kimsəyə sirrin açmağa qorqurdu.

Amma Məhminə banu da Şirinə ol qədər məhəbbət etmişdi ki, bir an, bir saət yanında dur olmasa əqli başından gedərdi, gözi önündə bir an irməzdi və könlü gözi anda idi. Anınla əglənirdi və cümlə məmləkətin və şahlığın bütün Şirinə ismarlamışdı. Yanında bir sözü iki olmazdı və həm Məhminə banu ölsə yerinə Şirin padşah olurdu. Amma Şirin də ol qədər gözəlligə gəmüki içində iligi görünür idi və su içsə sim gərdanındə aqduğı görünürdi.

Amma ravi aydur: Bu Şirin daima ilik yerdi qeyri bir şey yeməz idi. Böylə bir nazik vücud idi. Amma, genə bir gün atəşi-eşqi tazələnüb, səbr adam edəməyüb, qalqub ol gülüstanda yapulan köşkə seyranə getdi. Tamam aləm əğyardan xoş olduğu məhəl gəzərkən bir bəhanə ilə Fərhada göründü. Dərdiməndə Fərhad baqub Şirini gördü. Amma yüzində niqab Şirin dəxi ol gül ruxları camal aftabından olan hicabın bir gəz rəf edüb ol gül ruxları üzərindən zahir və əyan olub Fərhad Şirinin ol gül camalın görüncə ziyasına təhəmmül edəməyüb, gözləri qamaşub əql dairəsindən çıqub, ol dəm zirü zəbər olub, düşüb bihuş oldu.

Həman Şirin ol arada səbrə təhəmmüli qalmayub, fürsəti qənimət bilüb Fərhadın o gül ruxlarından bir busəsin alub, andan bir kağıd yazub və bir dəsimal içinə bin altun qoyub Fərhadın qoynuna soqdu. Andan bir tərəfə rəvanə olub bu beyti oqudur:

Gözəlsin sevdigim, yoqdur bəhanə hidadinə
Budur məqsudim, ər görə bəni sən canə -



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

deyüb amma bir azdan Fərhadın əqli başına gəlüb, əqlini qoynuna soqdı. Gördü ki, bir dəstmal var, əcəb bun ə ola, deyüb açub gördü ki, içində bin altun var və bir kağıd var. Nəzər edüb baqub gördi bu beyti yazmış:

Bilməm mələkmisən Cana, yoxsa firiştə,
Bin canilə aşiq oldum səni ol görüşdə.

Həman dərdimənd Fərhad ol məhəldə bu beyti oqudu:

Bənim dərdə dərunimdən aşiqi-yar olmayan bilməz,
Məhəbbət bir bəladır ki, giriftar olmayan bilməz.

Həman aşiq Fərhad ol saət kəndi xanəsinə gəlüb, Şirinin təsvirinə nəzər edüb, ah-vanin ilə gecə-gündüz gözlərindən yaş yerinə qan rəvan edüb, Şirinin məhcəmalının eşqiylə yanub-yaqılub, sararub solmadı, Şirin qeyri namusı və arı tərk edüb, bir gün yenə gülistan varub, bir yerdə oturub ah-ayənin edüb bu beyti oqudu:

Əzizim şirinə düşdi,
Bu könül Şirinə düşdi.
Gözəllər qismət olduqda,
Fərhad Şirinə düşdi.

Həman dərdimənd Fərhad işlərikən bu sədayi guş edüb dört yanına baqub. Gülistanda Şirini gördi. Həman əlində olan işin buraqub bu beyti ağaz eylədi:

Sevdigim Şirin imiş,
Gör necə şirin imiş,
Bən cana şirin dedim,
Candan da şirin imiş.

Bən yara qul olmuşam,
Yanuban kül olmuşam.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Quş dilin bilməz ikən
Şimdi bülbül olmuşam.

Dərdimənd Fərhad bu beyti nəzirə söylədi:

Gözlərim yar içəridən,
Кəs bağrım, yar içəridən.

Ol saət ol aşiqi-mərtunlar bir-birinə sarılub namurı, arı rəf edüb, bir zamanməsti-mədhuş olub kəndilərdən keçdilər. İki-üç saətdən sonra əqilləri başlarına gəlüb, bir-birindən ayrılub və dağılışub Şirin ahu Anin edərək sarayına gedüb, Fərhad dəxi qeyri əli işə varmayub ol dəxi məkanına getdi. Çün Fərhad xanəsinə gəlüb Şirinin təsviri nə nəzər edüb ağlar və atəşi-eşq ilə yürəcigin dağlardı. Göz yaşları töküb kəndü köksin dögərdi. İəcnun kibi nə təam və nu su içərdi. Leylu nahar təsvir nəzər edüb ağlardı və bu beyti oqurdu:

Al ilə əqlimi aldın və şirin suddtanım bənim,
Yoluna canım fəda olsun dəxi bu cismi-tənim.

Amma, bir qaç gündən sonra köşk də tamam oldu. Məhminə banu memarbaşıya və nəqqaş Behzada qayət ol köşkə bəsənd eylədügindən xələti-faxirə, əzim ənam, ehsanlar əta eylədi.

Zira, rəbii-məskunda bir padşah boylə bir qəsri-ali, böylə bir köşki-dilguşayə malik degil idi. Bu köşkün bir qapusı bir yılduza mənsub və hər yıldızın lövni üzərə əlvan olub, həndəsə və hikmət və heyət üzərə bina olunduğundan, rəsəd üzərə hər gün bir dürlü münasib xalılarla döşənüb, ənvai-diba və ziba ilə təzyin eyləyüb, məclisə mühəyya edüb ənva dürlü təami-nəfisləri hazır edüb, Məhminə banu vəzir-vüzərası və vükəla və əyani-dövlət ol köşkə gəlüb, təamlar çəkilüb, yeyülüb şüküri degildi. Anda məclis başına oturub yeməgə-içməgə məşğul olub, imü



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

səmin saqilər ol sim biləklərin sığayub qədəh dövr etdirməgə başlayub və ol köşkün cəvanibi-ərbəəsində olan zənənləri ilə eyşü işrət edərdi. Lakin Fərhad nocəvanın atəşi-eşqindən təskin etməyüb ol köşki-aliməqami-ruhəfza gözinə görinməyüb gecə uyqusi kənduyə olmuşdu. Gecə və gündüz ahvanin ilə keçərdi. Amma bu sirri kimsəyə ifşa etməyüb yürəgində keçürərdi.

Bir gün Şirinin dayəsi ŞirininFərhad ilə mabeynlərində olan əsrarlarına vaqif olur. Qeyri gözətməgə başladı tayə kəndu-kənduyə aydır: bə canım, şirin bir padşah qızı, Fərhad bir bi-əsl nəqqaş oğlu olada, nə münasibət var Şirinün buna meylü məhəbbət edüb könül verməsi, təəccüb edirdi. Bu dayə çoq iş görmiş, bunca şeylərə vaqif olmuş, əhval bilür olmağiylə kənduyə ayıtdı: eşq dedikləri qayət müşkül kardır, neçə sultanzadələri ədna kimsələrə bəndə etmişdir.

Kimsənə başına gəlmədikcə bilməz. «Cəfayi çəkməyən aşiq səfanın qədrini bilməz» deyüb bunları gözətmədə.

Amma, ittifaq bir gün Məhminə Şirin ilə söhbət edərkən gördi kim, Şirin ol virdi-əhmər yanaqları gül solmuş, lövni mütəğəyyir olmuş. Göricək könlindən ayıtdı: Bə canım, buna noldu, bəlkə Canı sıqılub gəzmək istər, bana da söyləməgə hicab edər. Tez əmr eylədi təxti-rəvanlar hazır edüb, binüb əzmi-gülüstan edüb gəzdilər. Bəzi bağçalar və sərvilər kənarına gedüb Şirinin könli və gözi açılsun deyər idi. Amma bir gün bir dağa irdilər. Qopub, tamaşa edüb və qızlar dört yanına seyr eylərkən, bir quyu buldular, amma ağzında bir ağır daş, həzrət Süleymanın divləri və ifritələri ancaq qaldıra bilür. Həman, qızlar gəlüb Məhminə banuya xəbər edüb, padşahda və Şirin də ol quyuya nəzər etdilər. Bir quyudur kim, gözlər görmüş və quşlar eşitmiş degil, tez padşah əmr edüb bunun suyundan çıqarub. Amma bu su bir abi-həyata bənzər sudur ki, süd kibi bəyaz və şəkərdən dadlu. Həman, Məhminə banu bu Sudan pək həzz ayıtdı: ah, şu suyi bənim sarayımda altı



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

köşkimdəni hovuza aqıdır bir kimsə olsa, hər nə dilərsə verərdim ki, dedi. Həman ol saət memarbaşıyı çağırub ayıtdı: Bəqa memarbaşı, şol suyi bənim sarayımda bünyad olan köşkün hovuzuna aqıtmazdır. Əl-bəttə, bu suyi tədbir edüb ol hovuza aqıtmaqa gərəksin, dedikdə, memarbaşı ağzın açub padşaha dua və sənadan sonra ayıtdı: Şahımın ömrü uzun olsun və lakin bu suyu həzrət Süleyman əleyhissəlam divləri bu dağdan aşırub gətürməgə qadir degildir. Ancaq bu suyun ol hovuza varmasına bir tədbir vardır. Ancaq müqədduri-bəşər degildir, dedi.

Haman Məhminə şah ayıtdı: - tədbiri nədir? Memar ayıtdı: - tədbir oldur ki, bu Sudan alçaq bu dağı lağım edüb, bu dağın altında bu suyu keçidi bu dağda isə yek para çıqmaqa qiyasıdır. Bir gündə, bir ayda beş arşun qədər daş qopmaz, dedikdə həman Məhminə şah əmr eylədi münadalər nida etdilər: hər kim filan dağda olan suyu bərü tərəfə səhrəyə aqıdarsa, hər nə muradı var isə bənim qatımca hasildir, deyü bir qaç günə çağırub, əsla bir dərd çıqub, bən edərin, deməgə qadir olmadı.

Fərhadın sevdası hərəkət edüb bir qaç gün tışra çıqmamış idi. Çün tışra çıqub bazara girürkən münadi eşidüb əsmin sual edüb əhvala vaqif olub, həman dağda olan quyuya varub, bir nəzər sunub, andan şəhərə gəlüb bir ərzihaq Məhminə banuya sunub, ərzihalında yazmış kim, padşamım, bən bu suyu gətürəyim. Lakin istədigim kibi bir gülüng, ya bəzirsiz əgər könlümcə olursa tez hasil olur, dedi.

Çünki Fərhad əfəndisisininin qarşusunda bu cavabı söylədi qeyri fürsət qənimət bilüb və bu dəva içün gəldim deyüb, şaşdığından dönüb, ayıtdı:-Sultanım, sizin yanınızda bir şey degil, amma bənim yanımda güya bay təxtində oturan qədər vardır. Sultanımdan tələb eylə-dügim qapu ağalığıdur, dedi. Məhminə banu qəhqəhə ilə gülüb, ol saət mənşurnaməsin təhrir olunub əlinə verdilər və Məhminə banu memarbaşıya əmr eylədi, hər nə tələb edərsə Fərhad yabədirüb



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

dəfətərə qeyd edərsin, dedi.

Memarbaşı ilə Fərhad tışra çıqub, Fərhad memarbaşıya ayıtdı: - Səndən iki polad külüng istərəm biri yüz batman olsun, biri iki yüz batman ola, dedi. Memarbaşı tez dəmirçilər çağırub ismarladı. Təcilən yüz batman gülüngi icad edüb memarbaşıya təslim eylədilər. Ol dəxi Fərhadı çaqırub göstərdi. Həqiqət Fərhad gördikdə, pək gözəl, dedi. Memarbaşı külüngü göndərüb bir küçük çadır qurdular, külüngi götürdilər. İzni-canab bu tərəfdən Məhminəbanuya xəbər olundu yarınki gün Fərhad işə mübaşirət etsə gərək deyü, Şirin bu xəbəri guş eylədikdə qərarı qalmayub, dönüb Məhminə banuya niyaz edüb, sultanım, lütfinizdən rica edirəm yarınki gün əzimət edüb Fərhadın nə minval üzərə dağ dəldigün tamaşa edəlüm, dedi. Məhminə banu, gedəlüm deyüb, çadırlara əmr eylədi. Yarınkı gün içün tədarik gördilər. İnşallah taala Fərhad dağa kəsdigin görəlim, deyüb ismarladı. Amma tədarük gördilər.

Çünki sabah oldu, günəş aləmi nur ilə münəvvər eylədi, bə'də şəhər xəlqi geyinüb, quşanub xalq güruh-güruh dağa cəm oldular. Bə'də Fərhad dəxi ol dağa memarbaşı ilə gəlüb ol çadırda qərar eylədilər. Məhminə banu dəxi qəhvəaltı edüb, bə'də bargah gətürüb qülləsində (altına) qurdular. Andan bunlar təxti-rəvanlara binüb dağa rəvanə oldular.

Bunlardır, dağa gəlüb Məhminə banudan ol Şirin təxti-rəvandan şahin misal sıçrayub Məhminəbanunun qoltuğuna girüb endirdi. Bargahə girüb qərar eylədilər. Bir miqdar təam yeyüb, üzərinə məclislər gəlüb işrəyə məşğul oldular.

Yarani-iznicab bu tərəfdən Fərhad biçarə ol çadırın olduğu yerə baqar, bu tərəfdən Məhminə banu Fərhadın olduğu mənzilə gəldilər. Amma Fərhadi-naçar bunları gördükdə bildi kim, Şirin ləbi-şəkərini aqıdub gəlmişdür, deyüb eşqə gəlüb.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Amma ol gün ol qədər bəni-Adəm tayfası Fərhad içün seyranə çıqdı ki, seyrinə gögdə lələklər müntəzir olmuşlar idi. Baqalım, yüz batman külüngi neçə qaldırur, deyü.

Amma Məhminə banu memarbaşıyı çağırub tənbeh eylədi kim, əlbəttə ibtidasında dua edüb, bə'də başlasun, dedi. Memarbaşı andan olan üləmalardan bir çoq saleh kimsələr dəvət edüb, bə'də Fərhad üryan olub üləmalardan dua olunub, bu qədər əsgəri firavan təkbir gətirub tamam olduqda Fərhad, dildar qarşu, ya dost, deyüb öylə ah etdi kim, andan olan xalq buyun gördilər kim, Fərhadın ağzından, burnundan alovlar çıqdı.

Andan Fərhadı-namurad əlinə külüngi alub, ya Allah səndən inayət, deyüb qaldırub eşq eylədi. Hər urduqca yüz batman qayaları qoparırdı. Xəlq bunun işinə heyran oldular. Zira, böylə külüng qaldırmaq nə mümkün. Xalq bunu mülahizə eylədilər kim, heç degil, sehr əlamətidir, yaxud bir övliyaüllahın kəraməti olduğundandır. Bu qədər xəlq hər biri bir söz söylədi və hər biri bir məna verdi. Heç biri deməz kim, kəramət əlamət degil. Həman eşqi ilahi olduğundan bir işi bu vücuda gətürdi. Böylə mümkün olmayan işi və bəni-Adəm ol səbəbdən ediyər, deməzlər. Fərhad dağı para-para eylədigün və dağın başında seyrani-əsgərin və Məhminə banu bargahın qülləsində olduğun, Fərhad ol gün axşamadəkin dağı para-para eylədi. Bundan ol üç nəsnə dərə-bu qədər rəncmülər edəmədilər. Bunun bir gündə kəsdügi qayaları kimsə kəsmədi.

Axşam olduqda fərağət eylədi. Memarbaşı, bu qədər rənclilər idi. Memarbaşı axşam vida edəcək məhəldə dönüb memarbaşıyıya ayıtdı: - Memarbaşı, bu gün bu rəncilərin gətürdün, qeyri gün sən belə gəlmə. Əgər gələcək olursan səndən Məhminə banuya şikayət edərəm, dedi.

Çünki memarbaşı Fərhadan bu cavabı eşitdi, kəndü sarayına rəvan oldu, ayıtdı-bunun təhqiqə yerdəmçisi şeytandır, dedi. Zira, Fərhad



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

memarbaşıya anınçün demişdi ki, qaçan külüngi zərb eylədigi vadidə biləş, ah əfəndim, der idi, kimsə, der idi, əsrarıma vaqif olmasun, hər nə çəkərsəm bən çəkim, deyü memarbaşıyı göndərdi. Memarbaşı təqyid edüb anı da yapdırub Fərhadın nəzərinə gətürdilər. Ol bütün vilayətin xəlqi bunun tamaşasına çıqub, seyrinə taqət gətürməzlər idi. Hər külüngi urduqca iki yüz vəqih butal daşları xurd edər. Hər bir daşın bir çaya kibru edüb, üstündən çiftə arabalar keçmək qabil dilədi. Anın böylə işinə mübaşirət eylədigi cahan xəlqinə şaye olub, şəhərbəşəhər qəsəbəbəqəsəbə seyrinə gəlürlər idi.

Günlər də və gecələr də və gündüzlər də qətən gözünə uyqu girməz idi və təam heç yeməz idi və su da içməz idi, kənduyə rahət haram idi.

Bu tərəfdən izni-canib, raviyani-Şirin ruzgar. Amma Şirinin gündən-günə eşqi alovlanub Məhminə banudan seyr etməgə fərmani-izn tələb eylədi. Ol dəxi izn verüb, yanınca bihesab cariyələr, vəsməli, boyalı nazənin qızlar təxti-aliqaranın yanınca gedüb bir göcək bargahı qurub qərar eylədilər. Səbri-qərarın qalmayub əcələ birlə Fərhadə bir süfrə təamlardan ənva dürlüsindən düzüb kəndunin bir xas cariyəsi var idi, Sərvinaz idi, anın əlinə verüb göndərdi.

Sərvinaz gəlüb Fərhadın önünə qoydu Fərhad əlindəki külüngın büraqüb məst oldu. Bir zamandan sonra əqlin cəm edüb, qıza xitab edüb ayıtdı: Ey cariyə, ey əxtəri-əcəb bu təam bizim içün gətürdiniz və bu sürahidə olan şərabı bizim içünmi gətürdiniz? Şimdən gerü bizim içün dünya təamı gərəkməz və şərabi-ləl meygün olursa gərəkməz. Zira, biz eşq şərabından qanub məsti-şeyda olmuşuz və canan rayihəsindən təamlanub toq olmuşuz. Ancaq çünki zəhmət çəküb gətürmişsiz, lüqaf edüb, nə qədər zəhmət isə, yenə gətürün. Anda sizlərə zövqlənüb bən də bundan rahət olum.

Ol doxtər bu qədər iqdam eylədi, nə təamdan və nə şərabdan bir miqdar içməyüb bozarur dönüb gəldi. Amma iraqdan Şirin cariyəsi görə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

kim gəliyor, yanına çaqurub hər nə kəlam etdi isə təqrir, eylədi. Dərdimənd Şirin bunları guş eylədikdə ol ahu gözlərindən dürlər döküb bir ah-sər çəkdi kim, az qaldı bar gahın şavanı tutuşa yandı. Amma bargahın ətəkləri açıq olduğundan fər gəlmədi. Amma səbri, taqəti qalmayub, sizlər təamı yeyəsiz, bənim şol qara duzanımı verün, varayım şol dağın qülləsində bir miqdar gəzüb və çalub bir miqdar dəfi-sevda edəyim. Sizlər bu yolda bəkləyüb kimsəyə yol vermiyəsiz, bəlkə, könlüm istərsə Fərhadın dağı nə münval və nə fənd ilə kəsdüginə baqayım, deyüb qara duzanı əlinə alub, yüzinə niqabın çəküb getdi. Cariyələrə kimsəyə salı verməzlər, ardınca dəxi kimsəyə yoq, həman fürsətdür deyüb istəcilən gedüb, çoqdandır aşiqimi görmədim, deyüb rəvanə oldu. Amma iraqdan Fərhad gördü kim, Şirin gəliyor, səbrə məcalı qalmayıb külingi buraqub şahinmisal sıçrayub salamına durdu. Ol dəxi gəlüb mərhəba edüb, Şirin dirəgin altında bir daşın üzərində qərar eylədi. Həman əmində olan sazına düzün verüb ol qədər çağırdı kim, dərdimənd Fərhadı avarə eylədi. Tamam Şirin bir fəsil eylədükdə ol nazik avazı ilə bülbüllər kibi şaquyub bu beyti söylədi. Ol zaman söziylə söylədigi beyt budur:

Yara, nə bəndəsin, bu cəfa edən qaşı kəman qarşumdadır,
Qəmzəsiylə neçə yüz bin qan edən qarşumdadır.
Hüsni gülzarına qarşu bülbüli-şeyda kibi,
Gecə-gündüz karımı əfğan edən qarşumdadır.

Dodağı irmiş, kəmali-hüsni olmuş mahi-tab,
Bir tazə təndir edər dustan hicab,
Dağıdar kakillərin, ruxsarına eylər niqab,
Bəndəsindən gül yüzin pünhan edən qarşumdadır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Şahi-eşq olanlara hacət degildir təxti-tac,
Çəkmə zəhmət yoq yerə, ey təbib, etməz əlac.
Edəməz kimsə, bana dərman edən qarşumdadır.

Aldayub bən bəndəsin bin dürlü məkru al edüb,
Qalmadı əsla vəfalı, şimdi qəddim dal edüb.
Əgnimə geydürüb şalı, aqibət əbdal edüb,
Təkyeyi-qəmdə bəni mehman edən qarşumdadır.

Bəh, dostlar məst eyləyən yarın ləbidir, cam degil,
Cismi-canım yoluna tərk eyləsəm bir nam degil,
Çağlayub çeşm  yaşın ümmana olursa, qəm degil,
Lütfi-ehsan eyləyüb, xəndan edən qarşumdadır.
Aqibət soyunub üryan edən qarşumdadır -

dedikdə Fərhadın əlində sundu sazı. Fərhad sazı alub bu beyti söylədi:

Yarıma nola, fəsli-gülistan gözəldir,
Həmdəm olacağ əzmi-şəbistan gözəldir,
Hər sübh sa eşdügümə əfğan gücənmə,
Sən dilbərin aşiqi-nalan gözəldir.

Yoqdur taqəti nəzər qılmağa yarın,
Pək kordur ol, sərvi-xuraman gözəldir.
Lə’li-dəli-əfkarına lütf eylə, kərəm qıl,
Sən dilbərə bən aşiqi-nalan gözəldir.

Lə’li-dili əfkarına eylə, kərəm qıl,
Şirinə Fərhadi-nocəvan gözəldir.
Cami-ləmin nuş edən anmaz şərabi-kövsəri,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bilsin yüzin görən ayinei-İsgəndəri.

Zira, bunda ol demiş idi, bən dünya şərabın şimdən gerü içməm. Zira, gülistan arasına Şirinin ləblərindən nuş eyləmiş idi. Bən dünya şərabın içməm, demiş idi.

Bu məhəldə Şirin, belə ki, sual edərsən, göndərdügim şərabı neçün içmədin, deməsin deyü bu beyti içəndə eyləmisən, əsli ol idi və yenə dönüb bu beyti həsbi-hal eylədi. Zira, kamilə idi: Bənim həddim degil sevmək səni, a xubların şahi, qəzan-əsma neyzər inan vallah-billah, - deyüb həsbi-halın bir miqdar söyləyüb dəstin köksinə qoyub ərkan üzrə sazı Şirinə sundı. Şirin dəxi sazı əlinə alub, çaldu bu beyti oxudu:

Aşikar olmazdı dərdim, dağı-hicran olmasa,
Yedigil bilməzdi kimsə, ahi-əfğan olmasa -

deyüb ol qədər kəşfi-raz eylədilər kim, gögdə mələklər ziyadə səməklər seyrinə gəldilər. Tamamdır bunlar eşqi atəşlənüb həman Şirin gül yüzindən niqabı siyirüb tavüsvət sıçrayub Fərhadın boynuna sarıldı:

Xəstədil aşiqlərin dərdinə ümiddürür,
Ləblərin lütfi-ehsan ilə bimarinə ümiddürür.
Ləblərin qəndi-şəkərdən ləzizdir, ləblərin canın sənin
Təşnə dil aşiqə sun lə’linə, sultanum bənim –

deyüb ləblərindən şəftalılar alub, bu qədər olsun, deyü çar-naçar bir-birindən ayrıldılar. Bir-birlərinə vida edüb, zira əsrarımıza kimsə vaqif olmasun, deyü Şirin gözündən yaş döküb sərvi-xuraman vəş bargahına gəldi. Amma bir fərdi-vahidə xəbərdar olmadı.

Bu hal üzərə qırq gün olıcaq uca gündə bir kərrə Məhminə banudan izin alub gələrdi. Şirin ləbi şəkərin aqudub tamaşa edəyüm deyü gəlirdi. Amma bu tərəfdən davilər bir qaç fəsil üzərə rəvayət edərlər kim, bir rəvayətdə dərdimənd Fərhad Şirinin eşqiylə ol suyu qırq gündə aqıtdu və bir rəvayətdə bir yildə aqıtdı. Həman Anə işlədi isə işlədi. Ol suyu



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

hovuzun içinə aqıtdı, derlər və bəzi ravi bir yildə təmam oldu derlər. Hələ nə qissə diraz edəlim. Fərhad ol suyu hovuza aqıtdı. Su hovuza gəlib oqduqda Məhminə şah ol gün bi-hədd qurbanlar kəsüb və füqarayə sədəqələr eylədi kim, bi-qayət dərdimənd Fərhadı başdan-ayağınadək geydürüb, amma Fərhad etibar etmədi. Amma memarbaşı Fərhada ayışdı: Şimdi şahımız verdigi ehsana iltifat etməz isən, qeyri səni qanuçılıq xizmətində istehdam etməzlər. Zira ərzi padşahi vardır, dedikdə, həman Fərhad bil-zəruri, Fərhadı hamama qoyub Şirinə məxsus kəndi cəmaşürlərində bir boxça cəmaşür göndərdi. Hamamdan çıqdıqda memarbaşı böylə görmişdi. Adət üzrə Fərhada geydürüb səmurlara qərq edüb. Memarbaşı olub divani Möminəbanuya gətürdi. Memarbaşı Fərhadın saçların təraş etdirüb, başına altun baş xunkari sarıq və əlvan çuqaya qapalu səmur kürk içində, əlvan rəng dolama belində kəmərəbənd quşaq və barmaqlarında almas və yaqut xatəmlər və qoynunda cəvahir saət, ol da dəxi məhbubi-zaman idi. Şimdi bu libaslar ilə məlbus bir ziynət ilə müzəyyən olduqda, camalının ziyası ol mövzeyi münəvvər eylədi:

Böylə Məhbubi Şirin degilablama belə görsə aşiq və əsərgədan dəxi olması müqərrərdir. Övrət degil mövluklardan hər kim görsə kəndisinəxəzinədar edərdi. Zira əvvəldən dəxi hüsni cəmalı aləmlərə şaye olmuş idi. Amma dami-eşqə giriftar olub kənduyə silqət verdigindən bir miqdar zəif olmuş idi. Qırq gündə bəlkə qırq dirhəm şəam eşq sevdasiylə boğazından keçməmiş idi. Gah-bigah Şirinin iqdamiylə əlindən bir miqdar təam əkl edərdi və bir az şərab içərdi. Yoxsa qeyri nə mümkün təam yemək və şərab içmək degil Şirinin sevdayı-eşqindən qursağına su nəsib olmuş degil idi. Sair günlərdə kəmali-mərtəbeyn-eşqi-şahi ilə məst və mədhuş idi. Ol əcəldən bunda olan qüvvət və bunda olan hüsn ilə bu işin öhdəsindən gələcəgi əsla məlum degil idi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Çünki Memarbaşı Fərhadı hamamda geydürüb bu qiyafətə qoyub, bədə Məhminə banunun nəzərinə gətürdi. Məhminə banu Fərhadı bu qiyafətdə göricək əql və fikirlərin pərişan edüb heyrət əl verdügindən padşahı unudub Fərhada təzim və təkərrimə eylədilər.

Fərhad nocəvanın Məhminə banu degil kəndi aşiq vasitəsi olub sevdayi-eşqiylə mübtəlası olan doxtəri pakizəxtər, mələkmənzərələri, peykəri-banuyi-cahan-ara olan Şirin belə bilmədisə caizdir.

Fərhad tamam divani-şahiyə gəldikdə zəminpus edüb, qədhəmidə qılub Memarbaşı ilə dəvaş-ömri dövləti-padşahayə dualardan sonra Məhminə banu Fərhad olduğun güclə bildi. Ol məhəldə Şirin dəxi qəsdinə ənvai-nazilə eturub divani seyr edərdi. İxsiri-Fərhad bu qiyadəydə gördikdə yenə başından eşqi nazlanub ol saət qaftan və kürk geydürüb, üzərinə cəvahir nisar eylədi və bihesab altun ehsan eylədi, qəbul etmək murad eylədi. Amma Memarbaşının ədəbi-padşahı-məlumə olduğundan Fərhadı işarət eylədi. Qəbul eylə, deyü Fərhad dəxi qaftanının yaqasını öpüb və kürk geydi. Fərhad naçar ədəbi-şahi hər nə yüzində isə Memarbaşı təlimi ilə yerinə gətürdi və Məhminə banu Fərhadı qapuçılar üzərinə sərbivabın eylədi. Hərəm qapusının mifitahin dəxi təslim eylədi və bir məxsus oda və bəzi lazım olan libasların Şirin içərüdən göndərdi. Zira, əla bəhanə olmaz, yeni çirağ oldu, bir fərd niçün verər, deyü tən etməz idi. Əla qapuçıbaşı oldu. Məhminə banu cümlədən məqbul oldu. Niçün olmasun, hovuzuna su aqıtdı.

Fərhadın xizməti içün adamlar təyin etmək murad olunduqda Fərhad qəbul etmədi, bən kəndum xizmətkaram, deyərdi. Zira ana xizmətkar almaq əl verməz idi. Xizmətkar olunca qeyri Şirin ilə görüşmək mümkün olmaz, bəlkə əsrarın faş olur, deyü bir xizmətkar qəbul etmədi. Amma Məhminə banu aşçubaşını tənbeh eylədi kim, üqürər süfrə təam gəlürdi. Çar-naçar birər loqma alurdı. Qüsurin genə alub gətürirlərdi. Zira, təamı



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

dolabdan cariyələrə verdi tışrada  qeyri kimsəyə verməz idi. Zira, tışrada bir kimsəyə versə və ya bir qaç füqərayə versə hər vəqtdə siqlət edərlər, deyü ol əcəmdən qalan təamı tışradan bir kimsəyə verməz idi. Əsli bu idi. Amma Məhminə banu hərəmdə Şirin ilə söhbət edüb işrət arasında dönüb Şirinə ayıtdı: Bənim gözüm nuri və könlüm sərvəri, ömrümün hasili, təhşət əgər mümkün edüb şahlıq üzərimdə olmayaydı kəndumi Fərhada əqd etdirərdim. Yaxud bir qızım olaydı kəndumə damad edərdim. Zira, ziyadəsiylə məhbub və məhcub və mümtaz hüsənalardan hüsəna bundan gözəl yigit görmədim. Əgər Memarbaşı ilə gəlməsə təhqiqi bən də təşəxxüq edəməz idim. Haman bir şahzadəhəvəş imdi əgər nəsibi varisə kəndumə baş vəzir edərəm, deyüb Fərhadın gözəlligin ol qədər mədh eylədi kim, olmaz.

Amma, Məhminə Fərhadı mədh eylədigindən Şirinə ol qədər həzz eylədi ki, təbiri mümkün degildir. Həqiqət Şirin dönüb Məhminə banuya ayıtdı: Şahım, əgər murad edərsiniz səlavatı edüb kəndumüzə müsahib edəlim, dedi. Şirinin muradı Məhminə banunun ağzanda bir saqqız çəküb və kəndunun əsrarın sətir etmək idi. Həman Məhminə banu şirindən bu sözi eşidəcək dönüb ayıtdı: Ey nuri-dildəm və süruri-sinəm, heç mümkünmidir Fərhadın yigidliginə, yazıq degilmidir, deyü qeyri müsahibətə və lətifəyə girdilər. Məclis axır olub, qalqub adalarına getdilər.

Çün Fərhad əla-əssəhəri qalqub bir miqdar qapu önündə oturub, bə’də gün çıqarkən varub külisyanın qapusın güşad edüb baqçaya girdi. Gül fidanların adalara, bəzi quruların rəth edüb və fidanlar dinüb qəsrdə olan bülbülləri yeməyüb, buna görə nazikinə xizmətlər edərdi.

Gərək Şirin və gərək Məhminə banu qəfəs ardından tamaşa edərlərdi və gahica qəfəs amtına Fərhadı çaqırub şəkər işi təamlardan verüb, bəxşişlər verərlərdi. Muradları lisanından bir kəlam almaq idi. Zira, Fərhad hər qaçan bir kəlam söyləsə, əlbətdə hər cavabı mövzun



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

və vəzin üzərə söylər idi. Fərhad hər elimdə mahir olmaq ilə həlavəti var idi və qayət müəssir bir zaman günini keçirüb əglənir idi. Amma Şirin dil aramın Fərhadın dərdi-eşqindən qeyri səbrü aramı qalmayub, günlərdə bir gün Məhminə banu dəfi-səvad içün ol gülistan arasında bünyad eylədigi köşkə getmək murad eylədi. Pədarinin nə isə hazır və mühəya olunub əla-əs-səhər Məhminə banu dəxi hazır imdə oldu. Amma Məhminə hər qanda getsə Şirin vəlvələ arayi billə gətürər idi. Zira Şirinsiz getsə zövqü işrətin ləzzətin bulmazdı. Ansız seyrü seyran Məhminə banuya haram idi. Amma Məhminə banu ilə getməmək içün səhətdən kəndusinə sancu peyda edər. Məhminə banu Şirinin bu əhvalını göricək əqli başından gedüb bu qədər məcunlar və neçə dürlü müalicələr və tiryaqi-əkbərlər yedirib güc ilə bir miqdar sakin olur kibi oldu. Amma getmək müqərrər olunca, həman Şirina-dilaram zəminpus edüb əl-üzri-məqbusi-əndkəram-ünnas-fəhvasını piyazmənd olub bənim padşahım, bu gün bu cariyəni əvar buyurdi, dedikdə Məhminə banu dəxi, bənim canım, könlüm nə günə istərsə öylə olsun, deyüb kəndu dəxi kəndu könülsüz olub köşkə varub əsla Şirinsiz rahət və sürur nişan etməyüb, dönüb gəldi. Amma qeyri zaman aqşam olduqda gəlür idi, mödatı daim böylə idi.

Amma, çünki Şirin Məhminə banu ilə bu qari-dilguşəyə getməyüb bir qaç cariyə və dayəsiylə qaldı, çün bir saət miqdarı aradan keçdi həman Şirin ləbi0şəkərin düşüb dayəsinə ayıtdı: ey day əvə ömrüm sərmayəsindən bir rical vardır və sənin əlinlə hasil olacaqdır, əgər buna yoq dersən kəndi-kəndimi həlak etməmə müqərrərdir. Zira, sən də baqub görərsən, bənim əqlim başımda degildir və gündən-günə zəif və nəhif oliyoram. Bənim nə gecəm gecə və nə gündüzüm gündüzdür. Bənim dərdimə bir çarə, dərman sənin əlindədir. Zira, bənim validəm mərhum olduqdan sonra, ol vəqtdən bərü bən səni validəm məqamında bilürəm. Ənal-ələmin şimdən gerü səbrü arama məcalım qalmayub,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

taqətim taq oldu. Hərçi badə-bad, guya bu gün dünyayə qədəm basdım, genə bu gün ölürəm. Əgər sənin də bənim canımda hər nə murad və məqsudum var isə əlimdən gəldigi qədər sənin ümidindən ziyadə hasil edərəm. Əgər bənim qatımda məqsudun olmayub Məhminə şahın yanında olur isə, bilürsən anın yanında hər nə murad edərsəm, hasildir. Bənim ricama yoq deyüb rədd etməzsən. Dəxi sana səyvə bəliğ edərəm, deyüb ol qədər nazü niyaz eylədi ki, əgər bir polada niyaz edəydi, su olub əriyəydi. Ol fərşuşteyi-ruzigar əsla Şirin-cahanaranın sözlərinə qulaq urmayub və niyaz-mənzuləndicinə iltifat etməyüb, kəlami-rəddinə heç rəhm etmədi. Bəlkə Məhminə banuya bu qədər niyaz eyləsə, rza verər idi. Bu bədxuyi-məlunəyə niyaz heç rəhm edəmədi. Şirini-ləbişəkərin gördi ki, məlunə niyaz eylədigi cümlə həba oldu, Şirin həman sözi keçmədigi ol məhəldə qaqıyub yıldırım kibi şaqıyub qəzəbindən püratəş olub bir məlun fəryuyə bənim sana niyaz olduğum gerçəkdən bəri səni vaildən məqamında tutub, hər haqda sənin xatirin gözədüb rzan üzərə hərəkət edərəm. Çünki bənim niyazım qəbul etmədin, qarşumda durma bir qırnaq bəhasına təhətə üzərində görmiş deyüb qarşunda çıq aydub qoçdi.

Dayə gördi ki, iş aqası oluyor, dönüb hüsniylə məamilə edüb ayıtdı: bənim sultanım və kəndi əfəndim və səbəbi-dövlətim və baisi-rifətim vəli-ən-nəimın bəndən niyaz eylədigi şey bir iş degildir. Lakin bənim xofum budur kim, bundan bu qədər cariyələr vardır, əlbəttə qəmmazlıq edüb söylərlər, sonra əfəndimi gözdən durə, qəlbimdən məhzu edərlər deyü, bən bəndə andan qorqumdandı rza göstərməm, yoxsa əfəndimin sözi canıma və başıma keçər, dedikdə çün Şirin ləbi şəkərin dönüb, ey dayə, çün içün girməsin də xof edərsin. Bari gülistan içində kiçük köşkin üzərində oturub bir miqdar söhbət edəlim, sən də bizim ilə otur. Zira, bəlkə qəlbinə gəlür ki, yüz qaraluq ola deyirsin. Bənim canım dayə, bənim ar və qeyrətim yoqumdur, dedi. Hələ nə eylədisə eylədi, dayə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

könlün eylədi.

Bundan sonra dayə ayıtdı:-gözümün nuri, sən varub gülistanı sərvinazilə bir qaç cariyə ilə tamaşa eyləyüb, bə'də cariyələrə xitab edüb de kim, bu gecə əsla gözümə uyqu girüb uyumadım. Həman köşkdə bir ehram yapdurub sərvinaz ilə yatub uyur kibi yat. Bən də dəxi cariyələrə xəlvət edüb, sultan uyur, bir az xəlvət qoyun yatsun, zira sancudan gecə əsla uyumamışdır, deyüb anları savarım. Bə'də Fərhad ağayı çağırub bunda gətürəyim, ol vəqtdə görüşün, deyü cavab eylədi.

Çün Şirin dayənein cavabların guşə edicək razı olub zira yolunda cavabı Məcnun dəxi qaildir fəhvasınca həman Şirin sərvinaz banuya bir qaç cariyələr alub sərvi-xuraman kibi incə rəftarilə, tavusvəş baqçaya qədəm baqub ahəstə-ahəstə ol küçük köşkə doğru vardı. Nəticə, bir miqdar gülistan arasında bülbüllər kibi şaqıyub gəzindi. Nəticə, köşkə vardılar. Bir qaç cariyələr ilə oturub, bir miqdar işarət edüb, ol arada Şirin dönüb dayəyə ayıtdı: ey dayə, bir miqdar sancıdan rahət olub gözlərimə xab gəldi. Səndən niyaz edirəm ki, bəni tənhaca bunda uyudub, sən də var get, qeyri kimsə gəlüb bu gülistanda gəzməsinlər. Sən gözət, kimsəyi uğratma, dedi. Dayə dəxi Şirinin altına balın salub üzərinə ehram örtüb cümlə qızlar sərvinaz Şirin qatında çıqub hər kişi məqamlarına getdilər.

Dayə bir miqdar oturub bə'də yerindən durub qədimi imamdan bərü gördügi minval üzərə təcilən mühəyya eyləyüb, bə'də ixfadən varub nəzakət ilə Fərhadı işarətdən xəbərdar edüb dəvət eylədi. Həmin Fərhad dayə işarətin gördükdə yerindən durub üsul ilə dayənin yanına gəldi və ayıtdı: ey dayə, qəddin xeyirmidir, dedikdə dayə ayıtdı, xeyirdir. Şirini-afitabcamal baqçada cənabi-səadətin qədəminə müntəzirdir, əsla təxir və təqif etməyüb, baqçaya buyurub həmməclis olasız, dedikdə Həman Fərhad cavan və aşiqi-sərgərdanın sürurindən Canı ağzına gəlüb olduğu məhəldən qalqub ortalığı xali görüb, bundan fürsət olmaz,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

deyüb bir miqdar ətrafı təcəssüs edüb gördi yardan, əğyardan kimsə yoq, əcələ üzərə şahin şikarına süzilir kibi süzilüb kəndusi ol gülistan qapusundan içərü atub, dayə Fərhadın önünə rəhbər olub kəndi kəndi nəqş eylədügi köçək köşkünə gəlüb içərü girdi. Şirin zülfi ənbərin tavusvəş hərəmani rəftariylə və dürlü nazü işvə ilə Fərhad cavanı qarşulayub məclisə mühəyya keçüb məclis başına oturdular. Amma ol iki aşiqi-sadiqi-qəmküsarlar biri-birinin yüzlərinə baqmağa hicab edüb əsla lisanlarından bir kəlam sadir olmayub məbhus oldular. Həman dayə iki aşiqi-məftunların biri-birindən hicabların rəf etmək içün məclis başına gəlüb bir kasə badeyi-gülgündən pür edüb, Şirin gülruxə sundi. Şirin gülrux dəxi alub nuşi-can eylədi. Bir kasə dəxi durub Fərhad cavana sundi, ol dəxi alub nuş eylədi. Bir-iki şər kasə dəxi nuş edüb qeyri aralarından hicab rəf olub həman Şirin ləbişəkkərin tutivəş göftarə gəlüb Fərhadi-nocavan əndəlib guya ki, əfğanə gəlüb qeyri, bunlar biri-birilərinə lətifəyə başladılar. Ol məhəldə dayə dönüb ayıtdı: ey bənim kəndi əfəndilərim, əgər bu cariyəniz sizləri böylə təşnədir etməsəmsizlər samunlar kibi bu gün degil, beş gün dəxi böylə əpsəm oturub lisanımızdan bir kəlam və badeyi-gülgündən bir kasa doldurubiçmək əlinizdən gəlməz idi dedikdə, Fərhadın qeyri hicabı rəf olub, dönüb dayəyə ayıtdı: ey dayə qadın, təhqiq, bu xüsusda kəramat kibi bir iş etdiniz. Yoxsa bənim nə bu badeyi-meyi-ərğəvani alub içməgə macalım və nə bənimkəndi əfəndim Şirin ləbi şəkkərin ilə göftarə taqətim yoq idi, dedi. Ol məhəldə Şirin zülfi ənbərin başını qaldırub ayıtdı: Bihəmdillah taala, kəlami-dəryanızı bu cariyəniz üzərinə nisar etdiniz, deyüb biri-birlərinə qəlblərində olan məhəbbət mövzunların izhar eylədilər. Bu tərz üzərə ikindi məhəlli olunca işarət və dəm söhbət eylədilər, amma biri-birlərindən busə almadılar. Zira, dəxi biri-birlərindən hicab eylədiklərindən şəftalu fəsminə girməyüb və qonçə güllərindən dərmədilər. Fərhad nocəvan bülbüli-şeyda kibi qönçə fəmə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

qarşu sərməstü heyran və gahi-bigah Şirin gülüzarin şərm və hicab ilə bəzi məzmunlu təkəllümlər edüb, bu hal üzərə məclisi axır edüb, əma Fərhad nocəvan ayağa durub Şirin sərvədin önündə zəminpus edüb, sultanım, məzur olsun, bu qədər söhbət etməgi əfəndimlə həq-taala müyəssər eylədi. İnşallah-taali, muradi-şərifiniz olursa genə bir gün...

## OĞLAN ŞEYX HƏZRƏTLƏRİNƏ NİSBƏT OLUNAN QƏSİDƏSİ

Həqdir ki, kənzi-məxfiyəm, aləmdə pünhan olmuşam,
Zatim münəzzəhdir, vəli, isminlə insan olmuşam.
Zatim ilə zatimdə, vəsfim ilə ayatimdəyəm,
Sün'imdə, isbatimdəyəm, həm cismü həm can olmuşam.
Sözlərdə söz olan bənəm, özlərdə öz olan bənəm,
Gözlərdə göz olan bənəm kim, eyni-ə'yan olmuşam.
Müdrik olan, mədrək olan, həm dərkü həm idrak olan,
Həm çərxü həm əflak olan gərdundə gərdan olmuşam.
Əvvəl bənəm, axır bənəm, batin bənəm, zahir bənəm,
Hər işlərə qadir bənəm, hər dərdə dərman olmuşam.
Gah müfrədat içrə nihan, gahi mürəkkəbdə əyan,
Gəh binişanəm, gəh nişan, gəh dövri-zəman olmuşam.
Göglərdə həm çərx ururam, gəh yer yüzündə yürürəm,
Gəh  görməzəm, gəh görərəm, gəh tupi-çövgan olmuşam.
Gah padişahəm, gəh gədayəm, gəh pürğəmü gəh pürsəfa,
Gəh Bu Cəhl, gəh Mustafa, gəh Şiri-yəzdan olmuşam.
Gahi vücudi-mütləqəm, gahi müqəyyəd olmuşam,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Gəh müfrədatdə safiyəm, gəh çarərkan olmuşam.
Gəh Adəmü Həvva bənəm, gəh Xızr ilə Musa bənəm,
Gəh Məryəmü İsa bənəm, çarmıxda suzan olmuşam.
Ol zati pakəm kim qamu, gahi bənimlə mubəmu,
Bu sirri fəhm et sən, qamu ə'yanə sultan olmuşam.
Aləm bənəm, Adəm bənəm, hər ism ilə həmdəm bənəm,
Hər surətə məhrəm bənəm, hər cismə mehman olmuşam.
Fiqhi-fəraizdə əyan, elmi-lədənnidə nihan,
Hər binişandə binişan həddində yeksan olmuşam.
Canlar qamu canımdadır, taliblər ərkanımdadır,
Xəlq cümlə divanımdadır, bən şahi-şahan olmuşam.
Mahiyyəti-əşya bənəm, həm surəti-mə'na bənəm.
Həm kənzi-layəfni bənəm, həm inu həm an olmuşam.
Adəm-səfi dedikləri bil bir təcəllimdir bənim,
Nuhi-nəci dedikləri zəmanda tufan olmuşam.
İbrahimü Nəmrud olan, həq deməyüb mərdud olan,
Mə'lum olan, mövcud olan əql ilə ə'zan olmuşam.
Musa ilə, Fir'on ilə cəngə səracaz eyləyən,
Gəh Musa, gəh Harun ilə Fir'oni-haman olmuşam.
İsa dəmində mordeyi-əhya edən nitqimdürür,
Suqratü Buqrat, bil, mə'na hikmətdə Loğman olmuşam.
Cümlə zəminü asiman bəndə tolu kövnü məkan,
Həp bəndədir xəlqi-cəhan, bən xəlqə xaqan olmuşam.
Adəm adəmində söyləyən, hər eyləyəndə eyləyən,
Bilinməyən və bilinən, əsrari-Fürqan olmuşam.
Topraq atan kafirlərə Əhməd əlilə bən idim,
Uyxu ilətdi anları, bu heyranə hal olmuşam.
Sonra Əbubəkr olmuşam, sonra Ömər daxi bənəm,
Osmani zün-nurində həm, bil, Şahi-mərdan olmuşam.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Sonra Həsən ilə Hüseyn ism eylədilər adıma,
Sonra Müaviyəyi-Yezidan, sonra da Mərvan olmuşam.
Mərvaniyan oldi təmam, Əbdüləziz oldi imam,
Hər xütbədə etdi salam, qareyi-pakan olmuşam.
İsna əşər oldum həmin, əşrar ilə oldun əmin,
Həqqül-yəqin, eynül-yəqin Mehdiyi-dövran olmuşam.
Ola nəmudarım cəhan, rəngim zəminü asiman,
Fərman bənimdir kün-fəkan, sirri-cəhanan olmuşam.
Həm müzahirəm, həm məzhərəm, həm nazirəm, həm mənzərəm,
Həm sadirəm, həm məsdərəm, ixfavü e’lan olmuşam.
Cümlə cəhanda zahirəm, hər zərrə içrə nazirəm,
Nüsrət bənimdir, nasirəm, hər əqlə fərman olmuşam.
Ədna bənəm, ə’la bənəm, həm nəqd ilə Fərhad bənəm,
Həm əvvəlü axir bənəm, can ilə canan olmuşam.
Sirri-Məhəmmədən əyan, nitq eyləyən mö’cüz bəyan,
Cəbraillə irsal olan, ayati-Qu’ran olmuşam,
Çün eylədim adım Əli, oldum nəbi ikən vəli,
Daimidir sirri-cəli, ərkanda bürhan olmuşam.
Danadə olan sirrimi, sər eylədim əsrarimi,
Gizlü olan ənvarimi dillərdə rəxşan olmuşam.
Bəsri denilən Şeyx Həsən qəlbində cövlan eylədim,
Sonra Həbib ismilə mən aləmdə dəstan olmuşam.
Mə’rufi-Kərxi ismini ad eylədikdə zatimə,
Zahirdə bir qətrə olub, mə’nidə ümman olmuşam.
Davudi-Ta’idə əyan abid olub zahid olan,
Sirri-səri səqti-vəcdində vicdan olmuşam.
Oldum Cüneyd Bayəzid, dedim o dəm həm mən Yəzid,
Həmşad olub, oldum mürid, ruhi-əzizan olmuşam.
Hər qəryəyə mehman olub, hər canə canan olmuşam,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Hər cismə bən can olmuşam, hər gövhərə kan olmuşam.
Qazıyi-Vəchəddin olub, Şeyx Sədrin könlündə mən
Axir Səfiyəddin olub, vəchində bən an olmuşam.
Sübhan elində Şeyx Əli sirrində bən oldum cəmi,
Hamiddə zahir olmuşam, həmdilə şükran olmuşam.
Çün Haci Bayramə irüb, gizlü ikən zahir olub,
Səkkinədə məxfi olub, Qamində eʼlan olmuşam.
Şeyx Pirəli sirrində bən carib idim, məğrub idim,
İsmailə irdikdə bən Şahi-şəhidan olmuşam.
Кim Həmzədir zənn etdilər zatum, sifatim məzhəri,
Кimi qəbadüzə qiyas etdi ki, qəftan olmuşam.
Məhcub olanlar görmədi, əsli-üsulə irmədi,
Hirə yolu dedikləri mənzildə sərban olmuşam.
Hey neçələr dəʼva edüb, hey neçələr qovğa edüb,
Gahi Ünsüfr ilə Hüsam ismində lərzan olmuşam.
Sandılar neçələr ki, bən İdrisdə zahir olmuşam,
Pozduqda İdris surətin, məʼniya-Кeyvan olmuşam.
Кeyvan gedicək çoq kişi dəʼvayi-bənlik eylədi,
Bu əql ilə həmrah olan əşxisə sultan olmuşam.
Gərçi bənəm bu cümlədə dəʼvayi-bənlik eyləyən,
İsmi-müzəllim hökm edər, bunlarda fəttan olmuşam.
Zatimlə, ayatim ilə, sirri-kəmalatim ilə,
İbrahimin sirrində bən sirri-nümayan olmuşam.
Bilmək dilərsən bəni, İbrahimə ver sən bəni,
Anda təcəlli eylədim, anda nigəhban olmuşam,
İbrahimin yüzin görən bilsün bəni, görsün bəni,
İbrahimin könlündə bən gün kibi taban olmuşam.
İbrahim ilə söyləşən zatimlə söyləşəndürür,
İbrahimi fərq etməyən cahidə heyran olmuşam.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Zatü sifatimdən nişan, mətnü mətin, şərhi-bəyan,
İbrahimin zatində bən can ilə canan olmuşam.
Qütbi-zəman, qövsü cəhan, məqsudi-əmri-künfəkan,
Sirri-zəminü asiman gərdundə gərdan olmuşam.
Həm gövhərü həm kann bənəm, həm ərşü həm rəhman bənəm,
Həm surətü həm can bənəm, nə inü nə an olmuşam.
Mahiyyəti-əşya bənəm, həm ziştü həm ziba bənəm.
Həm əlləmül-əsma bənəm, həm hurü qılman olmuşam.
Gahi görəndə raiyəm, gəh görünəndə mə᾽riyəm,
Gəh eyniyəm, gəh qeyriyəm, gəh eyni-rindan olmuşam.
İncilü Toratü Zəbur gözlər içində gizlüdür,
Sirri-Məhəmmədə zühur nitq ilə Qur᾽an olmuşam.
Ülvivü süfla hər nə var, bəndən olubdur aşikar,
Pərvərdigarü kirdikan Rəhmanü Sübhan olmuşam.
Cüz᾽iyi-küll qamu zatimdürür, zahirdə ayatimdürür,
Hər zərrə mira᾽timdürür, gənci-fərvan olmuşam.
Tövhidim edər hər vərəq, bəndən olur əşya səbəq,
Dildə denilən xəlqü həq nitqimdə yəzdan olmuşam.
Var dedigin, yox dedigin, az dedigin, çox dedigin,
Mütləq müqəyyəd dedigin fəhmində ürfan olmuşam.
Eynindəki qeyrin bənəm, qeyrindəki eynin bənəm,
Rö᾽yadakı seyrin bənəm, eynində seyran olmuşam.
İqrar edən, inkar edən, əğyar edənü yar edən,
Yoq eyləyən, var eyləyən mənnanü dəyyan olmuşam.
Gəh məsti-layəqəl olan, qabilü məqbulu olan,
Əsrar ilə hamil olan əbdalü heyran olmuşam.
Peyğəmbərə ümmət bənəm, qadirdəki qüdrət bənəm,
Fürqət bənəm, vüslət bənəm, gözlərdə giryan olmuşam.
Gögdən Məsihin enməsi, məğribdə şəmsin toğması,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ölmüşlərin dirilməsi, məhşərdə mizan olmuşam.
Şair olan, zakir olan, hər nemətə şakir olan,
Məshur olan, sahir olan, məhbusi-zindan olmuşam.
Peyğəmbərü həm çaryar, əshabi-kəffar hər nə var,
Məxluqü hər şəhrü diyar, hər rəngi-əlvan olmuşam.
Mərvaniyanda surəta, şər'i rəayət eyləyüb,
Həccaci-zalim adlanıb, zülm ilə ədvan olmuşam.
Qur'anı etdim ictihad, şər' ilə etdim çoq fəsad,
Şər'in önün ard eyləyən məzhəbdə ne'man olmuşam.
Gəldikdə Harunərrəşid oldum İmam Yusif ilə,
Həq surətində çox zaman iblisü şeytan olmuşam.
Mə'mun gəlüb bu aləmə, zülm eylədi çox adəmə,
Mə'mun mə'mur eyləyən hökm ilə tüğyan olmuşam.
Çox kimsələr cəbbar olub, də'vayi-bənlik eylədi,
O cümləsində bən deyən avazü nalan olmuşam.
Surətdəvü mə'nadə bən, əsfəldəvü ə'lada bən,
Dünyadəvü üqbadə bən qəmginü şadan olmuşam.
Mülhid denən, zındiq denən, kazib denən, sadiq denən,
Təqlid denən, təhqiq denən, dillərdə dəstan olmuşam.
Cüz'dəvü küldə zahirəm, qüdrət bənimdir, qadirəm,
Əfv eylərəm məcrumları, Fəzl ilə cəfran olmuşam.
Gün kibi zahir olmuşam, hər cüngə nasir olmuşam,
Hər dildə nazir olmuşam, nuri-çiraqan olmuşam.
Zərrati-aləm hər nə var, zatimlə olur aşikar,
Hər mülkü hər şərhü diyar sultani-iyqan olmuşam.
İsa dəmindən bu dəmə seyr eylədim dəmdən-dəmə,
Oldum papaz, oldum keşiş, üzlətdə rəhban olmuşam.
Gəh müfrədü gəh müfrədat, gəh mə'dənü gahi nəbat,
Gahi meyyit, gahi həyat, gəh narü niran olmuşam.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Calinus, gəh fəlisuf, gahi şü’a, gəh xüsuf,
Gəh tale’ oldi, gəh küsuf, gəh bədri-rəxşan olmuşam.
Şiblivü mənsurdə əyan dedim «Ənal-həq» çoq zəman,
Əttar dilində rayökan, pürnəzmi-ürfan olmuşam.
Musavü İsavü Əli, bunlardakı nuri-cəli,
Gahi nəbi, gahi vəli, fəyyazü feyzan olmuşam.
Deyən fütuhati yəqin bəradərimdir, ey əmin,
Ol varidi feyz eyləyən sübhani-rəhman olmuşam.
Sədrin dilində «Fatihə» təfsirini tə’lif edüb,
Mənla fənaridə dəxi elm ilə ümman olmuşam.
Zatimlə qaimdür qamu ərzü səmavət, cənnət-tamu,
Ə’lavü əsfəl həp bənəm, xəlqə nigahban olmuşam.
Mənla dilində «Məsnəvi», Şeyx Gülşənidə «Mə’nəvi»,
Təqrir edən, təhrif edən məktubi-divan olmuşam.
Xəyyam dilində söyləyən, dinin tənasüx eyləyən,
Tapdıqda, Yunisdə deyən mə’niyi-irfan olmuşam.
Mənsurdə «Ənal-həq» deyən, təqdir degil, mütləq deyən,
Əsrar ikən mütləq deyən dillərdə mehman olmuşam.
Surət bənəm, mə’na bənəm, ə’la bənəm, ədna bənəm,
Həm zirü həm bala bənəm, gün kibi taban olmuşam.
Hər surətə mə’na bənəm, hər də’vayə mə’na bənəm,
Cümlə cəhandə mə’nayəm, bən canü canan olmuşam.
Əvvəl bənəm, axir bənəm, batin bənəm, zahir bənəm,
Hər mö’minü tərsa bənəm, inkarü iman olmuşam.
Zərrati-aləm həp bənəm, adəmdə olan hər dəməm,
İbrahimü Ədhəm bənəm, Bəlx idrə sultan olmuşam.
Yunis dilində mə’nilər tə’lifü təsnif eylədim,
Adım Nəsimi eylədim, həm Fəzlü-Yəzdan olmuşam.
İllət bənəm, mə’lul bənəm, fail bənəm, məf’ul bənəm,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Mərdudü həm məqbul kim, çarərkan olmuşam.
Zatim sifatidir cəhan, bəndən mə'lul kövni-məkan,
Məqsudi-əmr kunfəkan cani-cəhanban olmuşam.
Məcnun ilə Leyli bənəm, Vamiq ilə Əzra bənəm,
Həm dünyavü üqba bənəm, hur ilə qılman olmuşam.
Surətdə surət olmuşam, seyrətdə seyrət olmuşam.
Vacibdə vacibdir adım, imkanda imkan olmuşam.
Hər ləhzə bir surət ilə zahir olur hökmüm bənim,
Hər an, hər nəfəs birəngü rəngan olmuşam.
Həqqiyətəm, bu sözləri xəlqiyyətimdə söylərəm,
Həqqiyətəm, xəlqiyyətəm, zülmətdə canban olmuşam.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## SƏFƏVİYYƏ PADŞAHLARI

**Şah İsmayıl Əvvəl** – igirmi iki il padşahlıq eylədi.
**Mir Nəcm** – vəkilüssəltənə və etimadüddövlə.
**Div Sultan** – qorçibaşı.
**İbrahim sultan** – tüfəngçi ağası.
**Əli sultan** – qullar ağası.
**Yarəhməd Xuzani** – eşikağasıbaşı.
**Şah Təhmas** – Əlli beş il İranda fərmanfərmayi-mülki-İran oldi.
**Mirzə Abdullah** – etimadüddövlə.
**Hüseyn xan Şamlu** – qorçibaşı.
**Budaq xan** – tüfəngçi ağası.
**İsgəndər xan** – eşikağasıbaşı.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**Şah İsmayıl Sani** – bir il altı ay padşahlıq və fərmanfərmayi-mülki-İran oldi.

**Sultan Məhəmməd** – on səkkiz il padşahlıq etdi.

**Mirzə Süleyman** – etimadüddövlə.

**Əmir xan** – qorçibaşı.

**Murtəzaqulu xan** – eşikağasıbaşı.

**Müseyib xan** – tüfəngçi ağası.

**Bayram xan** – qullar ağası.

**Ədhəm xan** – mirşikarbaşı.

**İsmi xan** – miraxurbaşı.

**Şah Abbas Mazi** – qırq üç il padşah idi.

**Zeynal xan Şamlu** – qorçibaşı.

**Mürşidqulu xan Ustaclu**

**Xəlifə sultan** – etimadüddövlə.

**Mirzə Əbu Talib** – etimadüddövlə.

**Zülfiqar xan** – eşikağasıbaşı.

**İsa xan** – qorçibaşı.

**Qırçğay xan** – sipəhsalar.

**Əliqulu xan** – tüfəngçi ağası.

**Mehdiqulu xan** – miraxurbaşı.

**Məqsud bəg** – nazir.

**Zeynal bəg** – tuşmal başı.

**Şah Səfi** – on iki padşahlıq etdi.

**Talıb xan** – etimadüddövlə.

**Çırağ xan** – qorçibaşı.

**Xosrov mirzə** – qullar ağası.

**Əbülqasım bəg Evoğli** – eşikağasıbaşı.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**Zeynal xan** – sipəhsalar.
**Zaman bəg** – tüfəngçi ağası.
**Yusif ağa** – mirsikarbaşı.
**Nəqdi bəg** – fərraşbaşı.
**Xələf bəg** – nazir.
**Şah Abbas Sani** – igirmi dört il padşahlıq etdi.
**Mirzə Təqi** – etimadüddövlə.
**Cani xan** – etimadüddövlə.
**Qələndər sultan** – tüfəngçi ağası.
**Rüstəm xan** – sipəhsalar.
**Mürşidqulu xan** – eşikağasıbaşı.
**Əmir xan** – qorçibaşı.
**Əliqulu bəg** – divanbəgi.
**Siyavuş xan** – qullar ağası.
**Mirzə Tahir** – vaqiənevis.
**İmamqulu bəg** – cəbhədarbaşı.
**Nəcəf bəg** – miraxurbaşı.
**Şah Süleyman** – igirmi beş il padşah və fərmanfərmayi-mülki-İran idi.
**Mirzə Tahir** – etimadüddövlə.
**Saru xan** – etimadüddövlə.
**Zal xan** – qullar ağası.
**Rüstəm xan** – sipəhsalar və tüfəngçi ağası.
**Musa xan** – topçibaşı.
**Şah sultan Hüseyn** – igirmi yeddi il padşah idi.
**Məhəmməd Mömin xan, Fəthəli xan** – etimadüddövlə.
**Nəzərəli xan, Məhəmmədqulu xan, Musa xan** – tüfəngçi ağası.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**Məhəmməd Zaman xan** – eşikağasıbaşı.
**Şahquli xan** – qorçibaşı.
**Nəzərəli xan, Musa xan, Fəthəli xan** – qullar ağası.
**Nəcəfqulu bəğ** – fərraşbaşı.
**Məhəmməd Zaman, Girgin xan, Xosrov mirzə, Aslan xan, Nictan xan** – sipəhsalar.
**Fəthəli xan, Əhməd ağa** – mirşikarbası.
**Musa xan, Mahmud ağa** – naziri-büyutat və sərkari-xassei-şərifə.
**Şah Təhmas Sani** – on bir il padşah idi, ondan Məşhədi-müqəddəsə getdi, oğli padşah oldi.
**Mirzə Məhəmməd Hüseyn** – etimadüddövlə.
**Mir Fərəcüllah** – etimadüddövlə.
**Əhməd xan** – qullar ağası.
**Məhəmmədrza xan** – eşikağasıbaşı.
**Məhəmmədquli xan** – tüfəngçi ağası.
**Təhmas xan** – qorçibaşiyi-İran.
Səce-begiyti-sikkeyi-sahibqirani-Zəd əz tofiqe-həqq Təhmasi-sani.
**Şah Abbas Salis**
**Səriri** – səltənətra gəşt varis,
Qulame-Şahi-din Abbasi-Salis.
Sikkeyi-bər zər zəd betofiqe-Allah dər cəhan.
Zilli-həqq Abbasi-salis saniyi-sahibqiran.

## Bundan sonra Mir Veys Qəndəhar almağın bəyan eylər

Belə məzkurdur tarixdə ki, Şah Sultan Hüseyn Musəvi Səfi Bahadır



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

xani xəllədullahü mülkahü ki, Girgin xan valiyi – vala – cahi – Gürcüstanı bəqlərbəgiyi – Qəndəhar edüb Darül – qərarə göndərdi ki, ol sərhəddə fərmanfərmayi – vilayəti – Darül – qərari – Qəndəhar olsun. Girgin xan pabusimənsəbdən sonra xəllai – faxiriyə sərəfraz olub İsfahandan hərəkət edüb Qəndəhar tərəfə rəvanə olub getdi. Ol sərzəmində hökümətə məşğul oldi. Belə məzkurdur ki, Qəndəhar ətrafında el və ehşamat çoqdur.

Misli: Hezarə və Bəluc və əfqan və Əbdali, ol cümlədən Mir Veys adlu ki, əfqan sultani ki, Qəndəhar qülbəgisi idi, əhvali – ziyadə əz həd və həsr onda var idi: Xəyali – fasid və zünuni – batil edüb bu xəyalə düşdi ki, bəglərbəgini dəf edüb Qəndəhari təsərrüf götürüb, mən həm padşah oluram. Zira ki, Qəndəhar təvabei – qədimdə bir padşahnişin yer imiş. Çün Mir Veys bu xəyalə düşdi, bir müddət bu tədarük və xəyaldə olub öz qoşununun amədə eylədi.

Belə məzkur edüpdürlər ki, Qəndəharın bir ağaclığında bir bağidilgüşa və rövzeyi – fərəhəfza vardır ki, ildə bir dəfə bahar fəsli bəglərbəgi ol bağa gedüb qırq gün onda zövq və işrət edüb yenə qələyə müraciət edirdi.

Gün bahar mövsimi olub alicah bəglərbəgi ki, Girgin xan olsa, qələdən hərəkət edüb ol bağə seyr üçün getdi, Mir Veys ol fəsli bilürdi, ləşkəri – amadə ilə ol bağ həvalisinə gəlüb bərk yerlərdə sığnaq edüb durdi.

Bir gün ki, həva nəhayət işığ oldi, Girgin xan gündüz hazirini sərf edüb xəlvətxanəyə gedüb istirahatə məşgul oldi. Sayir mülazimlər gürcidən və Qəndəhar mülazimidən təh arxalıq və təh pirahən ağaclar kölgəsində, bəzi uyxuda, cəmi ayağın uzadıb laübali fərağət və istirahatdə idi.

Mir Veys fürsət qənimət bilüb cəmi qələyə gedən dört yolda qoydi ki, kimsə qələyə xəbər apara bilməyə ki, məbadə imdad gələ. Özi cəmi



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

kəsir ilə ol bağa tökülüb bekoş – bekoş, qırha – qır onlarun arasına salub cəmi kəsiri gürcidən və Qəndəhar qızılbaşından şəhristani – ədəmə götürdü. Bəglərbəgini həm ol girüdardə tiği – bidəriğ ilə şəhristani – ədəmə götürdilər. Dəxi bir başı diri adəm onda qalmadı.

Ondan Mir Veys, vəqti ki, axşam oldi, təmam əsbab və əsasə və karxanəcati – Girgin xan və qeyrini götirib qələ tərəfinə rəvanə oldi. Qələ xəlqi uzaqdan gördilər ki, məşəlhayi – düsəri, se – səriyi – nöqrə pişa- piş gəlməkdə, bunlar xəyal eylədilər ki, bəglərbəgidir. Qələ qapusin açub, Mir Veys qələyə daxil oldi. Hər kim ki, qələdə başı diri idi başın qələyi – bədəndən götürdi. Ondan sonra qələdə başı diri idi başın qələyi – bədəndən götürdi. Ondan sonra qələdə mütləqülənan oldi.

Bu xəbər İran padşahı Şah sultan Hüseynə yeişdi. Buyurdi ki, Xosrov xan İsfəhan darügəsi sipəhsalar mənsəbinə sərəfraz olub xələti – faxirə verüb otuz min qoşun, dü əsbə, dü şəmşirə təmami sahibi – əhval və ərbab, əksəri əmiri azadə, xan və sultan idi; onun ilə belə tədarüki – əzim görüb İsfəhandan nəqli – məkan edüb Şah bağında neçə gün qaldı ki, sərhədlər qoşuni gəlüb onda cəm olub ondan Qəndəharə rəvanə old. Padşah yetmiş min tümən xəzinədən bir təhvidar təyin edib verdi, sipəhsaları bilə göndərdi ki, hərgah ehtiyac ola Qəndəharda qoşuna təqsim ola.

Ol alicah Xosrov xan əzəməti – təmam və həşəməti – balayi kəlam ilə teyyimənazil və qəti – mərahil edüb, ta bir müddətdən sonra Qəndəhar qələsinün həvalisinə yetişdi.

Ximə və xərgah dü – səri, se – səri qələndari, aşxanə, quşxanə, fərraşxanə, həmmam və mətbəx bərpa etdilər. Əlvan və əqşam çadırlar ilə səhranı nigarxaneyi – Çinə döndərdilər. Qırq gün onda qaldılar ki, hər gün cəngü cidal idi. Gündə qələyə yüriş edilərdi. Az qaldı ki, qələ xəlqi əmanə gələ ki, əz qəzayi – rəbbani və təqdiri – asimani mərəzi – taun təvayifi – qızılbaşə ariz oldi ki, ordu xəlqindən afitab be afitab üç



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

yüz, dört yüz adam tələf olurdi. Bu səbəblə qızılbaşdan az adam qaldı ki, onlar həm xəstə və bimar idi.

Mir Veys fürsət qənimət bilüb bir gecə onlara şəbxun gətürib, sipəhsaları öldürüb, qalan əskəri ki, xəstə və bimar idi, qılıncından keçürdilər. Tamam əsbab və əsabeyi – sipəhsaları və sayir xəvanin və səlatin karxanəcatın və sayir ləşkərün çadır otağın və padşah göndərən xəzinəni Mir Veys hiyteyi – təsərrüfə gətürdi. Mali – movfur ilə ki, mühasibəni – məmalikidaniş onun hesabından aciz olalar, hiyteyi – təsərrüfünə gəldi. Ondan Darülqərarə gedüb qələdə mütləqülənan oldi, öz adına sikkə çaldurdi.

Sikke – zədd dər qəleyi – darülqərari – Qəndəhar,
Bəndeyi – şahi – vilayət Mir Veysi – naimdar.

Çün əmvali – ziyadə Ərşəd Mir Veys əlinə düşdü şadi – mərq oldi. Ondan sonra Mahmud ki, Mir Veys Ərşad övladi idi, atasının yerində fərmafərmayi – külli – vilayəti – Xorasan oldi.

Mali – movfur və nüqudi – bişümar qoşuna təqdim edib, ləşkəri – dəryamövc cəm edüb İsfəhan amağa azim olub Darülqərari – Qəndahardan, biyabani – Lutdan İsfəhan tərəfə rəvanə oldi.

Bundan sonra Mahmudun gəlməsi və İsfəhan Həvalində cəng etməsi və şəhər[i] mühasirə etməsi və İsfəhanı almağın bə\yan edər.

Qəti – mənazil və teyyi – mərahildən sonra gəlüb Gəlünabaddə ki, İsfəhanün dört ağaclığıdur, sakin oldi. Əqşam çadırlar, qırmızı, yaşıl, saru, jənqari, bənəfş bərpa etdilər. Bu xəbər İsfəhan şəhərində şaye, olub, padşah buyurdi, təmami-üməra, xəvanin və səlatin ləşkəri-dəryamöve ilə şəhərdən hərəkət edüb, gəlüb Gəlünəbad kəndinün bərabərində iki tərəfdən səfaralığa durdular. Nov – xətt və qəvibazu igitlər səfi – sipahda yerürdilər. Qəmzeyi – bütani – xunxar kimi duş bər bəduş durdilər. Sədayi – təbli – cəngizəlzələ dəştü kuhə saldılar.

O gün fələk heyrət göziylə qatı baxırdı ki, aya bu gün qəbayi –



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

nəkbət əqninəkim geyər və taci – dövlət kimin başına qoyular? Qansı pəhləvanun atı meydani – karzardə licamkəş rəvanə olur? Əcəl uzaqdan o mərəkeyi – purşurə müşahidə edürdi. Əngüşti – heyrət dəndani – təfəkkürə gəzidə edib, iki tərəfdən mübarizlər səlabət gözilə meydanə baxılardı ki, aya qansı- namdar səbqəti – meydan edüb öz mərdanələqin zahir edür? Кi, gördilər səfi – sipahi - qızılbaşdan aliqədr və əlamiqdar Məhəmməd Hüseyn xan, bəglərbəgiyi – Həmədan, məhmizi – xara mərkəbi – səbarətari – bərqkirdarə aşna edüb meydanə cövlan verdi. Təriqi – meydani – nəbərdi yerə yetürib mərd tələb eylədi.

Hezarə sultanı  ona səri – rah dutub, bir-birinə həmləavər oldilar. İki saət qədri nizəvərliqə məşğul oldiləərb

Nəzm

Do neyze, do bazu, do ərde – dəlir,
Yeki çün pəlәngo yeki nərre – şir.
Do nər əjdahovo pərkəre – divbənd.
Behəm əz səre – xəşm hey bərzədənd.
Hər do bər əbrovan xəm əfkəndənd.
Neyze bir neyzeye – həm əfkəndənd.
Hər dora atəş əz sinan micəst
Hər çe in miqoşud an mibəst.

Ol iki namdari – cahan bir nizədarlıqeylədilər ki, çərx əngüşti-heyrəti-dəndani-təfəkkürə döndü.

Çün nizədarlıqda kami – dilləri hasil olmadı, hər ikisi əlin qövsü qüzehkirdar yaylara urdilər. Guya əjdahayi – xabidə ğarun çəkdilər və xədəngi-oxlar şahmar kimi tirkeşdən çəküb, hisseyi-kəmanə qoydilər, bir-birinə Urdilər. Belə ki, fələkdə mələklər əhsən gətürdilər. Ol qədər bir-birin tirbaran eylədilər ki, tirkeşlər kasiblər kisəsi kimi boş oldi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ondan əlin qayimeyi-tiği-abdarə urub bir-birinə qılıc urdilər.

Məhəmməd Hüseyn Hezarə sultanın şəhristani – ədəmə göndərdi. Ondan qardaşı ona səri – rah dutdi. Oni həm qəriqi – bəhri – fəna eylədi. Oğli gəldi, qılıcdan keçürdi. Əlhasil toquz adam o gün bərtərəf eylədi.

Nagah bir namərd uzaqdan bir gülülə xani-alişanə urub, sinəsinə toqunub, arqasından keçüb, atdan sərnigun olub xakdani-dəhrə düşdi, canişirindən əlin yuyub, tamaşayi-aləmi fəramuş eylədi.

Nəzm

Gözlin yumdi təmaşayi – cahandan,
Fərağət buldu qovğayi – zamandan.

Çırağı-ruhin söndürüb mənzili-vücudin vadiyi-ədəmə göndərdilər. O gün sabahdan ta axşam cəng edüb, çün aftabi-aləmtab pəri-çar tariməğribə çəkdi, şəbi-tirə əl üstə gəlüb noxətt igitlər içün siyahpuş oldi. Gün ol mərəkeyi – püraşub müşahidəsindən bitab olub, ahəngi – məğrib edub zəmanə zülmətə həmrəng oldi, simirği – zərrincinah əzmi –aşiyaneyi – məğrib edüb qürabi – şəbi – siyah çöhreyi – bali – zülməti ətrafi – cahaniyanə çəkdi.

Nəzm

Günün peymanəsi doldi,
Şəfəq birlə üfüq ləbbər ləb oldi.

Çün şəbi – tirə aşkar olub, iki tərəfdən namdarlar cəngdən əlin çəküb, ümərələr şəhərə müraciət edüb, əfqan cəmaəti onda sakin olub, ətrafi – İsfahanf negini – əngüştər kimi arəyə aldılar: qoymadılar ki, hiç



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

tərfədən imdad şəhərə daxil ola.

Mahmud ləşgəri gündən – günə artuq olurdi. Cəmaəti – ovbaş və əcamirə ziyadə əz həddü – həsr Mahmud ləşgərinə mülhəq oldi.

O gecə ta tülui – sübh iki ləşgərün namdarları gög ulduzi kimi oyaq idilər. Yaraq və əsləhələrin tiz və pak edirlərdi. Yayların atəşkarlıq edilərdi. At, yaraq və əsbabın dürüst edüb, bu növ ilə tədarük aralarında var idi. Bicigərlər şəbi – tardə deyilərdi ki, ey gecə, uzun ol və ey gün, tülü etmə.

O gecə bir gecə idi ki, namdarlar başı balini – istirahət görmədi; pəhləvanlar ki, savaş günün zifaf gecəsi kimi bilirlürlərdi, müntəzir idilər ki, aya haçan sabah olur ki, öz mərdanələqin xəlqə zahir edə.

Ta ki, müqtəzayi – mürurі – zəmanilə əsəri – sefidiyi - sübhi – sadiq – daməni – məşriqdən aşkar olub, aftabi – nurani çün yaquti – zəmani guşeyi – üfüqdən zahir oldi, padşahi – fələki – çarümtəxti – firuzfamə qədəm basub rübiməskuni öz nuri – tələti ilə münəvvər və müzəyyən eylədi. Neyyiri – əzəm və ətyəbəxşi – aləm məşriqdən xuraman olub kuhhayi – purpələng və dəryayi – purnəhəng mələki – bafərhəng əmrilə dəriçei – xərçəngdən nümayan olub, ulduzlar onun əzimətin görüb rəiyyətlər kimi ki, padşah kövkəbəsindən qorizan olalar, tamam ulduzlar kətmi – ədəmə pünhan oldilər. Sultani – əncüm raəyəti – ətləs təriqi – əflakə çəkdi. Şəfəq padşahi səyyarə gəlməgindən xəbərdar olub asimanı fəraş etdi. Zali – fələk buyurdi ki, fərraşi – qəza şəşəəyi – carub ilə tozi şarei – səməvatdan carub etdi. Abi – səfa paşidə edüb yaquti – çadüri – üfiqə urdi. Payəndaz içün qırmızı atlas gög yüzünə çəkdi. Ulduz ləşgəri günün cilovində ikən qürub etdilər. Bu əsnadə işıq ələmlər bami-fələkə urdilər və qırmızı və qara və aq və xakistərirəng getəllər bulutdan pişapiş çəkdilər ki, nagah padşah ki, səvar atlanub əbləqi – zərrin taci – zər üstə urub ki, onunşüai aləmgir oldi, ərəseyi – cahanı purnur idi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Günün darəməd, bəraməd vəqtindən sonra ləşkər fövc – fövc, mövc – mövc bəhri – əxzər kimi mövczənan şəhərdən çıqdı.

Mahmud həm xəbərdar olub, gəlüb bərabərdə səf çəkdilər. Hər kimini bir əminə, hər rahi bir rahdarə, hər guşəni bir  sahib – tuşəyə sipürdə eylədilər. Ələmhayi – sürx və zərd, səfid və siyah, kəbud və səbz və bənfş cilvəyə gətirdilər. İki tərəfdən sədayi-kusi-hərbi və naleyi – nayi – rəzmi, dəmamə, dəholi, təbli – rəzm iki tərəfdən bir şiddət ilə nəvazişə gətirdilər ki, kuh və dəştü – biaban lərzəyə gəlüb vəlvələzəminü – zəmanə düşdi.

Nəqibani – xoşavaz və çərçiyani – xoşsəda qədəm ərseyi – meydanə qoyub, pəvləvanları cəngə təhris edilərdi. Derlərdi ki, cəng günidir, cəng edin ki, ta niknamlıq ələ gətürəsiz və bu dəryayi – xunxardə qutəvər olun, ta mirvarid ələ gələ.

Çün bu səda bülənd oldi, namdarlar guşə və kənarda cəngə məşğul oldilər. Cəngculər sinani – cansitan ilə pəhləvanları dəf edirlərdi və tiğiatəşfişanilə dəmari – düşmənün ruzgaridən çəkərlərdi və tüfəng və cəzayir iki tərəfdən tiri – şəhab bir –birə urub gögdə dolu yaqan kimi tüfəng gəlüləsi bir –birinə yaqdurlardı.

Xəlqün başı çövqan kimi yerə düşdi. Yərəqlarun bərqabərqindən ulüləbsar gözi xirə olmuşdi. Toz və qübardan gün şəbi – tar  kimi olmuşdi.

Alicah Rüstəm xan, qullar ağası bir məst kimi ki, çaxıra düşə, ya odi ki, qəmişliqə düşə sadiyi – bəzm – rəzm olub kimin başına, kiminin kəmərinə donim – donim, qələm – qələm köstərlərdən pöstələr behəm eylədi və qullar ac qurt kimi ki, bir qoyun sürüsinə rast gələlər, düşmən arasına düşüb bir bekoş – bekoş saldılar ki, Mərrixi – fələk əngüşti – heyrət dəndani – təfəkkürə gəzidə eyləmişdi. Asiyayi – nəbərd gərdişə gəlüb mübarizlər başın xurd eyləməqə başladı.

Bu vəqtdə ki, oğlu atadan pərva etməyüb və ata oğlu öldürməginə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

cari olub pərva etməzdi ki, nagah səfi-sipahi-düşməndən bir namərd bir tiri – zerəng və xədəngi – zərnişani – üğabpərvazi müşti – hisseyi – kəmanə qoyub qızılbaş tərəfinə atdılar. Nagah ol tiri – qəzai – məzərrət və peykani – xara – şikafi – sindan – güzar alicah qullar aqası sinəsinə dəgüb, ta parü süfar – neşit edüb arxasından yəlman göstərdi. Ol kuhi – şükuh yeli atdan mərəkeyi – meydanə düşdi.

O gün qul taifəsi bir mərdanəliq eylədilər ki, vəsfə gəlməz və şərhə rast gəlməz. Ol qədər cəng oldi ki, axşam yaxun oldi. İki tərədən təbli – asayiş nəvazişə gətürüb bir – birdən cüda oldilər. Hər kəs aramgahına rəvanə olub getdilər.

O gecə həm aram edüb ələssabah ki, afitabi – aləmtab be – səddi – abtab divanxaneyi – məşriqdən aşikar olub öz nuri – tələtilə aləmiyanə işıq saldı və nur və ziya və bəhasin müqimani – dari – dünyayə bəxşidə edüb sədayi – «atlan, atlan!» iki tərəfdən bülənd olub, iki ləşgərdən mübarizlər yüz meydani- karzarə qoydular.

Çün iki qoşun bir –birə yaqun gəldilər, təsfiyeyi – süfufə məşğul oldilər. Çün iki canibdən səf arəstə oldi rədi – səda toplar iki tərəfdən xali edüb, ondan, iki ləşgərdən nə qədər tüfəng və cəzayir ki, mövcud varidi dəfəyi – xali edüb gəlülə, dolu yaqan kimi tüfəngdən gəlülə iki əskərə yaqırdı. Təbli – cəng və kusi – hərbi və top və tüfəng səda-sından qulaqlar dutulub zəminü – zəman lərzəyə gəldi. Gög üzin tütün basdı. Ondan sonra ki,tüfənglər xali oldi, təvayifi – qızılbaş ol qayimeyi – tiği – abdarə qoyub birdən «Allah» çəküb əfqan ləşgərinə hücumavər oldilər. Bir cəmi – şahin ki, xeyli – zağə rast gələ, onlarun vücudin rizə – rizə edüb neçə min adamların şəhristani – ədəmə göndərdilər. Fəzayi – dəşt və hamun xəstə və köştədən dağ və pöştə kimi oldi.

İki tərəfün bahadırları əl qayimeyi – tiği – abdarə qoyub bir – birinün qətihəyatın edirlərdi. Sinani – düşmən şikarları eylədilər. İki dəryayi – ləşgər mövczən olub hizbirlər sədası ovci – fələkə yetişdi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Mübarizlər guşə və kənarda cəngə məşğul oldilər. Əlvan və əqşam ələmlər şiqqələrin açub cilvəyə gətürdilər. Hərbi – hövlnak və nəbərdi – səbnak ol dərdi, atəşi-fəna xirməni – adiyə urdilər.

Qızılbaş əskəri bir sipah idi ki, əcəli – müəvvəd kimi, hiç növ ilə cəngdən dönməz və qəzayi – mübrəm kimi ki, hiç qismilə dəf olmaya, şirijəyan kimi düşmən vücudin xarü – xaşak kimi badi – fənayə verdilər.

Əsakirizəfərnişan, xizlani – təvaman, bəhri – əxzər kimi cuşü xüruşə gəldilər. Ol qədr toz fələkə bülənd oldi ki, həva – tirə zəminü – zəman siyah oldi.

Aşubiasaiyayiləri gərdişə gəlüb cəng edənlərün başın xord eyləməgə başladı. Ruzigar əl yüzindən yudi. Gün ol səvaş heybətindən saraldı və səri – kəlafəni itürdi. Yer atlarun səsindən lərzəyə gəldi. Qiyamət aşkar olub, rəhm könüllərdən götürüldü. Qan sel – misal rəvan oldi. Əcəl ol mərəkeyi – pur – aşubdən sərasimə olub rahi – qoriz tapa bilmədi.

Əcəl can almaqdan bezar olmişdi. Qılıc namdarlar əlində qan çoqluqundan yapuşmişdi. Pəhləvanlar məlum degil idi ki, zirehpuşdur, ya ləlpuş. Cəngculərün rəng rüxsarindən uçmuşdi. Pəhləvanların əli qılıc urmaqdan qabarmışdı. Qılıclar ərrə kimi dəndənə bəhəm eyləmişdi. Yaylar həllac yayə dönmişdi.

Zali – fələk qürfeyi – eyvani – sepehrdən ol mərəkeyi – meydanə nəzər edüb ol savaşı müşahidə edirdi. Belə səbnak savaş yüz verdi ki, rüzgar guya insandan xali olmalu oldi. Başlar ki, fələkə baş endirməzdi, torpaqda xarüzar düşmişdi.

Bəsa arzular ki, növki – sinanü – xəncər könülllərdən çıqardı. Кus sahib – avazələr içün sinə – sinə urdi. Sibx pəhləvanlardan ötrü kəfi – əfsus köşteqan, neylim – neylimi – biçareqan, hay – huyi – namdaran, qaç – qaçibiçiqəran fələkə səda içində olmuşdi. Cün ol mərəkeyi – puraşub hövlindən bitab oub rəngi – zərd ilə tərşan və lərzan çahşari – məğribə azim oldi. İki tərəfdən təbli – aram nəvazişə –gətürib hər kimsə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

öz məkaninə müraciət eylədilər.

Hasili – kəlam bu ki, ta toqquz ay ki, şəhər mühasirədə idi, otuz savaş eylədilər. Mahmud ləşgəri gündən – günə artuq və padşah qoşini gedə – gedə əksük olurdi. Ətraf və cəvanibdən qoymadılar ki, bir adam şəhərə daxil ola, ya azuqə aparalar.

Şəhər xəlqi ki, adətləri bu idi ki, gündən, kəndlərdən azuqə gəlüb sərf olurdi, çün şəhər mühasirə oldi, ətrafdan azuqə şəhərə gəlmədi. Nə qədər azuqə var idi sərf oldi. Ondan şəhərə qəhətlik düşdi. Xəlq zaviyeyei – möhnətdən mötəkifi – beytülaxiran olub nəvayibi – möhnətdən baş zanuyi – təfəkkürə qoydular. Cüz pəlasi – iflas geymədi və dərddən qeyri kaseyi – yasdan nuş etmədilər.

Qəhətliq bir mərtəbədə oldi ki, təmami – xəlayiq həlakətə yetişüb ədəm yolin dutdilər. Sipahi – aclıq məmləkəti – qənaətə taxt götürdi, ləşkəri – səbri mütəfərriq eylədi. Aclıqdan cəmi – kəsiri tələf oldi. Nazimanidürəri – asar və naşirani – səfayehi – əxbar belə buyururdular ki, həzrət rəsulüllah səllalahu əleyh və sələm qəzveyi – Uhuddan o cəhətdən şikəst tapdı ki, xatiri – mübarəkə ki, aftabi – sipləhri – hidayətdir məlum ola ki, əyyamidövlət dəvami olmaz və məcariyi – əyyam kimsə arzusunca getməz. Əgər rayəti – əhli – islam bir dəfə nüsrət tapmadı, o səbəbdəndir ki, mömin və münafiqdən imtiyaz oldi və bir cəmii – xəvassdən izzi – şəhadətə fayiz olalar, bişübhə fərmani – ilahi buna caridür ki, ruzgar bir halda qalmaz. Səhhəti mərəz müqabiləsində təsəvvür edüpdürlər ki, biri mövcibi – şükr və biri səbr peşə edə. Həzrəti – Süleyman əleyhis – səlamun özü ki, div əlinə o səbəbdən düşdi, ta özgələr həvadisi – ruzigardan münfəil olmayalar. Həzrəti –Yusif əleyhissəlam əsirliqə o səbəbdən düşdi, ta xəlayiq vüquyi – bəlayatdan şərməndə olmayalar.

Hasili – kəlam bu ki, şəhər xəlqi aclıqdan taqətləri taq, xəlqün çoqi bərtərəf olub, bir qəlil cəmaət ki, qalmışdı, onlar həəəəm nimcan idi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Şəhər xəlqi labüd və laəlac qalmayub şəhəri Mahmud təsərrüfünə verdilər.

Çün Mahmud şəhərdə fərmanfərma oldi, Şah Sultan Hüseyni məhbus eylədi. Rəcəbəli bəg ki, Şah Sultan Hüseyn əyyamında fərraşbaşı idi. Şah Təhmas ki, Şah Sultan Hüseyn oğludur, İsfəhandan Qəzvinə apardılar.

Darüssəltəneyi – Qəzvində Şah Təhmas cülus eylədi. Ondan qoşun cəm eyləmək üçün Qəzvində Təbrizə getdi.

Mahmud eşitdi ki, Şah Təhmas Qəzvində cülus edüpdür. Qoşun Qəzvinə göndərdi ki, Şah Təhması dutalar. Əfqan Qəzvinə gəlüb Qəzvini mühasirə eylədi. Altı ay Qəzvin mühasirə oldi. Axirüləmr əfqan Qəzvini aldı. Seydal əfqan onda hakim oldi.

Çün padşah Təbrizə getdi, Mir Fərəcülla xan etimadüddövlə və Murtəzaqulu xan qorçibaşı, Əhməd xan qullarağası və Məhəmmədəli xan nazir oldi. Hacı Əliqulu xan İrəvanə hakim eylədi. Şah Təhmas Təbrizdə durdi ki, qoşun tədarük edüb İsfəhan almaqına gedə.

## Bundan sonra Təhmas xan Xorasanda tərəqqi etməgi və Məlik Mahmud Məşhədi – Müqəddəsi almaqı, tatar cəmaəti gəlüb mərv qələsin almaqın bəyan edər

Belə məzkur edüpdürlər ki, Məlik Mahmud ağalığı Sistanda var imiş. Kəyan padşahlarının övladından gəlüb Məşhədi – müqəddəs şəhərin təsərrüfünə gətürdi.

Rzaqulu xan ki, Əbivərd hakimi idi, bu xəbəri eşidüb gəlib Mərv qələsin alub onda hakim oldi. Nədirqulu ki, Rzaqulu xan Əbivərd hakiminun eşikağası idi, Əbivərd xəlqin keçürib, ol həvalidə bir sıqınaq var idi, Kəlat derlərdilər, dağ idi ki, bir yolu var idi uc tərəfində. Dağa çıqmaqa mümkün degildi. Ol sınaqın on dört ağac eni və on beş ağac



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

uzuni idi. Çeşmələr və karizlər onda ziyadə əz hədd var. Əkin – tikinləri onda həm yaylaq və həm qışlaq var idi.

Üç – dörd yüz atlu behəm olub taxt və tarəcə şüru eylədilər. Xorasan mülkindən, çün inqilab çox idi, xəlq yeri bi əmin görüb onda getdilər, ta ki, otuz min ev onda gəlüb cəm oldi.

Hər kim ki, Məlik Mahmuda tabe idi, Nədirqulu gəlib taxt və tarac edirdi. Bu xəbər Şah Təhmasa yetişüb Əbivərd və Mərv imarətin Nədirquluya buyurub, ona şəfqət edüb, rəqəm və xələt geyindirüb adın Təhmas xan qoydi. Təhmas xan Xorasanda məşhur oldi.

## Bundan sonra Fəthəli xan Qacar qoşun cəm etməgi və padşah yanına gəlməgin bəyan edər

Əmma Şah Təhmas əhməd xan qullarağasını Mazəndaranə göndərdi ki, Mazəndaran vücuhatın cəm edüb Qacar elindən nökər dutub, ondan gəlüb İsfəhanı alalar. Əhməd xan Mazəndaran vücuhatın cəm eylədi, Qacar elindən on min adam nökər dutdilər.

Fəthəli xan Qacar ki, Astrabad hakimi idi, o həm on iki min qoşun ilə hərəkət eylədi. Xəbər Şah Təhmasa yetişüb Tehrana getdi. Fəthəli xan həm onda qoşun götürüb qəzvinə getdi. Qəzvini aldı. Padşah həm Tehrandan qəzvinə getdi. Neçə gün orda qaldı.

Fəthəli xan padşaha ərz eylədi ki,imdi qışdır, İsfahənə getmək səlah degil, Astrabadə gedəlim. Astrabadda qışlayub, qoşun tədarük edüb, bahar fəsli İsfəhan almaqına gələlim.

Padşah bu məniyə razı olub Qəzvindən hərəkət edüb Astrabada getdilər. Fəthəli xan ləşgər cəm edüb, xəbər gəldi ki, Məlik Mahmud Məşhədi aldı. Padşah buyurdi ki, əvvəl gəlüb Məşhədi alub, ondan Qücanda, kürdi eli çoqdur. Onda nökər dutub İsfəhan almaqına gediruq. Bu binanı qoyub Astrabaddan hərəkət edüb Qucana getdilər ki, onda kürdi eli çoqdur.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Kürd xanı Nəcəfqulu bəg adlu idi. Padşah xəyal eylədi ki, Nəcəfqulu bəgi bərtərəf etdirrəm, kürdi eli mənə müti olur, deyüb Nəcəfqulu bəgi xəlvətə istəyüb, buyurdi, boynin urdilər. Kürd xəlqi mütəfərriq oldi.

Bu vəqtdə Təhmas xan Əfşar qoşuni ilə onda gəlüb Şah Təhmas pabusinə müşərrəf oldi. Padşaha ərz edüb, Məhəmməd Hüseyn bəg Kürdi onlara hakim edüb, kürd xatircəm olub, padşah yanına gəldilər. Ondan qoşun cəm edüb Məşhəd almaqına rəvanə olub getdilər.

Qəlvə yaxunliqində bir bağ var idi ki, bağı – Xacə Rəbi derlərdi. Onda nüzul eylədilər. Fəthəli xan Qacar padşahun vəkili idi. Hər gündə qələdə cəngi – nümayan edirlərdi. Fəthəli xan gördi ki, Təhmas xanun qüvvət və qüdrəti çoqdur, istəmədi ki, Məşhəd almaqı Təhmas xan adı ola. Padşaha ərz eylədi ki, bizüm bunda duurmaqımız səlah degil. Yaxşıdır ki, Astrabada gedəlim, qış onda qalub, bahar fəsli gəlüb Məşhədi almaq mənim boynumda. Bu söz padşaha xoş gəlmədi; Fəthəli xan Təhmas xana dutdirdi. Təhmas xan onun boynin urdi, padşaha göndərdi.

Məlik Mahmudun bir sipəhsaları var idi. Pur Məhəmməd xan adlu. Bundan sabiq Təhmas xan ilə aşina imiş. Ona sifariş göndərdi ki, sana zahirdür, hər vəqt ol şəhəri biz təsərrrüfə gətürürüq; ondan ötrü ki, bizüm qüdrət və qüvvətimiz gündən – günə artuq olur. Sizün həm gücünüz vəhəm xörəkünüz gedə – gedə əksük olur. Allah – təala tofiqilə hər vəqt olsa biz aluruz. Nəhayət, sən bir növ eylə ki, özün içün padşahdan bir parça çörək qazanasan. Məlik Mahmuddan sən bilürsən ki, padşah olmaz. Gəl şəhəri bizə ver, mən sana bir mənsəbi – ali verəyim.

Çün sifariş Pur Məhəmməd xanə yetişdi, razı oldi ki, şəhəri padşah təsərrüfünə verə. Təhmas xana sifariş göndərdi ki, filan dərvazədə hazır ol ki, şəhəri sana verürəm.

Təhmas xan ol vədədə tamam ləşgəri piyadə eylədi. Xacə Rəbi dərvazəsinün səmtində mühəyya durdi. Çün gecədən bir pas keçdi. Pur



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Məhəmməd xan dərvazə keşikçilərin öldürüb qapuni açdı. Təhmas xan qoşunla şəhərə daxil olub buyurdi ki, nəqqarəxanəni çaldılar.

Məlik Mahmud dedi: Nə xəbər, məgər İmam Rza əleyhissəlam kora, şilə şəfa verüpdür. Dedilər: mərgi – not mübarək, şəhər alındı. Məlik Mahmud sərasimə olub rövzeyi – mübərrəkeyi – münəvvəreyi – mütəhhəreyi – müqəddəsəyə qaçdı. Padşah onda ziyarətə gedəndə ayağına yıxıldı, təqsirindən əlin götürdi.

Padşah Məşhədi – müqəddəs hökümətin və qorçibaşlığı Təhmas xana verdi. Təhmas xan kəndlərün və qəsəbələrün kəndxuda və rəislərini istədi, dedi: Padşah Xorasan vilayətin mana verdi, əmma bir xərabə vilayətdür. Azərbaycan və İraq qoşini təməkar və müfşid xəlq-dür; bundan sonra hər üməra bir zaddan ötrü bir kəndə adam göndərür, hər biri əlahiddə xarabalıq edir. Onda siz gəlüb mana dersiz, mən

gərəkdür üməralər ilə müddəi olam. Yaxşısı bu ki, hər kim ki, gələ siz[in] kəndə və qəsəbəyə və qələyə, yol verməyün, mən irəlü aparuram. Hərgah ümara, ya mühəssili – padşah bir yerə gedirdi, cavab verüb müraciət edirdi.

Üməra bu məratibi padşaha ərz eylədi. Padşah qətli – am buyirdi. Təhmas xan eşidüb padşah hüzurinə gəlüb dedi: Qurbanın olum, mən o mühəssili – sərriştəsindən xəbərdaram. Kəndə gəlüb onlardan şərab, kəbab, oğlan, qız istəyüpdür, onlar həm ona yol verməyüpdürlər. Bunlar köhnə qızılbaşdur, bir yerə göndərəndə ki, vilayəti xərab edirlər. Hər nə onlara mütəvəccehdür mən aluram. Təhmas xan adam göndərüb, alub, gətirüb, xazanədarə verdi. Əlhasil, hər zad ki, zərür olurdi Təhmas xan adamı gedüb gətürürdi.

Üməra padşahə ərz eylədi ki, Təhmas xan nəməkhəramdür. Padşah dedi, necə eyləmək gərək. Üməra dedilər, Məhəmməd Hüseyn xan həmşirəsin sən al ki, kürd elilə Təhmas xanı dəf edəsən. Üməra Məhəmməd Hüseyn xana yazdılar ki, həmşirən padşah alur, Təhmas



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

xana verme. Bu kağız ki, onda getdi Təhmas xanun bir dosti var idi, onu bu işdən xəbərdar eylədi.

Təhmas xan iradə eylədi ki, Qucanə gedə. Padşah dedi, mən həm gəlürəm. Hər ikisi rəvanə olub, gəlüb Əliabad kəndinə ki, Qucana yaqundur, düşdilər.

Təhmas xan sərkərdələri və qoşun böyüklərin istədi, dedi ki, mən sizün babunuzdan fikriyəm, bilmənəm necə eyləyim. Bunlar dedilər, nə babdə. Xan dedi, siz hər birivüz Məlik Mahmud və Fəthəli xan Qacar əyyamında, hər birivünüz ki, bir zad, bir kimsədə aldunuz, ya bir bi-hesab onlarun əmrilə eylədinüz, imdi ümərəlar payi – padşah[ə] sizdən bazxaşt edir. Mən bilmənəm necə eyləyim. Hərgah mən sizi ələ verəyim, sizün səyünüz badə gedər və mənim işüm həm irəlü getməz. Hərgah ümara ilə yekru edəyi,məndə ixtiyar yoxdur. Hərgah doğru deyəsiz, məndə ixtiyar həm olur. Bunlar dedilər, niçün bir doğru demənüz, hər nə sən buyurursan. Biz fərmanbərdəruz. Dedi bəs siz və təmam qoşun sabah yəraqpuş olub gəlün padşah qapusına, məni vəkilüddövlə edün.

Bunlar razı olub təmam qoşun yəraqpuş olub sabahı padşah hüzuruna getdilər. Təhmas xan ərz eylədi ki, qurbanın olum,sana zahirdür ki, mən sana neçə nümayan qulluq eylədüm. Xorasanı sənün təsərrüfünə verdüm və Məlik Mahmud kimi padşahı cilovuna aldım və Fəthəli xan Qacar kimi düşmənidəf eylədim. İmdi istedam budur ki, məni özünə vəkil edəsən.

Padşah gördi təmam qoşun onun fərmanındadır, labüd razı oldi. Təhmas pabus edüb vəkilüddövlə oldi. Neçə gündən sonra Məhəmməd Hüseyn xan həmşirəsin həm aldı. Ondan Məşhədə gəldi. Padşah qucanda qaldı.

Təhmas xan vəqti ki, Məşhədə gəldi, xəyal eylədi ki, Məlik Mahmud sahibi – tədbir və el və ehşam iyəsidür. Məbada bir fəsad edə. Məlik



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Mahmudi, qardaşın və oğlin öldürdi.

Padşah həm Məşhədə gəldi. Bu vəqtdə xəbər gəldi ki, cəmaəti – Rumi İsfəhan üstə gəlüb. Əşrəf onları şikəst verdi. Ondan sonra sinur baqladı ki, Həmədan və Qələmruyi Əlişəkər ta hüdudi – Azərbaycan Rum ilə olsun, İraq və Fars Əşrəf ilə olsun.

Padşah ondan hərəkət edüb Nişabura gəldi. İraq və Azərbaycan xəlqindən çoq adam padşah üstə cəm oldi. Ondan Təhmas xan padşahə dedi ki, imdi bu cəmyyət ilə gedüb Heratı alalım, deyüb, ondan hərəkət edüb Turşiz məhalına gəldilər.

Turşiz xəlqi padşahə müti degildi. Onları pişə edüb, hakim təyin oldi. Təhmas xan onda qalub, padşah Səbzəvarə gəldi ki, adam təyin eyləsün, Mazəndaran vücuhatın cəm edüb, qoşuna təqsim edüb, tədarük görüb, bahar fəsli Herat üstə gedələr.

Padşah Səbzəvarə gəldi. Zülfüqar xan, Aslan xan qardaşı oğlin Mazəndaranə göndərdi ki, vücuhatın cəm edüb gətürsün. Zülfüqar xan Mazandarənə getdi. Padşah Məşhədə gəldi. Təhmas xan həm Turşizdən Məşhədə gəldi.

## Bundan sonra Zülfüqar xan Mazəndaranə getməgi və Mazəndarandə mülukəttəvaifləri dəf etməgi və mazəndaranı təsərrüfə götirməgi və onda padşah olmaqın bəyan edər

Çün Zülfüqar xan Mazəndaranə gəldi, Mazəndaran mülükəttəvaif idi, hər şəhərdə bir hakim var idi, onları bərtərəf eylədi, özi Mazəndaranda padşah oldi.

Ondan padşah Məşhəddən hərəkət edüb Herat səmtinə gedüb Cam, Lənkəri və Qayini ta Səngan qələsindən təsərrüfə gətürdi. Əfqan onda gəlüb üç dəfə cəng edüb, şikəst tapub Herat qələsinə gedüb mütəhəssin oldi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Təhmas xan dəxi onları təaqib etməyüb Məşhədə müraciət eylədi. Astrabaddan xəbər gəldi ki, Zülfüqar xən padşahdan dönüb Mazəndəranda padşahduur. Gəlüb Astrabadı təxt edüb, Allahqulu xan[ı] öldürdü ki, Allahqulu xan Astrabad bglərbəgisi idi.

Təhmas xan bu xəbəri eşidüb,Məşhəddən hərəkət edüb Astrabadə gəldi. Padşah Astrabadda qalub, Təhmas xan Zülfüqar xan cənginə azim oldi. Zülfiqar xan Amul şəhərində idi. Zülfüqar xan qoşini ki, Təhmas xan gəlməgindən xəbərdar oldilər, təmami Zülfiqar xandan rü-gərdan olub, Təhmas xan üstinə gəlüb, cəmiyyət eylədilər.

Zülfüqar xan gördi ki, qoşun üstündə qalmadı, laəlac olub qılıcın boynuna taxub Təhmas xan hüzurinə getdi. Təhmas xan onun boynin urdi. Mazəndaranı təsərrüfə gətirdi, hər yerdə hakim təyin eylədi. Ondan hərəkət edüb getdi Məşhədə. Məşhəddə tədarük görüb Herat almaqına azim olub, getdi ta kafir qələyə yetişdi.

Əfqan cəmiyyət edüb top – topxanə ilə gəldilər. Təhmas xan xəbərdar olub onlara səri – rah dutdi, biyabanda savaş eylədilər. Əfqan şikəst tapdı. Bir çay var idi, onun qıraqında düşdilər. Təhmas xan buyurdi, kədkənlər quyi qazub su çıqardılar. O gecə müdara eylədilər. Sabahı Təhmas xan hücum edüb əfqan gerü oturdi. Təhmas xan buyurdi, ordunun dört tərəfin xəndəq eylədilər. Əfqan gecə şəbxun götürdi, xəndəqə düşüb şikəst tapdı. Əfqan yüz qoydilər qaçmaqa. Tamam çadır, otaq, top – topxanələri təsərrüffə gəldi.

Təhmas xan əfqan əmval və əsbabin qoşuna təqsim eylədi. Üç gün onda qaldı. Üç gündən sonra Herat tərəfinə rəvanə olub getdi. Ta Qəleyi – Badi-səba ki, Herat qələsinün yarım aqaclıqıdur yetişdi.

### Bundan sonra Herat Əşrəf İmdad istəməkləri və Əşrəf İmdadə gəlməgin bəyan edər



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Onda sakin olub Herat qələsin mühasirə eylədi. Herat xəlqi Əşrəfə xəbər göndərdilər ki, Təhmas xan gəlüb, bizi mühasirə edüpdür. Sən o tərəfdən gəl, biz bu tərəfdən. Bəlkə Allah – Təala bizə nüsrət verüb Şah Təhması və Təhmas xanı dəf edəlim.

Çün adam İsfəhana Əşrəf yanına getdi, neçə vəqt qələ mühasirə olub, axirüləmr Təhmas xana tabe olub, qələni verdidlər. Təhmas xan Allahyar əfqanı onda hakim eylədi. Bir vəzir xaliscat üçün təyin eylədi. Ondan hərəkət edüb Məşhədə gəldi. Xəbər yetişdi ki, Əşrəf Xorasana gəlür. Təhmas xan Pur Məhəmməd xan[a] üç min adam verub Damqanə göndərdi ki, Damqan qələsin mühafizət edə. Pur Məhəmməd xan Bəstamə yetişdi. Əşrəf Damqanı mühasirə eyləmişdi.

Əşrəf Pur Məhəmməd xan gəlməgindən xəbardar olub, Seydal xan[ı] göndərdi ki, Pur Məhəmməd xan ilə cəng edə. Seydal Bəstam həvalisinə gəlüb eşitdi ki, Təhmas xan gəlməkdədür. Bəstamə gedə bilmədi, müraciət edüb Şahrud kəndinə gəldi. Eşitdi ki, Təhmas xan Bəstamə gəldi. Şahruddan hərəkət edüb, gəlüb Əşrəf qoşununa qarışdı.

Əşrəf ondan hərəkət edüb, gəlüb Mehmandust kəndində savaş başladılar. Şəhərdən ta ikinci cəngü – cidal eylədilər.

Əfqan qoşuni şikəst tapdı, Simnanə getdilər.

Təhmas xan gəlüb Damqanda sakin oldi. Altı gün onda qaldı ki, gerüdə qalan qoşun gəlüb yetişdi. Ondan hərəkət eylədi.

Əşrəf Təhmas xan gəlməgin eşidüb ondan hərəkət edüb Xarə getdi ki, onda çərik və qoşun cəm edüb, cəng edə. Əşrəf Xar dərəsinə gəldi ki, ol dərə bir ağac uzuni idi, iki tərəfi dağ idi ki, dağdan yol heç tərəfdən uox idi. Əşrəf Reydən, Tehrandan qoşun cəm edüb dərəni sıqnaq edüb durdi.

Təhmas xan hərəkət edüb eyvan [?] ki, gəlüb düşdi, Əşrəf əhvalindən müttəle oldi ki, Xar dərəsin möhkəm edüb durupdur.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Təhmas xan nə qədər aruq at, qatır, dəvə ki, ordusunda var idi, təmamn irəlü saldı dərənün iki tərəfinə. Dağun üstündə əyaq tüfəngçilərgecə ilə göndərüb, hazır durdular. Özi sübh tüluunda hərəkət eylədi. Ol at, qatır, dəvələr irəlüdən qoyub dərəyə sçaldılar. Əşrəf qoşun[u] xəyal eylədilər k, qoşun gəldi ki, bu qədər toz ucu oldi. Təmam tübrələri birdən boşdilər. Dağ üstə olan tüfəngçilər onlara əman verməyüb cəzayir və tüfəng və zənburək onlara atdılar.

O gün səhərdən ta axşama cəng eylədilər. İkindi vəqti Əşrəf şikəst tapub qaçdı, Vəraminə getdi. Ondan həm hərəkət edüb İsfəhan tərəfinə rəvaenə olub getdi.

Padşah Tehrana getdi. Tehranda olan əfqan Qəzvinə qaçdılar. Təhmas xan Quma getdi. Eşitdi ki, Əşrəf Kaşandadur. Pur Məhəmməd xan[ı] onun ənsəsincə Kaşana göndərdi. Pur Məhəmməd xan Kaşana gəlincə Əşrəf Qəhruyə getdi.

Dört gündən sonra Təhmas xan Kaşana gəldi. Neçə gün Kaşanda məks edüb əfqandan qalan əsbabi – nəqd və cinsi qoşuna verdi. Eşitdi ki, Əşrəf Qəhrudədir. Təhmas xan Nətənz yolu ilə İsfəhanə getdi. Əşrəf eşitdi ki, Təhmas xan İsfahanə getdi, o həm getdi. Muçəxorda iki qoşun bir – birə rast gəlüb cəngə başladılar. İki gecə – gündüz cəng edüb axirüləmr Əşrəf şikəst tapub İsfəhanə qaçdı. Onda həm tab gətürə bilməyüb aqırın qoyub, yüngülin götürüb Şiraz tərəfinə rəvanə olub getdi.

Təhmas xan Pur Məhəmməd xan[ı] Tehrana göndərdi ki, əfqan şikəst tapmaqın və İsfəhan almaqının xəbərin apardı. Çün padşah xidmətinə müşərrəf oldi və bü müjdəni verdi, padşah min tüman müjdəliq Pur Məhəmməd xana verdi.

Ondan Məhəmməd Rza xan qorçibaşını sərdar edüb Qəzvin almaqına göndərdi. Padşah Nəmək yolilə İsfəhana getdi. Məhəmməd Rza xan Qəzvinə gedüb, əfqanı fəth edüb, Qəzvini təsərrüfə gətürdi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Padşah çün Tovuqçiyə yetişdi, Təhmas xan padşah istiqbalına getdi.

Çün Tovuqçi dərvazəsindən şəhərə daxil oldi, Tovuqçi dərvazəsindən ta dövlətxanə qapusunadək payəndaz salmışdı İsfəhan şəhərin ayin baqlamışdı. Üç gecə çirağdan və atəşbazlıq oldi. Padşah Çelsütunda ki, imarəti – bimisldir və o imarətün nümunəsin heç kim, heç dövrdə görməyipdür, təmami – sütun təngeyi – tilayə dutub mürəssəkarlıq edüpdürlər. Üç mərtəbədür. Hər mərtəbədə bir qızıl hovuz vardır. Ortaluqdakı hovuz böyükdür. Dört guşəsində dört süiun vardır. Hər sütunun dört aslansurət mərmərdən təraşidə edüpdürlər. O aslansurət ki, hovuz tərəfinədür, ağzından su fəvvarə verüb hovuza tökülür. Məclis bərabərində otuz ərəb at mürəssə və minayir üstündə, qızıl rəxt başında, bərabərdə kəmənd çəkmişlərdi. Hər atun önündə bir qızıl sətl və ayaqı altında bir qızıl təbər toqmaq, ondan sonra məclis bərabərində bir əzim dəryaçə var ki, iki tərəfində xiyaban, hər xiyabanda tüfəngçilər və cəzayirçilər bərabərdə səf çəküb durmiş. Dəryaçə axırında filləri nəhayət zinət ilə, filbanlar üstündə kiçik zər əlində, çireyi = hindi başında əzəmət üçün durmişlar. Padşahınun başı üstündə yəraq, qorçilər yəraq əllərində durmişlər. Üməralər təmami məqtə qızıl və gümişə, ləl və cəvahirə müstəğrəq olub, mürəssə tac tumarlar başında səfndərsəf, qətəndərqət yerlü yerində oturmişlər. Eşikağasıbaşı dəgənəki – dəstəmürəssə əlində bərabərdə durmiş, fərraşlar cəld və çapuk hamu yerdən baxır, bir səmtldə durmişlar. Pişxidmət zərrin kəmər və zərrin külah, müjgansifət səf çəkmişlər və bəsa valilər əl qayimeyi-tiğiabdarə qoyub müntəziri-fərmani-vacibül-ezan durmişlar. Cəlladlar bərabərdə üryan qılıc əlində fərmanə müntəzir durmiş sazəndələr, nəvazandələr, rameşgər və rəqqaslar haşiyəyi – məclisdə yer vermişlər. Sazəndələr fünuni – sazəndəliqdə zəngi – küdurət eşidənlərün könlündən çıqarub, onlarun avazıından quş havadan uçmaqdan qalurdi. Təranəsazi – füsəhayi – aləm ol bəlağətdə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

zümzümlə quş etməmişdilər və zəmiri – üqdə – güşaylar ol xoş avazlıqda xoş səda görməmişlərdi. Əlhani –xoş və nəğmeyi – Davud ilə təranəyə gəlüb şur və gülgülə hər tərəfə saldılar. Dadi – eyşü – işrət verdilər. Xansalari – fələk ol zibaluqda bəzm görməmişdi və guşi – zəmanə ol ərayişdə məclis eşitməmişdi. Xoşavaz mütriblər bəzmgahi – Xosrovanidə sövti – xoş ilə təranəyə gəlüb büsati – nişat məbsut etdi. Təntəneyi – guşi – şadimani fələkə yetürdi. Tamam sipah mükəmməl və müsəlləh olub, bərabərdə səf – ara olub durmişlar. Mah tələt qullar ki, onların nəzirin heç kim görməmiş, güya müsəvvər təsviri-surətxaneyi-təqdirdə ona səbih və manəndhəyat çöhrəkaşlıq etməmiş; rəngi – dilfəribləri aftab kimi, türreyi – zülfləri piçü tab kimi ol hüsnü cəmaldə qul heç kim yeddi iqlimi – çar – guşədə görməmiş, zərbəvtpuş olub xəncəri – tila kəmərində, məndil – zər başlarında təqti – təmamilə məddi – nəzərdə durmişlar. Hər gün ki, məclis axır ourdi, toplar və tüfənglər boşadurlardı və şadlıq edirlərdi. Üç gecə – gündüz nəqarəxanəyə şadiyanə nəvazişə gəlürdi. Bir şadlıq ol üç gündə oldi ki, fələk dəriçədən baş çıqarub ol məclisi – behiştayinə tamaşa edirdi. Hər gün üç yüz qab yemək məclisdə sərf olurdi.

Padşah ol məclisdə mehrin degil, ixtiyarlıqın Təhmas xana verüb xələti – afitabtələtmərhəmət edüb otuz min tüman ənam o gün Təhmas xana verdi.

Ondan Təhmas xan tədarük görub Şiraz tərəfinə rəvanə olub getdi, ta Zərqüma yetişdi. Əşrəf xəbardar olub, gəlüb onda cəngü cidalə şüru eylədi. Əşrəf şikəst tapub Şiraza qaçdı. Ondan Molla Zəfərani ki, Əşrəf əyyami – padşahlıqında İsfəhanda mollabaşı etmişdi, Seydal xan ilə elçi edüb Təhmas xan yanına göndərdi ki, Şirazı mana versün, sayir vilayətlər onun olsun, sədd – sinur baqlayub niza bərtərəf olsun. Təhmas xan Molla Zəfarani saqladı. Seydal xanı göndərdi ki, Əşrəf qılıc boynuna taxıb mənim huzurimə gəlsün, padşaha ərz edüb Şirazı on[un]



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

üçün aluram. Seydal xan çün bu cavabı apardı, Əşrəf köç – külfətin həm qoyub yüz qorizə qoydi.

Təhmas xan Şiraza gəldi, Lütfəli xan[ı] Hindustana göndərdi, Hind padşahına namə yazdı ki, hərgah Əşrəf ətrafa gəlmiş ola mane olmasun, ta ki, Lütfəli xan oni dutub gətürsün. Məhəmməd Baqir bəg[i] Bəluca göndərdi ki, Abdullah xan, hərgah Əşrəf o səmtdə ola, dutub göndərsün.

Çün elçilər getdi, ondan Həsənəli bəg Cəmşid xan oğlin padşah hüzurinə göndərdi. Molla Zəfərani həm padşah xidmətinə göndərdi. Çün padşah eşitdi ki, Təhmas xan Fars vilayətin təsərrüfə götürdi,cıqa və məsənd Mir Əbülqasım sədrə verüb, Həsənəli xan ilə belə Təhmas xan üçün göndərdi və bu qulluq əzasına rəqəm yazdı ki, həmşirəsin ki, Əşrəf Şiraza apardı, Təhmas xan almışdı. Təhmas xana verdi ki, birin Təhmas xan təsərrüf edə, birin oğlinə verə. Çün bu rəqəm Təhmas xana yetişdi padşahun böyük həmşirəsin özi təsərrüf eylədi, padşahun kiçik həmşirəsi ki, oğluna namzəd olmuşdi, Əşrəf və Mahmud hərəm ilə Xorasana göndərdi.

İki ay Şirazda qaldı, ondan Kuhkiluyəyə getdi. Valiyi – Ərəbistan və valiyi – Luristani istədi. Çün Ərəbistan valisi Təhmas xan hüzurinə gəldi, ondan bazxast eylədi ki, niçün bu müddətdə padşah imdadına getmədün deyüb, buyurdi, boynin urdilər. Valiyi - Luristan bunu eşidüb İsfəhana qaçdı. Padşah oni məhbus edüb Təhmas xan hüzurinə göndərdi. Təhmas xan oni Xorasana göndərdi. Ondan Həmədana gedib, Rum ilə cəng edüb, şikəst verdi. Gülqələm və Əlişəkəri təsərrüfə gətürdi. Ondan Təbrizə getdi, Təbrizi Rumiyədən aldı. Bisütun xanı onda hakim eylədi.

Bu vəqtdə Məşhədi – müqəddəs hakimindən neveştə gəldi ki, əfqan vəziri – xalisəni öldürüb, Allahyar xan qaçub. Məşhədə gəldi, əfqan Heratı təsərrüfə götürdi. Ta həvaliyi – Məşhəd gəlüb taxti – tarac



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

eylədilər. Təhmas xan çün bu xəbəri eşitdi, on yeddi min tüman bisütun xana verdi ki, ləşgərə verüb Təbrizi düşməndən saqlasun, deyüb özi Herat almaq üçün Məşhədə getdi.

## Bundan sonra Təhmas xan Rzaqulu bəg oğli üçün toy eyləməgi və şahzadəni ona verməgin bəyan edər

Çün alicah Təhmas xan Məəşhəd[ə] yetişdi, şürü eylədi toya. Ətraf və cəvanibdə nə qədər sazəndə, nəvazəndə, ramişgər, rəqqas cəm edüb İsfəhandan, Kaşandan rəqəm yazdı ki, xələt, tikilmiş alub, gətürüb hazır eylədilər. Ondan Məşhəd şəhərin ayin baqlayub ərusiyə şüru edüb, sədayi – kuşi – şadimanı fələkə bülənd oldi. Xalq ilə günədək ki, toy idi, bir eyşü – zövq eylədilər ki, vəsfə və şərhə gəlməz. Toquz min xələt xəlqə verdi ki, heç biri üç tümandan əksük degil idi.

Bunlar bunda eyşü zövqdə, əmma Şah Təhmas İsfəhandan çıqub Təbrizə getdi. Təbrizdə tədarük görüb İrəvana getdi. Onda şikəst tapdı. Həmədana gedüb Rum ilə cəng edüb, onda həm şikəst tapdı. Quma gəldi. Əhməd paşayi – Bağdad padşah yanına sinur baqlamaq üçün adam göndərdi. Padşah Rzaqulu xan qorçibaşını Bagdada göndərdi. Sinur bağladılar ki, Aras çayının o tərəfi Rumun ola, bu tərəfi Şah Təhmasun. Şah Təhmas bu maniyə razı olub sinurnaməni möhr eylədi. Əhməd paşa naməni Təhmas xan yanına göndərdi ki, o həm sinurnaməni möhr eyləsün.

Əmma bu tərəfdən Təhmas xan çün Rzaqulu bəg[in] toyin tamam eylədi, tədarük görüb Herat qələsinə getdi. On səkkiz ay qələni mühasirə eylədi. Qələ bərabərində bir şəhər bina eylədi ki, on həmmam, doquz karvansara, igirmi məscid, beş mədrəsə şəhərdə var idi. Çün qələdə azuqələri tamam oldi, qələ xəlqi əmanə gəlüb qələni Təhmas xan təsərrüfünə verdilər. Qələdə olan əfqanı köçürüb İraqa,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Farsa göndərdi. Xorasandan, İraqdan əsnafi – xəlqi götürüb qələdə sakin eylədi. Qırq min ənbərlü Xələc sufilər elindən Xorasana göndərdi.

Çün Həsən bəg Əhməd paşa sinurnamə göndərdi ki, Təhmas xan möhr eyləsün, Təhmas xan sinurnaməni parə edüb Həsənbəg[in] boqazına təpdürdi. Qəni əfqan istədi, dedi sən Həsən paşa mehmandarisən, ta Bağdada gedincə onda Əhməd Paşaya mühəssilsən ki, sursat cəm eyləsün ki, mən dört aydan sonra ona qonaqam.

Onlar Bağdada getdilər. Ondan padşah yanına adam göndərdi ki, qoşun tədarükü görsün ki, iki aydan sonra Qəzvinə gəlürəm. Çün adam padşah yanına göndərdi, özi həm tədarük görüb, köç edüb Heratdan Məşhədə gəldi. Məşhəddə qoşuna məvacib verüb, ondan igirmi qatar dəvə, otuz qatar qatır padşaha layiq töhfələr yüklüyüb, padşah üçün göndərdi. Özi həm Məşhəddən hərəkət edüb Qəzvinə gəldi, ondan İsfəhana getdi.

Darüssəltənei-İsfəhanda qoşun tədarükün görüb Bağdada getdi.

**Vəssalam əla mən ittəbəəl-hüda. Fi tarixi-dəhomi- şəhri-rəbiüssaniyi-sənei-1146 qələmi şod. Becəhəti- alihəzrəti-nəcabət və rüfət məani pənah Mirzə Süleyman Dilmac qələmi şode.**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## MÜNDƏRİCAT

Cahangir Qəhrəmanov türkoloq alim kimi ....... 3
Tərcümei-«Xosrov və Şirin» ............................ 7
Tərcümei-«İsgəndərnamə» .............................39
[Tərcümei-«Məxzənül-əsrar»] .........................163
Kitabi-hekayəti-Fərhadi-aşiq və məşuq Şirin . 225
Oğlan Şeyx həzrətlərinə nisbət olunan qəsidəsi 250
Səfəviyyə padşahları ..................................... 257



Created by Neevia Personal Converter trial version http://www.neevia.com